*Biz maddi dəyərləri insan kapitalına çevirməliyik.*
**İlham Əliyev**

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Cild 7, №1, 2024
Vol. 7, №1, 2024
Том 7, №1, 2024
İldə dörd dəfə nəşr olunur.

# Peşə təhsili və insan kapitalı

## Vocational education and human capital

## Профессиональное образование и человеческий капитал

*Elmi-praktiki, metodiki jurnal* * *Scientific-practical and methodological journal* *
*Научно-практический, методический журнал*

*****

**Baş redaktor**
**Balakişiyev Ş.Ş.** (f.e.f.d.)

**Redaksiya heyətinin sədri**
**Mamedov S.T.** (Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor müavini)

**Redaksiya heyətinin üzvləri**

**Ataşov B.X.** (i.e.d., prof., Əməkdar elm xadimi), **Əlizadə R.İ.** (t.e.d., prof.), **Ağayev F.H.** (t.e.f.d.), **İlyasov M.İ.** (p.e.d., prof.), **Quliyev N.Ə.** (p.e.d., prof.), **Ağayev Ş.O.** (p.e.f.d.), **Əmiraslanov T.İ.** (t.e.f.d., Əməkdar mədəniyyət işçisi), **Əsgərov R.B.** (Əməkdar müəllim), **Quliyev C.Ə.**, **Axundov Y.M.**, **Zeynalov V.E.**, **Mehdiyeva N.B.**, **Camalov H.E.**

*****

**Chief editor**
**Balakishiyev Sh.Sh.** (a.s.s.dr.)

**Chairman of the editorial board: Mamedov S.T.**
(Deputy director of the State Agency for Vocational Education)

**Members of the editorial board**

**Atashov B.Kh.** (prof., dr., Honored scientist), **Alizadeh R.I.** (prof., dr.), **Aghayev F.H.** (a.s.s.dr.), **Ilyasov M.I.** (prof., dr.), **Guliyev N.A.** (prof., dr.), **Aghayev Sh.O.** (a.s.s.dr.), **Amiraslanov T.I.** (a.s.s., dr., Honored cultural worker), **Asgarov R.B.** (Honored teacher), **Guliyev J.A.**, **Akhundov Y.M.**, **Zeynalov V.E.**, **Mehdiyeva N.B.**, **Jamalov H.E.**

*****

**Главный редактор**
**Балакишиев Ш.Ш.** (д.ф.ф.н.)

**Пред. ред. коллегии: Мамедов С.Т.** (Заместитель директора Государственного Агентства Профессионального Образования)

**Члены редакционной коллегии**

**Аташов Б.Х**. (д.э.н., проф., Заслуженный деятель науки), **Ализаде Р.И.** (д.т.н., проф.), **Агаев Ф.Г.** (д.ф.т.н.), **Ильясов М.И.** (д.п.н., проф.), **Гулиев Н.А.** (д.п.н., проф.), **Агаев Ш.О.** (д.ф.п.н.), **Амирасланов Т.И.** (д.ф.и.н., Заслуженный деятель культуры), **Аскеров Р.Б.** (Заслуженный учитель), **Гулиев Дж.А.**, **Ахундов Ю.М.**, **Зейналов В.Е.**, **Мехтиева Н.Б.**, **Джамалов Х.Е.**

*"Peşə təhsili və insan kapitalı" jurnalında pedaqogika, texnika, iqtisadiyyat, informatika, ekologiya və digər fundamental elm bölmələri üzrə məqalələr, metodiki yazılar dərc edilir.*

*****

*The journal "Vocational Education and Human Capital" publishes clauses, and other pieces of information on pedagogy, technology, economics, informatics, ecology and other fundamental sciences, including methodical articles.*

*****

*В журнале "Профессиональное образование и человеческий капитал" публикуются статьи по педагогике, технике, экономике, информатике, экологии и других фундаментальных науках, а также методологические статьи.*

*Jurnalın indekslənməsi / Indexed by*

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası

ROAD DIRECTORY OF OPEN ACCESS SCHOLARLY RESOURCES

MŞ Azərbaycan Mətbuat Şurası Azerbaijan Press Council

doi Crossref

*ISSN 2664-4770 (Print)*
*E-ISSN 2706-7858 (Online)*
*DOİ: 10.30546/2706-7858*

*http: // www.jurnal.vet.edu.az*
*e-mail: peshetehsili.jurnali@vet.edu.gov.az*

# M Ü N D Ə R İ C A T

## Pedaqogika

6 **H.Əlizadə.** Mədəniyyətin ötürülməsi və intellektin inkişafı təlim məqsədi kimi
12 **K.İsgəndərova.** İngilis dili dərslərində dərs planlamasına dair müxtəlif yanaşmalar
19 **E.Mollayeva.** Müasir müəllim modeli: pedaqoji qabiliyyətlərə ənənəvi və yeni yanaşmanın sintezi müstəvisində münasibət
26 **S.Cəfərova.** "Cəmiyyəti-xeyriyyə", "Nicat" və "Nəşri-maarif" xeyriyyə cəmiyyətlərinin ailə tərbiyəsinin inkişafına töhfəsi
33 **S.Vəliyev.** Yaradıcı öyrənmədə bacarıqların formalaşdırılması
39 **L.Məmmədova.** Gələcək müəllimlərdə humanist dəyərlərin formalaşdırılması işinin pedaqoji-psixoloji şərtləri
45 **N.İsazadə.** Ali təhsil müəssisələrində distant təhsilin tətbiqi imkanlarının genişləndirilməsinin vacib aspektləri

## İqtisadiyyat

51 **V.Nəzərov.** Azərbaycanda sahibkarlığın maliyyə-iqtisadi potensialı
61 **A.Əzimov.** Müxtəlif torpaq tiplərində becərilən bitkilərin məhsuldarlığına kalium tətbiqinin səmərəsi
66 **S.Məhərrəmova.** Həyatın və fəaliyyətin təhlükəsizliyi

## Texnika

71 **R.Həsənli.** Kürəvi qrafitli çuqun istehsalında fosforsuzlaşma və kükürdsüzləşdirmə prosesinin nəzəri əsaslandırılması
78 **N.Zülfüqarova, A.İsayeva.** Nəqliyyat daşınmalarında funksionallığa təsir göstərən risklərin düzgün idarə edilməsi

## Beynəlxalq əlaqələr (layihələr, təcrübələr)

83 **C.Quliyev.** İxtisas seçimində karyera məsləhəti xidmətinin əhəmiyyəti

## Metodika və innovasiyalar

87 **R.Əsgərov, X.Şabanova.** Ümumi təhsil müəssisələrində peşə təmayüllü siniflərin təşkili məsələləri
91 **S.Quliyeva.** Səhnədə işıq operatorunun rolu
98 **L.Nəsibova.** Hərbi diskursların tipoloji təsnifatı
104 **G.Bababəyli-Rizayeva.** Tarixin tədrisində motivasiya mühitinin yaradılması
111 **R.Piriyeva.** Məktəbyaşlı uşaqların vətəndaşlıq mədəniyyətinin formalaşdırılması probleminin elmi, pedaqoji, metodiki ədəbiyyatda qoyuluşu

117 **Məqalələrin tərtibatı qaydaları**

# CONTENTS


## Pedagogy

6 **H.Alizade.** The transmission of culture and the development of intelligence as a learning objective
12 **K.Iskenderova.** Different approaches to lesson planning in English classes
19 **E.Mollayeva.** The modern teacher model: an attitude at the level of the synthesis of the traditional and the new approach to pedagogical abilities
26 **S.Jafarova.** Contribution of "Society-charity", "Nijat" and "Nashri-maarif" charities to the development of family upbringing
33 **S.Valiyev.** Formation of skills in creative learning
39 **L.Mammadova.** Pedagogical and psychological conditions of formation of humanistic values among future teachers
45 **N.Isazade.** Important aspects of expanding the possibilities of application of distance education in higher education institutions

## Economics

51 **V.Nazarov.** Financial and economic potential of entrepreneurship in Azerbaijan
61 **A.Azimov.** The effect of potassium application on the productivity of plants grown in different soil types
66 **S.Maharramova.** Safety of life and activity

## Technology

71 **R.Hasanli.** Theoretical justification of the dephosphorization and desulfurization process in the production of nodular graphite cast iron
78 **N.Zulfugarova, A.Isayeva.** Proper management of risks affecting functionality in transportation

## International Relations (Projects & Practices)

83 **J.Guliyev.** The importance of career consultation service while choosing specialization

## Methodology & Innovations

87 **R.Askerov, Kh.Shabanova.** Issues of organization of vocationally oriented classes in general educational institutions
91 **S.Guliyeva.** The role of the lighting operator on stage
98 **L.Nasibova.** Typological classification of military discourses
104 **G.Bababeyli-Rizayeva.** Creating a motivational environment in teaching history
111 **R.Piriyeva.** Setting the problem of forming the citizenship culture of school-age children in scientific, pedagogical, methodical literature

117 **Preparation rules of articles**

# ОГЛАВЛЕНИЕ

## Педагогика

6 **Х.Ализаде.** Передача культуры и развитие интеллекта как цель обучения
12 **К.Искандерова.** Различные подходы к планированию уроков на уроках английского языка
19 **Э.Моллаева.** Модель современного учителя: отношение на уровне синтеза традиционного и нового подхода к педагогическим способностям
26 **С.Джафарова.** Вклад благотворительных организаций «Джамиати-хайрия», «Ниджат» и «Нашри-маариф» в развитие семейного воспитания
33 **С.Валиев.** Формирование навыков творческого обучения
39 **Л.Мамедова.** Педагогические и психологические условия формирования гуманистических ценностей у будущих учителей
45 **Н.Исазаде.** Важные аспекты расширения возможностей применения дистанционного образования в высших учебных заведениях

## Экономика

51 **В.Назаров.** Финансово-экономический потенциал предпринимательства в Азербайджане
61 **А.Азимов.** Влияние применения калия на продуктивность растений, выращиваемых на разных типах почв
66 **С.Магеррамова.** Безопасность жизни и деятельности

## Техника

71 **Р.Гасанлы.** Теоретическое обоснование процесса дефосфорации и серообессеривания при производстве чугуна с шаровидным графитом
78 **Н.Зульфугарова, А.Исаева.** Надлежащее управление рисками, влияющими на функциональность при транспортных перевозках

## Международные отношения (проекты и практики)

83 **Дж.Гулиев.** Важность услуги профориентации в выборе специализации

## Методика и инновации

87 **Р.Аскеров, Х.Шабанова.** Вопросы организации профессионально-ориентированных занятий в общеобразовательных учреждениях
91 **С.Гулиева.** Роль светового оператора на сцене
98 **Л.Насибова.** Типологическая классификация военных дискурсов
104 **Г.Бабабейли-Ризаева.** Создание мотивационной среды в преподавании истории
111 **Р.Пириева.** Постановка проблемы формирования гражданской культуры детей школьного возраста в научной, педагогической, методической литературе

117 **Правила редактирования статей**

*Peşə təhsili və insan kapitalı. Cild 7, №1, 2024, s.6-11*

# MƏDƏNİYYƏTİN ÖTÜRÜLMƏSİ VƏ İNTELLEKTİN İNKİŞAFI TƏLİM MƏQSƏDİ KİMİ



**Hikmət Əlizadə,**
*Bakı Dövlət Universitetinin professoru, pedaqoji elmlər doktoru*
*e-mail: hikmet56@gmail.com*

**UOT:** 37

**Xülasə**. *Məqalədə müasir dövrdə təhsil müəssisələrində tətbiq edilən təlim məqsədləri taksonomiyasından bəhs edilir. Tarixi araşdırmada ilk təhsil müəssisələrinin meydana gəlməsindən etibarən məktəblərdə təlim məqsədlərinin yaranması probleminin müxtəlif dövrlər üzrə inkişafı diqqəti cəlb edir. Təlim məqsədlərinin tarixi təhlili fonunda belə qənaətə gəlmək olur ki, təlim öyrədici, inkişafetdirici və tərbiyəedici məzmun daşıdıqda daha mükəmməl olur. Bu kontekstdə B.Blumun təlim məqsədləri taksonomiyası təhlil edilərək, orada tərbiyəedici məzmunun olmadığı vurğulanır. Məqalədə professor Əbdül Əlizadənin üçtərkibli (öyrənmə, inkişaf və mədəniyyət) taksonomiyasının tətbiqi müasir dövrdə təhsilalanın inkişafı baxımından daha səmərəli məzmuna malik olduğu qeyd edilir.*

***Açar sözlər:*** *mədəniyyət, intellekt, təlim məqsədləri, taksonomiya, inkişafetdirici, tərbiyəedici, öyrədici.*
***Key words:*** *culture, intelligence, educational goals, taxonomy, developmental, educational, instructiv.*
***Ключевые слова:*** *культура, интеллект, образовательные цели, таксономия, развитие, воспитание, поучительный,*

Ağıllı insanın (homo sapiens) yarandığı tarix dəqiq məlum deyil. Lakin məlumdur ki, o, fəaliyyətə başladığı ilk gündən insanın insan kimi yaşaması, formalaşması, sosiallaşması və inkişafı üçün zəruri olan mədəniyyəti yaratmağa, qazanmağa, əldə etməyə başlayıb. İnsanın əldə etdiyi ilk mədəniyyət, bəlkə də onların birgə fəaliyyəti olub. Hələ nitqin yaranmadığı bir dövrdə birgəfəaliyyət nəticəsində, yaranışında bioloji varlıq kimi xarakterizə olunan qədim insan sosial varlığa çevrildi, sivilizasiyaya doğru addım-addım irəliləyərək saf, ülvi hissləri, mənəvi dəyərləri, əqli qüdrəti özündə ehtiva edən, insan-insan, insan-cəmiyyət və insan-təbiət münasibətlərində təzahür olunan mədəniyyəti – ritualları, dini mərasimləri, adət-ənənələri, xalq yaradıcılığını, insanlararası münasibət normalarını və s. kəşf edə bildi.

Hadisələri dərindən təhlil etdikdə görürük ki, insanlar təkcə insan, cəmiyyət, təbiət münasibətlərini özündə əks etdirən mədəniyyəti yaratsaydılar, obrazlı ifadə etsək, "çox uzağa gedə bilməzdilər", yəni ən ümumi və ya qısa şəkildə desək, sivilizasiyaya nail ola bilməzdilər. İnsanlar əldə etdikləri həm güzəran təcrübəsini, həm sosial təcrübəni, həm də əqli təcrübəni yeni nəslə "ötürməyin" zəruri olduğunu görə bildilər. ***"Gördüklərinin, eşitdiklərinin və bildiklərinin"*** hamısının yeni nəslə ötürülməsinin zəruriliyinin

dərk edilməsini və onun reallaşdırılmasını bəlkə də dünyada bugünədək insanların yaratdığı ən böyük mədəniyyət kimi qiymətləndirsək, səhv etmərik.

***Haşiyə:*** *İnsanlar əldə etdikləri bilik və təcrübəni yeni nəslə ötürməsəydilər inkişafa nail ola bilməzdilər. Yeni nəslə ötürülən bilik və təcrübəyə əsasən, onlar özlərindən əvvəlki nəsillə müqayisədə fəaliyyətə daha üstün bilik və təcrübə ilə başlayır ki, bu da onlara yenini yaratmaq imkanı verir.* Beləliklə, insanlar yeni nəslə zaman kontekstində ***həm güzəran təcrübəsini*** (adət-ənənələri, ritualları, xalq yaradıcılığını və s.), ***həm sosial təcrübəni*** (insan-insan, insan-cəmiyyət münasibətlərini), ***həm də əqli təcrübəni*** (insan-təbiət münasibətləri kontekstində mövcud peşələrin sirlərini) öyrətməyə (oxu: ötürməyə) başladılar. Zaman-zaman insanlar bu fəaliyyəti tərbiyə, təlim, təhsil anlayışları ilə konkretləşdirdilər. Tərbiyə, təlim, təhsil anlayışları formalaşdığı andan etibarən insanların əldə etdikləri güzəran, sosial və əqli təcrübənin (oxu: mədəniyyətin) yeni nəslə öyrədilməsi və ya ötürülməsi mahiyyətini öz üzərinə götürdü.

***Haşiyə:*** *Tərbiyə, təhsil, təlim bütün dövrlərdə həm mədəniyyətin tərkib hissəsi, həm də mədəniyyətin yeni nəslə ötürülmə vasitəsi olması ilə əlamətdar olub.*

**İlk məktəblər, ilk təlim məqsədləri**

İbtidai icma dövrünün əvvəllərində yeni nəslə "ötürülən" biliklər daha çox güzəran və sosial təcrübə ilə bağlı idi. Yeni nəslə güzəran və sosial təcrübənin aşılanması ağsaqqalın rəhbərliyi ilə icmanın bütün üzvləri tərəfindən həyata keçirilirdi. Bu, o deməkdir ki, hələ ibtidai icma dövründə yeni nəslin tərbiyə məsələləri cəmiyyətin funksiyası kimi dəyərləndirilməyə başlanmışdır. Ailə yarananda tərbiyə funksiyası müəyyən yaşa qədər ailənin ixtiyarına verilir. Beləliklə, tərbiyə həm ailənin, həm də cəmiyyətin funksiyası oldu.

Zaman kontekstində uşaqların əmək fəaliyyətinə hazırlanması aktuallaşdı. Nitqin və yazının meydana gəlməsi, ticarətin inkişafı, cəmiyyətin inkişaf tendensiyaları yeni nəslə əldə olunan biliklərin öyrədilməsini də zəruriləşdirirdi. Beləliklə, yeni nəslin həyata hazırlanmasının məzmununa güzəran və sosial təcrübə ilə yanaşı, əqli təcrübənin (oxu, yazı, hesab və s.) də ötürülməsi daxil edildi. Müəyyən dövrə qədər bu işlə icmanın bütün üzvləri – valideynlər və sənətkarlar məşğul olsa da, tədricən tərbiyə və təhsilin bir məkanda təşkil olunmasına ehtiyac yarandı və icma həyatının sonlarında "Gənclər evi" yaradıldı [1, s.6]. "Gənclər evi" hələ məktəb deyildi, amma məktəbin sələfi ola bildi və burada artıq məktəbdə təhsilin məzmununun müəyyən edilməsi üçün praktik baza formalaşdı.

İlk məktəblərin eramızdan 3000 il əvvəl qədim Şumerdə, Misirdə, Çində, Hindistanda və s. yaranması ehtimal olunur [2, s.23-52]. Bu məktəblərdə təhsilin məzmununda fərqlər olsa da, onların hamısında yeni nəslin əqli və mənəvi tərbiyəsi prioritet idi. Fərqlilik xalqların müxtəlif mədəniyyətlərə malik olmasında idi. Hər bir ölkədə fəaliyyət göstərən məktəblərdə mənəvi tərbiyənin məzmunu həmin xalqın mədəniyyəti və həmin mədəniyyətin yeni nəslə ötürülməsi üzərində köklənirdi. Məktəblərdə müxtəliflik yaradan bu amil idi.

***Haşiyə:*** *Bu amil, həm də xalqların özünəməxsusluğunun formalaşmasına xidmət etdi.*

Beləliklə, qədim dövrdə yaranan məktəblər ilk gündən ***tərbiyəedici*** və ***öyrədici*** məqsədlərin reallaşmasına istiqamətləndi. Birincisi, xalqın əldə etdiyi mədəniyyətin, ikincisi, əqli təcrübənin yeni nəslə ötürülməsini özündə ehtiva etdi.

Məktəbin növbəti inkişafı qədim Yunanıstanda baş verdi. Burada e.ə. IX-VIII əsrlərdə dövrün insan-insan, insan-cəmiyyət münasibətlərinin fəlsəfəsi açıqlanan Homerin "İliada" və "Odisseya", Hesiodin "Əməklər və günlər" poemaları tərbiyənin məzmununu təşkil edirdi. Sonrakı dövrlərdə yaradılan Sparta, Afina, Pifaqorçuların, Sofistlərin, Aristotelin, Platonun məktəblərində təlimdə tərbiyəedici və öyrədici məqsədlə yanaşı, inkişafetdirici məqsəd də meydana gəldi. Daha dəqiq ifadə etsək, mədəniyyətin və mövcud biliklərin yeni nəslə ötürülməsi ağılın inkişafı müstəvisində həyata keçirilməyə başladı. Heraklit, Demokrit, Sokrat, Ksenofont, Platon, Aristotel və başqa mütəfəkkirlər həm əsərlərində, həm də pedaqoji fəaliyyətlərində insan ağılının inkişaf yollarını axtarırdılar [3, s.28-40]. Nəhəng Sokrat insan ağılının inkişafının elə yolunu tapdı ki, bu metod obrazlı desək, neçə əsr yol gəlməsinə baxmayaraq, "qocalmadı", əksinə, inkişaf etdi, təkmilləşdi və adını elə ***Sokrat metodu*** kimi saxlaya bildi.

Bu dövrdə təhsilin məzmunu elə bir səviyyəyə qalxa bildi ki, onun əks-təsiri daha böyük oldu – mövcud mədəniyyət daha yüksək zirvəyə qalxa bildi. Antik dövrün təcrübəsi göstərdi ki, məktəbdə ***öyrədici, tərbiyəedici*** və ***inkişafetdirici*** məqsədlər vəhdət təşkil etdikdə cəmiyyətin inkişafında köklü dəyişikliklər baş verir.

***Haşiyə:*** *Cəmiyyət təhsili öz inkişaf səviyyəsinə uyğun qurur, təhsil isə öz növbəsində cəmiyyəti inkişaf etdirir. Növbəti inkişaf səviyyəsinə qədəm qoyanda cəmiyyətdə təhsilin yenidən qurulmasına ehtiyac yaranır və təhsildə islahat həyata keçirilir. Bu proses sonsuz olaraq davam edir.*

Xristianlığın yaranması ilə dünya öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu dövrdə yeni konsepsiya formalaşdı, ona ***"qəlbin təmizlənməsi"*** adını verdilər. Konsepsiyada mənəvi tərbiyə məsələləri yeni məzmun aldı, o insanları öz nəfsi ilə mübarizə aparmağa səslədi. Oruc tutmaq, ibadət etmək, kasıblara əl tutmaq və s. onun əsas postulatları idi. Lakin xristian ideoloqları antik dövrün intellekt mədəniyyətini inkar etdi, yəni onu qəbul etmədi. Məktəblərdə insanı təkcə mənəvi dəyərlər çərçivəsində tərbiyə etməyə, yeni yaradılan dini mədəniyyətin uşaqlara ötürülməsinə üstünlük verdilər və yalnız bunun üçün zəruri olan dünyəvi biliklərin öyrədilməsinə yer verildi. Məktəbdə tərbiyəedici və öyrədici məqsədlər önəmli oldu. Bu həm təhsilin məzmununun, həm insanların, həm də cəmiyyətin inkişaf tempini aşağı saldı.

Məktəblərin qapılarının antik dövrün mədəniyyətinə bağlandığı gündən başlayaraq, dövrün işıqlı insanları bunun əleyhinə mübarizə aparmağa başladılar. Onların səyləri bir halda uğurlu olanda, digər halda uğursuzluqla nəticələnirdi. Tarixdə dünyəvi biliklər uğrunda mübarizə aparanlara qarşı amansız cəzaların verilməsi haqqında hər birimizin məlumatı var. Bu ağır cəzalar insanları geri çəkilməyə məcbur etməyə hesablanmışdır. Lakin bu gün tarixin səhifələrini vərəqlədikdə görürük ki, "cəzalar məqsədinə nail ola bilmədi", insanların iradəsini qıra bilmədi. Onların böyük qələbəsi isə XV əsrə təsadüf etdi.

Xristian dininin (I əsrdə yaranmışdır) rəsmi dövlət dini elan olunmasından (IV əsr) üç əsr sonra İslam dini yarandı və dünyanı günəşin özündən artıq işıqlandıra bildi. İslamda antik dövrün intellekt mədəniyyəti "qəlbin təmizlənməsi" konsepsiyası (oxu: mənəvi mədəniyyət) ilə çulğalaşdı. Bunun nəticəsi olaraq, məktəblərdə intellektin inkişafı İslam mənəviyyatın inkişafı ilə vəhdət təşkil etdi. Bu, İslam dininin böyüklüyü idi. Yeni İslam məktəbləri, mədrəsələri yarandı və tədricən öz coğrafiyasını genişləndirdi. Məktəb və mədrəsələrdə nəinki orta təhsil, hətta ali təhsil verilməyə başlandı. Bu barədə danışanda, ilk növbədə, "Nizamiyyə" mədrəsəsi öz möhtəşəmliyi ilə göz önünə gəlir [2, s.133-162].

***Haşiyə:*** *Nizamiyyə mədrəsəsi 1067-ci ildə Səlcuq hökmdarı Alp Arslanın dövründə vəzir Nizamülmülkün təşəbbüsü ilə yaradılmışdır.*

Mədrəsələrdə kitabxana, xəstəxana, rəsədxana, yataqxana, kimya laboratoriyası və s. fəaliyyət göstərirdi. Burada təlimin tərbiyəedici, öyrədici və inkişafetdirici məqsədləri Şərq mədəniyyəti müstəvisində şagirdlərin ağılını inkişaf etdirməyə istiqamətlənmişdir. Bunun nəticəsində nəhəng mütəfəkkirlər – Əl Kindi, İbn Səhnun, Əl Qəzzalı, İbn Rüşt, İbn Xəldun, Keykavus İbn İsgəndər, Sədi Şirazi, Əbu Əli Hüseyn ibn Abdullah ibn Sina, Mahmud Kaşqarlı, Yusif Xas Hacib, Əhməd Yaqnəki, Əbu Nəsr Məhəmməd əl-Fərabi, Əbu Reyhan Biruni, Əbülhəsən Bəhmənyar, Nəsirəddin Tusi və b. formalaşdılar və onlar İslam məktəblərində dərs dedilər. Beləliklə, İslam məktəbləri həm mütəfəkkirlərin müəllimlik fəaliyyəti ilə, həm də İslam mədəniyyətinin zənginləşdirilməsi ilə əlamətdar oldu. Lakin XIV əsrdən etibarən təhsil İslam ölkələrində zəifləməyə başladı.

***Haşiyə:*** *Həm antik dövrün, həm də İslam məktəblərinin XIV əsrə qədər fəaliyyətini təhlil edəndə müəllimin qüdrəti ilə rastlaşırıq. Məktəblər bütün dövrlərdə, məhz müəllimi ilə tanınıb.*

Xristian dünyasının həmişə böyük ideoloqları olub. Onlar İslam dünyasının inkişafını görürdülər. Bunun səbəblərini araşdıranda təhsilin qüdrəti ilə üz-üzə gəldilər. Qərb dünyasının işıqlı insanları krallara, din xadimlərinə İslam dünyasında baş verən inkişafda təhsilin böyük imkanlarını göstərə bildilər. Bunun nəticəsi olaraq XV-XVI əsrlər Qərb dünyası İntibah dövrünə qədəm qoydu. Təhsilin gücündən istifadə edərək inkişaf edən Qərb dünyası sonrakı dövrlərdə elə təhsilin özünü təkmilləşdirə-təkmilləşdirə bu yüksəlişin zəifləməsinə imkan vermədi.

**Məktəbin inkişafında Y.A.Komenski izləri**

XVII əsrə qədər məktəblərin təşkili praktik təcrübəyə əsaslanırdı. Y.A.Komenski, məhz bu əsrdə məktəbin elmi nəzəri əsaslarını hazırladı. O, məktəbi ***"insanlıq emalatxanası"*** adlandırırdı. Məktəbi belə mənalandırmasının ən böyük səbəbi uşaqları zorakılıq üzərində köklənmiş feodal tərbiyəsinin "ağuşundan" alıb, insanlığın əldə etdiyi mədəniyyət müstəvisində onların ağlını inkişaf etdirmək idi. Buna görə "hamıya hər şeyi öyrətməyi" zəruri hesab etdirdi. Bu ideya kütləvi təhsilin həyata keçirilməsinə, yəni insanlığın əldə etdiyi mədəniyyətin və əqli təcrübənin hamı üçün əlçatan olmasına istiqamətlənmişdir [1, s.81-83].

***Haşiyə:*** *Tarixin səhifələrini vərəqləyəndə həm kübar, həm də barbar tərbiyəsinə malik olan insanlara təsadüf edirik. Bunun səbəblərini axtaranda, ilk növbədə, təhsilin və müəllimin qüdrəti ilə üz-üzə gəlirik.*

Y.A.Komenskinin təhsil konsepsiyası öz reallığını XX əsrdə tapdı. Amma o vaxta qədər dövrün işıqlı insanları həm nəzəri, həm də praktik baxımdan məktəbi inkişaf etdirmək üçün, obrazlı desək, "xəlbirlə su daşıdılar", Y.A.Komenskinin yaratdığı "Didaktika"nı inkişaf etdirdilər. C.Lokkun, K.A.Helvetsinin, J.J.Russonun, İ.Kantın, İ.H.Pestalotsinin, İ.F.Herbartın, A.Disterverqin, K.D.Uşinskinin və başqalarının fikirləri təhsilin XX əsrə artıq kifayət qədər elmi-nəzəri əsaslarla gəlməsini şərtləndirdi.

**XX əsrdə təlim məqsədləri**

Əldə edilmiş elmi-nəzəri baza və praktik təcrübə nəticəsində XX əsr məktəbin inkişafı baxımından tarixin yaddaşına inqilabi dəyişikliklərlə həkk olundu. Bu əsrdə təhsil kütləviləşdi, pedaqogika və psixologiya elmlərində təhsilin inkişafı baxımından aparılan eksperimental tədqiqatlar məktəbə tətbiq edilməyə başladı. Yeni əsr məktəbinin normativ-hüquqi baza əsasında fəaliyyəti rəsmiləşdi, məktəb üçün xüsusi binalar tikilməyə başlandı. Bu əsrdə işıqlı insanların əsrlərin süzgəcindən keçərək tarixin yaddaşında qalmış mütərəqqi ideyalarının tətbiq olunması üçün məqsədəmüvafiq mühit yarandı. Y.A.Komenskinin yaratdığı və sonrakı illərdə müxtəlif mütəfəkkirlərin ideyaları ilə təkmilləşən "Didaktika", obrazlı desək, "ayaq açıb yeriməyə başladı", müxtəlif ölkələrin sərhədlərini keçdi, məktəb həyatını işıqlandırmağa başladı. Hər bir ölkə alimləri bu "Didaktika"ya əlavələrini edə-edə, onu təkmilləşdirə-təkmilləşdirə zənginləşdirdilər. Nəticədə müxtəlif ölkələrdə bu "Didaktika"ya əsaslanan fərqli məzmunlu məktəblər fəaliyyət göstərməyə başladı. Məktəblərin fəaliyyəti öyrədici, tərbiyəedici və inkişafetdici məqsədlər üzərində qurulsa da, o hafizə məktəbi kimi tarixin yaddaşına yazıldı. Bu məktəblərdə öyrədici və tərbiyəedici məqsədlər prioritet idi. *Birinci məqsəd* bilik, bacarıq və vərdişlərin aşılanmasını, *ikinci məqsəd* xalqın mədəniyyətinin yeni nəslə ötürülməsini özündə ehtiva edirdi. Öyrədici məqsəd bütün ölkələrdə bir-birinə yaxın məzmuna malik olsa da, tərbiyəedici məqsəd köklü fərqlərə malik idi. Məsələn, sovetlər ölkəsində yeni nəsil sovet mədəniyyəti, Avropa ölkələrində Qərb mədəniyyəti müstəvisində tərbiyə olunurdu. Mədəniyyətlər müxtəlifliyi, hətta eyni səviyyədə əqli inkişafa malik olan insanlar arasında (məsələn, Avropa və sovet adamı arasında) fərqlərin yaranmasına səbəb oldu. *İnkişafetdirici məqsəd* isə öyrədici və tərbiyəetdirici məqsədlərin reallaşması üçün əqli bacarıqların inkişafını özündə ehtiva edirdi. XX əsrdə məktəbin üç məqsəd üzərində qurulması təsadüfi xarakter daşımırdı, onların tarixi kökləri var idi, məktəb tarixi kökləri üzərində müasirləşirdi.

XX əsrin ortalarına qədər fəaliyyət göstərən bu məktəb B.Blumun təlim məqsədləri taksonomiyası ilə öz məzmununu daha da müasirləşdirdi. B.Blum yeni məktəb modelini yarada bildi. Yeni məktəb koqnitiv məqsədlər üzərində quruldu. Əgər hafizə məktəbində dünyəvi bilikləri öyrətmək, əldə edilmiş sosial təcrübəni aşılamaq əqli bacarıqları inkişaf etdirmək üzərində qurulmuşdursa, B.Blumun konsepsiyası fikri əməliyyatları formalaşdırmaq vasitəsilə intellekti inkişaf etdirməyə yönəldi. O, taksonomiyada təlim məqsədlərini ***"bilik, anlama, tətbiqetmə, analiz, sintez, qiymətləndirmə"*** kimi ardıcıllıqla düzdü [4, s.20-21]. Taksonomiyada təlimin öyrədici (bilik, anlama, tətbiqetmə) və inkişafetdirici (analiz, sintez, qiymətləndirmə) məqsədləri qüdrətli görünsə də, tərbiyəedici funksiya "unuduldu".

XXI əsrin astanasında B.Blumun əməkdaşları taksonomiyada modifikasiya edərək, onu aşağıdakı kimi təqdim etdilər: ***"xatırlama, anlama,***

***tətbiq, analiz, qiymətləndirmə, yaratma”*** [4, s.23-24]. Bu taksonomiyada dövrün xüsusiyyətlərinə uyğun olaraq yaradıcılıq keyfiyyətlərinin inkişafı aktuallaşdı. Nəticədə ***interaktiv təlim*** formalaşdı. Bu taksonomiyada da tərbiyə məsələləri “yada düşmədi”.

B.Blumun taksonomiyası bəlkə də qloballaşma baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin müxtəlif ölkələrdə bu taksonomiya fərqli qiymətləndirildi. Hər bir xalq öz mədəniyyətini qoruması və inkişaf etdirməsi baxımından yeni yollar axtarışına çıxdı. Bu təsadüfi deyildi, tərbiyə məsələlərinin unudulması böyük faciələrə yol aça bilir. Hər bir cəmiyyətdə insanın əxlaqı məhz məktəbin tərbiyəedici funksiyası müstəvisində reallaşır. Professor F.Rüstəmovun dəqiq diaqnozuna görə, “əxlaq paltarını soyunan ayrı-ayrı fərdlər və ya bütövlükdə cəmiyyət başqa paltar geyinə bilməz, o mütləq məhvə məhkumdur” [5, s.26-37]. Məsələnin belə qoyuluşu tərbiyə məsələlərini, yeni nəslə xalqın mədəniyyətinin ötürülməsini bir daha aktuallaşdırır.

***Haşiyə:*** *Bu gün Finlandiya və Sinqapur məktəbləri dünya reytinqində qabaqcıl mövqeyə çıxıblar. Hər iki ölkə müxtəlif təhsil sisteminə malikdir. Onların təhsil sisteminin fəlsəfəsini analiz edəndə hər iki xalqın mədəniyyətinin prioritet olduğu aydın görünür.*

**Təlim məqsədlərinin Əbdül Əlizadə zirvəsi**

XXI əsrin birinci onilliyində görkəmli Azərbaycan alimi Əbdül Əlizadə üçtərkibli ***“təhsil, inkişaf və tərbiyə”*** təlim məqsədləri taksonomiyasını işləyib hazırladı [4, s.70-74]. Bir müddətdən sonra Ə.Əlizadə təlim məqsədləri taksonomiyasının yeni variantını – ***“öyrənmə, inkişaf və mədəniyyət”i*** pedaqoji ictimaiyyətə təqdim etdi [4, s.80-95].

Məktəb tarixinin səhifələrində öyrədici, inkişafetdirici və tərbiyəedici məqsədlər özünə möhkəm kök salmışdır. Lakin onlar cəmiyyətlə birlikdə inkişaf edərək zaman-zaman öz məzmununu daha da təkmilləşdirmişdir. Ə.Əlizadənin təlim məqsədləri taksonomiyası bu baxımdan özünəməxsusluğu ilə fərqləndi. Ə.Əlizadənin təqdimatında ***öyrənmə taksonları*** *(bilik, vərdiş, bacarıq, xatırlama, anlama, tətbiq, qiymətləndirmə)* təkcə biliyin yeni nəslə ötürülməsini nəzərdə tutmur. O, bu prosesi şəxsiyyətin sosiallaşması müstəvisində təhlil edir. Ə.Əlizadənin təbirincə desək, “bilik vasitəsilə insanlar (oxu: şagirdlər) sosial münasibətlərə qoşulur, müxtəlif həyati situasiyalarda şəraitə uyğun hərəkət etməyi öyrənirlər”. Müasir dövrdə sürətlə mürəkkəbləşən dünyada yeni nəsli həyata hazırlamaq üçün bu müddəa necə də əzəmətli səslənir.

B.Blum inkişaf prosesinin ağırlıq mərkəzinə analiz və sintez kimi fikri əməliyyatları daxil etmişdir. Ondan fərqli olaraq Ə.Əlizadə ***inkişaf taksonlarını*** *(analiz, sintez, müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə, ağılın keyfiyyətləri, koqnitiv və kreativ proseslər)* daha geniş aspektdə açıqlayır. Belə ki, müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə analiz və sintezin daha dərin səviyyədə reallaşmasını təmin edir. Bu fikri əməliyyatların formalaşması əqli keyfiyyətlərin inkişafına xidmət etməlidir. Ə.Əlizadə əqli keyfiyyətlərin inkişafını insanın intellektual inkişafının mühüm istiqaməti kimi dəyərləndirir və ağılın bir-biri ilə qarşılıqlı əlaqədə olan keyfiyyətlərini (dərinliyi, genişliyi, çevikliyi, sürəti, səbatlığı, qənaətcilliyi, müstəqilliyi) açıqlayır. Ağılın bu keyfiyyətlərinin inkişafını Ə.Əlizadə təfəkkürün, təxəyyülün, hafizənin, nitqin inkişafı kontekstində zəruri sayır.

Məlumdur ki, biz informasiya cəmiyyətinə daxil olmuşuq. Hər dövrün öz mədəniyyəti olub. Ə.Əlizadənin təbirincə desək, “dünya sivilizasiyasında yeni və köklü məziyyətlər əmələ gəlir. Bu şəraitdə mədəniyyət faktorları xüsusi aktuallaşır”. Yeni mədəniyyət yeni keyfiyyətlərin formalaşmasını tələb edir. Bu müstəvidə tərbiyə prosesində mədəniyyətin yeni nəslə ötürülməsi aktuallaşır. Ə.Əlizadə taksonomiyasının səhifələrində mədəniyyət taksonları (hislər mədəniyyəti, ünsiyyət mədəniyyəti, mənlik şüuru mədəniyyəti, əxlaqi mədəniyyət, iradi mədəniyyət, milli-mənəvi, eləcə də ümumbəşəri mədəniyyət) önəmli yer tutur. Taksonları təhlil etdikdə, görürük ki, ən yüksək mərhələdə milli-mənəvi, eləcə də ümumbəşəri mədəniyyətin aşılanması nəzərdə tutulub. Dünyanın kiçildiyi müasir dövrdə insanı yalnız milli-mənəvi mədəniyyət çərçivəsində tərbiyə etməklə onun inkişafına birtərəfli yanaşmaq olardı. Bu istiqamətdə Ə.Əlizadə milli-mənəvi mədəniyyətlə yanaşı, ümumbəşəri

mədəniyyətin tərbiyəsini zəruri sayır.

**Nəticə.** Ölkəmizdə təhsil sistemi özünəməxsus Azərbaycan mədəniyyətinə əsaslanmalıdır. Məsələyə belə yanaşanda, tarixi köklərə malik olan Ə.Əlizadənin təlim məqsədləri taksonomiyası aktuallaşır. Müasir Azərbaycan təhsili bu taksonomiya çərçivəsində inkişaf edə bilər.

İnsanları fərqləndirən onların mədəniyyəti və intellektidir. Təsadüfi deyildir ki, ən qədim dövrlərdən başlayaraq məktəb yeni nəslə mədəniyyəti ötürən və intellekti inkişaf etdirən məkan kimi dəyərləndirilib. Məsələni bu kontekstdən təhlil etdikdə Ə.Əlizadə taksonomiyasının Azərbaycan məktəbinin yeni səhifələrinin açılması baxımından böyük imkanlara malik konsepsiya olduğu aydın görünür.

## İstifadə edilmiş ədəbiyyat

1. Джуринский А.Н. История педагогики: (учеб. пособие для студ. педвузов). Москва, гуманит. изд. центр ВЛАДОС, 2000, 432 с.

2. Rüstəmov F.A. Pedaqogika tarixi (xarici ölkələrdə təhsil və pedaqoji fikir tarixi, dərslik). Bakı, "Nurlan" nəşriyyatı, 2006, 748 s.

3. История педагогики и образования (учебник для бакалавров). Пискунов А.И. и др. 4-е изд., перераб. и доп., Москва, Издательство Юрайт, 2013, 575 с.

4. Əlizadə Ə.Ə., Sultanova İ.H. Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı, 2008, 173 s.

5. Rüstəmov F.A. Yaradıcı ürəklərin simfoniyası. ARTİ-nin "Elmi Əsərlər" jurnalı. 2020, №6, s.26-37.

**H.Alizadeh**

## The transmission of culture and the development of intelligence as a learning objective

**Abstract**

The article is devoted to the taxonomy of learning objectives applied in schools in modern times. By conducting historical research, the author draws attention to the development of the problem of the formation of learning objectives in schools in different periods since the creation of the first educational institutions. Based on the historical analysis of learning objectives, it is possible to draw a conclusion that learning becomes more perfect when it has educational, developmental and educational contents. In this context, B.Blum's taxonomy of learning objectives is analyzed and it is emphasized that there is no educational content in it. It is highlighted in the article that the application of A.Alizade's three-component (learning, development and culture) taxonomy has a more effective content in terms of student development in modern times.

**Х.Ализаде**

## Передача культуры и развитие интеллекта как цель обучения

**Аннотация**

Статья посвящена систематике целей обучения, используемой в в наше время в учебных заведениях. Проводя историческое исследование, автор обращает внимание на разработку проблемы формирования целей обучения в школе в разные периоды с момента создания первых учебных заведений. На основе исторического анализа целей обучения он приходит к выводу, что обучение более совершенно, когда оно имеет образовательное, развивающее и воспитательное содержание. В этом контексте он анализирует таксономию целей обучения Б.Блюма также подчеркивает отсутствие в нем образовательного контента. По мнению автора, применение трехкомпонентной (обучение, развитие и культура) таксономии А.Ализаде имеет более эффективное содержание с точки зрения развития студентов в современное время.

*Peşə təhsili və insan kapitalı. Cild 7, №1, 2024, s.12-18*

# İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ DƏRS PLANLAMASINA DAİR MÜXTƏLİF YANAŞMALAR



**Könül İsgəndərova,**
*Sumqayıt Dövlət Universitetinin*
*Xarici dillər kafedrasının ingilis dili müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: konul.isgandarova@sdu.edu.az*

**UOT:** 37; 811.111

**Xülasə**. *Məqalədə dərs planlamasının mahiyyəti, məqsədi, əhəmiyyəti, müəllimin rolu və hədəfləri müəyyənləşdirilir. Eyni zamanda dərs planlaması zamanı ən çox istifadə olunan yanaşmalar təhlil edilərək o qənaətə gəlinir ki, planlaşdırılmış dərs daha effektli nəticələr göstərir, nəinki kortəbii şəkildə yerinə yetirilən dərs. Müəllimin ideyası, koherentlik, koheziya, tətbiqetmə və tələbəyönümlü tədrisin təşkili, eləcə də bir çox məsələlər dərs planlamasında nəzərə alınır. Effektiv tədrisin əsas cəhəti auditoriyada baş verəcəkləri plan şəklinə salmaqdır. Belə bir planın yaradılması real məqsədlərin qoyulması, tələb olunan materialların və digər əlavə materialların necə təqdim ediləcəyi qərarının verilməsini və öyrənməyə kömək edəcək fəaliyyətlərin işlənilib hazırlanmasını əhatə edir. Planlaşdırılmış dərs bizə tədris və təlim məqsədlərimizin, həmçinin onlara nail olmaq üçün vasitələrin ümumi konturunu təqdim etməlidir. O bizə nə etmək istədiyimizi və bunu necə etmək istədiyimizi xatırladır. Məhsuldar dərs hər şeyin planlaşdırıldığı kimi davam etdiyi dərs deyil, həm tələbələrin, həm də müəllimin bir-birindən öyrəndiyi dərsdir.*

***Açar sözlər:*** *dərs planlaması, tədrisin təşkili, ehtiyac, məqsəd, məzmun, resurs, ardıcıllıq, vaxta qənaət.*
***Key words:*** *lesson planning, organizing teaching, need, goal, context, resource, sequence, time saving.*
***Ключевые слова:*** *планирование урока, организация обучения, потребность, цель, контекст, ресурс, последовательность, экономия времени.*

Planlaşdırma həyatın hər mərhələsində vacibdir. İşin düzgün yerinə yetirildiyi təqdirdə onun uğuru təmin edilir. Planlaşdırmadan məqsədə çatmaq, hədəfləmədən nailiyyətlər əldə etmək çətin olur. Necə ki gündəlik həyatda planlaşdırma vacibdir, eyni şəkildə o təlim-tədris prosesində də unikal əhəmiyyət kəsb edir. Təlim kurslarının, tədris planlarının təşkili geniş, eyni zamanda mürəkkəb proses hesab olunur. Onların həyata keçirilməsi planlı öyrənmə təcrübələrinə əsaslanır. Ənənəvi yolla keçirilən dərslərdə müəllimlər dərsin planını, təqdimatını, nitq fəaliyyətini özləri təşkil edir, test və digər qiymətləndirmə vasitələri ilə tələbələrin bilik səviyyəsini yoxlayıb qiymətləndirirdilər. Başqa sözlə desək, onlar tələbələri idarə edirdilər. Müasir yanaşmalar isə həyatın hər mərhələsində öz geniş təsirini müsbət nəticələrlə göstərir. Yalnız individual deyil, cüt, qrup işlərinə dərslərdə geniş yer ayırmaq, bəzən

kiçik oyunlar, tamaşalar təşkil etmək vacib məsələlərdəndir. Qrup işlərində tələbələr informasiyanı bölmək, bir-birinə yardımçı olmaq, əməkdaşlıq etmək, daha çox öyrənilən dildə ünsiyyətdə olmaq, qrammatik qaydaları bilməklə həqiqi dilə yiyələnməyə, onu mənalı ifadə etməyə, nitq vərdişlərini genişləndirməyə nail olurlar.

Dil öyrənilməsinə marağın yaranmasında müəllimin rolu əvəzsizdir. Müəllim hər bir dərsdə daim seçim hüququ edir, o, nəyisə tətbiq etməyi, nəyisə etməməyi qərarlaşdırır. Yaxşı müəllim olmaq üçün bacardıqca daha çox tədris üsulları ilə tanış olmaq vacib şərtlərdəndir. Bu, müəllimlərə öz yanaşma metodlarını üzə çıxartmağa, hansının səmərəli, hansının isə effektsiz olduğunu öyrənməyə şərait yaradır. Dil öyrənənlər həmişə müəllimə ehtiyac duymurlar. Onlar dili müxtəlif yollarla, evdə kitab oxumaqla, CD, videodisk izləməklə, kompüter proqramları dinləməklə, digərləri isə sadəcə dilin daim işlədildiyi yerlərdə yaşamaq və ünsiyyətdə olmaqla öyrənirlər. Təhsilalanlar təhsil almağa, xüsusilə də ali məktəblərdə təhsillərini artırmağa, yenilikləri öyrənməyə maraqlıdırlar. Əlbəttə, müəllim arzu etməz ki, dərsi sıxıcı, yorucu keçsin, lakin daim çox nitq söyləyərsə, qrupu yalnız öz söhbətləri ilə məşğul edərsə, əyləncəli şəkildə çatdırarsa, nəticədə onların diqqətini yayındırmış olar, tələbələr daha az bilik qazanar və tədqiqatla məşğul olmazlar. Yuxarıda qeyd olunanlar dərs prosesinə, şübhəsiz tətbiq oluna bilər, hətta əyləncəni tamamilə sıxışdırıb çıxartmaq səhv düşünülmüş ideya olardı, lakin bu prosedurun daimi, hər dərsin təkrarlanan olması keyfiyyətli nəticələr göstərmir. Bizi düşündürən əsas məsələ *“Təhsilalanların yeni bilikləri hansı yolla mənimsəmələri daha asan və səmərəlidir?* sualını cavablandıra bilməyimizdir. Təsəvvür edək ki, hər hansı göstərilən yolu qət etmək lazımdır, bizi ora aparan ən yaxşı və sərfəli yolu artıq araşdırıb tapmaq bizim işimizdir. Deməli, dərsi bir səyahət kimi təsvir etsək, onu daha maraqlı və əyləncəli etməklə yanaşı, öyrədici olmasından da əmin olmalıyıq. Dərs ideyaları müxtəlif yerlərdən gələ bilər, gördüyümüz filmlərdən və ya oxuduğumuz bir mütaliədən ilhamlana bilərik. İdeyalar, həmçinin həmkarlarımızın fikirlərindən, olduğumuz canlı sosial qruplardan, xəbərlə dolu jurnallardan da doğa bilər.

Müasir dövrdə dillərin tədrisində irəli sürülən əsas məqsədlərdən biri tələbələrin tədris prosesində fəal, təşəbbüskar iştirakçı qismində çıxış etmələrini təmin etməkdir. Dövrün tələblərinə uyğun olaraq, tələbələrin bütün bacarıq və imkanlarından istifadə edərək ingilis dilinin yeni üsullarla, dünya təcrübəsi səviyyəsində təqdimatı tətbiq edilməlidir. Təcrübələr sübut edir ki, dili mühitdə, kommunikasiya qurmaqla öyrənmək dərsliklərdən öyrənməkdən daha faydalıdır. Danışmaq və dinləmək, real həyat hekayələri və onlara olan maraq müəllimlərin dili ilə desək, “sehirli anlar” tələbələri özləri belə düşünmədən prosesə cəlb edir. Onlar yeni dili ən yaxşı ehtiyac duyduqları zaman öyrənirlər və buna hazır olurlar.

Dərsin planlamasında önəmli məsələlərdən biri də “ehtiyacdır”. *Tələbələrin bilikləri hansı formada və səviyyədə əldə etməyə ehtiyacları var?* Ehtiyacların təhlili müəllimlərin nəzər yetirməli olduqları sahələrdən biridir. Təhlil prosesində tələb olunan bacarıqlar, məqsədlər, problemin həlli üçün atılan addımlar aydınlaşdırılır, deməli, planlama zamanı ilkin nəzərə alınacaq məsələlər ***məqsəd, məzmun, metodlar, resurslar və qiymətləndirmə*** olacaqdır.

Dərsin ən vacib mərhələsi **dərsin başlanğıcıdır.** Başlanğıc dedikdə, müəllimin auditoriyaya nə vaxt daxil olması, tələbələrin dərsə nə zaman gəlməsi və əyləşməsi, rəsmi dərsin başlanması, tələbələrin mövzu üzərində nə zaman işə başlaması nəzərdə tutulur. Bunlar vaxtında və planlı yerinə yetiriləndə dərsin səmərəli və effektli keçirilməsindən söhbət açmaq olar. Əgər dərs 5 dəqiqədən sonra maraq oyadırsa, bu, ağlabatandır ki, axıra qədər yaxşı gedəcək, lakin 5 dəqiqədən sonra motivasiya yaranmasa, dərsi bitirmə şansı azdır. Bu, əslində müəllimin təcrübəsinin keyfiyyətinin əksidir. Dərsin sonu da başlanğıcı qədər əhəmiyyətlidir, buna səbəb bir sonluğun digər başlanğıca şərait yaratmasıdır. Verilən suallar, tapşırıqlar, məhz dərsin sonunda aydın şəkildə müzakirə və izah edilir.

Bəzi dilçilərə görə dili tədris planında olduğu üçün öyrətməyə çalışmaqdansa, təhsilalanların onların istədiyi və ya ehtiyacı olduğu üçün öyrənmələri ideyasını vurğulamaq mənfəətli ola bilər. Yazıçı L.Tolstoy bütün tədris ocaqlarında nizam-intizam barədə nizamnamənin olmasının əleyhinə idi. S.A.Muskiy öz əsərində yazır:

"Tolstoyun tanıdığı və qəbul etdiyi yeganə təlim-tədris metodu heç bir metodun olmaması idi. Onun fikrincə, tədrisin hər bir şeyi individual olmalıdır, həm müəllim, həm tələbə, həm də onların qarşılıqlı münasibətləri" [1, s.89]. Göründüyü kimi, yazıçı qarşılıqlı münasibətlərin düzgün şəkildə qurulmasını, onun dərs prosesinin həyata keçirilməsində əvəzsiz əhəmiyyətə malik olduğunu sübut etməyə çalışır. Lakin təhsilalanlar fərdi xüsusiyyətlərə malikdir, onların arasında danışmağı sevən və sevməyən, fərdi öyrənməyə üstünlük verən, oxumaqla daha yaxşı mənimsəyən və s. xarakterlərdə olması müəllimi düşündürən ən vacib məsələ olaraq hər zaman öndədir. Dilçi alim J.Myles dərs materiallarını planlayarkən aşağıdakıları nəzərə almağı vacib hesab edirdi:

*– tələbələrin güclü və zəif tərəflərini müəyyənləşdirməyi və irəliləyişlərə nəzarət etməyi;*

*– onların kurikulumdakı tələbləri və standartları yerinə yetirib-yetirmədiyini müəyyənləşdirməyi;*

*– məlumatı mənimsəyə bilməyən tələbə üçün materialı nizamlamağı;*

*– tələbələrə rəy bildirməyi;*

*– tələbələri proqramın və ya dərsin növbəti səviyyəsinə yüksəltmək, dəstəyini davam etdirmək, hətta dəyişdirmək barədə qərar qəbul etməyi [2, s.62].*

Müəllimlər hər şeyi təsadüfi şəkildə yerinə yetirməklə, dərsi planlaşdırmamaqla, bəzən də yaradıcılıq və əyləncə ilə dolu maraqlı dərslər keçirə bilirlər. Lakin bu böyük bir riskdir. Belə dərslər çox vaxt qarışıq olur və tələbə yeni bir şey öyrənmir. Bu proses tez-tez baş verərsə, tələbələr müəllimin professional olmadığını düşünməyə başlayar və bu, müəllim-tələbə münasibətlərinin zəifləməsinə səbəb ola bilər. Dərs planları tələbələrin və siniflərin ehtiyaclarına uyğun olmalıdır. Tələbələr arasında sorğu apardıqda dinləmə, nitq, oxu və yazı bacarıqlarından hansının daha çətin olduğunu aydınlaşdırarkən məlum olur ki, nitq onlar üçün digərlərindən daha çətindir. Bunun iki səbəbi var: birincisi, digərlərindən fərqli ünsiyyət real vaxtda olur, adətən, ünsiyyətdə olduğumuz adam həmin an bizim nə söyləyəcəklərimizi gözləyir. İkincisi, danışarkən deyəcəklərimizi əzbərləyə və ya redaktə edə bilmərik. Təcrübələr sübut edir ki, qarşılıqlı ünsiyyət xarici dildə nitq bacarığını inkişaf etdirir. Deməli, tələbələr dərs prosesində daha çox ünsiyyətdə olmalıdırlar. Digər dildə ünsiyyətdə olarkən həmsöhbətimizin bizi anlaması üçün çox diqqətli olmalıyıq, xüsusilə də bu başlanğıc və orta səviyyədə oxuyan təhsilalanlara aiddir.

Kommunikativ yanaşma tələbələrə ingilis dilini yaradıcı formada, cütlüklər və qrup şəklində təşkil edilmiş işlərdə öz fikirlərini sərbəst ifadə etməyə imkan yaradır. Tələbələr hər bir işdə səhv etməkdən çəkinməməli və sıxılmamalıdırlar. Müəllimin yaratdığı səmimi mühitdə tələbələrin səhvləri təbii qəbul olunur və onlar inanırlar ki, hər bir şəxs səhvlər üzərində öyrənir. Tələbələr hər bir dərsdə xarici dili tədris edən müəllimdən yenilik, onları maraqlandıra biləcək tapşırıqlar gözləyirlər. Ona görə də hər bir müəllim daim yenilik axtarışında olmalı, təlim prosesində motivasiyanı təmin etməlidir ki, bu da öz növbəsində, tələbələrin dil öyrənmə prosesinə fəal iştirakçı qismində cəlb edilməsi və onların biliklərini obyektiv şəkildə qiymətləndirilməsi üçün müvafiq şərait yaratmış olur. Dövrümüz əvvəlki dövrdən onunla fərqlənir ki, biz bu gün informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdiyi dövrdə yaşayırıq, əsrimiz "kompüter əsri" adlanır.

Müasir dövrdə dərs prosesi zamanı texnoloji vasitələrdən istifadə etməmək "müasir dərs" anlamından kənarda qalmaq deməkdir. Dərs prosesində elektron lövhələrdən, kompüter oyunlarından, slaydlardan, müzakirə mövzularının təşkilindən, müxtəlif zaman formalarını təqdim edən kiçik filmlərin göstərilməsindən, canlı internet araşdırmaları, testlərdən, sual-cavabdan və s. istifadə etmək vacibdir. Müasir tələbənin texnologiyalardan istifadə tələbi zəruridir, onu maraqlandıra, cəlb edə biləcək vasitədir.

Təhsilalanların əldə etdikləri nailiyyətlər onları həvəsləndirmək məqsədi ilə qiymətləndirilməlidir. Bu zaman o, öz bacarıq və qabiliyyətinə daha çox inanar və dərsdən kənarda və ya evdə müstəqil şəkildə əlavə öyrənməyə can atar. Xarici dilin öyrənilməsi prosesini aşağıdakı planda belə təşkil etmək olar:

*– dərsi müasir tələblər çərçivəsində təşkil etmək;*

*– dərs prosesində tələbələrin diqqətinin mənimsənilməli olan dil materialları və nitq strukturlarına məqsədyönlü şəkildə yönəldilməsini*

*təmin etmək;*

*– proqramlarda ardıcıllığı təmin etmək;*

*– dərslərin interaktiv şəkildə təşkilini təmin etmək;*

*– tələbələrdə özünəinam hissi oyatmaq və onlara özünü qiymətləndirmək bacarığını aşılamaq;*

*– təlim prosesində özünü doğrultmuş, aktuallığını itirməmiş metodlarla yanaşı, yeni sayılan süni intellekt proqramlarını tətbiq etmək;*

*– təlim prosesində motivasiyanı təmin etmək;*

*– təlim prosesində tələbələrin xarici dillərin öyrənilməsi prosesinin tələbəyönümlü xarakterini təmin etmək.*

Yeni dövrün tələbi olan süni intellekt (Aİ), virtual reallıq (VR), maşın öyrənmə (ML) və inkişafda olan texnoloji vasitələr tələbələrə dili yeni üsullarla öyrənmə yolları açır və onlar üçün araşdırma üsullarını asanlaşdırır. Bu, o deməkdir ki, müəllim dərs planlayarkən artıq sadalanan texnoloji fərqlilikləri dərs prosesinə daxil etmək barədə düşünməlidir. Yeni təhsil yalnız fiziki siniflə məhdudlaşmır, virtual reallıqlar, xəyal hesab etdiklərimiz müxtəlif proqramlar vasitəsilə gerçəkləşir. **Quizlet** proqramı vasitəsilə müəllimlər canlı test yoxlama aparmaqla tələbələrin bir neçəsini eyni anda qiymətləndirə bilər. Bu da vaxt baxımından həm sərfəli, həm də qənaətbəxş olur. **“Classpoint”, “Magicschool”, “Canvas”, “Padlet”** kimi bir çox proqramlar Amerika və Avropa təhsilində geniş istifadə edilir. Bu və bu kimi proqramlar yeni formada slaydlar hazırlamağa, dərsi təqdim etməyə, təsviri canlandırmağa yardımçı olmaqla yanaşı, tələbələrin dərsə olan marağını artırır və onları yeni mövzuları anlamaqda motivasiya edir. Dərs müddətində öyrənmə, araşdırma məsuliyyəti tələbələrin üzərinə düşür.

İstənilən tədris ardıcıllığı **üç** əsas elementə ***cəlb etmək, öyrənmək*** və ***aktivləşdirməyə*** ehtiyac duyur. ***Cəlb etmək*** üçün düşündürücü suallarla giriş etmək olar. Bu, onların bilik və bacarıqlarını üzə çıxardacaq və onları tənqidi yanaşmaya sövq edəcəkdir. ***Öyrənmə*** hissəsində qısa və uzunmüddətli hədəflər haqqında düşünürük. Qısamüddətli məqsədlər tələbələrin dərsin sonunda və ya dərs ərzində ardıcıllıqla nail olacağına ümid etdiyimiz nəticələrdir. Uzunmüddətli məqsədlər bir ayın, hətta bir semestrin sonunda mənimsədiklərini gözlədiyimiz hədəflərdir. Dərslərin ardıcıllığını əvvəlcədən planlaşdıra bilsək də, ardıcıllıq davam etdikcə, onun içindəki dərslər keçirildikcə planlarımızı dəyişməyə və düzəltməyə hazır olmalıyıq. İşlər gözlədiyimizdən daha sürətlə gedərsə, əlavə fəaliyyət və ya material daxil etməmiz lazım ola bilər. Əgər işlər daha uzun zaman alarsa, istifadə etməyi planlaşdırdığımız bəzi fəaliyyətləri və materialları sürətləndirmək və ya kəsmək lazım olar. Öyrənilənləri tətbiq etmək və ***aktivləşdirmək*** üçün tələbələrə müəyyən müddətdən sonra vaxt ayrılır və təkcə təqdimatları deyil, onların məsuliyyəti, qrupdaxili işləmə prinsipləri, dəyərləndirdikləri layihələr, yaradıcılığı, problemin həll bacarığı qiymətləndirilir.

Müəllimin üstünlük verdiyi **dərsliklər** dərsin planlamasının əsas hissəsidir. Dərslik seçilməzdən əvvəl həmkarlarla müzakirələr, tələbələrin tərtibat haqqında fikirlərini öyrənmək olar. Dərslikdən istifadə müəllimin bacarığıdır. Əgər müəllimlər kitaba əlavələr etmədən, öz fikirlərini yaradıcı şəkildə təqdim etmədən şablon bir əşya kimi dərsə yanaşsalar, tələbələr əqli və fiziki olaraq yorular, nəticədə motivasiyalarını itirə bilərlər. Bundan başqa, müəllimlər əlavə materiallara üstünlük verməklə tələbələrdə vacib dörd vərdişi inkişaf etdirirlər. Müəllimlərin dərsdə istifadə edə biləcəyi genişçeşidli materiallar mövcuddur. Bir çox müəllimlər tələbələrini səviyyələr üzrə oxumağa təşviq edirlər, çünki onlar oxunun söz ehtiyatını artırmaq üçün yaxşı vasitə olduğuna inanırlar. Əlavə vəsaitlərini dərs prosesinə daxil edərkən vaxtı balanslaşdırma, izahetmə və idarəetmə, tələbələrin dil səviyyələrinə uyğunluğu, onların anlayıb mənimsəməsi və nəticədə hansı bilikləri qazanacağı kimi vacib məsələlər əvvəlcədən müəllim tərəfindən planlaşdırılmalıdır.

Bəzi müəllimlər tərəfindən məlumatı izahlı şəkildə ötürmək üçün **real obyektlərdən** geniş istifadə edilir. Müxtəlif əşyaları sinfə daxil etməklə geniş müzakirə atmosferi yaratmaq mümkündür. Xüsusilə də dil öyrətmənin ilkin səviyyəsində gerçək əşyalarla tədris müsbət nəticələr göstərir. Lakin müasir texnologiya virtual reallıqlardan istifadəni təqdim etməklə müəllimin işini asanlaşdırır. Virtual təqdimatlar daha rəngarəng və qabarıq olduğu üçün təəccüb və maraq

doğurur. Peşəkar təcrübə əldə etmək üçün dil və mədəniyyətin tədris və öyrənmədə oynadığı rolunu dərk etmək vacibdir.

Dilçi L.Anderson dərsləri əvvəlcədən planlaşdırmağı vacib hesab edərək qeyd edir ki, müəllim plan hazırlamadan materialı təqdim edərsə, müəyyən aspektlərə daha çox, digərlərinə lazım olduğundan daha az vaxt ayırma ehtimalı böyükdür. Onun fikrincə, düzənli, planlaşdırılmış dərs aşağıdakı kimi təsvir edilir:

*– materialı məntiqli, sistemli və effektiv şəkildə təqdim etməklə;*

*– mövzunun adekvat şəkildə işıqlandırılmasını əldə etməklə;*

*– müəyyən edilmiş vaxtda tədris məqsədlərinə nail olmaqla;*

*– vaxta qənaət etməklə [3, s.55];*

*– minimum resurslarla tələbələrin maksimum inkişafına kömək etməklə;*

*– müəllimdə özünəinam və işində qürur hissi yaratmaqla.*

Dərsin planlaşdırılmasında müxtəlif yanaşmalar mövcuddur. Bunlar *“Herbart”* yanaşması, *“Vahid”* yanaşma, *“Qiymətləndirmə”* yanaşması və *“Layihə”* yanaşmasıdır. *“Herbart”* yanaşmasında tələbə ağ vərəq hesab edilir, bütün biliklər kənardan qazanılır. Əgər yeni biliklər tələbənin köhnə biliklərinə (əvvəlki bilik və ya təcrübələrinə) əsaslanırsa, o asanlıqla əldə edilə və daha uzun müddət saxlanıla bilər. “Vahid” yanaşma unikal planlaşdırma və əməliyyata əsaslanır. Bu yanaşma dövr edərək özündə **beş** əsası təqdim edir. Bunlar *kəşfiyyat, təqdimat, assimilyasiya, təşkiletmə* və *qiraətdir.* B.Bulumun *“Qiymətləndirmə”* yanaşması təhsili məzmun mərkəzli deyil, obyektiv mərkəzli hesab edir. O, təlim məqsədlərini, məqsədlər üzrə təcrübənin təmin edilməsi və təlim nəticələrinin qiymətləndirilməsi üsullarını nəzərə alır. Daha sonra öyrənmə məqsədləri haqqında qərar qəbul edilərək təcrübənin yenidən nəzərdən keçirilməsi və təkmilləşdirilməsi üçün nəticə əldə edilir. *“Layihə”* yanaşması adından da göründüyü kimi, tələbəni sosial mühitdə araşdırmağa sövq edir, bir sözlə, sosial mühitdə həyata keçirilən planlı, məqsədyönlü tapşırıqdır.

Hər bir yanaşmadan təhsil təcrübəsində geniş istifadə edilir, ali və orta təhsil məktəbləri müasir tələblərlə ayaqlaşmağa çalışır. Bunun üçün yeni metodlar işlənilir və pilot layihə kimi təcrübədən keçirilir. İngilis dilinin tədrisinin yerinə yetirilməsi üzərində aparılan ciddi araşdırmaların yaşı artıq 100 ilə çatır. Bu gün müxtəlif metodlardan istifadə edərək tədqiqatçılar tədrisin keçirilməsi barədə informasiya və effektli nəticələr əldə edirlər. Müəllimləri ingilis dilinin tədrisi barədə bir çox suallar hər zaman düşündürməkdədir: *Hansı metod bütün qruplar üçün uyğun hesab oluna bilər? Qiymətləndirmə necə aparılmalıdır ki, tələbələr ruhdan düşməsin? İngilis dilinin tədrisi prosesində doğma dildən istifadə hansı dərəcədə yerinə yetirilməlidir?* və s. Doğrudan da, dərsin nəticəsi, tələbələrin bilik əldə etməsi müəllimin tətbiq edəcəyi metodlardan asılıdır. S.Matison və M.Friman yazır: “Bir mövzunun eyni metodla ayrı-ayrı qruplara tədrisinin nəticəsi bir-birinə zidd gəlir” [4, s.16]. Həmçinin qeyd edirlər ki, müəyyən metodun tətbiqindən əvvəl düzgün psixoloji mühit yaratmağı vacib hesab etmək lazımdır. Müəllim hər zaman təhsilalanları əks-əlaqə prinsipi ilə təchiz etməlidir. Onların biliklərini yoxlamaqla, bələdçilik etməklə tələbələrə dayaq biliklərinin təkmilləşməsində yardımçı etmiş olur. Əks-əlaqə fəaliyyəti yerinə yetirilməyən şəraitdə tələbələr enerjilərini necə və hara sərf etmələrini aydınlaşdırmaqda çətinlik çəkirlər. J.Morley öz əsərində müəllimi “Dil kreslosu, informasiya gəzdirən, vaxtaşırı modelləri təqdim edən, yüksək standarta uyğun təlimi təşkil edən, geniş imkanlara malik və tələbələri ruhlandıran bir şəxs” adlandırmışdır [5, s.89]. Morleyin fikrinə əsaslanıb demək olar ki, müəllim böyük məsuliyyət daşıyıcısıdır. İlk günlərdən başlayaraq tələbələrə veriləcək materialı dərk etməkdə və xarici dillə bağlı emosional ehtiyaclarını duymaqda, özlərinə inam hissi oyatmaqda yardımçı olmaq lazımdır. Tələbələrə rast gəldikləri problemləri açıq-aydın demək üçün şərait yaratmaq onların vəziyyətləri ilə maraqlanmaq deməkdir. Müəllim tədris prosesində daim yenilik axtarışında olarsa, hər gün tələbələri ilə fərqli üsullarla çalışarsa, tədris prosesini işıqlandırmış və zənginləşdirmiş olar. J.Gi müəllimləri “...dil öyrənmənin çətinliklərinə bələdçilik edən, dil muzeyinin idarəçisi” adlandırır [6, s.20] Tədqiqatçının fikrincə, müəllim ilk gündən necə mühit yaradarsa, dərs prosesini hansı sistemdə qurarsa, nəticəsini də ona uyğun şəkildə

əldə edər.

Müəllimlər ali məktəblərdə daha çox kiçik tələbə cəmiyyətlərinin olmasını istəyən şəxslərdir. Çünki tələbələrin bir-birini daha yaxından tanımaları, problemli mövzuları birgə həll etmələri tədrisin məhsuldar keçməsinə edilən böyük addımdır. F.Paulo və D.Makedo "sərbəst, rahat hiss edəcək yer" fikrini üstün tutaraq tələbələrin ehtiyac duyduqları bir məkanın olmasını vacib hesab edirlər [7, s.199]. Tədqiqatçıların fikrincə, bu, biliyin demokratik prinsiplərlə öyrənilməsinə və inkişafına edilən bir cəhddir. Prinsiplər birgə tərtib edilmiş proqramı, öyrənmə ehtiyaclarını, hansı sahəyə daha çox vaxt ayırmaq istədiklərini müzakirə edib müəllimə çatdırmaqla, onda yeni fikir və ideya yaratmaqda yardımçı ola bilərlər.

Müəllimlik daha çox spiral pilləkənlərlə daima yuxarıya qalxmağa bənzəyir. Hər bir qalxış bizi eyni nöqtəyə qaytara bilər, hansı ki, bizi təkrara, bilikləri möhkəmləndirməyə sövq edir. Atdığımız ilk addım həmişə planlaşdırma və hazırlıqdır, bizi yüksəkliyə aparan digər addımlar bu planlamadan və hazırlıqdan asılıdır. Müəllim tədris etdiyi fənni mükəmməl bilməli, hərəkətləri biliyinə uyğun olmalı, xeyirxah və səbirli olmalıdır. Dərs planlamasında motivasiyanın yaradılması, mövzular arasında körpü, tələbələrin aktiv iştirakını təmin etmək, onların məntiqi və tənqidi düçüncələri, tələbələrin sərbəst şəkildə özlərini ifadə etmələri və dərsin tələbəyönümlü olması, tələbələrin uğurlarını qiymətləndirmək ən vacib məsələlərdəndir. Sillabus və dərsliklər tədrisi planlamada ümumi istiqamət göstəricisi rolunu oynayır. Xüsusi bir dərsin xüsusi yanaşması planlanarkən müəllimlər təhsilalanların ehtiyacları və dil səviyyələrini düşünməyi özünə vacib bilir. Bunun üçün geriyə baxaraq tələbələrin nəyi yaxşı qavradıqlarını, nəyi təkmilləşdirməyə ehtiyac olduğuna qərar verir. Dərs planlaması zamanı məqsəd və prosedur qaydası qarışdırılmamalıdır. Məqsəd dil öyrənilməsində tələbələrin nəyi öyrənəcəyi və mənimsəyə biləcəyini aydınlaşdırırsa, prosedur qaydası dərs zamanı dinləmə, oxu, yazı və ya nitq fəaliyyətindən istifadəni səviyyələr üzrə nizamlayır. Məqsəd ümumi xarakter daşımamalı, materialın kontekst daxilində, təcrübəəsaslı təqdimatı, uzun və yorucu olmayan effektli şəkildə yerinə yetirilməsi məqsədəuyğundur.

**Nəticə.** Dərs planı bizə nəyi və necə öyrədəcəyimizi düşünməyə kömək edən qeydlər toplusudur. O bizə yol göstərməklə yanaşı, tələbələrimizin məqsədlərə necə nail olmasında, onların ehtiyaclarını nəzərə alaraq dərs planının əsas komponentlərini müəyyən edir. Digər tərəfdən mümkün problemlər, yadda saxlamalı olduqlarımız haqqında bizə xatırlamalar edir. Beləliklə, dərs planı daha çox yol xəritəsi və ya bir sıra yol nişanlarına bənzəyir, yəni bizə hara getdiyimizi və ora necə çatacağımızı göstərən təlimat vərəqəsi rolunu oynayır. Dərsin hər bir mərhələsi üçün məqsədləri və prosedurları yazmaq bizə bu məqsədlərə nail olmağın ən yaxşı ardıcıllığı planlaşdırdığımızdan əmin olmağa, vaxtı hər bir mərhələyə uyğun təyin etməyə kömək edir.

## İstifadə edilmiş ədəbiyyat


1. Мусский С.А. 100 великих людей. Москва, Вече, 2006, 480 с.
2. Myles J. Beyond Methodology. English language learners K-12. USA, 2015, 148 p.
3. Anderson, L.W., Krathwohl D.R. (Eds.) A taxonomy for learning, teaching, and assessing: A revision of Bloom's taxonomy of educational objectives. Longman, 2001.
4. Marthison S., Freeman M. Researching Children's Experiences. USA: The Guiford Press, 2009, 190 p.
5. Morley J. (Ed.) Pronunciation pedagogy and theory: New views, new directions. Alexandria VA: TESOL, 1994, 119 p.
6. Gee J. Orality and Literacy: From The Savage Mind to Ways with Words. USA: TESOL Quarterly, 1986, 746 p.
7. Paulo F., Macedo D. The transformative power of critical pedagogy. Cambridge: Cambridge University Press, 1996, 202 p.
8. Hüseynzadə R.L. Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. Bakı, "Nurlan"nəşriyyatı, 2007, 336 s.
9. Xəlilov V. Seçilmiş əsərləri (V cild). Bakı, "Nərgiz" nəşriyyatı, 2011, 387 s.
10. Rüstəmov F. Ümumtürk pedaqoji fikrində əxlaqi-mənəvi dəyərlər. Bakı, "Nurlan" nəşriyyatı, 2002, 112 s.

K.Iskenderova

## Different approaches to lesson planning in English classes

**Abstract**

The essence, purpose, importance, role and goals of a teacher are defined in the article. At the same time, the most used approaches while planning a lesson are analyzed, and it is concluded that the planned lesson gives more effective results rather than the lesson performed spontaneously. The teacher's idea, coherence, cohesion, implementation and organization of a student-centered teaching, as well as many other issues are considered while planning a lesson. The key factor of the effective teaching is to make a plan of what will happen in the classroom. Making such a plan involves setting real goals, deciding how to present required materials and other supplemental materials, and developing activities that will support learning. The planned lesson should provide us with a general outline of our teaching and learning goals, as well as the means to achieve them. It reminds us what we want to do and how we want to do it. A productive lesson is not the one in which everything goes as due to the plans, however it is the one in which both students and a teacher learn from one another.

К.Искандерова

## Различные подходы к планированию уроков на уроках английского языка

**Аннотация**

В статье определены сущность, цель, значение, роль и задачи учителя. При этом анализируются наиболее часто используемые подходы при планировании урока и делается вывод, что запланированное занятие показывает более эффективные результаты, чем стихийно проведенное занятие. При планировании урока учитываются идея учителя, последовательность, сплоченность, реализация и организация личностно-ориентированного обучения, а также многие другие вопросы. Ключом к эффективному обучению является планирование того, что будет происходить в аудитории. Создание такого плана предполагает постановку реалистичных целей, решение о том, как представить необходимые материалы и другие дополнительные материалы, а также разработку мероприятий, которые будут способствовать обучению. Запланированный урок должен дать нам общее представление о наших целях преподавания и обучения, а также о средствах их достижения. Оно напоминает нам, что мы хотим делать и как мы хотим это делать. Продуктивный урок – это не тот урок, на котором все идет по плану, а тот, на котором и ученики, и учитель учатся друг у друга.

# MÜASİR MÜƏLLİM MODELİ: PEDAQOJİ QABİLİYYƏTLƏRƏ ƏNƏNƏVİ VƏ YENİ YANAŞMANIN SİNTEZİ MÜSTƏVİSİNDƏ MÜNASİBƏT



**Elza Mollayeva,**
*Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının dosenti,*
*pedaqoji elmlər doktoru, Qabaqcıl təhsil işçisi*
*e-mail: elzamollayeva@rambler.ru*

**UOT:** 37

**Xülasə**. *Məqalədə çağdaş pedaqogika elmində müəllimin pedaqoji qabiliyyətlərinə yeni yanaşma – gender bacarıqlarının bu qabiliyyətlər sırasına daxil edilməsinin pedaqoji əhəmiyyəti geniş təhlil edilmiş, eləcə də gender bacarıqlarının komponentləri, səviyyələri, bu istiqamətdə müəllimlər üçün zəruri olan metodların, prinsiplərin və vasitələrin tədqiqatı, müasir müəllim modelində yeni elmi sahə olan genderşünaslıqla bağlı yanaşmalar öz əksini tapmışdır. Tədqiqat işində peşələr içərisində öz mahiyyətinə görə ən dəyərli və ilk peşələrdən olan müəllimlik peşəsinin məzmunca zəngin və rəngarəngliyi geniş izah edilmiş, müxtəlif tarixi formasiyalarda bu peşəyə verilən qiymət onun pedaqoji əhəmiyyətini bir daha təsdiq etmişdir.*

***Açar sözlər:*** *müasir müəllim, təlim-tərbiyə, pedaqoji qabiliyyətlər, gender bacarıqları, dərs prosesi, gender identikliyi, müasir müəllim modeli.*
***Key words:*** *modern teacher, education, pedagogical skills, gender skills, teaching process, gender identity, modern teacher model.*
***Ключевые слова:*** *современный учитель, образование, педагогическое мастерство, гендерные навыки, педагогический процесс, гендерная идентичность, модель современного учителя.*

Pedaqoji prosesin mərkəzi fiquru olan müəllimin hansı peşə qabiliyyətlərinə və şəxsi keyfiyyətlərə malik olması hələ antik dövrdən aktual olmuş və bu gün də aktuallığını saxlamaqdadır. Bununla əlaqədar Qədim Elladanın filosofları bir çox dəyərli fikirlər, mülahizələr söyləmiş, müəllimin peşə ilə bağlı portretinin konfiqurasiyasını vermişlər. Bu filosoflar təkcə ideya, nəzəriyyə yaradıcıları deyil, həm də müəllim idilər. “Əgər dünyaya fəlsəfə müəllimləri axtarsaq, onları Platon və Aristoteldə tapa bilərik” aforizmi də antik filosofların müəllimlik qabiliyyətini ifadə edir. Bu mənada qədim yunan fəlsəfə məktəbinin dahi nümayəndələrindən biri olan Aristotelin müəllim haqqında fikirləri maraqlıdır. O özünün “Afina siyasəti” əsərində qeyd edirdi: “Afina müəllimləri təntənəli mərasimlərdə seçilirdilər. Bu müəllimlər gəncləri fiziki cəhətdən möhkəm hazırlamalı və əxlaqi cəhətdən kamilləşdirərək

onlarda sinfi borca sədaqət, intizamlılıq, dövləti idarə etməyə hazırlıq kimi keyfiyyətlər formalaşdırmalı idilər. Müəllim-tərbiyəçi vəzifəsinə seçilənlər dövlətin taleyinin onlara tapşırılması üçün fəxr edirdilər ki, dövlətin taleyi onlardan asılıdır" [6, s.152].

Peşələr içərisində öz mahiyyətinə görə ən dəyərli və ilk peşələrdən olan müəllimlik peşəsi məzmunca zəngin və rəngarəngdir. Vaxtilə müxtəlif dövrlərdə müəllimə verilən təriflər formaca müxtəlif olsa belə, onların hamısı müəllimliyin məzmununu ehtiva etmiş, həqiqi müəllimin psixi-pedaqoji portretini cızmışlar. Azərbaycan professional musiqisinin banisi Ü.Hacıbəylinin müəllim haqqında dedikləri müasir dövrümüzlə səsləşir: "Müəllimlik vəzifəsi çox çətin və məsuliyyətli bir vəzifədir. Hər adam onun öhdəsindən gələ bilməz və hər bir adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır. Yalnız bir təlimdən başqa uşaqların tərbiyəsi dəxi müəllimin öhdəsindədir. Uşaq dəxi qabili-tərbiyə bir şey olduğuna görə onu nə tövr tərbiyə etsən, o cür də adam çıxar. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub, evini yıxar… Bu ağır sənətə qədəm qoyan müəllim, əfəndi bunların hamısını əvvəlcə mülahizəyə almalıdır" [4, s.128-129]. Beləliklə deyə bilərik ki, müəllim təlim-tərbiyə prosesinin məzmun daşıyıcısı, bu prosesin təşkilatçısı olmaqla, tədris prosesinin keyfiyyət baxımından necə qurulmasına cavabdeh olan şəxs kimi qiymətləndirilməlidir. Bu zaman onun pedaqoji qabiliyyətləri, şəxsi keyfiyyətləri əsaslı rol oynayır və bu təsnifatda gender bacarıqları müasir dövrün pedaqoji tələbatı kimi qarşıya çıxır.

Yeniləşən və müasir informasiyalı cəmiyyətdə müəllim özü də yeniləşməli, cəmiyyətin təhsillə bağlı tələblərinə uyğunlaşa bilməlidir. Müasir təlim texnologiyalarından optimal istifadə təhsildə yeni paradiqmaların yaranması, şəxsiyyətyönümlü və nəticəyönümlü təhsilin inkişafı, dünya təhsil standartlarına uyğunlaşma, dünyada gedən qloballaşma prosesinin təhsilə təsiri, yeni pedaqoji təfəkkürə malik, səriştəli, peşəkar müəllimlərə tələbatla şərtlənir. Bu gün müəllim modelinin formalaşması yeni baxışlar sistemi ilə klassik nəzəriyyələrin sintezinə əsaslanır. Son illərdə pedaqoji lüğətə daxil olan "müasir müəllim", "müasir təlim metodları", "müasir dərs" ifadələri pedaqoji terminlər sisteminə daxil olmuş, bir çox tədqiqatlarda tez-tez, hətta lazım gəlmədikdə belə işlədilir. Bir çox hallarda "müasirlik" adı altında hər hansı problemin həlli yolları deyil, ona ancaq elmi don geydirilməsi məqsədi güdülür. Bu xüsusda M.İlyasov yazır: "Elə bir hal yaranmışdır ki, tədqiqatda əgər "müasir" sözü işlədilirsə, deməli, hər şey yaxşıdır, tədqiqat müasir problemə həsr olunmuşdur. Yox, əgər belə bir ifadə yoxdursa, deməli, problem yeni deyil, fikirlər aktuallıq kəsb etmir" [5, s.202]. M.İlyasovun fikirləri ilə tam razılaşmaq olar, çünki bir çox gənc tədqiqatçılar araşdırdıqları problemin adına müasirlik kontekstində yanaşsalar belə, aparılan tədqiqatların məzmununda bunu görmək olmur. Onun bu yanaşmasını "müasir müəllim" ifadəsinə də aid etmək olar. Bu gün elmi-pedaqoji ictimaiyyəti bu sual daha çox düşündürür: *"Müasir müəllim necə olmalıdır?"* Bu suala yalnız müasir zaman müstəvisində cavab vermək düzgün olmazdı, çünki hələ yuxarıda müəllim şəxsiyyətinə və peşəsinə klassik pedaqoji yanaşmaları diqqətə çatdırdıq. Bura L.Tolstoyun sözlərini əlavə etmək müasirlik baxımından da yerinə düşər: "Əgər müəllim yalnız işini sevirsə, o, yaxşı müəllim olacaqdır. Əgər müəllim ata-anası kimi yalnız uşaqları sevirsə, o, əvvəlkindən də yaxşı müəllim olacaqdır. Əgər müəllim həm peşəsini, həm də şagirdləri sevirsə, o müəllim əsl müəllimdir".

Müasir müəllim öz pedaqoji fəaliyyətində pedaqoji qabiliyyətləri sintez şəklində realizə etməlidir. Bu qabiliyyətlərə didaktik, şəxsi, təşkilatçılıq, kommunikativ, perseptiv qabiliyyəti, suqqestiv qabiliyyətlər, diqqəti paylaya bilmək bacarığı və müəllimin aktyorluq məharəti daxildir. Bu qabiliyyətlər akademik qabiliyyətlə üzvi şəkildə birləşdikdə müəllim əməyi daha səmərəli və maraqlı olur. Çünki müasir təhsil standartları, təhsilin məzmunu müəllimdən zamanla həm elmi, həm pedaqoji, həm də sosial istiqamətdə ayaqlaşmanı tələb edir. Müasir müəllim sürətli informasiya cəmiyyətində yaradıcı, məntiqi, tənqidi təfəkkürə malik, mobil, çevik təhsilverən olmalıdır və bu keyfiyyətlərin pedaqoji kadrlara aşılanması vəzifə kimi qarşıya qoyulur. "Azərbaycan Respublikasında təhsilin inkişafı

üzrə Dövlət Strategiyası" (2013) bu prioritetləri dəqiq ifadə edir: "Müəllim amili təhsilalanın öyrənilməsi və inkişafı nailiyyətlərinin monitoringi prosesində həlledici rol oynayır. Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasında müəllimin təsiri onun akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən çox asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur" [1]. M.İlyasovun təbirincə desək, "akademik bacarıqlar", yəni müəllimin akademik səviyyəsi, müəllimin malik olduğu və uzun illər ərzində qazanılmış "tədris təcrübəsi", pedaqoji prosesdə ən çətin və problemli vəziyyətdən baş çıxartmağa imkan verən "peşəkarlıq səviyyəsi", yəni müəllimin malik olduğu pedaqoji ustalıq müasir müəllim modelinin aparıcı tərəflərini xarakterizə edir [5].

*Müasir müəllimin vəzifələri nədən ibarətdir?* Bu sual bütün tarixi dövrlərdə cəmiyyətin təhsillə bağlı problemlərinin həllində açar rollardan birini oynamışdır. Müəllimin əsas vəzifəsi təlim prosesini idarə etməklə bərabər, gənc nəslə təhsil vermək, onu tərbiyə etmək və inkişaf etdirmək, əsl vətəndaş kimi formalaşdırmaqdan ibarətdir. Bu baxımdan müəllimləri "menecer" (ingiliscə, "idarə etmək", "rəhbərlik etmək" deməkdir) kimi xarakterizə etmək olar. Çünki o, bütövlükdə pedaqoji prosesə, onun inkişaf dinamikasına rəhbərlik edir. Məhz bu amilə görə bir sıra xarici ölkələrdə və son dövrlərdə ölkəmizdə də pedaqoq-müəllimləri "pedaqoji menecer" adlandırırlar. Bu gün təhsildə "fasilitator" və "mentor" terminlərinə də tez-tez rast gəlirik və bu terminlər müasir müəllimin pedaqoji fəaliyyətinin əsas istiqamətlərini ehtiva edir. **Müəllim-fasilitator** bələdçi rolunu həyata keçirir, öz şagirdlərinə məqsədə çatmaq üçün yol göstərir, dəstək verir, təlim üçün əlverişli psixoloji-pedaqoji mühit yaradır. Belə şəraitdə təlim prosesində şəxsiyyətlərarası münasibətlər müəllim-şagird, şagird-şagird sxemi əsasında qurulur. **Müəllim-mentor** nəzəriyyə ilə təcrübə arasında əlaqə yaratmaqla, müəyyən peşənin sirlərini şagirdlərinə öyrədir. O, həm də şagirdlərinin daxili potensialını reallaşdırmaq, inkişaf etdirmək, akademik və karyera istiqamətində dəstək vermək, ümumiyyətlə, insan potensialını formalaşdırmağı həyata keçirir.

Zamanla cəmiyyətdə baş verən sosial-siyasi və pedaqoji transformasiya təhsilə də ciddi təsir göstərir. Dinamikliyi ilə səciyyələnən təlim-tərbiyə prosesinə yeni yanaşmalar burada müasir konsepsiyaların və elmi istiqamətlərin yaranmasını zəruri edir və belə elmi istiqamətlərdən biri olan təhsildə gender yanaşması cəmiyyətin demokratik dəyəri kimi ortaya çıxır. Cinsindən asılı olmayaraq insan azadlıqlarını təbliğ və təşviq edən gender təhsili cəmiyyətdə cinslərarası sosial-hüquqi bərabərliyə istinad edir. Onun əsasında sosial ədalət durur. Bu amil tədqiqatçı alim R.S.Mirzəzadənin gender elminə verdiyi tərifdə də öz əksini tapmışdır: Gender əsası ədalət prinsipinə söykənən, XX əsrin ortalarında yaranmış yeni nəzəriyyədir və insanlığın elmi, mədəni təsəvvürlərinin geniş spektrini birləşdirən, müasir dərketmə istiqamətli yeni dünyagörüşün fundamenti, cinslərin sosiumda rolunu təzədən tədqiq və təyin edən elmdir [7, s.48].

Müasir təhsil sistemində, ümumiyyətlə, ölkəmizdə gedən demokratikləşmə və humanistləşdirmə prosesləri müəllim hazırlığında şəxsi və peşə maraqlarını prioritet məsələ kimi aktuallaşdırır. Gender pedaqogikasında aparılan tədqiqatlar onu deməyə əsas verir ki, pedaqogika bir çox illər ərzində ənənəvi patriarxal yanaşmaya əsaslanmış, insanın cinsinin onun həyatında və fəaliyyətində oynadığı əsaslı rolu bu vaxta qədər pedaqogikada elmi şəkildə az tədqiq edilmişdir. Müasir şəraitdə cinsi fərqləri nəzərə almayan elm az səmərəli sayılmaqla, ancaq orta səviyyəli müəllim hazırlanmasını nəzərdə tutur və bu da onu deməyə əsas verir ki, təlim prosesində təhsilalanların təkcə intellektual və sosial statusları yox, həm də cinsi mənsubiyyəti nəzərə alınmalıdır. "Belə ki, XXI əsrin paradiqmalarından biri olan genderə əsaslanan yanaşma təlim-tərbiyə prosesinə münasibəti dəyişir. Belə yanaşma təlim prosesində oğlan və qızların qavramasında, tələbatlarında və maraqlarında cinsi fərqləri nəzərə almağı və buna uyğun tədris materialının seçilməsilə bərabər, ünsiyyət üslubuna da fikir verməyi zəruri edir" [8, s.31-32].

Tədris prosesində şagirdlərə gender identikliyinə əsasən yanaşma müəllimdən xüsusi bacarıq tələb edir və bu da cinslərin şüur, psixika və beynin koqnitiv fəaliyyəti baxımından əsaslı fərqlərin olduğunu ortaya qoyur. Gender iden-

tikliyində dərketmə kişilik və qadınlığın mədəni təyinatında öz əksini tapır. Bunu şagird və tələbələrlə aparılan fəal və interaktiv dərslərdə də görmək olar. Belə ki, diskussiya zamanı oğlanlar beynin sol yarımkürəciyinin fəaliyyəti ilə işə düşən məntiqə əsaslansalar da, sonra emosional gərginlik olmadan sağ yarımkürəcik bu prosesə qoşulur. Qızlar isə emosional hislərin vasitəsilə hər iki yarımkürəni əlaqəli şəkildə işə salır və beləliklə də hər iki yarımkürə beynin digər funksiyaları ilə bərabər eyni vaxtda fəaliyyətə başlayır. Bunu oğlan və qızların həm təlim, həm də təlimdənkənar prosesdə ətrafdakılar ilə münasibətlərində də hiss etmək olar: qızların ünsiyyəti daha çox əməkdaşlıq münasibətlərinə əsaslandığı halda, oğlanlar qarşı cinslə ünsiyyətdə "məmur-işçi" modelinə üstünlük verirlər.

Müasir müəllim modelində müəllimin gender bacarıqlarının pedaqoji qabiliyyətlərə daxil edilməsi zamanın tələbi kimi ortaya çıxır. Bəs gender bacarıqlarına hansı komponentlər daxildir və o özündə nəyi ifadə edir? Təhsil prosesinin müasir tendensiyaları təlim-tərbiyə prosesində demokratiya və humanizm şəraitinin yaradılmasını və təhsilalan-təhsilverən arasındakı münasibətlərin gender baxımından tənzimlənməsini tələb edir. Demokratik və humanist dünyagörüşə malik olan müəllim hər bir təhsilalanın fərdi gender xüsusiyyətlərini nəzərə almalı və ünsiyyətdə olduğu hər bir fərdi duymalıdır. Bunu pedaqogikada gender yanaşmasını tədqiq edən alimlərin əsərlərində də görmək olar və onların gəldikləri yekdil fikrə görə, təhsil müəssisələrində gender yanaşmasının əsas məqsədi cinsindən asılı olmayaraq yetişən gənc nəslin şəxsiyyətinin formalaşmasına təsir göstərən gender stereotiplərinin aradan qaldırılmasıdır. S.N.Nadolinskaya vurğulayır ki, "məktəbdə gender yanaşmasının tətbiqi cinslər arasında tərəfmüqabillik və əməkdaşlıq münasibətlərinin inkişafına müsbət təsir göstərir və onları tolerant ruhda tərbiyə edir" [10, s.65].

Nadolinskanın fikrincə, "iş onda deyil ki, müxtəlif cinslərin nümayəndələri tərbiyəçi tərəfindən diferensiallaşdırılmış yanaşmaya ehtiyac duyurlar, yəni onlar dəyişən gender stereotiplərinin mürəkkəb dünyası ilə toqquşma məcburiyyətində qalır ki, bunlar da insanın şəxsi istək və meyilləri ilə ziddiyyət təşkil edir. Stereotiplərin məzmununu izah etmək, onların dəyişkənliyini və sosial şərtiliyini göstərmək – təhsildə gender yanaşmasının məqsədi belədir" [10, s.89]. L.V.Ştılyovaya görə "təhsildə gender yanaşmasının səmərəli tətbiqi üçün tələbələrin gender identikliyinin formalaşmasına təsir göstərən pedaqoji aləmin, gender sosiallaşması üçün əhəmiyyəti olan ali məktəb işinin formalarının öyrənilməsi vacibdir və bunun üçün pedaqoji heyəti hazırlamaq lazımdır" [11, s.89].

Pedaqoji prosesdə gender yanaşması təcrübəsinin realizə edilməsində müəllimin gender bacarıqları əhəmiyyətli rola malikdir. Müəllimin gender bacarıqları onun gender problemi ilə bağlı məsələləri pedaqoji cəhətdən düzgün izah edib gənc nəslə aşılamasında, öz şəxsi nümunəsində gender tolerantlığını nümayiş etdirməsində üzə çıxır. A.N.Kamenskayanın fikrinə əsaslansaq "pedaqoqun gender bacarıqları üç istiqaməti özündə birləşdirir: pedaqoji fəaliyyətdə gender bacarıqları, pedaqoji ünsiyyətdə gender bacarıqları və şəxsi gender bacarıqları" [9, s.269].

A.N.Kamenskayanın fikrinə əsasən, "gender tərbiyəsinin modeli dörd mərhələdə həyata keçirilə bilər: məktəbəqədər yaşlıların, məktəblilərin, tələbə və böyüklərin gender tərbiyəsi" [9, s.272]. Monoqrafiyada qeyd etdiyim kimi, "pedaqoji fəaliyyətdə gender bacarıqlarına daxildir: tərbiyə olunanların gender aspektindən psixoloji və yaş xüsusiyyətlərini bilmək, onların gender özünüdərkinə orta və ali məktəb proqramının və dərsliklərinin təsiri haqqında biliklərə malik olmaq, pedaqoji bacarıqlar, gənclərə gender dəyərlərinin aşılanması prosesində səmərəliliyi artırmaq üçün zəruri tədris materialını düzgün seçmək, onu qruplaşdırmaq, proqnozlaşdırmaq, gizli gender imkanlarını üzə çıxarmaq..." [8, s.86].

***Pedaqoji ünsiyyətdə gender bacarıqları bu komponentləri birləşdirir:*** *təhsilalanların gender xüsusiyyətlərini, gender identikliyini və gender baxımından mövqeyini nəzərə almaq bacarığı, onların şəxsi fikirlərinə tolerant münasibət, təhsildə bu gün də öz mövcudluğunu müəyyən qədər saxlayan gender stereotiplərinə qarşı mübarizə aparmaq.*

***Şəxsi gender bacarıqlarına daxil olan komponentlər:*** *geniş gender dünyagörüşünə malik olmaq, özünün və təhsilalanların gender fərdiliyini öyrənmək və inkişaf etdirmək, onlarda hər iki cinsə qarşı tolerant münasibət aşılamaq.*

Müəllimlərinin gənc nəslə gender dəyərlərini aşılanmasında onun uşaq və gənclərin gender xüsusiyyətlərini öyrənməsi ilə yanaşı, özünün də gender fərdiliyini müəyyən etməsi üçün özünüdiaqnozlaşdırmanı daha yaxşı bilməsi lazımdır. Gender bacarıqlarını mənimsəmiş pedaqoq dərsin gedişində qrupun gender tərkibini, cinslərin psixofizioloji xarakteristikasını (*hafizə, qavrama, riyazi və nitq qabiliyyətlərini, hislərini, utancaqlığını, maraqlarını, özünüqiymətləndirməni, özünənəzarəti, daxili motivasiyanı, ünsiyyət üslubunu*), hər bir təhsilalanın fərdi gender səviyyəsini nəzərə almalıdır. Bu, həm də gənc nəslin gender baxımından inkişafını stimullaşdırmaq məqsədi ilə ona öz qabiliyyətlərini, yaradıcı potensialını, gender unikallığını üzə çıxartmaqda yardım edə bilər. Fikrimcə, təlim-tərbiyə prosesində bu xüsusiyyətlər diqqət mərkəzində saxlanılmalıdır: təlim prosesində oğlan tələbələrin yüksək axtarıcılıq fəallığı, riyazi düşüncəsinin daha çox dominant olmasının nəzərə alınması; təlim prosesində qızların ətrafdakılar ilə ünsiyyət maraqları, nitq qabiliyyətləri nəzərə alınmaqla, onları daha müstəqil olmağa yönləndirmək lazımdır.

Oğlan və qız tələbələrin davranışlarının müşahidəsindən və təhlilindən belə nəticəyə gəlmək olar:

• *Onların psixoloji və fəaliyyət cəhətdən fərqli olması: oğlanlar daha çox səs-küy salırlar. Ancaq bu o demək deyil ki, onların nöqsanları daha çox olur, əslində qızların gizli xarakterdə olan "nəzərə çarpmayan, sakit" nöqsanları daha çox olur.*

• *Oğlanlarla hər hansı bir qarşıdurma və ya konflikt zamanı qızlar özlərindən böyüklərə şikayət etməyə daha çox meyillidirlər ki, bu da onların daha çox "zərərçəkən tərəf" kimi qəbul edilməsinə şərait yaradır. Bunu gender aspektindən səhv hesab etmək olar. "Oğlanlar qızlara nisbətən daha hərəkətli olduqlarından onlar dərslərdə daha çox nizam-intizamı pozan, dərsarası tənəffüslərdə səs salan tərəf kimi qəbul edilirlər" [8, s.83].*

Gender bacarıqlarına malik müəllim dərs prosesində oğlan və qızların fəaliyyətlərinin qiymətləndirilməsindəki fərqləri gender süzgəcindən keçirtməlidir və onların bu sahədə cinsi-rol xüsusiyyətləri nəzərə alınmalıdır. Belə ki, oğlanlarda qızlara nisbətən axtarıcılıq qabiliyyəti daha yüksək olur, onlar yeni ideyalarla çıxış edirlər. Ancaq bu ideyaların reallaşdırılmasında qızlar qədər dəqiq və səliqəli ola bilmirlər. Bunu hər iki professorun – Ə.S.Bayramov və Ə.Ə.Əlizadənin fikirləri də təsdiq edir: "Qızlar oğlanlara nisbətən daha tez sözə baxır, tapşırılmış iş üçün məsuliyyət hiss edir və adətən, onu həvəslə yerinə yetirməyə çalışırlar" [2, s.412]. Qiymətləndirmədə müəllim tərəfindən verilən qiymət bir çox hallarda subyektiv xarakter daşıyır və müəllimin gender dünyagörüşünün hansı səviyyədə olmasından asılıdır. Burada cinslər arasındakı obrazlı və intuitiv qavramadakı fərqlərin nəzərə alınması vacibdir. "Oğlana təsir etmək üçün onun maraqlarını nəzərə almaq, ona verilən tələbləri məntiqi surətdə əsaslandırmağı bacarmaq zəruridir. Qızlara təsir etmək üçün isə hislər vasitəsilə təsir etmək lazımdır" [2, s.411].

Müasir müəllim modelinin formalaşmasında müəllimin gender bacarıqlarını elmi əsaslarla mənimsəməsi, gender yanaşmasının elmi-nəzəri konsepsiyasına dərindən bələd olması pedaqoji zərurət kimi dəyərləndirilir. Bunun üçün müəllim gender təhsilinin prinsip və metodlarını, vasitələrini mənimsəməli, dərsin daha səmərəli olması üçün onlardan yerində istifadə etməlidir. Pedaqogikada gender yanaşması yeni istiqamət olduğu üçün onun nəzəri əsaslarının təsnifatının verilməsi zəruridir və bura daxil olan qanunauyğunluqlar aşağıdakılardır:

**1. Qrupun tərkibinin tarazlığı** qanunauyğunluğu (gender tarazlığı prinsipindən irəli gəlir). Bu qanunauyğunluğa görə, hər bir qrup daxilində cinslərarası tarazlıq gözlənilməlidir, əks təqdirdə cinslərin birinin dominantlığı şəraitində digərinin gender xüsusiyyətləri kölgədə qalacaqdır.

**2. Gender identikliyinin formalaşması qanunauyğunluğu.** İnsanın kişi və ya qadın qrupuna mənsubiyyətini xarakterizə edən bu qanunauyğunluğa görə əgər oğlan və qızlarda gender idealları formalaşıbsa, bu, hər iki cinsin nümayəndələrinin adekvat qiymətləndirilməsinə və cinslərarası mədəniyyətə dəlalət edir [3, s.61].

**3. Müəllim (pedaqoq) tərkibinin gender bərabərliyi** qanunauyğunluğu. Bu qanunauyğunluq müasir məktəblərdə təəssüf ki, hökm sürən gender disbalansını ifadə etməklə bərabər, onun

həllinə yönəlmişdir. Bu xüsusda qeyd etdiyim kimi, "təəssüf ki, bu qanunauyğunluq ancaq ali təhsil səviyyəsində müəyyən qədər reallaşa bilir, çünki orta təhsil müəssisələrində kişi müəllim-pedaqoq, demək olar ki, qalmamışdır. Bu qanunauyğunluğun geniş tətbiqi uşaqlarda gender özünüdərketməsinin formalaşmasına, müsbət gender təcrübəsinin qazanılmasına, gender davranış modelləri haqqında biliklərin genişlənməsinə, cinslərarası münasibətlərin qarşılıqlı hörmət və ehtiramın əsasında qurulmasına şərait yarada bilər" [8, s.42-43].

**4. Eqalitarizm prinsipinə əsaslanan gender davranış modelinin formalaşması** qanunauyğunluğu tərbiyə prosesində qadın və kişi davranışında eqalitar mövqeyin nəzərə alınmasını və hər iki cins üçün eyni münbit şəraitin yaradılmasını nəzərdə tutur.

**5. Əsasını gender identikliyi prinsipindən götürən gender xarakterinin formalaşması** qanunauyğunluğu qrup daxilində oğlanlarda kişilik xüsusiyyətlərinin, qızlarda isə qadınlıq xüsusiyyətlərinin formalaşmasını ehtiva edir.

Gender bacarıqlarının formalaşmasında nəzərə alınması vacib olan komponentlərdən biri gender pedaqogikasının prinsipləridir və onları belə qruplaşdırmaq daha məqsədəuyğundur:

***1. Yalnız gender xüsusiyyətlərini deyil, eyni zamanda insanın sosial inkişafına təkan verən ümumi prinsiplər:*** *təbiətəmüvafiqlik prinsipi, mədəniyyətəmüvafiqlik prinsipi, fərdi yanaşma prinsipi, dəyər çalarlı istiqamət prinsipi, özünüaktuallaşdırma prinsipi, seçmək prinsipi, yaradıcılıq və uğur prinsipi, inam və dəstək prinsipi.*

***2. Ancaq gender yanaşmasını özündə ehtiva edən prinsiplər:*** *eqalitarizm prinsipi, gender identikliyinin formalaşması prinsipi, gender tarazlığı prinsipi, mühiti nəzərəalma prinsipi.*

Müəllimin gender bacarıqlarına hansı səviyyədə malik olmasını müəyyən edən komponentlərdən biri də onun dərs prosesində hansı metodlardan istifadə etməsidir. Bu metodlara *dialoq metodu; konkret gender situasiyalarının analizi və gender problemlərinin qrup halında diskussiya yolu ilə təhlili; oyun metodları (gender oyunları); pedaqoji dəstək; seçim vəziyyətinin yaradılması metodu daxildir.*

**Nəticə.** Son olaraq demək olar ki, müasir müəllim modelində yeni pedaqoji yanaşmalar müasir elmi istiqamətlərdən biri olan gender bacarıqlarının digər pedaqoji qabiliyyətlərlə sintezini irəli sürür. Gender bacarıqları müəllimin həm təlim, həm də tərbiyə prosesində daha yaxşı nəticələr əldə etməsinə şərait yaradır və hər iki cins üçün təlim imkanlarının reallaşdırılmasını şərtləndirir. Pedaqoji prosesin əsas simalarından biri olan müəllim cəmiyyətin təhsil sistemi qarşısında qoyduğu sosial sifarişlərin həyata keçirilməsində fəal rola malikdir. Təhsil vasitəsilə hər iki cinsin özünü reallaşdırmasının gələcək perspektivlərinin konturları müasir müəllimin fəaliyyətində əsas prioritetlərindən biri kimi ortaya çıxır. Demokratik cəmiyyətin əsas göstəricilərindən biri olan gender bərabərliyi, gələcək nəsilləri tərbiyə edən müəllimlərin bu dəyər ruhunda fəaliyyətini aktuallaşdırır. Müasir müəllim gender bacarıqları ilə bərabər, gender mədəniyyətinin daşıyıcısı kimi şagirdlərinə nümunə rolunu oynayır. Onu da qeyd edək ki, məqalədə irəli sürülən ideyalar pedaqogika elminin məzmununu müasirlik baxımından daha da zənginləşdirə bilər. Eyni zamanda dərs prosesində genderlə bağlı problemlərin həllində, müəllimlərin gender bacarıqlarını mənimsəmələrinə kömək edə bilər.

## İstifadə edilmiş ədəbiyyat


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, "Çinar-çap" nəşriyyatı, 2006.
3. Gender terminlərinin izahlı lüğəti (tərtib edən və redaktoru R.İbrahimbəyova). Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2005.
4. Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı, "Yazıçı" nəşriyyatı, 1985.
5. İlyasov M. Müasir təhsil: Ənənədən innovasiyaya. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2021.
6. İbrahimov F., Hüseynzadə R. Pedaqogika (dərs vəsaiti). 2 cilddə, I cild. Bakı, "Mütərcim" nəriyyatı, 2013.
7. Mirzəzadə R. Gender: cəmiyyət, insan hüququ, siyasət (tarixi, fəlsəfi və siyasi-hüquqi istiqamətlər). Bakı, "Adiloğlu" nəşriyyatı, 2003, 419 s.

8. Mollayeva E. Pedaqoji kadr hazırlığının gender aspektləri. Bakı, “Elm və təhsil” nəşriyyatı, 2021.

9. Каменская А.Н. Гендерный подход в педагогике. (дисс... док. пед. наук). Ростов-на-Дону, 2006.

10. Надолинская Л.М. Влияния гендерных стереотипов на воспитание и образования. Педагогика, 2004, №5, с.30-35.

11. Штылева Л.В. Становление гендерного подхода в высшем педагогическом образования общества. Педагогика, Москва, 1998, с.227-234.

**E.Mollayeva**

## The modern teacher model: an attitude at the level of the synthesis of the traditional and the new approach to pedagogical abilities

**Abstract**

In the article, a new approach to the teacher's pedagogical abilities in the science of modern pedagogy - the pedagogical importance of including gender skills among these abilities was widely analyzed, as well as the components and levels of gender skills, the research of methods, principles and tools necessary for teachers in this direction, a new scientific field in the modern teacher model approaches related to gender studies have been reflected. In the research work, the rich and varied content of the teaching profession, which is the most valuable and one of the first professions among the professions, has been widely analyzed, and the appreciation given to this profession in various historical formations once again confirms its pedagogical importance.

**Э.Моллаева**

## Модель современного учителя: отношение на уровне синтеза традиционного и нового подхода к педагогическим способностям

**Аннотация**

В статье широко трактуется новый в современной педагогической науке подход к педагогическим способностям учителя - педагогическая значимость включения в число этих способностей гендерных умений. А также здесь компоненты и уровни гендерных навыков, исследование методов, принципов и инструментов, необходимых учителям в этом направлении, подходы, связанные с гендерными исследованиями, которые являются новым научным полем в модели современного учителя. В статье широко проанализировано богатое и разнообразное содержание профессии учителя, которая является наиболее ценной и одной из первых профессий среди профессий, а оценка, данная этой профессии в различных исторических формациях, еще раз подтверждает ее педагогическую значимость и важность.

*Peşə təhsili və insan kapitalı. Cild 7, №1, 2024, s.26-32*

# “CƏMİYYƏTİ-XEYRİYYƏ”, “NİCAT” VƏ “NƏŞRİ-MAARİF” XEYRİYYƏ CƏMİYYƏTLƏRİNİN AİLƏ TƏRBİYƏSİNİN İNKİŞAFINA TÖHFƏSİ



**Səbinə Cəfərova,**
*Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasının müəllimi*
*e-mail: sabina_16_86@mail.ru*

**UOT:** 37

**Xülasə**. *Azərbaycan xalqının min illər boyu təhsillə bağlı yaratdığı zəngin sərvəti olan mənəvi dəyərlər xronoloji ardıcıllıqla və mərhələlərlə sistemli şəkildə öyrənilməmişdir. Xalqın tərbiyə və təhsil sahəsindəki zəngin irsini, maarifpərvər ziyalıların, görkəmli şəxsiyyətlərin mütərəqqi ideya və mülahizələrini, xeyriyyə cəmiyyətlərinin Azərbaycan ailələrinə təsirini və bu ailələrin inkişafına göstərdikləri köməklikləri öyrənməklə böyük uğurlar əldə etmək olar.*

*XX əsrin əvvəllərində insanlar arasında savadın yayılması, ailələrin övladlarını elm və təhsilə cəlb etmək istəyi açıq şəkildə nəzərə çarpırdı, lakin bir çox ailələr nə maddi, nə də mənəvi cəhətdən buna hazır deyildir. Bu kimi problemlərin aradan qaldırılması üçün “Cəmiyyəti-xeyriyyə”, “Nicat” və “Nəşri-maarif” xeyriyyə cəmiyyətləri qarşılarına bir çox vəzifələr qoymuşdur. Belə ki, bu cəmiyyətlər Bakıda və ona yaxın rayonlarda əhali arasında savadsızlığın aradan qaldırılması ilə bağlı axşam kursları açmış, müxtəlif xeyriyyə konsertləri, teatrlaşdırılmış tamaşalar, ədəbi, elmi və kütləvi mövzularda mühazirə və seminarlar təşkil etmiş, kasıb ailələrin uşaqlarının maddi xərclərini öz üzərlərinə götürmüş, onlara təqaüdlər ayırmışdılar.*

*Tədqiq edilən xeyriyyə cəmiyyətləri insanların bilik, savad, təhsil və xalqın mədəni səviyyəsinin yüksəldilməsi kimi humanitar ideyaların həyata keçirilməsi, eyni zamanda maddi baxımdan imkansız ailələrin uşaqlarının təhsilə cəlb edilməsi, onlara yardımların edilməsi ilə fərqlənirdi. Adları çəkilən xeyriyyə cəmiyyətlərinin fəaliyyəti bir daha sübut edir ki, onların vasitəsilə xalqın - yoxsullar, imkansızlar, kasıbların arxasında duran cəmiyyətin üzvləri onların hərtərəfli inkişafına şərait yaratmış və gələcək nəsillər üçün nümunə olmuşdur.*

***Açar sözlər:*** *tərbiyə, ailə, cəmiyyət, inkişaf, Azərbaycan, təhsil.*
***Key words:*** *upbringing, family, society, development, Azerbaijan, education.*
***Ключевые слова:*** *воспитание, семья, общество, развитие, Азербайджан, образование.*

Milləti millətdən fərqləndirən bir çox spesifik cəhətlər vardır. Xeyirxahlıq etmək, mərhəmət, şəfqət göstərmək və digər mənəvi xüsusiyyətlər Azərbaycan xalqının simasını səciyyələndirən humanizm göstəricilərindəndir. “Xeyirxahlıq babalardan qalıb” zərbi-məsəli ilə tariximizi vərəqləsək görərik ki, hələ XII əsrdə xeyriyyəçi təriqətlər, cəmiyyətlər mövcud olmuşdur. Bu təşkilatlardan biri “Əxilər” (Qardaşlar) təşkilatı idi ki, bu təşkilatın üzvləri də mübariz, xeyirxah adamlar olmuşlar. Ərəb səyyahı kimi tanınan İbn Bəturə əxilərin xeyirxah görüşlərini belə təqdir etmişdir: “Bütün dünyada

əxilər kimi kimsəsizlərə və yurdsuzlara bu qədər qayğı göstərən, acları doyuzduran, ehtiyacı olanlara kömək edən, zorakılığa qarşı çıxan... insanlar tapmaq mümkün deyil" [3, s.169-170].

XIX əsrin axırlarına qədər mövcud olmuş Şubanı dağındakı Atəşgah məbədi ətrafındakı torpaqlar Abdal Dərviş adlı bir şəxsə məxsus imiş. O, dayaz quyular qazdırır, oradan hasil etdiyi nefti satıb ehtiyac içində olan kasıblara, xəstələrə, yiyəsiz uşaqlara və dul arvadlara kömək edərmiş [16, s.4].

Göründüyü kimi, xeyriyyəçilik ənənələri dərin köklərə malikdir. Təbii ki, bu dərin köklərin başlanğıcı islamiyyətə söykənir. Həzrəti Məhəmməd hər bir hədisində mərhəməti, yaxşılığı, xeyirxahlığı təbliğ edir. "Allahın ən çox sevdiyi ev yetimə hörmət edilən evdir", "Bir nəfər Rəsuli-Əkrəmə (S) öz qəlbinin bərkliyindən şikayət etdikdə Həzrəti Peyğəmbər buyururdu: "Yetimin başına sığal çək, fəqiri yedizdir" [16, s.11]; "Müsəlman qardaşının ehtiyacını ödəmək məqsədi ilə yol gedən bir kimsənin hər addımına Allah-Təala yetmiş savab yazar və yetmiş günahından keçər"; "Dul qadına və fəqirə yardım göstərən adam... gündüzləri oruc tutub, gecələri ibadətdə keçirən kimsə ilə bir tutular"; "Kim bir müsəlman dərdini yüngülləşdirərsə, Allah-Təala o adamın qiyamət günündə sıxıntılarını yüngülləşdirər"; "İnsanların ən yaxşısı camaatın xeyrinə çalışandır" [16, s.24-25].

XIX əsrin sonu XX əsrin əvvəllərində xurafatçılıq və mövhumatçılıq o qədər tüğyan edirdi ki, hətta yeni üsullu mədrəsələr, məktəblər mollalar, axundlar tərəfindən qara camaata şeytan yuvası kimi aşılanırdı. Demokrat maarifçi Əhməd bəy Ağayev həyəcan dolu fikrini belə ifadə edirdi: "Aya, biz müsəlmanlar... qiyamətə gəlib peyğəmbərimiz Məhəmməd-əl-Mustafa hüzuruna nə cür və nə sözlər ilə müşərrəf olacaq, hanki mədrəsələri, məktəbləri, darülumları nişan verəcəklər?" [8].

Azərbaycanda xeyriyyəçilik ənənələri orta əsrlərdə mövcud olsa da bu müəssisələr "xeyriyyə cəmiyyətləri" adı altında rəsmiləşdirilməmişdir. Bu müəssisələr xeyirxah işlərin həyata keçirilməsində "yetimlər evi", "təlim evləri" və s. adlar altında fəaliyyət göstərirdi. Daha sonra XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən Azərbaycanda xeyriyyəçilik fəaliyyəti geniş vüsət almağa başlayır. Xeyriyyəçiliyin geniş miqyas alması, ilk növbədə, Azərbaycanda kapitalist münasibətlərinin inkişaf etməsinə, eyni zamanda bu dövrlərdə ictimai-iqtisadi həyatın inkişafı ilə daha sıx bağlı olmuşdur. Bu dövr Azərbaycan mədəniyyəti, elmi və iqtisadiyyatının müəyyən sahələrinin inkişafında dəyişikliklərlə yanaşı, qabaqcıl rus və Azərbaycan mədəniyyətinin qarşılıqlı təsiri üçün münbit şəraitin yaradılması, eləcə də Azərbaycan mədəniyyətinin inkişafı ilə səciyyələnir.

Ümummilli lider Heydər Əliyev əsrin əvvəllərində Azərbaycanın qabaqcıl mütərəqqi elm xadimlərinin təhsil və tərbiyənin inkişafındakı rolunu yüksək qiymətləndirərək vurğulamışdır: "Azərbaycanın təhsili, məktəbləri sona çatan XX əsrdə çox böyük nailiyyətlər əldə edib. Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri xalqımızı savadsızlıqdan, ətalətdən çıxartmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər. Əgər Azərbaycan Respublikasının təhsil tarixi yazılsa (bu tarix yazılmalıdır), şübhəsiz ki, hər mərhələdə görülən işlər orada əksini tapacaq və öz qiymətini alacaqdır" [5, s.12]. Qeyd etmək yerinə düşər ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın mütərəqqi pedaqoqlarının ideyaları Azərbaycan ailələrindən də yan ötməmişdir. Bu dövrdə fəaliyyət göstərən xeyriyyə cəmiyyətləri, ictimai pedaqoji təşkilatlar uşaqların inkişafına, ailələrdə geriliyin, nadanlığın aradan qaldırılmasına, uşaqların təhsilə cəlb olunmasına şərait yaradırdı.

Azərbaycanın iqtisadiyyatı, mədəniyyəti inkişaf edib formalaşdıqca əhali arasında təbəqələşmə prosesi daha da dərinləşirdi. Kapitalist münasibətlərinin ziddiyyətləri xalqı ciddi maddi çətinliklərlə üzbəüz qoyurdu. Belə ki, bu cür ictimai-iqtisadi çətinliklərlə dolu şəraitdə xalqın dolanışığı, maarifləndirilməsi, təhsilləndirilməsi, ailədaxili münasibətlərin yüksəldilməsi, qadın azadlıqları, ailədə uşaqların yüksək səviyyədə tərbiyə olunması demokratik ruha, düşüncəyə malik mütərəqqi ziyalıları düşündürən mühüm məsələlər idi. Bu məsələlərin tez bir zamanda həllinin tapılmasında yeganə çıxış yolu xeyriyyə cəmiyyətlərinin yaranması idi. XX əsrin əvvəllərində Bakıda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" ("Cəmiyyəti-xeyriyyə"), "Nəşri-maarif", "Nicat", "Səfa", "Səadət" və s. xeyriyyə cəmiyyətləri fəaliyyət göstərirdi. Bundan başqa, bu xeyriyyə cəmiyyətlərinin bölgələrdə də şöbələri mövcud idi. Xeyriyyə cəmiyyətlərinin yaranmasında əsas məqsəd əhali arasında savad və maarifin ya-

yılması, kitabxana və qiraətxanaların təşkili, kasıb ailələrin uşaqlarının savadlanması, kimsəsizlərə, evsizlərə, kasıblara maddi yardımların edilməsi və digər humanist ideyaların həyata keçirilməsi idi.

Azərbaycanda xeyriyyə cəmiyyətlərinin yaranma tarixi ilə bağlı ziddiyyətli fikirlər mövcud olsa da, əldə edilən arxiv sənədlərinə nəzər yetirdikdə bu sahədə əsas mənbə Həsən bəy Məlikovun (Zərdabinin) ədəbi irsidir. Məhz H.Zərdabinin "Həyat" qəzetinin 25 noyabr 1905-ci il tarixli, 107-ci nömrəsində "Cəmiyyəti-xeyriyyə binası" adlı məqaləsində Azərbaycanda ilk dəfə yaranmış xeyriyyə cəmiyyətlərinin tarixi haqqında məlumat verilir [7]. Burada qeyd olunduğu kimi, H.Zərdabinin Azərbaycanda təşkil etdiyi ilk xeyriyyə cəmiyyəti "Müsəlman şagirdlərinə yardım cəmiyyəti" olmuşdur.

H.Zərdabinin "Cəmiyyəti-xeyriyyə binası" adlı məqaləsində açıqlanır: *"1871-ci ildə mən bizim müsəlmanlar üçün bir Cəmiyyəti-xeyriyyə Nizamnaməsi tərtib edib və bir neçə qeyri adamlara da onun ərizəsinə qol çəkdirib Sərdara verib təsdiq elətdirdim. Amma mənim çağırışıma nə ki, bir qeyri-müsəlman, hətta ərizəyə qol çəkənlər də gəlmədi"* [1]. Bu məqalədən aydın olur ki, H.Zərdabi tərəfindən yaradılan "Müsəlman şagirdlərinə yardım cəmiyyəti"nin Nizamnaməsi 1871-ci ildə hökumət dairələri tərəfindən təsdiq edilmiş və 1872-ci ildə isə fəaliyyətə başlamışdır.

H.Zərdabinin təşkil etdiyi cəmiyyətin əsas məqsədi həmin Nizamnamənin birinci maddəsində belə şərh edilirdi: "İcmanın məqsədi ... bu qədər ilədur: əvvələn: bu mənzur ilə ki, Zaqafqaziyada olan müsəlmanlar üçün labüdlük üz verir ki, elmə rəqib olsunlar, çünki onların çox hissəsi fəqir olmaq səbəbi ilə elmxanələrdən uzaq yerlərdə sakin olanları üçün məqdur olmur ki, öz uşaqlarını elm, təhsil etməkə versünlər. Buna binaşəyin olunur Badkubə şəhərində məcmunƏanət ta ki, fəqir olan şəxslərdən uşaqlarına elm verməyə xahiş edənlərinə əanət etmək için" [5, s.19]. Cəmiyyətin Nizamnaməsinin birinci maddəsində vurğulanırdı ki, icmanın qarşısına qoyduğu əsas məqsədə çatmaq üçün Zaqafqaziyada olan müsəlmanların təhsil alması, elm öyrənməsi vacib və əhəmiyyətlidir. Lakin elm ocaqlarından nisbətən uzaqda yaşayan kasıb, fəqir müsəlmanların uşaqları bu vacib və əhəmiyyətli amaldan kənarda qalırlar. Çünki biçarə valideynlər öz uşaqlarını elm ocaqlarına göndərə bilmirlər. Bu səbəbdən onlar uşaqlarının təhsil almasına, oxumasına çalışır, elm öyrənməsi üçün bir çox yerlərə müraciət edirlər.

Məlum Nizamnamənin altıncı maddəsində "Cəmiyyəti-xeyriyyə"nin təşkil edilməsinin əsasən, yetim, yoxsul və kimsəsiz uşaqların təhsil alması məqsədi daşıdığı vurğulanırdı. Bu maddədə deyilirdi: "İcma şagirdlərinin cümləsinə götürüləcəkdir. Hər bir müsəlman əhalisinin ki, elm kəsb etməyə qüdrəti yoxdur və əksərən yetim olan uşaqlardır" [1].

"Müsəlman şagirdlərinə yardım cəmiyyəti"nin fəaliyyət göstərməsi üçün H.Zərdabi Bakı, Şuşa, Quba, Gəncə bəyləri və digər adlı-sanlı şəxsləri və qaziləri ilə əlaqə quraraq xeyriyyə məqsədi ilə onlardan ianələr toplamağa çalışmışdır. Lakin istədiyi dəstəyi ala bilməyən H.Zərdabi ruhdan düşməmiş, cəmiyyətin fəaliyyət göstərməsi üçün ianələr toplamağa davam etmişdir.

H.Zərdabinin yaratdığı "Cəmiyyəti-xeyriyyə" maddi çətinliklər səbəbindən bağlansa da, XX əsrin əvvəllərində yenidən bu məsələyə baxılmış, bu dəfə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin rus və Azərbaycan dillərində Nizamnaməsi hazırlanaraq Qafqaz canişinliyi idarəsinə təqdim edilmiş və 10 oktyabr 1905-ci il tarixində təsdiq edilmişdir. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin təşkili ilə bağlı "Kaspi" qəzetinin 4 aprel 1906-cı il buraxılışında qeyd edilirdi ki, kişi və qadınların sosial və mədəni istirahətini, xəstələrin müalicəsini təşkil etmək, kəndlərin təmizliyinə nəzarət, məktəbxanalar və qiraətxanalar açmaq cəmiyyətin ən başlıca məqsədlərindəndir. Arxiv sənədlərində də qeyd olunduğu kimi, 11 nəfərdən ibarət idarə heyəti ilə işə başlamış "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin təşkil etdiyi uşaq evlərində 1913-cü ilə qədər kimsəsiz uşaqlardan 91-i oğlan, 100 nəfəri isə qızlardan ibarət idi [4]. Cəmiyyət, əsasən kimsəsiz ailələrin uşaqlarına himayədarlıq edərək onların qida və geyimlə yanaşı, digər maddi və mənəvi məsələlərini də həyata keçirtməyə çalışırdı. Ümumiyyətlə, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin əsas məqsədi savadsızlığın aradan qaldırılması, insanlar arasında maarifləndirmənin yayılmasını həyata keçirtmək, eyni zamanda kasıb ailələrə köməklik göstərmək, insanların maddi rifahının yaxşılaşdırılması, valideynlərindən biri vəfat etmiş ailələrin uşaqlarını geyim,

əşya və sığınacaqlarla təmin edilməsi idi.

Arxiv sənədlərinə nəzər yetirdikdə məlum olur ki, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" Birinci Dünya müharibəsi illərində də fəaliyyətini dayandırmayaraq bir çox xeyriyyə işlərinə imza atmışdır [4]. Cəmiyyət müharibədə kimsəsiz qalan uşaqlar üçün yetimxanalar açmışdır. General Tamamşevin 1916-cı il 4 iyun tarixində "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədrinə göndərdiyi teleqramda yazırdı: *"Rəhbərlik etdiyiniz cəmiyyətin nəzdində neçə yetimxananın mövcudluğu və onlara nə qədər kimsəsizin yerləşdirilməsi, habelə onların hökumət tərəfindən tam təmin olunması və ya cəmiyyətinizin də köməyə ehtiyacı olması haqqında mənə təcili məlumat verməyinizi xahiş edirəm"* [4].

Cəmiyyətin arxiv sənədlərində rast gəldiyimiz 17 iyul 1917-ci il tarixində X.Sultanovun adına yazılmış məktubda deyilir: "130 yetim müsəlman uşağının may və iyun aylarında saxlanılmasına 2925 rubl, üçüncü rübdə isə 11.700 rubl miqdarında pul köçürülməsi haqqında sərəncam verilmişdir" [4]. Göründüyü kimi, cəmiyyət kasıb və kimsəsiz ailələrə maddi-mənəvi yardımlar göstərməklə, həmin ailələrin övladlarını sosial cəmiyyətə uyğunlaşmasına, gələcək təhsilinin qeydinə qalmasına, təlim-tərbiyə müəssisələrində uşaqlar arasında təbəqələşmənin aradan qaldırılması istiqamətində mühüm addımlar atırdı.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"ndən sonra XX əsrin əvvəllərində xeyriyyəçilik məsələləri geniş vüsət almağa başladı. Bu məqamı dəyərləndirən mütərəqqi ziyalılar xeyriyyəçilik ənənələrini daha da genişləndirərək müxtəlif xeyriyyə cəmiyyətləri yaratmağa müvəffəq oldular. 1906-cı ildə fəalliyətə başlayan, Bakı quberniyasında müsəlmanlar arasında savadı yaymaq məqsədi irəli sürən cəmiyyət – "Nicat" Xeyriyyə Cəmiyyəti olmuşdur. "Nicat" Xeyriyyə Cəmiyyətinin Nizamnaməsində göstərilən başlıca məqsəd müsəlmanlar, savadız xalq kütləsi arasında savadı yaymaq, əhalinin milli şüurunu dirçəltmək, insanlar arasında oyanışa nail olmaq, kasıb ailələrin övladlarını elmdən yayınmasının qarşısını almaq, təhsil müəssisələrinin maddi bazasını artırmaq, yeni məktəblər, fəhlələr üçün gecə kursları açmaq, xalq kitabxanaları və kütləvi qiraətxanalar təşkil etmək, milli teatr sənətini inkişaf etdirmək və digər sahələrdə xidmət göstərmək idi [10].

XX əsrin əvvəllərində artıq insanlar arasında savadın yayılması, ailələrin övladlarını elmə, savada yiyələndirmək arzusu aydın nəzərə çarpırdı, lakin bir çox ailələr nə maddi, nə də ki, mənəvi cəhətdən buna hazır deyildilər. Belə problemlərin aradan götürülməsi üçün "Nicat" Xeyriyyə Cəmiyyəti qarşısına bir çox məqsədlər qoymuşdur. Belə ki, cəmiyyət Bakı və ətraf rayonlarda əhali arasında savadsızlığın aradan qaldırılması üçün axşam kursları açmış, müxtəlif xeyriyyə məqsədli konsertlər, teatr tamaşaları, ədəbi, elmi-kütləvi mövzular üzrə mühazirə və seminarlar təşkil etmişdir. Cəmiyyətə müxtəlif illərdə Həsən bəy Ağayev, İsa bəy Aşurbəyov, Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə kimi görkəmli maarifçi və ictimai-siyasi xadimlər sədrlik etmişlər. Cəmiyyət insanlar arasında maarif və savadı yaymaqla yanaşı, "Nicat" qəzetini çap etdirmiş və ana dilli kitabların nəşr etdirilməsində mühüm addımlar atmışdır. Bundan başqa, "Nicat" xeyriyyə cəmiyyəti kasıb, kimsəsiz ailələrin uşaqlarının təhsilinə də biganə yanaşmamış, onların müxtəlif məktəblərdə təhsil almalarına şərait yaradaraq, yoxsul ailələrin uşaqlarını təqaüdlə təmin etmişdir. Cəmiyyətin təşkil etdiyi axşam kurslarında Həsən bəy Zərdabi, Mahmudbəy Mahmudbəyov, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli kimi görkəmli mütərəqqi ziyalılar muhazirələr söyləmişlər.

"Molla Nəsrəddin" jurnalı da "Nicat" xeyriyyə cəmiyyətini təqdir etmiş, bəzən də öz dili ilə satira atəşinə tutmuşdur. "Nicat" xeyriyyə cəmiyyətinin üzvü və katibi İbrahim Qasımovun, cəmiyyətin digər üzvləri Ələkbər Hüseynov, Abbas ağa Hüseynov və Cahangir xan Aşurbəyovla aralarında maddiyyatdan yaranan qarşıdurmanı tənqid etmiş və "Nicat"ın üzvlərini bir ölü ruhla müqayisə etmişdir. "Nicat" xeyriyyə cəmiyyətinin 1909-cu ildəki fəaliyyəti jurnalda belə təsvir edilir: "Budur, beş ildir hər gün eşidirəm "Nicat", "Nicat". Bir gün eşidirəm ki, Bakıda "Nicat" cəmiyyəti dünyada hər nə qədər ki, sahibsiz müsəlman balaları var, hamısına "nicat" paylayır". ...Allah "Nicat" üzvlərini ruhları ilə məşhur etsin" [6, s.22].

"Nicat" Xeyriyyə Cəmiyyəti yalnız Bakı əhalisinin yoxsul ailələrinin uşaqlarının təhsil haqlarını deyil, eyni zamanda ətraf bölgələrdən olan uşaqların da təhsil haqlarını, oxuma xərclərini, onlara təqaüdlərin verilməsini öz üzərinə götür-

müş, yoxsul, ata-anası vəfat etmiş ailələrin uşaqlarını da müxtəlif məktəb ləvazimatları və geyimlərlə təchiz etmişdir.

"Bakıda Müsəlman-Maarif Cəmiyyəti – "Nicat"ın 1907-1908-ci illər hesabatı" kitabında "Nicat"ın fəaliyyəti yüksək qiymətləndiriləcək belə şərh edilirdi: "Nicat" Maarif Cəmiyyəti Bakıda olan cəmiyyətlərin ən köhnəsi olub, yerdə qalan bütün cəmiyyətlərin müvəllidi adını almağa müstəhəqdir" [2].

XIX əsrin ikinci yarısından etibarən 1905-ci ildə inqilabın təsiri nəticəsində Azərbaycanda pedaqoji hərəkat daha da güclənmişdir. Xalq maarifi və digər sahələrdə irəli sürülən inqilabi tələblər xeyriyyə cəmiyyətlərinin inkişafında böyük qığılcıma səbəb olmuşdur. Belə xeyriyyə cəmiyyətlərindən biri də əhəmiyyətlilik dərəcəsinə görə seçilən 4 mart 1906-cı il tarixində Nizamnaməsi təsdiq edilmiş, 10 noyabr tarixində təntənəli şəkildə Bakı Dumasında açılışı olmuş "Nəşri-maarif" adlı xeyriyyə cəmiyyətidir. 1907-ci ilədək "Nəşri-maarif" Xeyriyyə Cəmiyyəti "Bakı quberniyasının müsəlman əhalisi arasında savadı genişləndirən Bakı cəmiyyəti" adlandırılırdı. "Nəşri-maarif" Xeyriyyə Cəmiyyətinin əsas məqsədi əhalinin savadlanması, maarifləndirilməsi, qiraətxana, kitabxanaların təşkili və s. məsələlər idi. Cəmiyyətin Nizamnaməsi 4 bölmə və 40 maddədən ibarət idi. "Nəşri-maarif" Xeyriyyə Cəmiyyətinin qarşısında duran ən ümdə məsələ xalq kütlələri arasında savadın yayılması, dərsliklərin tərtibi və nəşri, ədəbi gecələrin təşkili, pedaqoji kursların təsis edilməsi ilə xalq müəllimlərinin hazırlanması, elmi və bədii söhbətlərin, seminarların, keçirilməsi idi. Qeyd etmək lazımdır ki, "Nəşri-maarif" Xeyriyyə Cəmiyyətinin qurucuları Azərbaycanda və Bakıda ailə tərbiyəsi məsələsinə də biganə yanaşmamış, bu istiqamətdə böyük işlər görmüşdülər. Belə ki, "Nəşri-maarif" Xeyriyyə Cəmiyyətinin qəbul və təsdiq edilmiş Nizamnaməsində kasıb, imkansız ailələrin uşaqlarının orta və ali təhsil müəssisələrinə qəbulu, təhsillərinin tamamlanmasına maddi yardım, kimsəsiz, yetim uşaqların himayəyə alınması və ibtidai təhsil almalarına qayğı göstərmək, o cümlədən ailələr arasında nadanlığın, cəhalətin aradan qaldırılması istiqamətində müxtəlif işlər aparmaq, seminarlar təşkil etmək, imkansız ailələrə pul yardımları ilə yanaşı, paltarlarla təmin edilməsi də vacib məsələlərdən hesab edilirdi [9]. Arxiv sənədlərinə nəzər yetirdikdə "Nəşri-maarif" Xeyriyyə Cəmiyyətinin fəaliyyətinə yalnız cəmiyyət üzvləri deyil, bütün Azərbaycan xalqının maraq göstərdiyini və maddi ianələr topladığının şahidi oluruq. Belə ki, bu cəmiyyətin ətrafında elə görkəmli insanlar toplanmışlar ki, bu şəxslər, nəinki müsəlmanlar arasında savadın, elmin yayılması, eyni zamanda xalqın milli şüurunun oyanmasını, onun inkişafını tələb edən və maraq göstərən insanlar idilər [9].

Hacı Zeynalabdin Tağıyev 12 fevral 1908-ci il "Təzə həyat" qəzetinin 31-ci nömrəsində "Mənim təcrübəmdən" adlı məqaləsində deyirdi: "Kasıb olduqları üçün atamdan və anamdan məhəbbət və nəvazişdən başqa bir şey görməmişəm və indiki vəziyyətimə görə bu məhəbbətə və nəvazişə borcluyam..." [13]. Yenə həmin məqalədə Tağıyev vurğulayırdı: "Xalqımın maariflənməsi və tərbiyələnməsi (təhsillənməsi) zəruriyyətini görərək mən qüvvəm çatan qədər kömək etməkdən çəkinmədim. Bunu isə kiçik uşaqların tərbiyəsi (təhsili) və maarifləndirilməsində, böyüklər üçün isə kitab və qəzetlərin nəşrində gördüm. Bu işə qayğı göstərdim və göstərməkdə davam edəcəyəm. Söylədiklərimə yekun vurarkən, mən həqiqətən də başa düşdüm ki, xalqın gələcək xoşbəxtliyi, dəyanəti və irəliləyişi... tərbiyə (təhsil) ilə bağlıdır..." [13]. Bu misralar Azərbaycan xalqının xeyiyyəçi oğlu H.Z.Tağıyevin milləti, onun gələcək rifahı üçün dayanmadan çalışdığının və bu rifahı təhsildə, tərbiyədə gördüyünün bir daha sübutudur.

Sonralar "Nəşri-maarif" Xeyriyyə Cəmiyyətinin Zaqatala və Şəkidə şöbələri açılmış, bu şəhərlərdə də maarifləndirmə, savadlandırma işləri aparılırdı. Cəmiyyət tərəfindən təşkil edilən məktəblərə müxtəlif ailələrdən uşaqlar cəlb olunaraq adı çəkilən məktəblərdə şagirdlərə dövrün tələblərinə uyğun biliklər verilirdi. "Nəşri-maarif" Xeyriyyə Cəmiyyətinin kasıb ailələrə göstərdiyi qayğı danılmazdır. Arxiv sənədlərində qeyd edilir ki, Bakı dənizçilik məktəbində oxuyan və övladlarının təhsil haqlarını ödəyə bilməyən bir qrup ailə məktubla övladlarının təhsil haqlarının ödənilməsi üçün cəmiyyətə müraciət etmiş və "Nəşri-maarif" cəmiyyəti 8 kasıb ailənin uşaqlarının təhsil haqlarını öz üzərinə götürmüşdür [9]. Cəmiyyət 1908-1912-ci illər ərzində Bakı texniki məktəbində təhsil alan 4 kasıb ailənin uşağına da himayədarlıq etmiş və onların məktəbi bitirənə qə-

dər təhsil haqlarını bütünlüklə təmin etmişdir [9].

"Nəşri-maarif" Xeyriyyə Cəmiyyətinin Bakı ətrafında yerləşən 13 qəsəbədə açdığı məktəblərdə 887 oğlan, 55 qız təhsil alırdı [6, s.12]. Cəmiyyət 1915-1917-ci illərdə kasıb ailələrin övladlarının təhsil haqlarını ödəməklə yanaşı, 10 imkansız ailələrdən olan şagirdləri Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəblərinin keçmiş direktoru A.T.Tkorfevskinin adına təsis olunmuş təqaüdlə təmin etmişdir [9]. Qeyd etmək lazımdır ki, "Nəşri-maarif" Xeyriyyə Cəmiyyəti kasıb ailələrin uşaqlarının yalnız Azərbaycanda deyil, eyni zamanda müxtəlif ölkələrdə – Türkiyə, Rusiya, Gürcüstan, Ukraynada təhsil almalarını təmin etmiş, həmçinin bu universitetlərdə oxumaları üçün təhsil haqlarını da öz üzərinə götürmüşdür. Bu kimi xeyriyyə yardımlarından məmnun qalan M.Ə.Rəsulzadə yazırdı: "Cəmaətimizin maarifə olan ehtiyacı günü-gündən artır. Mədəniyyət kəsb etmək və qonşulara çatmaqda olunan sürətli qədəm get-gedə çoxlaşır" [12, s.24].

"Nəşri-maarif" Xeyriyyə Cəmiyyəti Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti ilə bərabər ailə himayəsindən məhrum məktəbyaşlı yetim uşaqların məktəblərə bölgüsündə köməklik göstərirdi. Belə ki, 13 avqust 1915-ci ildə idarənin iclasında 6 oğlan və 5 yetim qızın cəmiyyət məktəbində oxuması məsələsinə baxılmışdır [2]. Bundan başqa, cəmiyyət Bakıya məskunlaşmağa gələnlərin məişət şəraitinin yaxşılaşdırılması və himayələrində olan yetimlərin, müharibədə həlak olmuş ailələrin uşaqlarının yaşayış şəraitinin yaxşılaşdırılması üçün də müxtəlif addımlar atırdı. Cəmiyyətin 1914-cü il hesabatında qeyd olunur ki, aşağıda adları çəkilən şagirdlərin ailədə maddi vəziyyəti aşağı olması səbəbi ilə onlara təqaüd ayrılmışdır: Xosrov bəy Həsənbəyov Bakı realni məktəbinin şagirdi (1913-1914) – 50 rubl, Məmməd ağa Əskərov özəl kurs şagirdi – 30 rubl, T.Zamanova – Aleksandrovski rus-müsəlman qız gimnaziyasında oxumasına görə 50 rubl, Xavər Şabanova eyni gimnaziyanın pansionunda yaşamaq üçün – 100 rubl və s. [9]. Göründüyü kimi, cəmiyyətin əsas məqsədi yoxsul ailələrin övladlarını təhsilə cəlb etmək, onların maddi rifahının yüksəldilməsinə şərait yaratmaq olub.

**Nəticə.** Yazılanlardan aydındır ki, bəhs edilən xeyriyyə cəmiyyətləri xalqın elmə, savada, təhsilə yiyələnməsi, mədəni səviyyəsinin yüksəldilməsi, eyni zamanda kasıb, kimsəsiz ailələrin uşaqlarının təhsilə cəlb edilməsi, onlara himayədarlıq etmək kimi humanist ideyaları həyata keçirtmişdir. Adları çəkilən xeyriyyə cəmiyyətlərinin tarixi və göstərdiyi fəaliyyətlə bağlı əldə edilən arxiv materialları bir daha sübut edir ki, onların vasitəsilə xalq, xalq kütlələri, kasıb təbəqə, kimsəsizlər, yoxsulların arxasında dayanan cəmiyyət üzvləri onların hərtərəfli inkişafına şərait yaratmış, gələcək nəsillərə örnək olmuşdur.

## İstifadə edilmiş ədəbiyyat

1. Ağayev R. Azərbaycanda xeyriyyəçilik hərəkatı və Həsən bəy Zərdabi. Bakı, "Kaspi" qəzeti, 2011, 11 mart, s.12.

2. Azərbaycanın ilk qeyri-hökumət təşkilatları. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013, 95 s.

3. Azərbaycan tarixi (üç cilddə, I cild) Bakı, 1961.

4. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyəti (1914-1916-cı illər). Fond 335, s.v. 2.

5. Cavadov C.Q. Azərbaycanda xeyriyyəçilik hərəkatı (XIX əsrin sonu və XX əsrdə). Bakı, "Elm" nəşriyyatı, 1999, 256 s.

6. Əhmədov H.H. Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti. Bakı, "Mütərcim" nəşriyyatı, 1997, 56 s.

7. Zərdabi H. Cəmiyyəti-xeyriyyə binası. "Həyat" qəzeti, 25 noyabr, 1905, №107.

8. Ağayev Ə. "İrşad" qəzeti, 6 mart 1907, №68, 2 s.

9. "Müsəlman əhalisi arasında savadı genişləndirən Bakı cəmiyyəti"nin Nizamnaməsi (Nəşri-maarif – 1913). Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi, Fond №46, siyahı №2, iş №157, vərəq 17.

10. "Nicat" maarif cəmiyyətinin Nizamnaməsi (5 noyabr 1907-ci il). Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi, Fond №46, siyahı №2, iş №78, vərəq 1-2.

11. Həsənov F. 1905-1907-ci illər inqilabı dövründə Azərbaycanda xalq maarifi işinin təşkili və məktəb təhsilinin məzmunu (pedaqogika üzrə fəlsəfə doktoru dis.). Bakı, APİ, 2004, s.22.

12. Rəsulzadə M.Ə. Xeyriyyə və maarif cəmiyyətlərimiz. "Tərəqqi" qəzeti, 17 oktyabr, 1908, №78, 3 s.

13. Tağıyev H.Z. Mənim təcrübəmdən. "Tazə Həyat" qəzeti, 1907, №182, s.1-5.

14. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, 1989.

15. 101 hədis. Bakı, 1990.
16. Бакинское Благотворительное Общество, Отчет о деятельности правления, за 1913. Баку, газета Труд, 1914, 87 с.

S.Jafarova

## Contribution of "Society-charity", "Nijat" and "Nashri-maarif" charities to the development of family upbringing

**Abstract**

Moral values, a rich treasure created by the Azerbaijani people over thousands of years in connection with education, have not been systematically studied in chronological order and stages. One can achieve great success by studying the rich heritage of the people in the field of upbringing and education, progressive ideas and opinions of enlightened intellectuals and prominent figures, the influence of charitable societies on Azerbaijani families, and their assistance to these families.

At the beginning of the 20th century, the spread of literacy among people was clearly noticeable, the desire of families to involve their children in science and education, but many families were not ready for this, either financially or morally. To eliminate such problems, the charitable societies "Jamieti Khairiya", "Nijat" and "Nashri-maarif" have set themselves many tasks. Thus, the society opened evening courses in Baku and surrounding regions to eliminate illiteracy among the population, organized various charity concerts, theatrical performances, lectures and seminars on literary, scientific and popular topics, took on the financial expenses of children from poor families and provided them with scholarships.

The charitable societies studied were distinguished by the implementation of humanitarian ideas, such as increasing the knowledge, literacy and education of the people, the cultural level of the people, and at the same time involving children from low-income families in education and providing assistance to them. The activities of the mentioned charitable societies once again prove that through them the people, the poor, the disadvantaged, members of society for the poor, created the conditions for their comprehensive development and became an example for future generations.

С.Джафарова

## Вклад благотворительных организаций «Джамиати-хайрия», «Ниджат» и «Нашри-маариф» в развитие семейного воспитания

**Аннотация**

Нравственные ценности, богатое сокровище, созданное азербайджанским народом на протяжении тысячелетий в связи с образованием, не подвергались систематическому изучению в хронологическом порядке и этапах. Можно добиться больших успехов, изучая богатое наследие народа в области воспитания и образования, прогрессивные идеи и мнения просвещенной интеллигенции и видных деятелей, влияние благотворительных обществ на азербайджанские семьи, их помощь этим семьям.

В начале XX века было явно заметно распространение грамотности среди людей, стремление семей привлекать своих детей к науке и образованию, но многие семьи не были к этому готовы ни финансово, ни морально. Для устранения подобных проблем благотворительные общества «Джамиети Хайрия», «Ниджат» и «Нашри-маариф» поставили перед собой множество задач. Так, общество открыло в Баку и близлежащих регионах вечерние курсы по ликвидации неграмотности среди населения, организовало различные благотворительные концерты, театральные представления, лекции и семинары на литературные, научные и массовые темы, взяло на себя финансовые расходы детей из бедных семей и выделал им стипендии.

Исследуемые благотворительные общества отличались реализацией гуманитарных идей, таких как повышение знаний, грамотности и образования народа, культурного уровня народа, и в то же время вовлечением детей из малообеспеченных семей в образование и оказание им помощи. Деятельность упомянутых благотворительных обществ еще раз доказывает, что через них народ, бедные, обездоленные, члены общества за бедных создали условия для своего всестороннего развития и стали примером для будущих поколений.

Peşə təhsili və insan kapitalı. Cild 7, №1, 2024, s.33-38

# YARADICI ÖYRƏNMƏDƏ BACARIQLARIN FORMALAŞDIRILMASI



**Səyyad Vəliyev,**
*Naxçıvan Müəllimlər İnstitutunun*
*Ümumi fənlər kafedrasının baş müəllimi*
*e-mail: seyyadveliyev75@gmail.com*

**UOT:** 37

**Xülasə**. *Məqalədə yaradıcı öyrənmədə bacarıqların formalaşdırılması, öyrənənlərin yaradıcı fəaliyyətinin təmin edilməsi, dünyagörüşü və tədqiqatçılıq fəaliyyətinin genişləndirilməsi, STEAM sahələrində aparılan işlərin izlənilməsi, araşdırılması və qiymətləndirilməsindən, eləcə də nəticələrin ictimaiyyət və səlahiyyətli orqanlarla bölüşdürülməsi və 4K (kommunikasiya, əməkdaşlıq, kreativlik və tənqidi düşüncə) bacarıqlarının formalaşdırılmasından bəhs edilmişdir. Tənqidi düşüncə insanın öz inancını və başqasının fikirlərini əks etdirməsi və bunlar arasındakı əlaqələri görmək bacarığını tələb etməsidir. Texnoloji inkişafın təbiət fənlərinin tədrisinin əhəmiyyətini daha da artırması, həmçinin müşahidə, təsnifat, ünsiyyət, ölçmə, yekunlaşdırma, nəticəçıxartma kimi bacarıqların əsas götürülməsi və bir-biri ilə əlaqəliliyi məqalədə elmi şəkildə təsbit olunmuşdur.*

***Açar sözlər:*** *bacarıq, prioritetlər, STEAM təhsil, öyrənmə, yaradıcı, biznes, texnologiya.*
***Key words:*** *skills, priorities, STEAM education, learning, creative, business, technology.*
***Ключевые слова:*** *навыки, приоритеты, образование STEAM, обучение, творчество, бизнес, технологии.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" XXI əsrin tələblərinə uyğun təhsil sisteminin məqsədlərinə çatmağı əhatə edir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömürboyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Ali pedaqoji məktəblərdə təhsilalanların peşə kompetensiyalarının (səriştələrinin) mahiyyətinə praktiki yanaşmalar və layihələrin hazırlanmasında texnologiya üstünlük təşkil edir. Yaradıcı öyrənmədə bacarıqların formalaşdırılması müxtəlif mövzuların müstəqil şəkildə layihənin hazırlanmasının tədqiq edilməsi ilə qırılmaz bağlıdır. Texnologiyadan tədris olunan mövzulara uyğun layihələr hazırlayarkən müəllim onu müəyyən edir və bunlardan birini seçmək üçün öyrənənə imkan yaradır. Burada məqsəd öyrənənlərin yaradıcı fəaliyyətini təmin etməkdir. Layihə yazarkən İKT-nin lazımi saytlarında axtarış aparılır, maraqlı məlumatlar toplayıb müvafiq şəkillərdən istifadə olunur. Nəticədə öyrənənlərin dünyagörüşü artır, tədqiqatçılıq fəaliyyəti genişlənir. Problem konkret

olmalıdır ki, iş prosesində müəllim suallara cavab verə və bələdçilik edə bilsin. Öyrənənlərin müsabiqədə iştirak etməsi onların məntiqi təfəkkürünün inkişafına səbəb olur.

2019-2020-ci tədris ilindən etibarən Heydər Əliyev Fondunun dəstəyi ilə Elm və Təhsil Nazirliyi tərəfindən tətbiqinə başlanılan "STEAM Azərbaycan" layihəsinin əsas məqsədi təhsilalanlarda XXI əsr bacarıqlarının – yaradıcı və bədii düşüncə, əməkdaşlıq etmə, effektiv ünsiyyət, proqramlaşdırma və texnologiya savadlılığı, habelə sahibkarlıq təfəkkürünün təşviq edilməsidir [1, s.3]. Qlobal iqtisadiyyatda rəqabətdə qalmaq üçün STEAM-ın elm, texnologiya, mühəndislik, sənəd və riyaziyyat bacarıqlarına malik olan işçi qüvvəsinə ehtiyacı var. Təminatla təchiz olunmuş işçilərlə yenilik və səmərəliliyi artırmaq, iqtisadi inkişafa töhfə verməklə gələcəyi müəyyən edən ölkələrdən biri olmaq imkanı əldə edilə bilər. Məktəblər tərəfindən həyata keçirilən STEAM təhsilinin ən mühüm cəhəti dil və təhsillə yanaşı, sənət və dizaynı təhsil modelinin ayrılmaz hissəsi halına gətirməsidir.

STEAM təhsilinin məqsədlərinə çox geniş aktual problemlərin həlli daxildir. Dünyada STEAM sahələrində aparılan işləri izləmək, araşdırmaq və qiymətləndirmək, nəticələri ictimaiyyət və səlahiyyətli orqanlarla bölüşmək, həmin sahələrdə regional, milli və beynəlxalq proqramlar hazırlamaq, mühazirələr oxumaq, seminarlar, simpoziumlar və konfranslar təşkil etmək mühüm tələblərdən sayılır.

XXI əsrin bacarıqlarından istifadə olunmaqla məktəblərdə STEAM təhsil metodu təhsilalanlara kommunikasiya, komandada işləmək və yaradıcı düşüncəni tətbiq etmək və öyrənməni təmin edir. Öyrənmə prosesi iki cəhətin – beynimizin və əllərimizin vəhdətdə olmasını təmin etməkdir. Uşaqlar müvafiq əşyanın uğurla öyrənilməsi üçün öz beyinlərindən və əllərindən istifadə edib, bilikləri sərbəst olaraq qazanırlar. *STEAM ingilis dilindən olan beş sözün baş hərfindən ibarətdir. Science (elm), technology (texnologiya), engineering (mühəndislik), art (incəsənət) və math (riyaziyyat) sahələrinin birgə inteqrasiya olunmuş şəkildə tədrisi ideyası üzərində qurulub.* Bu tərkibdən məlum olur ki, texnologiya önəmli yer tutur. STEAM yanaşma yaradıcı öyrənməni təmin edən təhsil metodu və düşüncə tərzi olub, həmin prosesdə təhsilalanlar qazanmış olduqları biliyi bacarıqda istifadə etməyi öyrənirlər. Pedaqoji prosesin tamlığı baxımından tərbiyəvi təsir nəticəsində təhsilalanlar real dünyada ətraf mühitin çirklənməsi, qlobal iqlim dəyişikliyi, həyat problemləri ilə qarşılaşmaq və hər kəslə birlikdə çalışmaqla problemi həll etməyin mümkün olduğunu başa düşürlər. Problemlərin həlli zamanı bu tətbiqin aşılanması və humanist yanaşma mənəviyyat, ümumi mənafeyə xidmətetmə məqsədləri daşıyır.

Dərslərin STEAM əsaslı qurulması üçün müəllimdən zəruri bilik və bacarıqlar tələb olunur. Çünki layihələr real həyat problemlərinin həlli üçün seçilmiş üsullar nə qədər şagirdyönümlü olsa da, müəllim layihələrin planlanmasında və mərhələlərin düzgün icra olunmasına bələdçilik edir. Həm də STEAM yanaşma öyrənmə və təhsilə olan baxışımızı dəyişir. Praktiki bacarıqlara diqqət yetirərək məktəblilər öz iradələrini, yaradıcılıq potensialını, çevikliyini inkişaf etdirir və əməkdaşlıq etməyi öyrənirlər. Bu bilik və bacarıqlar tədrisin əsas hədəfini, bütün təhsil sisteminin məqsədini təşkil edir.

STEAM təhsili ilk dəfə Amerikada hazırlanıb. Ardıcıl olaraq yeni iş növləri və peşə sahələri meydana çıxır. Ona görə də müəllimlər öyrətdikləri bilik və bacarıqların zamanın tələbinə cavab verib-verməməsi barədə düşünməlidirlər. Bu baxımdan XXI əsrin bacarıqları hazırda müxtəlif səviyyələrdə dünyada fəal müzakirə olunan xüsusi bir sahədir. ABŞ və Avropada həqiqi bir tendensiyaya çevrilən STEAM təhsili bir çox mütəxəssis tərəfindən gələcəyin təhsili adlandırılıb. Konsepsiyanın (lat. conceptio başa düşmək, sistem) mahiyyətinə görə sənaye dövründə savadlılığı müəyyənləşdirən əsas bacarıqlar oxumaq, yazmaq və hesablamaq idisə, hazırda əsas diqqət tənqidi düşünmə, qarşılıqlı əlaqə, ünsiyyət qurma qabiliyyətinə və biznesə yaradıcı bir yanaşmaya doğru irəliləyir. Müasirliyin səciyyəvi cəhətlərinə uyğun təlimin xüsusiyyətləri qloballaşmanın tələblərinə uyğunlaşdırılır. Elə bir yaradıcı insan tapılmaz ki, özünə belə suallar verməsin: *"Bizi XXI əsrdə nə gözləyir? XXI əsrin xüsusiyyətlərini nəzərə almaqla, gələcəyin təlimi necə olmalıdır? XXI əsrdə insanlara vacib olan bilik, bacarıq, vərdiş və keyfiyyətlər hansılardır?"* Müəllim bu suallara

cavab vermək üçün müasir dünyanın xüsusiyyətlərini tam aydın təsəvvür etməklə səciyyəvi cəhətləri bilməlidir [1, s.63].

**Biznes** fəaliyyətdən mənfəət əldə etməyə çalışan hər hansı qurumdur. Biznes geniş termindir, lakin bu gəlir əldə etmək məqsədi daşıyan fəaliyyətlər insanların istədikləri və ya ehtiyac duyduğu bir növ məhsul və ya xidmətin təmin edilməsini əhatə edir. Yaradıcı öyrənmədə bacarıqların formalaşdırılması pedaqoji texnologiyalarla reallaşır. Pedaqoji texnologiya (yunanca techne-sənət, ustalıq, bacarıq deməkdir) bütövlükdə pedaqoji prosesin situasiyası və onun iştirakçılarının fəaliyyətinin bir-biri ilə qarşılıqlı əlaqədə olan komponentlərinin, mərhələlərinin ardıcıl, fasiləsiz hərəkətidir [2, s.275]. Bunları nəzərə alsaq, gələcək üçün 4K (kommunikasiya, əməkdaşlıq, kreativlik və tənqidi düşüncə) əsas bacarıqlar formalaşır.

**Kommunikasiya** latın dilində "communikato" sözündən olub, tərcüməsi "rabitə", "əlaqə" deməkdir. Məşhur amerikalı psixoloq Yurgen Ryuş (Jurgen Ruesch) kommunikasiya sözünün qırxdan artıq mənası olduğunu yazır. Ən sadə formada cavab isə belə məqbul sayılır: "...kommunikasiya informasiya ötürülməsi, fikir bölüşməsi (ünsiyyət) prosesidir". "Kim informasiyaya malikdirsə, daha qüdrətlidir" fikri artıq həyatda öz təsdiqini tapıb.

**Əməkdaşlıq** ikinci bacarıq olub, başqaları ilə işləməyi bacarmaq, kömək istəmək və kömək etməkdən çəkinməmək, işin və fikrin bölüşdürülməsinə can atmaq, birgə fəaliyyətdə həmrəylik, müzakirə və təhlillər aparmağı, bir-birini qiymətləndirməyi bacarmaqdır. Əməkdaşlıq şəraitində bunlara fəaliyyət təlim metodu kimi öyrənənlərin təşkilati və idraki fəaliyyətinin məntiqi əsasında birləşən bir neçə üsulun məcmusu kimi baxılır [3, s.30].

**Kreativlik** növbəti bacarıq olub, adətən, məsələni orijinal və qeyri-adi, eyni zamanda faydalı şəkildə həll etmək kimi xarakterizə edilir. Kreativlik yaradıcılıqda müasir vərdişlərə yiyələnməyə səbəb olan, yeni şeylər kəşf etməyimizi, dünyanı və özümüzü daha aydın və maraqlı görməyimizə kömək edən bir prosesdir. Kreativlik, həm də problemlərimizi həll etməyə, daha sağlam münasibətlər, uğurlu bir iş həyatı qurmağa və xoşbəxt həyat yaşamağa ruhlandırır.

**Tənqidi düşüncə** bacarıqları özünüinkişaf etdirməyin təməl daşıdır. Ona görə də bugünkü əmək bazarında olması çox vacibdir. Tənqidi düşüncəsi inkişaf etmiş insanlar sistematik olaraq problemləri müəyyənləşdirir, təhlil edir və həll etmək üçün qərar qəbul edirlər.

Tənqidi düşüncə dedikdə, bir insanın məlumat axtarmaq, alternativləri təhlil etmək və nəticə çıxartmaq və ya fikir formalaşdırmaq qabiliyyətini ifadə etmək kimi başa düşülür. Tənqidi düşüncə insanın öz inancını və başqasının fikirlərini əks etdirmək və bunlar arasındakı əlaqələri görmək bacarığını tələb edir. Həmçinin tənqidi düşüncə şəxsi düşüncənizi kifayət qədər sübut kimi qəbul etməkdənsə, düşüncə tərzinizi təhlil etmək və fikirləriniz üçün dəlil təqdim etmək qabiliyyətidir. Tənqidi düşüncə əks və müstəqil düşüncə ilə məşğulolma qabiliyyəti kimi də təsvir edilə bilər. Dar mənada, tənqidi təfəkkür "bəyanatların düzgün qiymətləndirilməsi" deməkdir. Eyni zamanda "düşünmək haqqında düşünmək" kimi xarakterizə olunur. Ümumi təriflərdən biri də "nəyə güvənmək və nə etmək lazım olduğuna qərar verməyə yönəlmiş ağlabatan düşüncə tərzidir". Daha ətraflı tərif "inandırma və fəaliyyət üçün bələdçi kimi müşahidə, təcrübə, əksetdirmə və ünsiyyət yolu ilə alınan və yaradılan məlumatın fəal, bacarıqla təhlili, konseptuallaşdırılması, tətbiqi, tərkibi və ya qiymətləndirilməsinin intellektual qaydada nizamlanmış prosesidir". Tənqidi təfəkkür məntiqi nəticələrin qurulması, öz aralarında ardıcıl məntiqi modellərin yaradılması və hər hansı bir mühakiməni rədd etmək, onunla razılaşmaq və ya onun nəzərdən keçirilməsini müvəqqəti təxirə salmaq barədə əsaslandırılmış qərarların qəbulu ilə xarakterizə olunur. Bütün bu təriflər müəyyən bir idrak vəzifəsini həll etməyə yönəldilməli olan zehni fəaliyyəti nəzərdə tutur. Tənqidi düşüncə üçün tələb olunan əsas bacarıqlar toplusuna müşahidə, şərh etmək, təhlil etmək, nəticə çıxartmaq və qiymətləndirmək bacarığı daxildir. Tənqidi təfəkkür məntiqi tətbiq edir və aydınlıq, inandırıcılıq, dəqiqlik, əhəmiyyətlilik, dərinlik, əhatə dairəsi və ədalətlilik kimi geniş zəka meyarlarına əsaslanır.

Yaradıcı öyrənmədə bacarıqların formalaşdırılmasında STEAM təlimin üstünlükləri belə xarakterizə olunur:

*– yaradıcı düşüncə tərzini stimullaşdırır (öyrənənlər düşüncəli sualları necə verməyi, onlara cavab tapmağı, tətbiqini, problemləri mənimsəməyi və yaradıcı şəkildə həll etməyi əldə edirlər);*

*– əhəmiyyətli əməkdaşlıq təklif edir (təhsilalanlar problemləri necə həll edəcəkləri barədə fikirlərini bölüşürlər;*

*– tənqidi təfəkkürü gücləndirir (təhsilalanlar problemləri sistemli şəkildə nəzərdən keçirir, əldə olunan məlumatları, səmərəli həllərin axtarışı üçün mühəndislik və texnoloji vasitələri tətbiq edirlər);*

*– problemləri həll etmək üçün unikal (yeganə) bir üsul təqdim edir (təhsilalanlar mövcud problemləri həll etmək üçün qeyri-adi həllərə gətirib çıxaran metodlardan istifadə etməyə məcburdur);*

*– praktiki təlim təcrübəsi verir (öyrənənlərə bir şeyin necə işlədiyini, düzəldiləcəyini öyrənmək üçün müxtəlif materiallar və vasitələrdən istifadə etmək tövsiyə olunur).*

Təlimin hər bir sahəsində praktiki bacarıqlar vacibdir. Psixo-pedaqoqlar öyrənənlərin bütün fəaliyyətini əhatə edən biliklərin səviyyəsini tanışlıq, biliklər, bacarıqlar, vərdişlər kimi müəyyənləşdirmişlər. Əlbəttə, ümumtəhsil məktəblərində təkcə tanışlıq səviyyəsi tələb edilmir. Aydın məsələdir ki, bu və ya digər fənn müəyyən səviyyədə öyrənilməlidir. Belə ki, təbiət və riyaziyyat fənləri, həmçinin dil dərsləri bilik və bacarıqlar səviyyəsində, ədəbiyyat, tarix, coğrafiya fənləri əsasən biliklər səviyyəsində, texnologiya fənni isə bilik, bacarıq və vərdişlər səviyyəsində öyrənilməlidir. Tədris materialını qavramaq və anlamaq hələ onu tam mənimsəmək üçün kifayət deyil. Bundan ötrü əlavə addımlar atılır, tədris materialının təhsilalanlar tərəfindən əsaslı dərk olunması təşkil edilir. Bu məqsədlə müəllim təhsilalanların şüurunu hərəkətə gətirir, onları düşünməyə, fikir yürütməyə vadar edir, onların diqqətini öyrənilən hadisələrdə və cisimlərdə səbəb-nəticə əlaqələrinə yönəldir. Təlimin bu mərhələsində təhsilalanlar müəllimin rəhbərliyi ilə müəyyən əqli nəticələr çıxarır, öz fikirlərinin doğruluğunu isbat etməyə meyil göstərirlər, onlarda əqidə ünsürləri yaranır, öyrəndikləri hadisələrə müəyyən mövqedən yanaşmağa başlayırlar. Həmçinin təhsilalanlar idrak əməliyyatları olan müqayisəyə, təhlilə, ümumiləşdirməyə, mücərrədləşdirməyə daha çox müraciət etməli olurlar. Bu səbəbdən də onların bilik və bacarıqları intensiv şəkildə formalaşır.

Müsahibə üsulu zamanı təhsilalanlar öz bacarıqlarını işə salıb, bilik ehtiyatından vəziyyətin tələb etdiyini seçib istifadə edirlər. Müsahibə üsulu qarşılıqlı dialoqa əsaslanan problemli sual-cavab anlamında başa düşülür. Bu üsul əsas təlim forması kimi onun bütün mərhələlərində daha çox istifadə olunur. Metodiki ədəbiyyatlarda müsahibənin iki forması – **evristik və biliyin möhkəmləndirilməsi** kimi qeyd olunur. Təlim prosesində problemli sualların qoyuluşu ilə mövzuya uyğun məqsədlər müəyyən olunaraq nəticələrin çıxarılması evristik üsulla həyata keçirilir. Məsələn, texnologiyada məzmun xətlərini evristik müsahibə üsulu ilə sərbəst olaraq təhsilalanlar tərəfindən tapılmasını həyata keçirtmək olar. Bu zaman şagirdlərdə tədris edilən texnologiya fənninə maraq, yaradıcılıq və tədqiqatçılıq qabiliyyəti yaranır. Biliklərin təkmilləşdirilməsi, ümumiləşdirilməsi və möhkəmləndirilməsi təkrarlama müsahibəsi ilə həyata keçirilir. Qeyd olunan müsahibələrin təşkili sualların düzgün qoyuluşundan asılıdır. Sualların təşkilində konkret tələblər gözlənilməli, suallar məna çalarına görə başa düşülən və konkret hədəfə istiqamətləndirilməli, problemli-düşündürücü və həcmcə qısa olmalı, ziddiyyətli cavablara malik olan, lakin çaşdırıcı olmayan suallardan istifadə olunmalıdır. Müsahibə üsulunun təşkilində qruplarla iş üsulundan istifadə olunmalıdır. Yaradıcı öyrənmədə bacarıqların formalaşdırılması prosesində təhsilalanlar məlumatı passiv şəkildə qəbul edib, yadda saxlamaqla nail ola bilməzlər. Təhsil tədqiqatçısı Con Dyui qeyd edir: "Biz etməklə öyrənirik". Bilik öyrənmənin əsasını və mühüm hissəsini təşkil edir. Bacarıqlar biliyi əvəz etmir, ondan istifadəni müəyyən edir. Yəni təhsilalanlar əldə etdikləri bilikləri verilmiş problemin həllində düzgün tətbiq etməyi və ondan səmərəli istifadə etməyi öyrənməlidirlər. Nə üçün bacarıqəsaslı təhsil zərurəti vardır? Çünki bacarıqəsaslı təhsil təhsilalanları həyata daha yaxşı hazırlayır və ömürboyu öyrənmə məqsədi daşıyır, daimi və aktiv öyrənməni təmin edir, biliklərin tətbiqinə əsaslanır, tədris proqramlarının yükü azalır, təhsildə bərabər imkanlar

yaradır, ətraflı və müsbət qiymətləndirməni təmin edir və məqsədlər aydın şəkildə müəyyən edilir. Bacarıqlara əsaslanan öyrənmə necə qiymətləndirilir? Bunun üçün müxtəlif üsullardan istifadə etməklə təhsilalanın öyrənmə inkişafı haqqında məlumat toplamaq lazımdır. Təhsilalanın inkişafını qiymətləndirmək üçün kurikuluməsaslı ölçmələrdən istifadə etmək olar. Qiymətləndirmə proqramları müəllimlərin öyrətdiklərinin və təhsilalanların öyrəndiklərinin nəticələrini əks etdirən cədvəl və ya sxem şəklində tərtib oluna bilər. Bu yolla müəllimlər öyrənmə boşluqlarını müəyyən etmək və təhsilalanların nailiyyətlərini sənədləşdirmək imkanı əldə edir ki, bu da öz növbəsində təhsil məqsədlərinə uyğun proqramların işlənilib hazırlanmasına kömək edir. Bacarıqlara əsaslanan qiymətləndirmə vasitəsilə toplanılmış məlumatlar təhsilalanın ümumi, güclü və zəif tərəfləri ilə bağlı müəllimlərə ətraflı rəy bildirməyə kömək edir.

Müasir dövrümüzdə elm və texnologiya sürətlə inkişaf etməkdədir. Texnoloji inkişaf təbiət fənlərinin tədrisinin əhəmiyyətini daha da artırır. Hər bir elm sahəsi ilə yaxından əlaqəli olan texnologiya insan həyatında xüsusi əhəmiyyət kəsb edir. Ona görə də texnologiya fənninin tədrisinin bacarıqlara əsaslanması və həyatla əlaqələndirilməsi çox vacibdir. Texnologiya fənnində bacarıqlar dedikdə, müşahidə, təsnifat, ünsiyyət, ölçmə, yekunlaşdırma, nəticə çıxartma və s. kimi bacarıqlar əsas götürülür. Bu bacarıqlar bir-biri ilə əlaqəlidir. Məsələn, müşahidə kimi əsas bacarığı olmayan şagird məlumat əldə edə və problemin həllini tapa bilməz. Tədrisdə təhsilalanların idrak fəaliyyəti onların bilik və fəaliyyətinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Təhsilalanların idraki fəallığı öyrənmənin hərəkətverici qüvvəsidir. Bu məqsədlə ümumtəhsil məktəblərində kurikulum islahatının uğurla tətbiq olunması üçün milli və bəşəri zəmində metodoloji əsas yaradılmışdır. Əməkdaşlıq təlim prosesində yeni pedaqoji təfəkkür, şagird şəxsiyyətinin yaradıcılıq potensialını aşkar edib üzə çıxartmağa təminat verir. Onların fərdi yaradıcılıq qabiliyyətləri inkişaf edir.

Hər dövrün özünəməxsus pedaqoji fikri vardır. Təlim-tərbiyə prosesində şəxsiyyət anlamı daha demokratik şəkildə dərk edilir. Müəllimin pedaqoji bacarıqlara yiyələnməsinin kriteriyayönümlü diaqnostika metodikası əsasında bir sıra alimlər, o cümlədən A.K.Markova tərəfindən orijinal konsepsiya işlənmişdir. Onun hazırladığı müəllim əməyində diqqəti cəlb edən cəhətlərə – psixoloji və pedaqoji biliklərə yiyələnmə, pedaqoji bacarıqları mənimsəmə, peşəkar psixoloji mövqelər, peşəkarlığın müəllimdə tələb etdiyi keyfiyyətlər və fəaliyyət zamanı yiyələndiyi şəxsi xüsusiyyətlər daxildir [3, s.259].

Təhsilalanların bilik və fəaliyyətinin təmin edilməsi yeni pedaqoji təfəkkürün başlıca prinsipləri – demokratikləşdirmə, humanistləşdirmə, fərdiləşdirmə, diferensiallaşdırma, inteqrasiya, şəxsiyyətin formalaşdırılması və inkişaf etdirilməsi ilə uyğunluq təşkil edir. Təlim hazırlığı zamanı qazanılan bacarıqlar dinamik səciyyə daşıyır və insan kapitalı ilə bağlı olan tələblərə uyğun dəyərlər qazanmağa töhfə vermiş olur. İnsan kapitalı geniş mənada inkişaf kapitalının səmərəli fəaliyyətini təmin edən işçi qüvvəsinin təhsilli hissəsidir, biliklər, intellektual və idarəetmə əməyi üçün alətlər, yaşayış mühiti və əmək fəaliyyəti daxil olmaqla iqtisadi inkişafın, cəmiyyətin və ailənin tərəqqisi üçün intensiv bir məhsuldar amildir. Buna uyğun olaraq ali məktəblərin mühüm fəaliyyət istiqamətlərindən biri də tədris prosesinin təşkilinə innovativ yanaşmanın həyata keçirilməsidir.

Yaradıcı öyrənmədə bacarıqların formalaşdırılmasında pedaqoji innovasiyanın rolu danılmazdır. Pedaqoji innovasiya pedaqoji fəaliyyətdə yenilik, onların effektivliyini artırmaq məqsədi ilə təlim və tərbiyənin məzmunu və texnologiyasının dəyişdirilməsidir. İnnovativ təhsilin göstəriciləri bunlardır: təhsilalanın yüksək intellektual, şəxsi və mənəvi inkişafının təmin edilməsi; elmi təfəkkür tərzi vərdişlərinin mənimsənilməsi üçün şəraitin yaradılması; sosial-iqtisadi və peşəkar sahələrdə innovasiyaların metodologiyasının öyrənilməsidir.

İnnovativ təhsilin xarakterik xüsusiyyətləri arasında peşəkarlıq da mühüm şərtdir.

*– peşə problemlərinin həllində müəyyən bacarıq səviyyəsi;*

*– öz peşəsi çərçivəsində etibarlı, problemsiz işləmə bacarığı;*

*– qeyri-standart vəziyyətlərdə yaradıcılıq, effektiv həll yolları axtarmaq;*

*– yüksək intellektual və şəxsi inkişaf səviyyəsi;*

*– əsas ixtisas və səriştələrin mövcudluğu peşəkarlığı ehtiva edir.*

Daha yaxşı nəticələr əldə etmək və inkişaf etdirmək yolu ilə öz praktiki pedaqoji təcrübəsini dərk etməyə əsaslanan məqsədyönlü pedaqoji fəaliyyət müəllimin innovativliyidir.

**Nəticə.** Son olaraq yazılanlardan belə nəticəyə gəlmək olar ki, dünya təhsil praktikasında tədqiqat əməliyyatı şagird və müəllimin birgə fəaliyyətinin yaradıcı öyrənmə prosesini əhatə edir. Yaradıcı öyrənmədə təhsilalanlarda tədqiqat fəaliyyətini inkişaf etdirərək formalaşan bacarıqlara müxtəlif mənbələrdən istifadə edərək məlumat toplamaq, onları sistemləşdirmək, müqayisə və təhlil etmək, ümumiləşdirmək, bilikləri praktiki məsələlərlə möhkəmləndirmək və s. aid etmək olar. Təcrübədən aydın olur ki, fəal təlim metodunun tədris prosesinə daxil edilməsi təhsilalanların passivliyinin aradan qaldırılmasına, təfəkkür xüsusiyyətlərinin və bacarıqların formalaşdırılmasına şərait yaradır. Qeyd olunduğu kimi, bilik öyrənmənin əsasını və mühüm hissəsini təşkil edir, bacarıqlar onu əvəz etmir, ondan istifadəni müəyyən edir. Öyrənənlərin əldə etdikləri bilikləri verilmiş problemin həllində düzgün tətbiq etməsi və ondan səmərəli istifadə etmək bacarıqlarının formalaşdırması günümüzün reallığıdır.

## İstifadə edilmiş ədəbiyyat


1. Ağayev Ş. İbtidai sinif müəllimlərinə kömək. Bakı, "İmza" nəşrlər evi, 2022, 184 s.
2. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedagogikası. Bakı, "Nurlan" nəşriyyatı, 2007, 568 s.
3. Mehrabov A. və b. Pedaqoji texnologiyalar. Bakı, "Mütərcim" nəşriyyatı, 2006, 372 s.


S.Valiyev

## Formation of skills in creative learning

### Abstract

The article deals with the formation of skills in creative learning, ensuring the creative activity of learners, broadening their outlook and research activities, monitoring, researching and evaluating work carried out in STEAM fields, as well as sharing the results with the public and authorized bodies and the formation of 4K (communication, collaboration, creativity and critical thinking) skills. Critical thinking requires the ability to reflect on one's own beliefs and the other people's opinions as well as to see the connections among them. The fact that technological development further increases the importance of teaching natural sciences, as well as the basis and interrelationship of skills such as observation, classification, communication, measurement, summarization, drawing conclusions, is scientifically determined in the article.

С.Валиев

## Формирование навыков творческого обучения

### Аннотация

В статье формирование умений творческого обучения заключается в обеспечении творческой активности обучающихся, расширении их кругозора и исследовательской деятельности, контроле, исследовании и оценке работ в STEAM-направлениях, а также обмене результатами с общественностью и органами власти. Было упомянуто формирование навыков 4К (коммуникация, сотрудничество, творчество и критическое мышление). Критическое мышление требует способности размышлять над своими убеждениями и мнениями других и видеть связи между ними. В статье научно обосновано то, что развитие технологий еще больше повышает значимость преподавания естественных наук, а также основу и взаимосвязь таких умений, как наблюдение, классификация, общение, измерение, обобщение, составление выводов.

*Peşə təhsili və insan kapitalı. Cild 7, №1, 2024, s.39-44*

# GƏLƏCƏK MÜƏLLİMLƏRDƏ HUMANİST DƏYƏRLƏRİN FORMALAŞDIRILMASI İŞİNİN PEDAQOJİ-PSİXOLOJİ ŞƏRTLƏRİ



**Lalə Məmmədova,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin doktorantı*
*e-mail: lalemammadova.edu@gmail.com*

**UOT:** 159.9; 37

**Xülasə**. *Müasir təhsil və kurikulumlarda təkcə akademik nailiyyətlərin deyil, həm də tələbələrin fərdi inkişafının, empatiya, məsuliyyət hissi və əməkdaşlıq kimi insani dəyərlərin vurğulanması getdikcə daha çox əhəmiyyət kəsb etməkdədir. Bu məqsədlə tədqiqat işində gələcək müəllimlərin insani dəyərlərin formalaşmasında əhəmiyyəti araşdırılıb. Eyni zamanda müəllimlik yolunda irəliləməyə başlayan gələcək müəllimlərin fərdiliyə hörmət, empatiya və anlayış, tələbə mərkəzli yanaşma, məsuliyyət və müstəqillik, müsbət ünsiyyət, müxtəlifliyə hörmət və həssaslıq, davamlı peşəkar inkişaf kimi əsas başlıqlar altında insani dəyərlərə diqqət yetirmələri təklif edilir. Bu təkliflər gələcək müəllimlərə yalnız bilikləri çatdırmaqda deyil, həm də təhsilalanlara insani dəyərləri mənimsətməkdə də kömək edə bilər. Bu, tələbələrə yalnız akademik nailiyyətlərə yiyələnməklə deyil, həm də etik dəyərləri və sosial bacarıqları inkişaf etdirməyə də imkan verir.*

***Açar sözlər:*** *psixoloji şərtlər, humanist dəyərlər, təhsil, pedaqogika.*
***Key words:*** *psychological conditions, humanistic values, education, pedagogy.*
***Ключевые слова:*** *психологические условия, гуманистические ценности, образование, педагогика.*

Təhsilin şəxsiyyətin inkişafından asılılığı milli ideyanı formalaşdıran, təkmilləşdirən və yayan qüvvələrdən asılıdır. Pedaqogika və psixologiya, təbii ki, dünya elminin inkişafını və onun təkmilləşmə prosesini, elmə daxil olmasını, gözlənilən yenilikləri əks etdirir. Pedaqogika və psixologiyanın ən mühüm vəzifələrindən biri təlimin keyfiyyətini müəyyən etmək üçün metodların işlənilib hazırlanmasıdır. Pedaqogika və psixologiyanın praktiki vəzifəsi gənclərin inkişafının psixoloji şəraiti, tərbiyənin psixoloji məsələləri, azyaşlıların təhsilində onların gənclik və fərdi xüsusiyyətlərinin nəzərə alınması, gənclərdə bilik, bacarıq və səriştələrin formalaşdırılması, eləcə də müstəqil düşünməyə öyrədilməsidir. Praktiki tapşırıqlara radio və televiziya verilişləri, jurnallar, mühazirələr və xüsusi proqramlar, məhəllə, məktəblər, valideynlərlə müsahibələr və s. daxildir.

Pedaqogika və psixologiyada öyrənmə prosesi öyrənilən obyektlə, eksperimental fəaliyyətlə məşğul olmaqdan, sonra isə psixi proseslərin faktiki tərəflərinin müəyyən edilməsindən və təhlilindən başlamalıdır. Zehni həyatın öyrənilməsi bizə idrak proseslərini tənzimləyən əsas prinsipləri və qaydaları aşkar etməyə imkan verirki, bu da müvafiq nəzəri çərçivələrin, həmçinin praktiki nəticələrin formalaşdırılmasını asanlaşdırır. Tədris prosesi zamanı əldə edilən zehni hadisələrdən asılı olmayaraq uşağın özünü nəzarət altında hiss etməməsi mütləqdir. Alter-

nativ olaraq gənc narahatlıq, özünüdərketmə, qorxu, utanma və ya qorxaqlıq hisləri ilə qarşılaşa bilər. Bu da fenomen müşahidə və eksperimental tapıntıların yanlış təfsirinə səbəb olur.

Ümumi psixologiya sahəsində icra olunan fundamental və əlavə üsullar təhsil psixologiyası sahəsində də tətbiq olunur. Fundamental metodologiyalar müşahidə və eksperiment təcrübələri, əlavə metodologiyalar isə müsahibələr, məhsul təlimatı, xüsusən sınaq və digər əlaqəli yanaşmalar kimi texnikaları əhatə edir. Müşahidə metodu psixologiya sahəsində elmi tədqiqatlarda istifadə olunan fundamental yanaşmadır. Bu, empirik məlumat toplamaq və reallıq haqqında ilkin anlayışları inkişaf etdirmək niyyəti ilə xarici aləmdə obyektlərin və hadisələrin qavranılmasının aktiv və metodik prosesini əhatə edir. Bu yanaşma insan fəaliyyətinin müxtəlif spektrini əhatə edən psixi proseslərin təbii kontekstində araşdırılmasını nəzərdə tutur.

**Humanist dəyərlər təhsilin bir elementi kimi**

Tələbələr üçün dəyərlər, təhsilinin zəruriliyi bütövlükdə tələbənin təhsildə nəzərə alınmasını tələb edir. Unudulmamalıdır ki, tələbə bir fərd olaraq maşın və ya robot deyildir.

Müasir təhsil ictimaiyyətində "dəyərlər" və "dəyərlər təhsili" tez-tez qeyd edilir və bu məsələnin əhəmiyyəti vurğulanır. Dəyərlər təhsilinin ön plana çıxmasının səbəbi, ona həddindən artıq önəm verilməsindən çox dəyərlərə artan ehtiyacla bağlıdır. "Dəyərlər təhsili" adından da göründüyü kimi, tələbələrə dəyərlərin aşılanmasına və onların həyat tərzi kimi öyrədilməsinə əsaslanır. Bu növ təhsil insanın həm iradəsinə, həm də vicdanına müraciət etmək qabiliyyətinə malik olmalıdır. Dəyərlər təhsili öz dəyərlərinə sadiq fərdlər hazırlamağa çalışır. "Dəyərlərinə sadiq, dəyərlərinə önəm verən, dəyərlərini gələcək nəsillərə ötürən cəmiyyətin formalaşması yalnız dəyərlər maarifləndirilməsi ilə mümkün olacaqdır".

Dəyərlərə dair möhkəm inam bilik və davranış arasında güclü bir əlaqə ilə meydana çıxır. Bu güclü əlaqəni ailədə valideynlər, məktəblərdə müəllimlər asanlıqla müşahidə edə bilərlər. Dəyərlərin öyrədilməsi xəbərdarlıq və əxlaqi biliklər verməklə əldə edilir. Müəllimlər tələbələrin əxlaqi dəyərləri nə dərəcədə bildiyini yoxlaya bilərlər. Bu da tələbələrə düzgün davranış nəticələrini seçməyə kömək edə bilər. Dəyərlər kontekstində müəllimin tələbələrdən gözlədiyi məsələlər aşağıdakılardır:

*– tələbə doğru ilə yanlışı ayırd edə bilər;*
*– bunun niyə belə olduğunu da bilər;*
*– davranışa istiqamətləndirmək haqqında təsəvvürə sahib ola bilər.*

Dəyərlər tələbələrin gələcəyə ötürülməsini istədiyimiz sosial kodlarımızdır. Biz bu kodları onlara çatdırmalıyıq və onların şüuruna yerləşdirib davranışa çevirə bildiyimiz zaman gələcəyimizə, ictimai əmin-amanlığımıza arxayın ola bilərik. Hz. Əli demişdir ki, "Ürək sözün əkilən yeridir, fikir düzən yeridir, onu qüvvətləndirən ağıldır, onu yaradan dildir, hərflər bədənidir, həyatı mənadır, onun səliqəsi isə dəqiqliyidir". Göründüyü kimi, müəllimlərin fəzilətli nəsillər yaratmaq üçün yeni nəsillərə dəyərlər öyrətməyi qarşısına məqsəd kimi qoymalıdır.

**Pedaqoji və psixoloji şərtlər**

Effektiv tədris pedaqoji və psixoloji şəraitin birləşməsini tələb edən mürəkkəb işdir. Bu şərtlər müəllimlərin tələbələri üçün cəlbedici və təsirli öyrənmə təcrübəsi yaratmaq üçün vacibdir. Biz bu essedə effektiv tədrisə kömək edən pedaqoji və psixoloji şərtləri araşdıracağıq.

**Pedaqoji şərtlər**

***Məzmun biliyi.*** Pedaqoji səmərəlilik mövzunun dərindən dərk edilməsindən başlayır. Müəllimlər tədris etdikləri məzmunda mütəxəssis olmalıdırlar. Dərin məzmun biliyi pedaqoqlara məlumatları dəqiq çatdırmağa, tələbələrin suallarını və narahatlıqlarını effektiv şəkildə həll etməyə imkan verir.

***Kurikulum planlaması.*** Yaradıcı müəllimlər öz kurikulumlarını diqqətlə planlaşdırırlar. Onlar dərsləri və bölmələri təhsil məqsədləri və standartlarına uyğunlaşdırmaq üçün strukturlaşdırırlar. Diqqətli kurikulumun planlaşdırılması müəllimlərə vacib mövzuları əhatə etməyə və materialı məntiqi şəkildə təşkil etməyə imkan verir.

***Fərqləndirmə.*** Tələbələrin müxtəlif öyrənmə üslublarına və qabiliyyətlərinə malik olduğunu qəbul edərək müəllimlər diferensiallaşdırma strategiyalarından istifadə edir, öz tədris metodlarını fərdi tələbələrin ehtiyaclarını ödəmək üçün tənzimləyir, zəruri hallarda dəstək və ya çətinliklərlə təmin edirlər. Bu, hər bir tələbənin uğur qazanmaq imkanının olmasını təmin edir.

***Tədris strategiyaları.*** Yaradıcı müəllimlər tələbələri maraqlandırmaq və öyrənməni asanlaşdırmaq üçün müxtəlif təlim strategiyalarından istifadə edirlər. Bunlara aktiv öyrənmə, qrup müzakirələri, problemi həlletmə fəaliyyətləri və texnologiyadan istifadə və s. daxil ola bilər. Strategiya seçimi öyrənmə məqsədlərindən və tələbələrin ehtiyaclarından asılıdır.

***Qiymətləndirmə və əlaqə.*** Müntəzəm qiymətləndirmə və əks-əlaqə effektiv tədris üçün çox vacibdir. Müəllimlər təhsilalanların irəliləyişlərini qiymətləndirmək və təlimatlarını uyğunlaşdırmaq üçün formativ qiymətləndirmələrdən istifadə etməlidirlər. Vaxtında və konstruktiv rəyin təqdim edilməsi tələbələrə güclü tərəflərini və inkişaf etdirilməsi lazım olan sahələri anlamağa kömək edir (Darling-Hammond L., 2017, Banks, J.A., 2008).

**Psixoloji şərtlər**

***İdarəetmə bacarıqları.*** Müəllimlər müsbət və yaxşı idarə olunan dərs mühiti yaratmalıdırlar. Effektiv dərs idarəçiliyi tələbələrin diqqətini fasiləsiz öyrənməyə yönəldə bilməsini təmin edir. Bu, aydın gözləntilərin, ardıcıl qaydaların və ədalətli nəticələrin müəyyən edilməsini əhatə edir.

***Ünsiyyət bacarıqları.*** Effektiv ünsiyyət güclü müəllim-tələbə münasibətləri qurmaq üçün vacibdir. Müəllimlər məlumatları tələbəyə aydın çatdırmalı, onları fəal dinləməli, auditoriyada açıq və dəstəkləyici mühit yaratmalıdırlar. Problemləri və ya münaqişələri həll edərkən ünsiyyət bacarıqları xüsusilə vacibdir.

***Empatiya və rabitə.*** Güclü müəllim-tələbə münasibətinin qurulması effektiv tədris üçün çox vacibdir. Müəllimlər empatik olmalı, tələbələrin auditoriyaya gətirdiyi unikal fonları, təcrübələri və çətinlikləri başa düşməlidirlər. Bu empatiya müəllimlərə dəstəkləyici və inklüziv öyrənmə mühiti yaratmağa imkan verir.

***Motivasiya və entuziazm.*** Yaradıcı müəllimlər öz mövzularına və tədrislərinə həvəslidirlər. Onların həvəsi yoluxucudur və tələbələri materialla məşğul olmağa ruhlandırır. Həvəsləndirilmiş müəllimlər yüksək gözləntilər qoyur və tələbələri mükəmməlliyə can atmağa təşviq edirlər.

***Reflektiv təcrübə.*** Yaradıcı müəllimlər öz tədris metodlarını davamlı olaraq qiymətləndirərək və təkmilləşdirərək reflektiv təcrübə ilə məşğul olurlar. Dərsləri haqqında tənqidi düşünür, effektivliyini artırmaq yollarını axtarırlar. Özünü dərk etmək, uyğunlaşmaq, eləcə də böyümək istəyi əksetdirmə təcrübəsinin vacib komponentləridir.

**Pedaqoji və psixoloji şəraitin inteqrasiyası**

Pedaqoji və psixoloji şəraitin inteqrasiyası təhsil sahəsində böyük əhəmiyyətə malikdir. Bu inteqrasiya tələbələrin və müəllimlərin davranışını anlamaq, öyrənmə prosesini yaxşılaşdırmaq və təhsil sistemini effektivləşdirmək üçün olduqca böyük əhəmiyyət kəsb etməkdədir. Pedaqoji və psixoloji şərait tələbələrin tədris və təhsil müddətində maraqlarını, bacarıqlarını və qabiliyyətlərini anlamağa kömək edir. Bu, müəllimlərə daha effektiv tədris metodları təyin etmək və tələbələrə müvafiq dəstək təmin etmək imkanını verir. Psixologiya tələbələr arasında fərqli təhsil təcrübələrindən gələn müxtəlif məsələlərə dair müdrik təcrübələr təqdim etməyə də kömək edir. Bu inteqrasiya təhsil müəssisələrində tədris və təhsil prosesini tənzimləmək üçün də əhəmiyyətli bir rola malikdir. Müəllimlər tələbələrin psixoloji və pedaqoji ehtiyaclarını anlamaqla daha effektiv təhsil tədbirlərini təşkil edə bilərlər. Bu, təhsil prosesini tələbələrin daha yaxşı öyrənə bilmələri və həyatlarında nailiyyət qazana bilmələri üçün əhəmiyyətli bir amildir. Həmçinin inteqrasiya tələbələr arasında sosial və emosional bacarıqları inkişaf etdirməyə də kömək edir. Psixoloji məsələlərə diqqət yetirmək tələbələr arasında əlaqələrin formalaşmasına yardımçı ola bilər.

Ən uğurlu tədris pedaqoji və psixoloji şəraitin bir-biri ilə tam inteqrasiyası zamanı baş verir. Yaradıcı müəllimlər öz dərin məzmun biliklərini və yaxşı qurulmuş kurikulumu empatik ünsiyyət və motivasiya strategiyaları ilə birləşdirir. Onlar öz tədris metodlarını tələbələrinin müxtəlif ehtiyaclarını ödəmək üçün uyğunlaşdırırlar və müsbət öyrənmə mühitini təmin edən yaxşı idarə olunan auditoriyanı qoruyurlar.

“Subyektiv mövqe”ni əhatə edən fundamental anlayışları tədqiq edərkən onun fərdlərin hərəkətləri, niyyətləri və bu hərəkətlərin başqaları və ya cəmiyyət tərəfindən qiymətləndirilməsi arasında unikal qarşılıqlı əlaqə kimi “məsuliyyət” anlayışı ilə əlaqəsini araşdırmaq vacibdir. “Məsuliyyət və gələcək” pedaqoji psixoloqun peşəkar və pedaqoji səyləri arasında “sıx əlaqəni”

təbii olaraq bu əsas anlayışın əhəmiyyətini vurğulamaq üçün yaradılmışdır. Məsuliyyət mahiyyət etibarilə müxtəlif amillərdən asılıdır, onlardan biri də "özünütərbiyə" anlayışıdır. Bu fərdin özünü idarə etmək və xüsusi qaydalara riayət etmək qabiliyyəti meylinə dair nümunədir. Bu kontekstdə müstəqil olaraq məqsədlərin müəyyən edilməsi və bu məqsədlərə çatmaq üçün peşəkar və pedaqoji səylərin təşkili aktı, adətən "fərdi təşəbbüs" kimi adlandırılır və universitet daxilində peşə təhsili sahəsində tələbənin subyektiv mövqeyinin əsas komponenti kimi qəbul edilir. Bəzi ölkələrdə pedaqoqların peşəkar inkişaf sahəsində fəallığını qiymətləndirmək üçün Peşəkar İnkişaf Təşəbbüsü (PDI) kimi tanınan qiymətləndirmə mexanizmindən istifadə olunur.

E.Merchie və digərləri bu qiymətləndirmənin araşdırılmasına diqqət yetirir. O, sistem daxilində münaqişələrin müəyyən edilməsi də daxil olmaqla bir neçə aspekti müzakirə edir və peşəkar inkişaf proqramlarının effektivliyinin qiymətləndirilməsi üçün təkmilləşdirilmiş çərçivə təklif edir. Bundan əlavə, bu plan hazırda istifadə olunan ölçmə vasitələrinin hərtərəfli nəzərdən keçirilməsini təklif edir. Təhsil sahəsində müasir inkişaflar tələb edir ki, müəllimlər fəal davranış nümayiş etdirsinlər və məktəb prosedurlarında dəyişikliklərin həyata keçirilməsinə görə məsuliyyət daşısınlar.

V.Dzinovic və başqaları təlimatçıların şəxsi təşəbbüsləri ilə bağlı qavrayışlarının və bu cür təşəbbüsü nümayiş etdirən fəaliyyətlərlə bağlı düşüncələrinin araşdırılmasına diqqət yetirir. Tədqiqatın nəticələri göstərir ki, müəllimlər, ilk növbədə, birgə təhsilin planlaşdırılmasında və məktəb daxilində kollektiv layihələrdə iştirak etmək kimi birgə səylər vasitəsilə təşəbbüs nümayiş etdirirlər. Həmçinin müəllimlər, şəxsi təşəbbüs nümayiş etdirmək və məktəblə bağlı tapşırıqlarında əsaslı dəyişikliklərin həyata keçirilməsi üçün səylər göstərməkdə daha aşağı hazırlıq səviyyəsinə malikdirlər. Buna baxmayaraq, tədqiqat onların subyektiv münasibətinin formalaşması ilə əlaqələrin miqyası arasında birbaşa əlaqə yaratmır.

K.Lindemann və E.Saar öz araşdırmalarında şəxsiyyət xüsusiyyətləri, iqtisadi şərait və subyektiv mövqe arasındakı qarşılıqlı əlaqəni araşdırırlar. Onlar şəxsiyyət xüsusiyyətlərinin fərdin subyektiv mövqeyinə təsirini dəyişdirə biləcək xüsusi meyarlar tapırlar. Bu fenomen tələbələrin universitetdə praktiki təhsil alması zamanı onların subyektiv mövqeyinin formalaşmasına təsir edən amillərə görə potensial olaraq yarana bilər. Təhlil nəticələri onu da göstərir ki, sosial vəziyyətlə bağlı mühakimə cəmiyyət daxilində həm təhsil səviyyəsi, həm də gəlirdəki bərabərsizlik səviyyəsindən təsirlənir.

A.Miething tərəfindən edilən araşdırmada daha aşağı peşəkar mövqe ilə birlikdə zəif subyektiv mövqeyə sahib olanların daha çox sağlamlıq problemləri olduğu aşkar edilmişdir. Digər tədqiqatçılar da araşdırmaları üçün əsas kimi Subyektiv Sosial Vəziyyətin MacArthur Şkalasından istifadə edərək sosial mövqe və sağlamlıq arasındakı əlaqəni araşdırmışlar.

Ejrnaes və Greve vurğulayır ki, öyrənənlərin şəxsi inkişafına təsir edən amillər fərdin daxilindən qaynaqlanır və daxili elementlərdən təsirlənir. Bu amillər onların inkişafını asanlaşdırmaq üçün müvafiq pedaqoji şərait yaradıldıqda aktivləşir. Tələbələr arasında özünütərbiyə, müstəqillik və özünütəşkilatın mühüm səviyyəsinə çatmağı təmin edən bu şərtləri təsdiqləmək üçün fərdin subyektiv mövqeyinin mahiyyətini və onun inkişafını formalaşdıran konseptual çərçivəni müəyyən etmək məqsədəuyğundur.

Tədqiqatlar göstərir ki, fərdin subyektiv mövqeyi onların komandada iştirakı, komanda üzvləri ilə şəxsiyyətlərarası əlaqələri və bütövlükdə cəmiyyətlə münasibətləri kimi daxil olduğu kollektiv sosial qarşılıqlı əlaqələri əhatə edir. Bu sosial əlaqələr fərdin şəxsiyyətinin ayrılmaz tərkib hissəsidir və onların ümumi sosial xarakterinə töhfə verir. Vygotsky (2003) tərəfindən vurğulanır ki, fərdin əsas rolu sosial qarşılıqlı əlaqə sisteminə inteqrasiya olunmaqla sosial təcrübələri yaradıcı şəkildə mənimsəməkdir. Fərdin şəxsiyyətinin sosial qarşılıqlı əlaqədə fəal iştirakı ilə inkişaf etdiyini və bununla da fərqli xüsusiyyətlər əldə etdiyini irəli sürdü. Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, fərdin bütün şəxsiyyəti yalnız onların sosial kontekstdə fəaliyyətə cəlb edilməsi və başqaları ilə qarşılıqlı əlaqəsi vasitəsilə açılır. Aydındır ki, fərdin şəxsiyyətinin formalaşdığı mühit onun subyektiv mövqeyini və daxili imkanlarını müəyyən edən əsas amil rolunu oynayır.

Bir sıra tədqiqatlarda fərdlərdə özünütərbiyə, özünü təkmilləşdirmə və sosial inkişaf üçün məsuliyyət anlayışları araşdırılıb. Bu ideyalar təhsil sistemi daxilində, xüsusən də qloballaşma şəraitində tədris təcrübəsinin fundamental prinsiplərinin yenilənməsi və onun konkret dəyərlərə yönləndirilməsi baxımından əhəmiyyətlidir.

Pedaqoji dəstəyin göstərilməsi şərtlərinə və gələcək müəllimin humanist mövqeyinin inkişafını şərtləndirən amillərə uyğun olaraq pedaqoji dəstəyin aşağıdakı mərhələləri müəyyən edilmişdir:

*– diaqnostik problemin faktını və siqnalını qeyd etmək, problemin diaqnozu üçün şərait yaratmaq, pedaqoji dəstək göstərmək üçün şəraitlə əlaqə yaratmaq;*

*– axtarış problemin səbəblərinin axtarışının, onun əks olunmasının təşkili (təhsil subyekti ilə birlikdə);*

*– təhsil subyektinin hərəkətlərinin layihələndirilməsi;*

*– fəaliyyət:*

*a) fəaliyyət təhsil subyektinin özünə verilir: müəllim öz hərəkətlərini təsdiqləyir, təşəbbüsü stimullaşdırır, həvəsləndirir;*

*b) müəllim özü hərəkət edir: özünü təhsil subyektinin yerinə qoyaraq təhsil subyektinə birbaşa dəstək və köməklik göstərir.*

*– refleksiv:*

*– fəaliyyətin əvvəlki mərhələlərinin nəticələrinin, uğur və ya uğursuzluqlarının təhsil mövzusu ilə birgə müzakirəsi, problemin həll oluna biləcəyinin ifadəsi, yeni həyat təcrübəsinin təhsil subyekti tərəfindən dərk edilməsini asanlaşdırır.*

Bu mərhələlər pedaqoqlara humanist yanaşmanı aşılamaqla, tələbələrin problemlərini müəyyən etməyə, başa düşməyə və həll etməyə imkan verir. Əməkdaşlıq və düşünmə təhsil təcrübəsini artırır, problemin həllini və şəxsi inkişafı asanlaşdırır.

**Nəticə.** Gələcək müəllimlərin humanist dəyərləri formalaşdırmasına nail olmaları üçün bir çox pedaqoji və psixoloji prinsip və şərtlər mövcuddur. Aparılan araşdırmalar nəticəsində aşağıdakı prinsip və şərtlər müəyyən edilmişdir:

• Əlaqə və empatiya yaratmaq: müəllimlər tələbələrlə yaxın əlaqə qurmaq və onların hislərinə maraq göstərməlidirlər. Empatiya tələbələrin hislərini anlamağa və müəllimlərin öyrənmə prosesini onların baxışından görməyə kömək edir.

• Öyrənmə mühitini yaratmaq: müəllimlər tələbələr üçün əyləncəli, təsirli və tərbiyəli bir öyrənmə mühiti yaratmağa nail olmalıdırlar. Tələbələr öz bacarıqlarını inkişaf etdirmək, özünə güvənini artırmaq və öz potensiallarına nail olmaq üçün təşviq olunmalıdırlar.

• Tələbənin maraqlarına və bacarıqlarına hörmət göstərmək: müəllimlər tələbələrin maraq və bacarıqlarına hörmət göstərməlidirlər. Tələbələr öz maraqlarına əsaslanan tapşırıqlar vasitəsilə öyrənməyə daha böyük maraq göstərirlər.

• Müstəqil düşünməyə və problemi həll etməyə nail olmaq: humanistliyin əsası tələbənin müstəqil düşünmə bacarığını inkişaf etdirməkdir. Müəllimlər tələbələrə problemi həlletmə və müstəqil düşünməyə nail olmağa kömək edən tapşırıqlar təklif etməlidirlər.

• Tələbənin mövcud bacarıqlarının təşviqi: humanist pedaqoji, tələbənin mövcud bacarıqlarına nail olmağa və onları inkişaf etdirməyə fokuslanır. Müəllimlər tələbələri öz potensiallarını müəyyənləşdirməyə, özünü reallaşdırmağa və öz bacarıqlarını inkişaf etdirməyə təşviq etməlidirlər.

• Tələbənin özünü tanımasına və qəbul etməsinə nail olmaq: müəllimlər tələbələrin özünü tanımağa və qəbul etməyə kömək edən təhsil metodları tətbiq etməlidirlər. Tələbələr öz güc və zəifliklərini tanımağa nail olduğu zaman potensialını daha yaxşı həyata keçirə bilirlər.

Sadaladığımız bu prinsiplər əsasında müəllimlər tələbələrə yalnız akademik bacarıqlarını artırmağa kömək etməli, həm də humanist dəyərlər, özünü reallaşdırma və insanlara dəyər vermək istiqamətində düşüncələri inkişaf etdirməyə nail olmalıdırlar. Son olaraq onu deyə bilərik ki, pedaqoji və psixoloji şəraitin inteqrasiyası təhsil sahəsində müvafiq təhsil modeli və tədris metodlarını təşkil etmək üçün əhəmiyyətli bir yoldur.

## İstifadə edilmiş ədəbiyyat

1. Ramazanova E.A., Shabdinov M.L. Psychological and pedagogical conditions forthe development of professional abilities offuture teachers. SHS Web of Conferences 113, 00050, 2021.

2. Akhmetova A.I and Experimental study of psychological and pedagogical readiness of the future teachers for moral and spiritual development of senior school students. International journal of environmental & science education, 2016, vol. 11, No.18, pp.11261-11282.

3. Abbasov A., Əmirov M. Əxlaq tərbiyəsinin

təsirli vasitəsi. "Azərbaycan məktəbi" jurnalı, №1, 1987, s.31-35.

4. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə. Bakı, 2005 "Azərbaycan Universiteti" nəşriyyatı, 650 s.

5. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Yeni kurs (pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti). Bakı, 2017, "Elm və təhsil" nəşriyyatı, 464 s.

6. Qafarov Q.A. Peşə təhsilində təlim nəzəriyyələri və müasir yanaşmalar (elmi-metodik vəsait). Bakı, 2022, s.160.

7. Qafarov Q. Dünyada və Azərbaycanda peşə təhsili, onun sosial-iqtisadi imkanları. "Peşə təhsili və insan kapitalı" jurnalı, cild 5, №1, 2022, s. 84-89.

8. Meydan H. Okulda değerler eğitiminin yeri ve değerler eğitimi yaklaşımları üzerine bir değerlendirme. Bülent Ecevit Üniversitesi İlahiyat Fakültesi Dergisi, cilt 1, sayı 1, 2014, s.93-108.

9. Merchie E., Tuytens M., Devos G., Vanderlinde R. Evaluating teachers' professional development initiatives: towards an extended evaluative framework. Research Papers in Education, 2016, DOI: 10.1080/02671522.2016.1271003.

10. Dzinovic V., Devic R., Deric I. Teachers' perceptions of their own initiative: Collective initiative vs. personal initiative. Zbornik Instituta za Pedagoska Istrazivanja, 2013, 45 (2), pp. 282-297. DOI: 10.2298/ZIPI1302282D.

11. Lindemann K., Saar E. Contextual effects on subjective social position: Evidence from European countries. nternational Journal of Comparative Sociology 2014, 55: (3), originally published online 18 March, 2014,

DOI: 10.1177/0020715214527101.

12. Miething A. A matter of perception: Exploring the role of income satisfaction inthe incomeemortality relationship in German survey data 1995-2010. Social Science & Medicine 99, 2013, pp.72-79.

13. Khlyzova I. Illarionova L., Khromenkov P. Patriotic education of future teachers in auniversity. E3S Web of Conferences 210, 18118, 2020.

**L.Mammadova**

## Pedagogical and psychological conditions of formation of humanistic values among future teachers

**Abstract**

Emphasizing not only academic success, but also personal development of students, human values such as empathy, sense of responsibility and cooperation is becoming more and more important in modern education. For this purpose, the importance of future teachers in the formation of human values was investigated in the research work. At the same time, it is suggests that future teachers pay attention to human values under the main headings of respect for individuality, empathy and understanding, student-centered approach, responsibility and independence, positive communication, respect and sensitivity to diversity, and continuous professional development.

These suggestions can help future teachers not only in imparting knowledge but also in inculcating human values in students. This enables students not only to achieve academic success but also to develop ethical values and social skills.

**Л.Мамедова**

## Педагогические и психологические условия формирования гуманистических ценностей у будущих учителей

**Аннотация**

В современном образовании и учебных программах все большее значение приобретают не только академические достижения, но и индивидуальное развитие учащихся, акцент на общечеловеческих ценностях, таких как сопереживание, чувство ответственности и сотрудничество. С этой целью в исследовательской работе было исследовано значение будущих учителей в формировании общечеловеческих ценностей. При этом будущим учителям, начинающим продвигаться по педагогическому пути, предлагается обратить внимание на общечеловеческие ценности по основным направлениям, таким как уважение индивидуальности, сопереживание и понимание, личностно-ориентированный подход, ответственность и независимость, позитивный настрой, общение, уважение и чувствительность к разнообразию, а также постоянное профессиональное развитие. Эти предложения могут помочь будущим учителям не только в передаче знаний, но и в привитии общечеловеческих ценностей учащимся. Это позволяет студентам не только приобретать академические достижения, но и развивать этические ценности и социальные навыки.

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ DİSTANT TƏHSİLİN TƏTBİQİ İMKANLARININ GENİŞLƏNDİRİLMƏSİNİN VACİB ASPEKTLƏRİ



**Nübar İsazadə,**
*Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı*
*e-mail: nubar2017@list.ru*

**UOT:** 37

**Xülasə**. *Həyata gələn insan təbiətdən gələn xüsusiyyətlər və qabiliyyətlərlə doğulur, lakin sonradan necə insan olması onun aldığı təhsildən asılıdır. Bu səbəbdən də təhsillə bağlı hər hansı nəticəyə gəlincə, insanın ehtiyacları nəzərə alınmalıdır. Orta məktəbdə tədrisin düzgün aparılması ən vacib məsələlərdən biridir. Ali məktəbdə təklif olunan yeniliklər onun məzmununu dəyişməlidir, təbii ki, onu əhatə edən hissələr – qarşılıqlı münasibətlər, təhsildə sərbəstlik, şəraitin yaradılması, kadr məsələləri, tədris, texniki baxımdan hərtərəflilik və s. tamamilə yenidən qurulmalıdır. Təbii ki, təhsilini başa vuran hər bir şəxs əldə etdiyi məlumatları fərdi şəkildə yoxlamaq və ona müstəqil münasibət bildirmək, öz düşüncə tərzini təqdim etmək, qərar qəbul etmək bacarığına malik olmalıdır. Onlar təşkilatçı kimi öz bacarıqlarını göstərməyi bacarmalı, eyni zamanda yeni texnologiyalarla ayaqlaşmalıdırlar. Qeyd olunan bütün üstünlüklərə sahib olmaq üçün ilk növbədə, müəllim bu dəyərlərin sahibi olmalıdır. Yeniliklər cari təhsilin ümumi vəziyyəti və ehtiyacıdır. O yalnız təhsilin inkişafına və onun məzmununa yönəldilir. Təbii ki, məzmunun inkişafı istiqamətində görülən işlərdən ən mühümü ali təhsildə bilavasitə təlimə yönəlmiş texnologiyalardan istifadədir.*

*Məqalədə yuxarıda sadalanan problemlərə toxunulmuş, distant təhsilin tətbiqi imkanlarının vacib aspektləri təhlil edilmiş, həmçinin bu imkanların genişləndirilməsi təklif edilmişdir.*

***Açar sözlər:*** *təhsil, innovasiyalar, tədris, texnoloji yanaşmalar, istiqamətlər.*
***Key words:*** *education, innovations, teaching, technological approaches, directions.*
***Ключевые слова:*** *образование, инновации, преподавание, технологические подходы, направления.*

Distant təhsil ənənəvi təhsil metodları ilə müqayisədə tələbələrin (şagirdlərin) öz müstəqilliyini, fəallığını, şüurluluğunu və yaradıcılığını artırmaq üçün effektiv bir yol təşkil edir. Bu yol informasiya cəmiyyətində müasir müəllim hazırlığına görə istifadə olunan strateji məsələlərin səmərəli şəkildə həll edilməsinə yardım edir. Ayrıca, ali təhsilin keyfiyyət və səmərəsinin artırılmasında mühüm rol oynayır və distant təhsilin planlaşdırılması və təşkilinin aktual olmasını təmin edir. Distant təhsil tələbələrə yaşadıqları yerdən, sağlamlıq vəziyyətlərindən, həyat səviyyəsindən və maddi təminatlarından asılı olmadan eyni təhsil imkanlarını təminetmə baxımından da çox sərfəlidir. Məsafədən təhsil almaq əlavə xərcləri (nəqliyyat, mənzil və s.) ödəmədən təhsil almağa imkan yaradır.

Bu faktlar tədqiqatın seçilmiş mövzusunun əhəmiyyətini və aktuallığını göstərir. Dünyaya

inteqrasiya, qloballaşma və informasiyanın sürətli inkişafı cəmiyyətin müxtəlif sahələrində əhəmiyyətli dəyişikliklərə səbəb olur və insan kapitalının dövlətin uğurlu inkişafındakı rolunu daha da artırır. Təhsil sistemində, xüsusilə ali təhsildə baş verən dəyişikliklər cəmiyyət və dövlətin tələbatlarını qarşılaya bilən bacarıqlı və yaradıcı düşüncəyə malik mütəxəssislərin təmin edilməsinə ehtiyac yaradır və bu, onların səriştəliliyi ilə birlikdə təhsilin informasiyalaşdırılmasını da qarşımıza əsas tələb olaraq qoyur.

Distant təhsil texnologiyalarının bütün sahələrdə tətbiqi ümummilli lider Heydər Əliyev tərəfindən də diqqət mərkəzində olmuş və bu səbəbdən 2003 – 2012-ci illəri əhatə edən "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın qəbul edilməsinə səbəb olmuşdur. Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2013-cü il "İnformasiya-kommunikasiya texnologiyaları ili" kimi elan edilmişdir. İnformasiya Texnologiyaları Universitetinin yaradılması isə cəmiyyətin informasiyalaşdırılmasına və bu sahədə bacarıqlı və təcrübəli mütəxəssislərin hazırlanmasına istiqamətləndirilmiş zəruri addımların bir parçasıdır.

2007 – 2008-ci illərdən etibarən bir çox universitetlərdə təhsilin innovativ inkişafını və təhsilin keyfiyyətinin qiymətləndirilməsini artırmaq məqsədi ilə distant təlim texnologiyaları tətbiq edilməyə başlanılmışdır. Bu hadisə universitetlərin idarə heyəti, professor və müəllimlərin birgə əməkdaşlığı ilə daha mütəşəkkil bir formada test imtahanlarının keçirilməsinə səbəb olmuşdur. Bu tədbir həmçinin tələbələrə elektron resurslardan istifadə edərək biliklərini daha dəqiq qiymətləndirmək imkanı yaratmışdır [2].

2009-cu ilin oktyabr ayında Cenevrədə keçirilən "ITU Telecom World 2009" Forumunda Azərbaycanda təhsilin informasiyalaşdırılması sahəsindəki təcrübəsi paylaşılmışdır. Bu tədbirlər çərçivəsində Məlumat və Resurs Mərkəzi, Azərbaycan Təhsil Şəbəkəsi (AzEduNet), Milli Tədris Proqramı və "Elektron məktəb" haqqında çoxsaylı ölkələrin nümayəndələrinə məlumatlar verilmiş və ölkənin informasiya texnologiyaları sahəsində əldə etdiyi nailiyyətləri göstərilmişdir [1].

İnformasiyanın geniş yayıldığı bir zamanda müasir cəmiyyətə keçid və yeni nəslin müasir düşüncəsinin formalaşması distant təhsildə ciddi dəyişikliklərin tələb edilməsini, tələbələrin distant texnologiyalarla zəngin olan təhsilə adaptasiya olmasını və distant təhsilə olan marağın artırılmasını daha da aktuallaşdırır. Müasir günümüzdə gələcəyin kadrları yalnız ixtisas sahələrindəki bilikləri deyil, eləcə də müasir elm və texnikanın ən son nailiyyətlərini öyrətməli, distant təhsil vasitələrindən istifadə etməyi bacarmalı və öyrənmə-öyrətmə proseslərini müstəqil şəkildə inkişaf etdirməlidirlər.

Son illər müasir informasiya-kommunikasiya texnologiyalarının təhsildə daha geniş şəkildə tətbiq edilməsi tələbələr (şagirdlər) üçün bu formada təhsilin təşkilini daha da asanlaşdırmağa və təkmilləşdirməyə, yüksək səviyyəyə çatmasına yardım edir. İnformasiya və kompüter texnologiyaları təkcə distant təhsil sistemində deyil, ümumilikdə təhsil sistemini, onun fəaliyyətini, xarici dillərin öyrənilməsini, tələbələrin özünü müstəqil şəkildə hazırlamasını, peşəkar biliklərin dərin öyrənilməsini və mənimsənilməsini təmin edərək tədris prosesini səmərəli şəkildə tənzimləyir. İnformasiya texnologiyalarının tətbiqi tələbələrin fəal şəkildə öyrənməyə, bilik əldə etməyə, distant təhsil və peşəkarlıq səviyyəsini artırmağa kömək edir. Təhsilin distant formada anlaşıqlı tədrisi hər bir tələbənin psixoloji, eləcə də intellektual bacarıqları ilə əlaqədar informasiya axtarışı və mənbələr ilə müstəqil fəaliyyəti zamanı inkişaf etdirilir.

Distant təlim texnologiyalarının inteqrasiyası təhsilin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir edərək bir çox təhsil müəssisələrində beynəlxalq səviyyədə təhsil xidmətləri göstərmək üçün imkanlar yaratmışdır. Distant təhsil müəllim və tələbələrin qarşılıqlı əlaqəsinə əsaslanan və İKT-nin müxtəlif texnologiyalarından istifadə etməklə həyata keçirilən təhsil formasıdır. Distant təhsilə tədris prosesinin bir çox komponentləri daxildir: ***məqsədlər, məzmun, tədris vəsaitləri, təşkilati formalar və metodlar.***

Professor Elison Lidlcon distant təhsili tələbələrin yeni inkişaf etmiş texnologiyalardan istifadə etməklə qabaqcıl və interaktiv səviyyəli tədris materiallarına çıxış əldə edən bir təhsilalma strategiyası olaraq tədqiq etmişdir. Britaniyalı professor Çarlz Şonireqan isə distant təhsili özündə informasiya-kommunikasiyanın tərəqqisi, inkişafet-

dirici, qarşılıqlı əks-əlaqə, müxtəlif ölkə və şəhərlərdən olan tələbələrə distant şəkildə təhsilin təmin edilməsi və s. kimi terminləri birləşdirən təhsilalma forması kimi araşdırmışdır. Düzgün təşkil edilmiş və yaxşı planlaşdırılmış distant təhsil fəaliyyəti tələbələrin bilik, bacarıq və vərdişlərinin keyfiyyətini artırır və bu materialın daha yaxşı öyrənilib təkmilləşdirilməsinə yardımçı olur, nəticədə motivasiyaedici, maarifləndirici və öyrədici, materialları araşdırmaq stimulunu yüksəldir. Distant təhsil, həm də ümumilikdə tədris-tərbiyə mühitinin effektivliyini yüksəltmək məqsədi ilə əvvəlki – köhnə tədris metodlarının dəstəklənməsi və transformasiyası kimi başa düşülən innovativ təhsilalma metodudur [5].

***"Distant təhsil"*** anlayışı XIX əsrdə meydana gəlmişdir. Avropada ilk dəfə XVIII əsrin sonunda distant təhsilin ilkin versiyalarına rast gəlinmişdir. Müəllimlər, tələbələr və başqa tədqiqatla məşğul olan şəxslər dərs materiallarını poçt vasitəsilə alaraq yazışmalar aparır, yazı işlərini yoxlamaq üçün müəllimə göndərir və poçt üzərindən müəllim ilə müzakirə edirdilər. XIX əsrin 40-cı illərində yaşayıb-yaratmış İsaak Pitman distant təhsilin banisi olmuşdur. O, stenoqram vasitəsilə tədrisin innovativ sistemini tətbiq etmiş ingilis stenoqrafı kimi tanınmışdır. İsaak Pitman 1837-ci ildə tələbələrlə daha yaxşı qarşılıqlı əlaqə yaratmağa imkan verən tədris stenoqrammasını yaratmağı təklif etdi. Pitman tələbələrinə onların işlərini yoxlamaq üçün şifrəli mətnlər göndərirdi, daha sonra geri alırdı. Pitman innovativ təhsil sistemində bu şəkildə əks-əlaqə yaradaraq mühüm uğurlar əldə edirdi. Uilyam Reyni Harper (ABŞ-da Çikaqo Universitetinin ilk rektoru) XIX əsrin əvvəllərində distant təhsili daha da ön plana çəkmək məqsədi ilə "uzaq məsafədən məktəb təlimi" anlayışını təqdim etmişdi. Həmçinin Kolumbiya Universiteti də bu ideyanı ərsəyə gətirmişdir [1].

Rusiyada məsafədən təhsil XX əsrin birinci yarısında yaranmışdır. 1926 – 1927-ci illərdə gənc bacarıqlı kadrların sayının çoxaldılması və məsafədən təhsilalma qaydası ilə imtahanlara hazırlaşmaq üçün yeni texnologiyalarla təchiz edilmiş şöbələr meydana gəldi. Bu cür təlimlər mühazirə formasında həyata keçirilirdi və tələbələrin məsafədən təhsilalma vərdişlərinin müstəqil şəkildə mənimsədilməsi üçün yeni tədris materialları verilirdi, nəhayət kurikulum tətbiq olunurdu. London Universiteti distant təhsilalma formasını kurikuluma daxil edən ilk universitetlərdən biri olmuşdur [3]. Bu konsepsiyanın reallaşdırılması üçün 1828-ci ildə Kraliça Viktoriya tərəfindən rəsmi şəkildə qərar qəbul edilmişdir. London Universitetinin Beynəlxalq Proqramı "Məsafədən təhsilin planlaşdırılmasına dair Konsepsiya" adlanırdı və universitetlərin baza təhsilini özündə cəmləşdirirdi. Avstraliyanın Kvinslend Universitetində 1911-ci ildə Distant Təhsil şöbəsi, Cənubi Afrika Universitetində isə 1946-cı ildən distant təhsilin təşkilinə aid kurslar yaradılmağa başlamışdır.

1969-cu ildə Britaniya Dövlət Universitetinin nəzdində yaradılmış Distant Təhsilalma Departamenti təhsil tarixində baş vermiş əlamətdar hadisələrdən biri olaraq yaddaşda qalmışdır. Böyük Britaniyada yerləşən bu universitet məsafədən təhsilalma sahəsində böyük nailiyyət və uğurlar əldə etmiş böyük universitetlərdən biri olaraq, burada 200000-ə yaxın tələbəni yüksək keyfiyyətli tədris ilə təmin edirdi. Burada təhsilin əsas məqsədi müxtəlif ölkə və şəhərlərdən, ümumilikdə dünyanın hər yerindən olan tələbələrə yüksək perspektivli Britaniya diplomu ilə təmin etmək idi. Britaniya Dövlət Universitetinin Distant Təhsil Proqramı alternativ təhsil üçün optimal variant olmuşdur. Ali təhsil müəssisələrində təhsilin distant formada planlaşdırılması üçün əlavə olaraq təkmilləşdirmə kursları fəaliyyət göstərmişdir. Bu universitetin tərəqqisi və nailiyyəti digər ölkələri distant təhsil proqramını öz təhsil sistemində tətbiq etməyə sövq edirdi. Bunlara Hagendəki Alman Fern Universitetini, İspaniya Distant Təhsil Universitetini və Kanada Açıq Universitetini nümunə göstərə bilərik. Hazırda dünyada çoxlu sayda universitetlər vardır ki, onlar "Məsafədən (Distant) Universitet" adını daşıyırlar. 1991-ci ildə Rusiyada əsası qoyulmuş Sankt-Peterburq Milli Distant (Məsafədən) Universitetinin adını nümunə kimi çəkmək olar. Universitet distant təhsilalma vasitəsilə ənənəvi, həmçinin yeni metod və texnologiyaları daha təsirli formada özündə cəmləşdirir. Bu universitetin əsas özəlliyi burada təhsilin daha effektiv və innovativ səviyyədə həyata keçirilməsidir. MDB ölkələrinin və Rusiyanın 200000-dən çox sakini 20 il ərzində bu universitetdə təhsil almışdır. Bu tip distant

universitetlərin və digər distant təhsil kurslarının əsas hədəfi yüksək kompetentli təhsil verməkdən ibarətdir [4].

Distant təhsilin təkamülü və tərəqqisi, ilk növbədə, XX əsrin 30-cu illərində məlumatları daha uzaq məsafələrə yaymaq üçün aktiv formada istifadə edilməyə başlayan radio ilə bağlıdır. Həmin dövrdə, daha dəqiq desək, 1938-ci ildə bir çox kolleclər və ali təhsil müəssisələri radio vasitəsilə dövlət məktəblərinə distant təhsilalma ilə bağlı tədris konsepsiyalarını tələbələr arasında yayımlamağa başladılar. Dərslərin yayımına anket sorğusu, şifahi müsahibə, müxtəlif interaktiv tapşırıqların həll edilməsi, test tapşırıqlarının hazırlanması daxil idi. Louisvill Universitetinin rektoru Con Taylor 1948-ci ildə radionun köməyi ilə Amerikan təhsil sisteminin 25 il inkişaf edəcəyini diaqnozlaşdırmışdır. Con Taylor bu konsepsiya çərçivəsində tələbələrə distant təhsil üçün az miqdarda pul verməyi, məsafədən, yəni radio vasitəsilə tədris materiallarını dinləməyi, bütün materialları poçt vasitəsilə almağı irəli sürmüşdür. Lakin 1950-ci illərdə radionun məşhurluğu əhəmiyyətli səviyyədə getdikcə azalmağa doğru getdi. Distant təhsilalma metodunun effektivliyini artırmaq məqsədi ilə televiziyadan istifadə etmək üçün bir sıra cəhdlər edilmişdir. Tədqiqatçılar 1970-ci illərdə hazırkı yeni müasir təlim texnologiyalarının əcdadları sayılan distant təhsilalma metodlarının potensialını araşdırmağa başladılar. Peyk və audio kimi texnoloji rabitə vasitələrindən XX əsrin əvvəllərindən istifadə edilməyə başlanıldı. 1980-ci illərin sonlarından isə distant təhsilalmanı daha da optimallaşdırmaq üçün interaktiv video vəsaitlər təkmilləşdirildi. Tələbələr və müəllimlər elektron əlaqə üçün video, eləcə də audio rabitə vəsaitlərindən istifadə etməyi bacarırdılar. Tələbələr, həm də internet kommunikasiya texnologiyaları vasitəsilə audio və video materialları əldə edirdilər. Tədris müddətində keçirilən təlimlərin sinifdaxili mühazirələrlə əlaqələndirilməsi distant təhsilin təşkili və inkişafı baxımından onun sərhədlərini daha da genişləndirmişdir.

Beləliklə, internetin və kompüterin meydana gəlməsi ilə bütöv dünya təhsili çərçivəsində distant təhsilin planlaşdırılması prosesi sürətləndi. Müasir distant təhsil texnologiyaları və metodları təhsil sisteminə, daha dəqiq desək, dünya təcrübəsinə yeni bir nəfəs gətirdi: distant təhsil zaman və məkanla məhdudlaşmayan təhsildir [3].

1995-1998-ci illər çərçivəsində ABŞ Milli Təhsil Statistikası Mərkəzinin verdiyi məlumata əsasən, distant formada təhsilverən və təhsilalan tədris müəssisələrinin sayı 44%-dən 55%-ə qədər yüksəldi. Bundan başqa, distant təhsil proqramlarının sayı da 3 dəfə artırıldı. Universitetlərə qəbul sayında artım baş vermişdir ki, bu da say etibarilə 743480-dən 1,4 milyona yüksəldi. 2000 – 2008-ci illər ərzində inkişaf etmiş, həmçinin hələ də inkişaf etməkdə olan bir çox ölkələrdə distant təhsilin həyata keçirilməsi prosesi sürətli yüksəliş dövrü kimi qiymətləndirilir. Amerika Birləşmiş Ştatlarının 43 ştatında 2008-ci ilə qədər distant təhsil konsepsiyaları artıq yaranmış və mövcud idi. ABŞ universitetlərində 2011-ci ildə isə təhsilalanların artıq ikidə biri distant təhsil proqramı ilə hazırlanırdı.

Hazırda distant tədris prosesi nəticəsində bir sıra özəl və dövlət təhsil müəssisələri artıq elmi dərəcəli diplomvermə hüququna malikdirlər. Məsələn, Britaniyanın dövlət və özəl tədris müəssisələrinin, xüsusilə ən perspektivli universitetlərin əksəriyyətində məsafədən təhsilalma üsulu ilə magistr dərəcəli diplom alınması mümkündür. Bu mərkəzlər tədrisdə istifadə olunan müxtəlif təlim texnologiyalarına görə dəyişir, lakin hamısı mobil planlaşdırma və təşkiletmə üzrə aparılır. Bu fəaliyyət sahəsində təqdim edilən yeni təhsil materiallarına uyğunlaşdırılmış distant formada təhsilin təşkili və planlaşdırılması – e-poçt və ya skype, eləcə də başqa elektron proqramlar vasitəsilə müəllimlə əlaqə saxlamaq üçün şərait yaradır. Əsaslı şəkildə Britaniyada distant təhsil proqramları hüquq və maliyyə, biznesin idarə edilməsi və informasiya-kommunikasiya texnologiyaları sahəsində təklif edildi. Bu tip universitetlərdə təhsil almaq üçün bakalavr diplomunun olması, xarici dili – ingilis dilini mükəmməl səviyyədə bilmək tələb edilir. Nəhayət, XX əsrin əvvəllərindən başlayaraq, onlayn təlim texnologiyaları və metodları sürətlə artaraq inkişaf edir, təkmilləşir və bununla da cəmiyyətimizi daha yaxşı mobilləşdirmək məqsədi ilə onun müsbət formada transformasiyasına nail olur [6].

Dünya təcrübəsinə əsaslanaraq, ümumilikdə

distant təhsilin təşkili və planlaşdırılması fəaliyyəti çərçivəsində bu təhsil forması sinxron və asinxron kimi fərqli xüsusiyyətləri özündə vəhdət təşkil edən yeni təlim texnologiyalarının istifadəsini təqdim edir. Sinxron şəkildə öyrənmə stabil cədvəli və bu qrafikə uyğunlaşaraq müəllimlər və tələbələrin onlayn əks-əlaqəsini, habelə tədris materiallarının ötürülməsi üçün proqramlaşdırılmış qrafiki təklif edir [5]. Bura təhsil-tədris vasitələri, seminarlar, onlayn konfranslar və başqa vəsaitlər aiddir. Distant formada təşkil olunan təlimlərdə iştirak etmək üçün təhsilalanlara proxy (server) robotlardan, həmçinin sinxron öyrənmə naminə istifadə etmək hüququ verir [7].

Asinxron öyrənmə metoduna əsasən isə təhsilalanlar öz fərdi qrafiklərinə uyğun olaraq vaxtla məhdudlaşmırlar və yüksək səviyyədə təhsil alırlar. Eyni zamanda lazım olarsa, tələbələr özəl təhsilalma müddətini uzaqdan da onlayn şəkildə ala bilirlər. Asinxron təhsildə tələbələr onlayn şəkildə tədris materiallarını bir-birlərinə ötürür, audio və video vasitələri istifadə etməyi bacarırlar. Asinxron öyrənmə fəaliyyətinə həmçinin forum müzakirəsi, e-mail, onlayn konfrans, səsli faks və s. bu aid etmək olar.

**Nəticə.** Təhsilin elektronlaşdırılması sahəsində təhsil müəssisələrində sosial-pedaqoji istiqamətdə həyata keçirilən nəzəri və praktiki işlərlə yanaşı, təhsilin müasir informasiya texnologiyaları ilə təmin edilməsi prosesi də aparılır. İnformasiyalaşdırma təhsil fəaliyyətinin həyata keçirilməsi və idarə olunmasının mühüm şərti, cəmiyyətin inkişafı üçün isə mühüm amildir. Ali təhsil müəssisələrində təhsilin distant şəkildə planlaşdırılması və təşkili prosesi təhsil müəssisələrinin texnoloji avadanlıqlarla təchiz edilməsi, elektron dərsliklərin və bu sahə üzrə kadrların hazırlanması ilə başlayır. İnnovativ məzmunlu öyrənmə prosesinin təşkili və idarə olunması üzrə peşəkar kadrların hazırlanmasında ilk olaraq tədris-metodik bazanın yaradılması, tədris-metodiki ədəbiyyatların hazırlanması, informasiya infrastrukturunun təşkili vacib məsələlər kimi qarşıda durmaqdadır. Alternativ olaraq təhsildə qarışıq öyrənmə metodunu nəzərdən keçirsək görərik ki, bu təlim modeli özündə ənənəvi metodları və distant təhsili birləşdirir. Distant təhsilin rahatlığı, çevikliyi müəllim və qrupla birbaşa canlı əlaqə ilə tamamlanır. İnformasiya cəmiyyətinin tərəqqisi təhsil sisteminə ciddi təsir göstərir. Bu səbəbdən informasiya cəmiyyətinin texnologiyaları təhsildə geniş tətbiq edilməlidir. Bu proses təhsilin elektronlaşdırılması istiqamətində silsilə layihələrin reallaşmasını tələb edir.

## İstifadə edilmiş ədəbiyyat


1. Əlizadə T. Distant təhsilin əsas modelləri və metodları. Bakı, “Azərbaycan məktəbi” jurnalı, 2019, №3, s.129-139.
2. İsmayılova B. Distant təhsil: üstünlüklər, çatışmazlıqlar və müsbət təcrübə. “Elektron dövlət quruculuğu problemləri” 1-ci Respublika elmi-praktik konfransının məqalələr toplusu, 4 dekabr, 2014, s.189-192.
3. Mehrabov A.O. Ali təhsil sistemində islahatların əsas istiqamətləri. Bakı, ARTİ-nin “Elmi əsərlər” jurnalı, 2010, №1, s.3-10.
4. Məmmədov Z. Müasir ali məktəb: məqsədlər, vəzifələr və perspektivlər. Bakı, “Ali təhsil və cəmiyyət” jurnalı, 2013, №1, s.60-66.
5. Rəsulov S., Əzizov R. Təhsilin idarə edilməsinin nəzəri və praktiki məsələləri. Bakı, “Müəllim” nəşriyyatı, 2012, 173 s.
6. Sadirxanov R. Azərbaycanın ali təhsil sistemində keyfiyyətin təminatının özünütənzimləyən mexanizminin yaradılmasına dair bəzi praktiki təkliflər. Bakı, “Ali təhsil və cəmiyyət” jurnalı, 2012, №1, s.59-67.
7. Verdiyeva M.İ. Təhsilin qloballaşması çərçivəsində pedaqoji kadrların hazırlanmasında problemlər. Bakı, “ADPU-nun xəbərləri” jurnalı, 2008, s.263-267.
8. Valehov C. Ali təhsildə yeni yanaşmalar. Bakı, “Azərbaycan məktəbi” jurnalı, 2013, №6, s.36-42.


**N.Isazade**

## Important aspects of expanding the possibilities of application of distance education in higher education institutions


**Abstract**

A person who comes to life is born with the characteristics and capabilities that come from nature, but what kind of person he becomes later depends on the education he receives. For this reason, when it comes to any conclusion about

education, the needs of the person must be taken into account. Teaching in high school is one of the most important issues. The innovations proposed in the higher school should change its content, of course, the parts that surround it - mutual relations, freedom in education, creation of conditions, personnel issues, teaching, comprehensiveness from a technical, etc. should be completely reconstructed. Of course, every person who completes his education should have the ability to individually examine the information he has acquired and express his independent attitude to it, his way of thinking, and the ability to make decisions. They should be able to show their abilities as organizers and at the same time keep up with new technologies. In order to have all the above-mentioned advantages, first of all, the teacher must be the owner of these values. Innovations are the general condition and need of current education. It is focused solely on the development of education and its content.

The article touched upon the problems listed above, analyzed the important aspects of educational application possibilities, and also proposed the expansion of these possibilities.

**Н.Исазаде**

## Важные аспекты расширения возможностей применения дистанционного образования в высших учебных заведениях


**Аннотация**

Человек, приходящий в жизнь, рождается с характеристиками и способностями, исходящими от природы, но каким человеком он станет впоследствии, зависит от полученного им образования. По этой причине, когда речь идет о каком-либо выводе об образовании, необходимо учитывать потребности человека. Человек, приходящий в жизнь, рождается с характеристиками и способностями, исходящими от природы, но каким человеком он станет впоследствии, зависит от полученного им образования. По этой причине, когда речь идет о каком-либо выводе об образовании, необходимо учитывать потребности человека. Преподавание обучения в средней школе является одним из важнейших вопросов. Нововведения, предлагаемые в высшей школе, должны изменить ее содержание, конечно же, и те части, которые ее окружают – взаимоотношения, свободу в образовании, создание условий, кадровые вопросы, преподавание, комплексность с технической точки зрения и т. д. должен быть полностью реконструирован. Разумеется, каждый человек, завершающий образование, должен иметь возможность индивидуально рассматривать полученную информацию и выражать свое независимое отношение к ней, свой образ мышления, способность принимать решения. Они должны уметь проявить свои организаторские способности и в то же время идти в ногу с новыми технологиями. Чтобы иметь все вышеперечисленные преимущества, прежде всего, учитель должен быть обладателем этих ценностей. Инновации являются общим условием и необходимостью современного образования. Оно ориентировано исключительно на развитие образования и его содержания. Конечно, самая важная из работ, проделанных в направлении разработки контента – это использование технологий, непосредственно направленных на обучение в высшей школе.

В статье затронуты перечисленные выше проблемы, проанализированы важные аспекты возможностей образовательного применения, а также предложено расширение этих возможностей.

# AZƏRBAYCANDA SAHİBKARLIĞIN MALİYYƏ-İQTİSADİ POTENSİALI



**Vüqar Nəzərov,**
*Azərbaycan Turizm və Menecment Universitetinin Biznes idarəçiliyi fakültəsinin dekanı, iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: v.nazarov@atmu.edu.az*

**UOT**: 33; 336

**Xülasə.** *Bazar iqtisadiyyatı şəraitində iqtisadi fəaliyyətin ayrılmaz hissəsi olan sahibkarlığa mühüm diqqət yetirilir. Sahibkarlığın yalnız malların alqı-satqısı ilə əlaqəli kommersiya fəaliyyəti kimi qəbul edilməsinin sosial stereotipləri geniş yayılmışdır. Belə bir fikir natamamlıq və məhdudluqdan əziyyət çəkir. Sahibkarlıq təkcə ticarət və əmtəə mübadiləsi ilə bağlı deyil, iqtisadiyyat və təsərrüfat fəaliyyətinin demək olar ki, bütün sahələrinə yayılan son dərəcə çoxşaxəli iqtisadi fəaliyyət növüdür. Beləliklə, sahibkarlıq yeni iqtisadi imkanların yaradıcı formada axtarışına, rəqabət şəraitində müxtəlif mənbələrdən resursları cəlb və istifadə etmək bacarığına əsaslanan xüsusi yenilikçi iqtisadi davranış tərzidir.*

*Məqalədə ölkəmizdə sahibkarlıq sahəsində maliyyə-iqtisadi potensialın önəmli məqamları açıqlanır. Vəziyyətin daha dolğun olması üçün məqalədə maliyyə-iqtisadi potensialın göstəricilərinin sahibkarlığa və milli iqtisadiyyata təsir dərəcəsi dərindən təhlil edilir.*

***Açar sözlər:*** *sahibkar, sahibkarlıq fəaliyyəti, maliyyə-iqtisadi potensial, mikro sahibkarlıq subyektləri, kiçik sahibkarlıq subyektləri, orta sahibkarlıq subyektləri.*
***Key words:*** *entrepreneur, entrepreneurial activity, financial and economic potential, micro-business entities, small business entities, medium-sized businesses.*
***Ключевые слова:*** *предприниматель, предпринимательская деятельность, финансово-экономический потенциал, субъекты микропредпринимательства, субъекты малого предпринимательства, субъекты среднего предпринимательства.*

Sahibkarlığın məqsədi malların, işlərin, desək, xidmətlərin istehsalı və bazara çıxarılması yolu ilə gəlirin əldə edilməsi, eləcə də ictimai tanınma, özünün şəxsiyyət kimi əhəmiyyətinin dərk edilməsidir. Başqa sözlə sahibkarlığın məqsədi istehsalda və bazarda elə bir məhsul təklif etməkdən ibarətdir ki, bu məhsula tələb olsun və sahibkara mənfəət gətirsin. Sahibkarlığın inkişafı iqtisadi uğurun, sənaye istehsalının yüksək artım templərinin əldə edilməsində əvəzsiz rol oynayır. O iqtisadiyyatın innovativ, məhsuldar xarakterinin əsasıdır. Nə qədər çox təsərrüfat subyektləri öz təşəbbüslərini və yaradıcılıq qabiliyyətlərini nümayiş etdirmək imkanına malikdirsə, o qədər də inkişafın potensial və faktiki nəticələri arasında fərq az olur. İnnovativ iqtisadi artımın mənimsənilməsi yaradıcı qüvvənin süni şəkildə məhdudlaşdırılması, bütün istehsal ehtiyatlarının bu mobilliyi üçün zəruri olan təsərrüfat təşəbbüsünün azadlığı şəraitində mümkün deyil. Sahibkarlıq yeni perspektivli istehsalatların mənimsənilməsini təmin edir, köhnəlmiş məhsulların “çıxarılmasına” kömək edir, eləcə də rəqabətin və “marketləşmənin” inkişafına, milli

iqtisadiyyatın "açıqlığı"nın artmasına, kapitalın idxal və ixracının inkişafına kömək edir.

Sahibkarlıq haqqında məlumat verilərkən onun istənilən ölkədə, o cümlədən Azərbaycanda sosial-iqtisadi rolu xüsusilə vurğulanmalıdır. Sahibkarlığın iqtisadi rolu aşağıdakı məsələlərdə öz əksini tapır:

*– çoxşaxəli iqtisadi strukturun inkişafı;*

*– yerli xammal və mülkiyyətin istehsalata cəlb edilməsi;*

*– iş yerlərinin yaradılması xərclərinə qənaət etməklə aşağı istehsal həcmi ilə uzunmüddətli orta xərclərin minimuma endirilməsi;*

*– vəsaitlərin yüksək dövretməsi və səmərəli idarəetmə sisteminin yaradılması;*

*– innovasiyaların yaradılması və bazarda tətbiqi.*

Sahibkarlığın sosial rolu isə konkret məsələləri nəzərdə tutur:

*– əhalinin məşğulluğunu təşviq etmək;*

*– işçilərin peşə və ixtisas potensialından maksimum dərəcədə istifadə etmək;*

*– sərbəst buraxılan və istifadə olunmayan əmək ehtiyatlarından operativ istifadə etmək;*

*– əhalinin təşəbbüskarlıq fəaliyyətini artırmaq;*

*– əmək bazarının sektor quruluşunu optimallaşdırmağa və sosial gərginliyi azaltmağa kömək edən yaradıcı, kreativ qabiliyyətlərini inkişaf etdirmək.*

Azərbaycanda sahibkarlığın sosial-iqtisadi təsirinin artırılması ölkəmizin önəmli məsələlərindən biri hesab edilir. Bu sahədə uğurun daha da səmərəli olması üçün burada maliyyə-iqtisadi potensialın keyfiyyətli, davamlı artımı çox vacibdir. Maliyyə vəziyyəti və fəaliyyətin maliyyə nəticələri müəssisələrin maliyyə potensialını, pul vəsaitinin çatışmazlığı və məhdudluğu şəraitində böyük əhəmiyyət kəsb edən maliyyə mənbələrinin idarə edilməsinin səmərəliliyi səviyyəsini xarakterizə edir. Bu baxımdan sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələrin maliyyə potensialının və onların inkişaf perspektivlərinin Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin orqanlarının rəsmi məlumatları əsasında baxılması aktual görünür.

**Tədqiqat metodları**

Azərbaycanda sahibkarlığın maliyyə-iqtisadi potensialı araşdırılarkən statistik təhlil bu sahədə mövcud vəziyyəti, problemləri, zəif nöqtələri müəyyən etməyə şərait yaradır. Rəqəmlər əsasında gələcəkdə görülən işlər müəyyən olunur.

***Cədvəl 1.***
***Azərbaycanda 2018 – 2021-ci illərdə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı***

| Göstəricilər | İllər | | | |
|---|---|---|---|---|
| | 2018 | 2019 | 2020 | 2021 |
| **Sahibkarlıq subyektlərinin ümumi sayı, o cümlədən** | 244883 | 271304 | 316370 | 355906 |
| **Mikro sahibkarlıq subyektlərinin sayı** | 237815 | 262622 | 307717 | 346171 |
| **Kiçik sahibkarlıq subyektlərinin sayı** | 4930 | 5956 | 5943 | 6856 |
| **Orta sahibkarlıq subyektlərinin sayı** | 2138 | 2726 | 2710 | 2879 |

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları [3].*

***Cədvəl 1***-dən də göründüyü kimi, respublikamızda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayında müsbət tendensiya müşahidə edilir. 2018-ci il illə müqayisədə 2021-ci ildə sahibkarlıq subyektlərinin ümumi sayı 111023 vahid, yaxud 45,3% artmışdır, ondan mikro sahibkarlıq subyektlərinin sayı 108356 vahid, yaxud 45,6%, kiçik sahibkarlıq subyektlərinin sayı 1926 vahid, yaxud 39,1%, orta sahibkarlıq subyektlərinin sayı 741 vahid, yaxud 34,7% artmışdır. Belə müsbət tendensiya ölkəmizdə sahibkarlığın maliyyə-iqtisadi potensialına müsbət təsir göstərəcəkdir. Ölkəmizdə

sahibkarlığın maliyyə-iqtisadi potensialını daha dərindən təhlil etmək üçün iki əsas göstəricilərin müəyyən edilməsi çox mühüm məsələdir:

*– mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin aktivləri;*

*– mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatları.*

Bu göstəricilər respublikamızda sahibkarlığın maliyyə-iqtisadi potensialı haqqında daha aydın təsəvvür yaradır. Növbəti iki şəkil mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin aktivlərinin təsviridir.




***Şəkil 1. 2020 – 2021-ci illərdə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin aktivləri (ilin sonuna mln. manat).***

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları [3]*

Təqdim olunan ***şəkil 1***-dən belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanda 2020–2021-ci illərdə iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin aktivlərində artım müşahidə edilir. Bu isə ölkəmizin sahibkarlığının maliyyə-iqtisadi potensialına bir töhfədir. Belə ki, 2020-ci illə müqayisədə 2021-ci ildə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin aktivləri 5921,1 mln. manat, yaxud 10,1% artmışdır. Onu da qeyd etmək lazımdır ki, həm mikro, həm kiçik, həm də orta sahibkarlıq subyekti olan müəssisələr üzrə bu göstəricidə artım müşahidə edilir:

*– 2020-ci illə müqayisədə 2021-ci ildə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə mikro sahibkarlıq subyekti olan müəssisələrin aktivləri 674,2 mln. manat, yaxud 20,7% artmışdır;*

*– 2020-ci illə müqayisədə 2021-ci ildə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyekti olan müəssisələrin aktivləri 2184,1 mln. manat, yaxud 9,2% artmışdır;*

*– 2020-ci illə müqayisədə 2021-ci ildə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə orta sahibkarlıq subyekti olan müəssisələrin aktivləri 3062,8 mln. manat, yaxud 9,8% artmışdır.*

Növbəti ***şəkil 2-də*** Azərbaycanda 2020 – 2021-ci illərdə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin aktivlərinin dəyərinin fəaliyyətdə olan bütün müəssisələrin aktivlərinin ümumi dəyərində xüsusi çəkisi təqdim olunub. Bu sxemdə ölkəmizdə 2020-ci illə müqayisədə 2021-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin cəmi aktivlərinin dəyərinin fəaliyyətdə olan bütün müəssisələrin aktivlərinin ümumi dəyərində xüsusi çəkisinə nisbətdə 0,3% artmışdır. Ayrı-ayrı sahibkarlıq subyektləri üzrə müvafiq olaraq mikro sahibkarlıq subyekti olan müəssisələr üzrə 0,1%, kiçik sahibkarlıq subyekti olan müəssisələr üzrə 0,1%, orta sahibkarlıq subyekti olan müəssisələr üzrə isə 0,1% artım müşahidə edilir. Bu göstəricilər cüzi görünsə də, sahibkarlığın maliyyə-iqtisadi potensialı ilə bağlı müəyyən bir irəliləyişindən xəbər verir.







***Şəkil 2. 2020 – 2021-ci illərdə Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin aktivlərinin dəyərinin fəaliyyətdə olan bütün müəssisələrin aktivlərinin ümumi dəyərində xüsusi çəkisi (ilin sonuna faizlə).***

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları [3]*

Azərbaycanda sahibkarlığın maliyyə-iqtisadi potensialının əlverişli şəraitini müəyyən edən növbəti göstərici iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatlarıdır ***(şəkil 3).*** Təqdim olunan göstəricidə artım müşahidə edilir: 2020-ci illə müqayisədə 2021-ci ildə ölkəmizdə iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatları 528706,8 mln. manat, yaxud 12,6% artmışdır.

Ehtiyatlarla bağlı ayrı-ayrı göstəricilərə nəzər yetirsək aşağıdakı mənzərəni müşahidə edərik:

*– 2020-ci illə müqayisədə 2021-ci ildə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə mikro sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatları 12509,5 mln. manat, yaxud 5,3% artmışdır;*

*– 2020-ci illə müqayisədə 2021-ci ildə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatları 112749,2 mln. manat, yaxud 9,9% azalmışdır. Bu istiqamətdə dövlət tərəfindən kiçik müəssisələrə kömək ümumi sahibkarlığın maliyyə-iqtisadi potensialını artıracaq;*

*– 2020-ci illə müqayisədə 2021-ci ildə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə orta sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatları 625381,5 mln. manat, yaxud 22,2% artmışdır.*




***Şəkil 3. Azərbaycanda 2020 – 2021-ci illərdə iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatları (min manat).***

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları [3]*

Növbəti ***şəkil 4-də*** Azərbaycanda 2020 – 2021-ci illərdə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatlarının fəaliyyətdə olan bütün müəssisələrin ehtiyatlarında xüsusi çəkisi təqdim olunub. Bu göstəricidə 2020-ci illə müqayisədə 2021-ci ildə 0,9% azalma müşahidə edilir. Ayrı-ayrı sahibkarlıq subyektləri üzrə aşağıdakı nəticələrə gəlmək olar:

*– 2020-ci illə müqayisədə 2021-ci ildə mikro sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatlarının fəaliyyətdə olan bütün müəssisələrin ehtiyatlarında xüsusi çəkisi 0,2% azalmışdır;*

*– 2020-ci illə müqayisədə 2021-ci ildə kiçik sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatlarının fəaliyyətdə olan bütün müəssisələrin ehtiyatlarında xüsusi çəkisi 2,2% azalmışdır;*

*– 2020-ci illə müqayisədə 2021-ci ildə orta sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatlarının fəaliyyətdə olan bütün müəssisələrin ehtiyatlarında xüsusi çəkisi 1,5% artmışdır.*

*Qeyd etmək lazımdır ki, bu göstəricinin aşağı olması sahibkarlığın resurs bazasının aşağı olmasıdır, xüsusilə mikro və kiçik sahibkarlıq subyekti olan müəssisələrin. Bu istiqamətdə işlər görülməlidir.*






***Şəkil 4. Azərbaycanda 2020 – 2021-ci illərdə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatlarının fəaliyyətdə olan bütün müəssisələrin ehtiyatlarında xüsusi çəkisi (ilin sonuna faizlə).***

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları [3]*




***Şəkil 5. Azərbaycanda 2020-2021-ci illərdə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri (min manat).***

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları [3]*

Növbəti ***şəkil 5-də*** Azərbaycanda 2020-2021-ci illərdə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri təqdim olunub. Bu göstərici sahibkarlığın daha çox mənfəət əldə edilməsi istiqamətində olduqca vacibdir və bunun nəticəsində bu sahədə maliyyə-iqtisadi potensial daha da artır. Beləliklə, şəkildən aşağıdakı nəticələrə gələ bilərik:

*– 2020-ci illə müqayisədə 2021-ci ildə ölkəmizdə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri 5021763,2 mln. manat yaxud 25,5% artmışdır;*

*– 2020-ci illə müqayisədə 2021-ci ildə ölkəmizdə iqtisadi fəaliyyət üzrə mikro sahibkarlıq subyektləri tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri 2157189,8 mln. manat, yaxud 29,9% artmışdır;*

*– 2020-ci il ilə müqayisədə 2021-ci ildə ölkəmizdə iqtisadi fəaliyyət üzrə kiçik sahibkarlıq subyektləri tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri 1311885,6 mln. manat, yaxud 45% artmışdır;*

*– 2020-ci illə müqayisədə 2021-ci ildə ölkəmizdə iqtisadi fəaliyyət üzrə orta sahibkarlıq subyektləri tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri 1552687,7 mln. manat, yaxud 16,2% artmışdır.*

Yuxarıdakı təhlil əsasında belə bir nəticəyə gələ bilərik ki, respublikamızda 2020-ci illə müqayisədə 2021-ci ildə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri müsbət tendensiyalıdır, bu isə sahibkarlığın maliyyə-iqtisadi potensialının artımına əlavə stimul yaradır.




***Şəkil 6. Azərbaycanda 2020 – 2021-ci illərdə iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən ödənilən vergilər (mln).***

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları [3]*

Növbəti ***şəkil 6-da*** Azərbaycanda sahibkarlığın dövlət büdcəsinə töhfəsi təqdim olunub. Burada aşağıdakı nəticələri qeyd etmək lazımdır:

*– 2020-ci illə müqayisədə 2021-ci ildə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən ödənilən vergilərin cəmi 826,5 mln. manat, yaxud 40,9% artmışdır;*

*– 2020-ci illə müqayisədə 2021-ci ildə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə mikro sahibkarlıq subyektləri tərəfindən ödənilən vergilər 658,2 mln. manat, yaxud 130,7% artmışdır;*

*– 2020-ci illə müqayisədə 2021-ci ildə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektləri tərəfindən ödənilən vergilər 37,7 mln. manat, yaxud 7,5% artmışdır;*

*– 2020-ci il ilə müqayisədə 2021-ci ildə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə orta sahibkarlıq subyektləri tərəfindən ödənilən vergilər 130,6 mln. manat, yaxud 12,8% artmışdır.*

Nəticələrə əsasən qeyd etmək lazımdır ki, ölkəmizdə iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən ödənilən vergilərin cəmi müsbət tendensiyalıdır. Bu məsələ bir tərəfdən ölkədə sahibkarlığın daha da inkişaf etməsindən xəbər verir. Digər tərədən isə respublikada sahibkarlığın vergitutma bazasının azaldılması məsləhətə uyğundur və bunun nəticəsində sahibkarların əlində daha çox maliyyə vəsaiti qalacaq və bu da sahibkarlığın maliyyə-iqtisadi potensialının artımı deməkdir.

***Cədvəl 2.***
***Azərbaycanda 2018 – 2021-ci illərdə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri***

| Göstəricilər | İllər | | | |
|---|---|---|---|---|
| | **2018** | **2019** | **2020** | **2021** |
| **Yaradılmış əlavə dəyər, milyon manat; o cümlədən:** | **9836,6** | **11071,7** | **10941,0** | **13956,1** |
| Mikro sahibkarlıq subyektləri üzrə | 4467,8 | 4900,8 | 4455,2 | 5790,8 |
| Kiçik sahibkarlıq subyektləri üzrə | 1235,5 | 1423,2 | 1617,9 | 2384,3 |
| Orta sahibkarlıq subyektləri üzrə | 4133,3 | 4747,7 | 4867,9 | 5781,0 |
| **İşçilərin sayı, min nəfər, o cümlədən** | **283,5** | **332,2** | **348,7** | **357,8** |
| Mikro sahibkarlıq subyektləri üzrə | 35,0 | 40,2 | 40,9 | 40,9 |
| Kiçik sahibkarlıq subyektləri üzrə | 76,1 | 85,1 | 92,1 | 102,2 |
| Orta sahibkarlıq subyektləri üzrə | 172,4 | 206,9 | 215,7 | 214,8 |
| **Orta aylıq nominal əmək haqqı, manat, o cümlədən** | **445,3** | **531,0** | **612,3** | **632,2** |
| Mikro sahibkarlıq subyektləri üzrə | 294,9 | 332,5 | 359,4 | 382,5 |
| Kiçik sahibkarlıq subyektləri üzrə | 373,5 | 437,0 | 533,8 | 528,2 |
| Orta sahibkarlıq subyektləri üzrə | 517,1 | 624,6 | 714,4 | 748,3 |
| **Əsas kapitala investisiyalar, milyon manat, o cümlədən** | **6953,0** | **3422,2** | **2674,1** | **3387,7** |
| Mikro sahibkarlıq subyektləri üzrə | 2831,5 | 515,5 | 970,2 | 1706,2 |
| Kiçik sahibkarlıq subyektləri üzrə | 1046,7 | 494,2 | 380,4 | 892,7 |
| Orta sahibkarlıq subyektləri üzrə | 3074,8 | 2412,5 | 1323,5 | 788,8 |

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları [3]*

***Cədvəl 2***-də Azərbaycanda sahibkarlığın maliyyə-iqtisadi potensialını daha dolğun ifadə edən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri təqdim edilib. Bu cədvəldən də göründüyü kimi, ölkəmizdə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri üzrə müsbət tendensiyalar müşahidə edilir. 2020-ci ildə pandemiyaya görə bu göstəricilərdə mənfi tendensiya müşahidə edilsə də, respublikada 2021-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəricilərində artım müşahidə edildi. Cədvəl 2-dən aşağıdakı nəticələrə gələ bilərik:

*– 2018-ci illə müqayisədə 2021-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyər 4119,5 mln. manat, yaxud 41,9% artmışdır;*

*– 2018-ci illə müqayisədə 2021-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyektlər üzrə işçilərin sayı 74,3 min nəfər, yaxud 26,2% artmışdır;*

*– 2018-ci illə müqayisədə 2021-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyektləri üzrə orta aylıq nominal əməkhaqqı 186,9 manat, yaxud 42% artmışdır;*

*– 2018-ci illə müqayisədə 2021-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyektlər üzrə əsas kapitala investisiyalar 3565,3 mln. manat, yaxud 51,3% azalmışdır.*

İqtisadi münasibətlərin nəticəsində maliyyə-iqtisadi potensialının səmərəli təşkilini təmin etmək üçün sahibkarlıq strukturlarında müvafiq şərait yaradılmalıdır. Bunlara – əmlakın təcrid olunması, mütərəqqi normativ baza, maddi dəyərlərin, xərclərin və məhsulların hərəkətinin uçotu sistemi, fəaliyyətin qiymətləndirilməsi və maddi həvəsləndirilməsinin rasional sistemi, əmtəə-maddi axınının idarə olunması üçün infrastruktur və logistika sxemlərinin yaradılması daxildir. Sahibkarlıq fəaliyyəti prosesində ayrı-ayrı texnoloji sahələrin əmlakının təcrid olunması məsuliyyət mərkəzlərini ayırmağa, gəlir, xərc və investisiya axınlarının idarə edilməsinin müvafiq funksiyalarını birləşdirməyə imkan verir. Nisbi iqtisadi müstəqillik xərclərin sahibkarlıq fəaliyyətinin nəticələri ilə müqayisəsi iqtisadi maraq və maddi məsuliyyət kimi prinsiplərin həyata keçirilməsini alt bölmələr səviyyəsində gücləndirmək üçün hazırlanmışdır.

Mütərəqqi normativ baza sahibkarlıq fəaliyyətinin planlaşdırılması, tənzimlənməsi və nəzarəti, xərclərin əldə edilmiş nəticələrlə müqayisəsi, sahibkarlıq fəaliyyətinin nəticələrinə görə məsuliyyətin müəyyənləşdirilməsi və işçilərin fəaliyyətinin stimullaşdırılması üçün əsasdır. İnventarizasiyanın, xərclərin və məhsulların hərəkətinin uçotu sistemi sahibkarlıq fəaliyyətinin vəziyyəti və nəticələri barədə məlumat əldə etməyə imkan verir, maddi ehtiyatların qəbulunu, daxili hərəkətini, istifadəsini və satışını əks etdirir, eyni zamanda onlardan istifadənin optimallığını müəyyənləşdirməyə şərait yaradır.

Sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması mexanizminin fəaliyyətinin əsas şərtlərindən biri əmtəə-maddi axınlarının idarə olunması üçün infrastruktur və logistika sxemlərinin yaradılmasıdır. Belə təşkilati tərtibat bütün idarəetmə funksiyaları üçün vahid texniki, iqtisadi və kadr siyasətinin genişləndirilmiş obyektlərini yaratmağa imkan verir. Sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması mexanizmi qısa və uzunmüddətli dövrlərdə rəqabət şəraitində yaşamaq və uğur qazanmaq məqsədi daşıyır. Bu mexanizmin işləməsi yeni məhsul və texnologiyaların yaradılmasında rəqabət və əməkdaşlıq motivlərini, sahibkarlıq strategiyalarını, sahibkarlıq riskinin, xarici mühitin dəyişməsinə sahibkarlıq reaksiyalarının motivlərini, idarəetmə və yenilik qavrayışının çevikliyini təmin edən daxili sahibkarlığın motivlərini təmin edir.

**Nəticə.** Təqdim olunan statistik göstəricilər əsasında belə nəticəyə gəlmək olar ki, Azərbaycanda sahibkarlığın maliyyə-iqtisadi potensialı kifayət qədərdir. Lakin rəqəmlərdən də görünür ki, müəyyən problemlər mövcuddur.

Bu problemlərdən birincisi, mikro və kiçik sahibkarlıq subyektləri olan müəssisələrin ehtiyatlarının azalmasıdır. Nəzərə alsaq ki, ölkənin ümumi sahibkarlıq fəaliyyətində onların payı 99,2% təşkil edirsə, bu xoşagəlməz tendensiyadır. İkincisi, sahibkarlıq subyektləri tərəfindən ildən-ilə daha çox vergilərin ödənilməsidir. Bu bir tərəfdən diqqətəlayiq tendensiyadır, dövlət büdcəsinin gəlir hissəsi zənginləşir, deməli, ölkənin vacib sahələri kifayət qədər maliyyə vəsaitləri ilə təmin edilir. Digər tərəfdən daha çox vergilərin ödənilməsi sahibkarlıq subyektləri üzərində əlavə yükdür, bu isə onların maliyyə-iqtisadi potensialını azaldır.

Qeyd olunan məsələləri və ölkəmizin dünyada qloballaşan şəraitdə fəaliyyət göstərdiyini nəzərə alaraq, sahibkarlığın maliyyə-iqtisadi potensialının səmərəliliyinin artırılması mexanizminin daha da səmərəli işlənilməsi olduqca vacib məsələ hesab edilir. Bununla bağlı aşağıdakı təklifləri təqdim etmək məqsədəuyğundur:

– *sahibkarlıq strukturlarının fəaliyyət sahələrinin aydınlaşdırılması və ya yenidən istiqamətləndirilməsi (yeni yaradılan sahibkarlıq strukturları üçün bu problem bazarın nisbətən qeyri-müəyyən istiqamətini və sektorlarını konkretləşdirməkdən ibarətdir ki, bu da çoxdan mövcud olan sahibkarlıq strukturlarının yeni istiqaməti ilə istər-istəməz texniki və inzibati çətinliklərlə üzləşir);*

– *müasir tələblərə uyğun texnologiya seçimi, informasiya şəbəkəsinin və nəzarət sisteminin yenidən qurulması;*

– *sahibkarlıq strukturlarının iqtisadi cəhətdən etibarlı işləməsini təmin edəcək struktur və prosedurların müəyyənləşdirilməsi;*

– *sahibkarlığın inkişafı və işləməsi üçün zəruri şərt düzgün institusional mühitin, yəni istehsal, mübadilə və bölgü üçün bazis təşkil edən əsas siyasi, sosial və hüquqi qaydaların yaradılması.*

– *ölkənin maliyyə-kredit sisteminin daha da təkmilləşdirilməsi, bu sistemin sahibkarların maraqlarına tam uyğun olması;*

– *işğaldan azad olunmuş ərazilərdə sahibkarlığın maliyyə-iqtisadi potensialının artırılması.*

Yuxarıda qeyd olunanlar son nəticədə sahibkarlığın maliyyə-iqtisadi potensialının artırılmasına zəmin yaradacaq.

## İstifadə edilmiş ədəbiyyat

1. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. 15 dekabr, 1992-ci il.

2. “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramının (2002 – 2005-ci illər) təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 17 avqust 2002-ci il.

3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları.

4. "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 31 iyul 2018-ci il.

5. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. 06 dekabr 2016-cı il.

6. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. 02 fevral 2021-ci il.

7. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı, "Zaman" nəşriyyatı, 2002.

8. Боброва О.С, Цыбуков С.И, Бобров И.А. Организация коммерческой деятельности: учебник и практикум для СПО. С.И. Цыбуков, И.А. Бобров. Москва Издательство Юрайт, 2019, 332 с.

9. Боброва О.С., Цыбуков С.И., Бобров И.А. Настольная книга предпринимателя: (практ. пособие). Москва, Издательство Юрайт, 330 с.

10. Гаврилов Л.П. Инновационные технологии в коммерции и бизнесе: (учебник для бакалавров). Москва, Издательство Юрайт, 2019.

11. Инновационное предпринимательство учебник и практикум для СПО / Горфинкель В.Я. и др. под ред. Горфинкеля В.Я, Т.Г. Попадюк. Москва, Издательство Юрайт, 2018, 523 с.

12. Казакевич Т.А. Организация и планирование деятельности предприятий сервиса (учеб. пособие для вузов) 2-е изд., доп, Москва, Издательство Юрайт, 2018, 185 с.

**V.Nazarov**

**Financial and economic potential of entrepreneurship in tAzerbaijan**

**Summary**

In the market economy, significant attention is paid to entrepreneurship, which is an integral part of economic activity. Social stereotypes of the perception of entrepreneurship as a commercial activity associated exclusively with the purchase and sale of goods are widespread. Such an idea suffers from incompleteness and constraint. Entrepreneurship is an extremely multifaceted type of economic activity, which is not only related to trade and Commodity Exchange, but also extends to almost all areas of the economy and economic activity. Thus, entrepreneurship is a special innovative style of economic behavior based on the search for new economic opportunities in a creative form, the ability to attract and use resources from various sources in competitive conditions. The article reveals the important points of financial and economic potential in the field of entrepreneurship in our country. In order to make the situation more complete, an in-depth analysis of the degree of influence of indicators of financial and economic potential on entrepreneurship and the national economy was carried out in the article.

**В.Назаров**

**Финансово-экономический потенциал предпринимательства в Азербайджане**

**Аннотация**

В рыночной экономике важное внимание уделяется предпринимательству, которое является неотъемлемой частью экономической деятельности. Широко распространены социальные стереотипы восприятия предпринимательства как коммерческой деятельности, связанной исключительно с покупкой и продажей товаров. Такая идея страдает от неполноты и ограниченности. Предпринимательство-это чрезвычайно многогранный вид экономической деятельности, связанный не только с торговлей и товарным обменом, но и распространяющийся практически на все сферы экономики и хозяйственной деятельности. Таким образом, предпринимательство-это особый инновационный стиль экономического поведения, основанный на поиске новых экономических возможностей в творческой форме, умении привлекать и использовать ресурсы из различных источников в условиях конкуренции. В статье раскрываются важные моменты финансово-экономического потенциала в сфере предпринимательства в нашей стране. Для большей полноты в статье проведен углубленный анализ степени влияния показателей финансово-экономического потенциала на предпринимательство и национальную экономику.

Peşə təhsili və insan kapitalı. Cild 7, №1, 2024, s.61-65

# MÜXTƏLİF TORPAQ TİPLƏRİNDƏ BECƏRİLƏN BİTKİLƏRİN MƏHSULDARLIĞINA KALİUM TƏTBİQİNİN SƏMƏRƏSİ



**Arif Əzimov,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının dosenti, Qabaqcıl təhsil işçisi*
*e-mail: arif-azimov@UNEC.edu.az*

**UOT**: 681.81

**Xülasə.** *Bitkilərin qidalanmasının elmi-nəzəri və  təcrübi əsasları göstərir ki, bitkilər xarici mühitlə daima qarşılıqlı əlaqədə olur. Bitkilərin normal inkişaf etməsi, yüksək və keyfiyyətli məhsul verməsi üçün kompleks həyat faktorları olmalıdır. Onlardan ən vacibi isə bitkilərin qidalanmasıdır. Bitkilərin qidalanmasını öyrənmək aqrokimya elminin ən mühüm vəzifələrindən biridir. Məqalədə bitkilərdə gedən maddələr mübadiləsi tədqiq edilərək bitkiləri normal qidalandırmaqla məhsuldarlığının artırılması, eləcə də keyfiyyətinin yaxşılaşdırılması vasitələri araşdırılır və iqtisadi göstəriciləri təhlil edilir.*

***Açar sözlər:*** *kaliumun təbiətdə yayılması, torpaqda miqdarı, formaları və potensialı, bitkilərdə miqdarı, təsərrüfatda dövranı, tətbiqi və istehsalatda iqtisadi faydalılığı.*
***Key words:*** *distribution of Calium in nature, amount, forms and potential in soil, amount in plants, cycle in farm, application and economic usefulness in production.*
***Ключевые слова:*** *распространение калиум в природе, количество, формы и потенциал в почве, количество в растениях, круговорот в хозяйстве, применение и экономическая полезность в производстве.*

Aqrokimya əkinçilik və meliorasiya, kənd təsərrüfatı istehsalatının iqtisadiyyatı və təşkili elmləri ilə əlaqəli surətdə öyrənilir. Bitkilərin kökdən qidalanması bitki və torpağın qarşılıqlı əlaqəsi vasitəsilə həyata keçirilir. Bitkilər kökün seçicilik qabiliyyətinə əsaslanaraq su vasitəsilə torpaqdan çoxlu miqdarda azot, fosfor, kalium, kalsium, maqnezium, kükürd və s. elementləri mənimsəyir. Bitkilərin həyatında başqa həyat elementləri ilə bərabər, kaliumun da fizioloji rolu daha çoxdur. O sitoplazmatik koloidlərin fiziki halına müsbət təsir edir. Kalium fotosintezin intensivliyinə müsbət təsir edərək hüceyrə daxilində oksidləşməni artırır. Bitkilər kaliumla normal təmin olunduqda onların xəstəliklərə dözümlülüyü artır. Bitkilər yüksək məhsuldarlıq şəraitində torpaqdan külli miqdarda (məsələn, dənli bitkilər hər hektardan 80 kq kartof, şəkər çuğunduru, tərəvəz bitkiləri isə 150-250 kq) kalium mənimsəyir.

Kalium insan orqanizminə, əsasən bitki məhsullarından hazırlanan yeməklərlə daxil olur. O bitkilərin qidalanması üçün çox mühüm elementlərdən biridir. Bunun üçün torpaqda kaliumun miqdarı və formaları, təbiətdə yayılması, torpağın mənimsənilən kaliumla təminolunma dərəcəsi, torpağın kalium potensialı, öyrənilən bitkilərdə kalium, kənd təsərrüfatında kaliumun dövranı, kaliumlu gübrələrin xüsusiyyətləri, on-

ların tətbiqi və müxtəlif bitkilərə təsiri tətbiq edilmiş istehsalat təcrübəsində iqtisadi faydalılığı müəyyənləşdirilərək məhsuldarlığın artırılması və səmərəliliyi öyrənilir.

Aqrar sferada bitki məhsuldarlığının iqtisadi artımı aqrokimya elminin əsas vasitəsidir. Aqrokimya əkinçilikdə qida maddələrinin dövranını, bitki, torpaq və gübrələr arasındakı qarşılıqlı əlaqəni öyrənir, qida maddələrinin torpaqdan tükənməsinin qarşısını aldığından torpaqlarda münbitliyi tədricən artırır [1, s.2].

Mineral gübrə olan Kalium təbiətdə ən geniş yayılmış kimyəvi fəal elementdir. İnsan orqanizm üçün kalium çox vacib elementlərdən biridir. Südəmər uşaqların hər kiloqram çəkisinə gündə 12-13 mq, yaşlı adamlarda isə 2-3 mq və daha çox kalium sərf olunur [6, s.5]. Mineral gübrələrin tərkibində kaliumlu birləşmələr üzümçülükdə üzüm bitkisinin inkişaf və məhsuldarlığına üzvi gübrələr zəminində müsbət təsir edərək xeyli iqtisadi fayda verir [2, s.14]. Torpaq minerallarında çöl qatında $K_2$, $Al_2$, $Si_6$, $O_{16}$ tərkibli olur. Tədqiqat (P.Əliyev) göstərir ki, bir hektar əkin sahəsinin əkin qatında olan 12000-40000 kq $K_{2O}$-nin il müddətində 0,5-1,0%-i hər hektardan 7,5-40 kq $K_{2O}$ bitki tərəfindən mənimsənilən formaya keçir [6, s.7].

Torpağın tərkibində mənimsənilən kaliumla bitkilərin təminolunma dərəcəsi mübadiləvi kaliumla yanaşı, həm də qeyri-mübadiləvi kaliumla da təmin edilir. Bitkinin mənimsədiyi kaliumun 50%-ə qədəri qeyri-mübadiləvi kaliumun payına düşür [6, s.14]. Bitkilərin qidalanmasının mənimsənilən kaliumla təmin edilməsi torpaquducu kompleksində udulmuş vəziyyətdə olan kaliumun torpaq məhluluna asan və tam çıxarılması ilə bağlıdır. Torpağın uducu kompleksində və torpaq məhlulunda olan $Ca^{2+}$, $Mg^{2+}$, $K^{+}$ kationlarının arasında dinamik tarazlıq vardır [3, s.98].

Kaliumlu gübrələr, əsasən şum altına səpinqabağı becərmədə tətbiq edilir. Superfosfat gübrəsi və başqa fosforlu gübrələrlə torpağa daxil olan kalsium bu bitkinin qidasını tam və artıqlaması ilə ödəyir. Tədqiqatlar göstərir ki, Azərbaycanın torpaq iqlim şəraitində kalium dozası və formaları təsirindən kartof məhsulu 27-39 sentner artmışdır. Burada ən yaxşı təsir göstərən kaliumlu gübrə forması $K_2SO_4$-dür [3, s.124]. Digər tərəfdən eyni şəraitdə pambıq bitkisinə Np zəminində hər hektara 60-90 kq $K_2O$ verilməsi və tütün bitkisinə də həmin variant tətbiq edildikdə məhsuldarlıq xeyli artmışdır. Məhsuldar üzüm tənəyinə də kaliumlu gübrə formaları verildikdə, hər hektardan üzüm məhsulunu 19,8-26,7 sentner artımına səbəb olub. Burada isə kaliumlu gübrə $K_2SO_4$-dən istifadə edilib [2, s.15].

**Tədqiqat işləri**

Çoxillik elmi tədqiqat və tarla təcrübələrinə əsasən, açıq şabalıdı torpaqlar şəraitində müxtəlif bitki növlərinə kaliumlu gübrə dozalarının təsirini qeyd edək:

***Payızlıq buğda bitkisi*** mineral gübrələrə böyük tələbat göstərir və hər hektardan yığılan 25 sentner dən və 60 sentner küləş məhsulu ilə torpaqdan 105 kq N, 35 kq ($P_2O_5$) və 70 kq $K_2O$ aparır. Payızlıq buğdanın kollanma dövründə 50 kq $K_{20}$ verilməsi optimal doza hesab edilir.

***Pambıq bitkisi*** bir ton məhsula hər hektardan 40-50 kq N, 15-20 kq $P_2O_5$ və 50-60 kq $K_2O$ götürür. Pambıq bitkisində başqa mineral və üzvi gübrələrlə bərabər tətbiqidə kalium gübrəsinin böyük rol oynayır. Onun 50-70 kq dozasının yarısını əsas şum altına, yarısını isə qönçələmə-çiçəkləmə fazasında yemləmə şəklində vermək faydalıdır. Azərbaycanın müxtəlif torpaq-iqlim şəraitində Np zəminində kaliumun müxtəlif formalarının təsiri ilə pambıq məhsulu hektardan 4 sentner artmışdır. Məhsul artımının təsirinə görə ayrı-ayrı kalium formaları bir-birindən kəskin fərqlənmir.

***Qarğıdalı*** torpaq münbitliyinə və qida maddələrinə tam tələbkar bitki olub, bir hektardan 60-70 sentner dən və ya 550-650 sentner yaşıl kütlə məhsulu ilə torpaqdan 150-180 kq N, 55-60 kq ($P_2O_5$) və 155-200 kq $K_2O$ aparır. İllik gübrə normasından $K_2O$-nun 70%-i əsas şum altına peyinlə birlikdə, 30%-i isə kultivasiya becərmələrində yemləmə kimi verilir. Beləliklə, gübrələrin faydalı tətbiqi yolu ilə hər hektardan əlavə olaraq 150-300 sentner yaşıl kütlə məhsulu almaq olar.

***Kartof bitkisi*** bir hektardan 100 sentner məhsul verdikdə torpaqdan özü ilə 40-60 kq N, 15-20 kq $P_2O_5$ və 70-90 kq $K_2O$ aparır. Çoxillik tarla təcrübələrindən məlum olur ki, kartof bitkisinin mənimsədiyi qida maddələrinin illik normasından azotun 40%, fosforun 30% və kaliumun 32%-ni çiçəkləmə fazasına qədər, azotun 60%, fosforun 70%-ni yumruların daha da çox böyü-

yənə qədər tətbiq etmək vacibdir. Kartof ən çox kalium sevən bitki olduğu üçün gövdəsinin əmələ gəldiyi və kök yumrularının böyüməsi dövründə kaliumla intensiv qidalanır. Torpaq mühiti turş olduqda (pH 4,5-5,0) normal inkişaf edir. Ümumiyyətlə, gübrələrin tətbiqi nəticəsində əlavə olaraq hər hektardan 100-180 sentner kartof məhsulu almaq olur.

***Şəkər çuğundurundan*** alınan 400 sentner kök məhsulu torpağın hər hektarından 180 kq azot, 65 kq fosfor, 260 kq kalium aparır. Çuğundur üçün suvarma şəraitində illik mineral gübrə dozası olaraq hər hektara başqa gübrə formaları ilə yanaşı, 60-70 kq $K_2O$ verilməsi əlverişlidir. Düzgün gübrələmə yolu ilə hər hektardan şəkər çuğundurunun məhsuldarlığını əlavə olaraq 150-250 sentner artırmaq olar.

***Dənli-paxlalı bitkilərin və yem otu*** üçün paxlalı bitkilərin hamısı köklərində olan yumrucuq bakteriyalarının köməyi ilə havanın sərbəst azotundan istifadə edirlər. Məsələn, adi noxudun hər sentner dəni və müvafiq miqdarda küləş (gövdə) məhsulu ilə torpaqdan 65 kq azot, 15 kq fosfor və 18 kq kalium aparır. Tədqiqatlar göstərir ki, paxlalı bitkilər üçün fosfor və kalium gübrələri daha əhəmiyyətlidir. Paxlalıları torpağa səpən zaman kök yumrusu bakteriyalarının sayını çoxaltmaq üçün toxumlar "nitragin" ilə yoluxdurulur. Məsləhət görülür ki, şum altına hər hektara 60 kq kalium ($K_2O$) istifadə etməklə əlavə olaraq hər hektardan 3-7 sentner paxla dəni almaq olar.

***Tərəvəz bitkilərindən*** kələm, pomidor, xiyar, soğan kimi növlərin yetişdirilməsində hər hektardan müvafiq olaraq yüksək məhsul almaq üçün kələmin 1 ha sahəsinə N – 60-90, P – 60-90 və K – 60-70 kq olmaqla 30-40 ton peyin, pomidorun hər hektarına 15 ton peyin və N – 45 q, P – 45 q və K – 60-70 kq tətbiq edilir. Xiyar üçün eynilə K – 135 kq, soğan üçün isə 60-90 kq $K_{20}$ vermək məsləhətdir.

***Üzüm bağlarının*** becərildiyi torpaq sahəsindən hər hektardan 100-120 sentner üzüm məhsulu, – birillik tənəklər, yaşıl zoğlar və yarpaqlarla torpaqdan 60 kq azot, 22 kq fosfor və 56 kq kalium aparır. Başqa qida elementlərinin müsbət təsiri ilə bərabər kalium üzüm şəkərinin və nişastanın toplanmasında böyük rol oynayır. Bu maddə vegetasiyanın əvvəlində və axırında daha çox mənimsənilir. Üzümlüklərə aqrotexniki tədbirləri tətbiq etməklə payız-qış dövründə üzvi gübrə kimi ən çox peyindən istifadə edilir. Hər hektara 30-40 ton peyin verilməsi normal doza hesab edilir. Üzümlüklər üçün illik doza hər hektara N – 60-80, $P_2O_5$ – 60-120 və $K_2O$ – 100-150 kq verilməsi məqsədəuyğundur.

Azərbaycan şəraitində üzümlüklərin hər hektarına 80-90 kq dozada kaliumlu gübrələr verilməsi daha səmərəlidir. Kalium gübrəsi üzümün şəkərliliyini 1-2%-dək artırır. Tənək kaliuma yüksək tələbkar bitkidir. Üzümlüklərdə kaliumlu gübrələrdən geniş istifadə olunur. Kaliumlu gübrələrin torpağın uducu kompleksi tərəfindən udulduğuna görə oradan yuyulmur. Odur ki, kaliumlu gübrələri torpağa payızda, həmçinin yazda əsas gübrə kimi vermək olar.

Kaliumlu gübrələr Np zəminində daha yaxşı səmərə verir. Məhsulun miqdarına və keyfiyyətinə ən yaxşı təsir göstərən kaliumlu gübrə $K_2SO_4$-dür. Bu kalium gübrəsi üzüm məhsulunu hektardan 23,3 sentner və ya 17,9% yüksəldir. Kaliumlu gübrə formaları müxtəlif variantlardan da hər hektardan üzüm məhsulunu 19,8-26,7 sentner artırılmasında səmərəli olur.

***Tütün bitkisi*** üzrə kaliumun tətbiqi tütünün tərkibində karbohidratları artırmaq və nikotini azaltmaq yolu ilə onun keyfiyyətini yaxşılaşdırır. Yarpaqların yetişməsinə müsbət təsir göstərir. Bu bitkiyə $K_2O$-u hektara 60-90 kq normada vermək məsləhət görülür. Kalium gübrəsi Np zəminində daha yüksək səmərə verir. Np zəminində tətbiq edilmiş kalium gübrəsi məhsulu hektardan 4,7 sentner, ayrı-ayrı formaları isə 4,0-4,9 sentner yüksəlmişdir. Tütünün məhsulu və keyfiyyətinin təsirinə görə kaliumun $K_2SO_4$ forması daha səmərəli olmuşdur.

Uzun illər aparılmış elmi tədqiqatlar göstərir ki, kənd təsərrüfatı bitkilərinin inkişaf və məhsuldarlığına, məhsulun keyfiyyətinə müsbət təsir edən torpaq və onun tərkibindəki qida elementləri, o cümlədən kalium elementi təbiətdə ən geniş yayılmış kimyəvi fəal elementdir. Bu element təbiətdə birləşmələr halında olur. Kalium elementi təbiətdə ən çox miqdarı mineralların, torpaqaltı və torpaqüstü suların, dağ süxurlarında qranitdə 4-6%, bazaltda 1-5%, troxitdə 3-5% $K_2O$ olur. O bitkilərin qidalanması üçün çox mühüm elementlərdən biridir.

Kaliumun torpaqda ümumi miqdarı adi halda

1-2,5% arasında dəyişir. Ona görə də torpağın mexaniki tərkibində gil hissəcikləri çox olduqca kaliumun miqdarı da çox olur. Bu sahədə ölkə ərazisindəki torpaqların tədqiqi zamanı aşağıdakı qanunauyğunluq alınmışdır.

***Cədvəl 1.***
***Azərbaycanın müxtəlif torpaqlarının mexaniki tərkbi ilə əlaqədar $K_2O$-nun miqdarı (%-lə)***

| S/S | Göstərici | Qum | Qumsal | Yüngül gillicə | Ağır gillicə | Gil |
|---|---|---|---|---|---|---|
| 1. | Kaliumun miqdarı | 0,08 | 0,14 | 0,14 | 0,20 | 0,27 |

***Cədvəl 2.***
***Gil funksiyası və kaliumun miqdarı (%-lə) (prof. T.Ə.Əliyevanın tədqiqatına görə)***

| S/S | Göstərici | Podzol torpaq | Qara torpaq |
|---|---|---|---|
| 1. | Lil fraksiyasının miqdarı<br>$K_2O$-nun ümumi miqdarı | 3,00; 4,30; 7,60<br>1,25; 1,97; 2,72 | 8,60; 11,30; 12,43<br>1,50; 1,77; 2,00 |

Torpaq münbitliyi sirlərinin izah edilməsi kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasının nəzəri əsaslarını dərk etmək üçün əsas zəmin elmi-tədqiqat və istehsalat-laborator işlərinin aparılması olmuşdur. Torpaqların xassələri, gübrələrin tətbiqi ilə əlaqədar olaraq bitkilərin qidalanması sahəsində görkəmli rus alimləri – B.B.Dovuçayev, P.A.Kostıçyev, D.H.Pryanişnikov, K.K.Hedroyts, V.L.Vernadski, V.P.Vilyams və başqaları, torpaq və onun münbitliyi, əkinçilik problemlərinin əsasını qoymuşlar. Azərbaycanın görkəmli alimlərindən B.R.Volobuyev, H.Ə.Əliyev, S.Ə.Əliyev, A.N.Güləhmədov, D.M.Hüseynov, R.Q.Hüseynov, M.L.Cəfərov, Q.Ş.Məmmədov, N.A.Ağayev, Ş.Behruz, A.Əzimov və başqaları da bu sahədə dərin tədqiqat işləri aparmışlar. Odur ki, kaliumlu gübrələrin müxtəlif bitkilərin inkişaf və məhsuldarlığında məhsulun keyfiyyətinə təsirini təhlil edək. Çoxillik elmi-tədqiqatlarla elmə məlum olub ki, Kalium (K) – Mg, Ca və Na ilə antoqonizmdə olan elementdir. Ona görə də torpaqda kalsium, maqnezium və natrium duzlarının çox olması kaliumla bitkilərin qidalanmasını pisləşdirir.

Bütün kaliumlu gübrələr suda yaxşı həll olunur. Bu gübrələri torpağa verdikdə sürətlə uducu kompleksə daxil olur, sonra isə onların torpaqda yuyulması və hərəkəti dayanır. Torpağa bitki qidası üçün verilən kaliumlu gübrə, ilk növbədə uducu kompleksdə olan mübadiləvi kaliumu oradan torpaq məhluluna çıxararaq onun yerini tutur [6, s.24]. Onun sxematik dəyişməsinə baxaq (2018-2021-ci illər).



Burada – TUK torpağın bitki kökünü əhatə edən uducu kompleksdir.

Çoxillik tədqiqatlar göstərir ki, torpağa verilən kaliumun 40%-i həmin il bitkilər tərəfindən istifadə edilir. Bitki əkilməyən (xam) torpağa verilmiş kalium gübrəsinin 10%-i suda həll olunan formada qalır. 10%-i dərin qatlara yuyulur, 80%-i isə mübadiləvi və qeyri-mübadiləvi şəkildə udulur. Başqa bir təcrübə ilə müəyyənləşdirilmişdir ki, orta mexaniki tərkibli qara torpaq doldurulmuş borunun içərisindən KCL məhlulu buraxdıqda oradakı kalium 4-6 sm dərinliyə yuyulmuşdur.

Tədqiqatlar göstərir ki, kontinental iqlim şəraitində orta, ağır mexaniki tərkibli torpaqlarda kaliumlu gübrələri torpağın sabit nəmliyi olan dərin şum qatına vermək lazımdır. Daha doğrusu, onu dərin şum altına vermək məsləhət görülür. Belə olduqda kalium gübrəsinin tərkibindəki zərərli qarışıqlar tezliklə və asanlıqla aşağı qatlara yuyulur. Bir qayda olaraq, kalium gübrəsini torpağa bitki altına verdikdə torpağın şorlaşma növünü nəzərə almaq lazımdır. Belə ki, şorakət olmayan torpaqlarda sulfatlı kalium gübrələrinin, sulfatlı şoranlarda sulfatsız kalium gübrələrinin, xlorlu şoran torpaqda isə sulfatlı kalium gübrələrinin verilməsi daha məqsədəuyğundur. Kaliumlu gübrələr torpağın uducu kompleksində çoxlu kalium olan şorakət torpaqlara verilmir. Həmin torpaqlara kaliumun verilməsi bitkilərin məhsuldarlığını azaltmaqla torpağın şorakətliyini artırır.

Kalium gübrəsinin əsas nümayəndəsi olan və ən çox istehsal olunan KCL-u torpağa 60 kq $K_20$ hesabı ilə verdikdə, torpağa əlavə olaraq 48 kq Cl, həmin normada kalium duzu ilə 78 kq Cl və 30 kq $Na_2O$, silvinitlə 228 kq Cl və 156 kq $Na_2O$, kalium-sulfatla 62 kq $SO_4$ daxil olur.

Kalsiumlu gübrələr fizioloji turş gübrələrdir. Həmin gübrələr torpağa verildikdə kalsium bitki tərəfindən istifadə olunur, turşu qalıqları (Cl, $SO_4$) isə torpaqda qalaraq başqa kationlarla, ilk növbədə kalsiumla suda həll olan duzlar əmələ gətirir. Bu duzlar isə asanlıqla aşağı laylara yuyularaq əkin qatından uzaqlaşır. Beləliklə, silvinit şəklində verilən 30 kq $K_20$-nun təsiri ilə torpağın 14 sm-lik təbəqəsindən aşağıya doğru 30 kq CaO yuyulmuşdur. Belə ki, kalsium əkin qatından itirilmişdir. Aparılmış tədqiqatlardan məlum olub ki, superfosfat gübrələri ilə torpağa daxil olan kalsium bu itkini tam və artıqlaması ilə ödəyir.

Ölkəmizdə açıq şabalıdı və şabalıdı torpaqlarda kalium gübrələri, əsasən şum qatı altına və səpinqabağı becərmədə verilir. Onun bir hissəsini erkən yemləmədə də vermək olar. Ölkəmizin torpaq-iqlim şəraitində aparılan çoxillik təcrübələrdən məlum olub ki, kalium dozası və formaları təsirindən məhsuldarlıq artmışdır.

Ağdam rayonunun boz-qəhvəyi (açıq şabalıdı) torpaqlar şəraitində qarğıdalı bitkisinə Np zəminində kalium gübrəsinin verilən dozaları, müddətləri və formalarının iqtisadi faydalılığının öyrənilməsi göstərir ki, hər hektara 60-90 kq/ha dozalarının təsiri ilə 1 c-dən məhsulun əmək məsrifləri 4,98-5,06 adam-saat olmaqla 0,26-0,34 adam-saat, maya dəyəri isə 3,25-3,33 manat olmaqla 0,16-0,24 manat azalmışdır. Xalis gəlir hektardan 240,4-253,8 manat olmuş və ya 26,7-40,1 manat artmışdır. Rentabellik səviyyəsi isə 140,0 - 146,4% bərabər olmuş və ya 10,9-17,3% yüksəlmişdir.

**Nəticə.** Tədqiqatlardan belə nəticəyə gəlirik ki, kalium gübrələrinin müxtəlif kənd təsərrüfatı bitkilərində, açıq-şabalıdı torpaqlar şəraitində tətbiq edilməsində ən yaxşı səmərə verən kalium gübrə forması Np zəminində $K_2SO_4$-dür. Ölkə ərazisində müxtəlif aqrofon şəraitdə tətbiq edilməsi yaxşı səmərə verə bilər. Odur ki, $K_2SO_4$ formalı kalium gübrəsinin kənd təsərrüfatı bitkilərinə səmərəli doza və formalarda tətbiqi məsləhətdir. Bu şərtlə ki, torpaq və bitkilərin xüsusiyyətləri nəzərə alınsın.

## İstifadə edilmiş ədəbiyyat

1. Bayramov B., Xəlilov H. Aqrokimya. Bakı, 1993.
2. Belyayev A. Kaliumun torpaqda formaları. Voronej, 1970.
3. Zamanov P. Azərbaycanda tütünün gübrələnməsi. Bakı, 1994.
4. Əliyev T. Torpaqda kalium və kaliumlu gübrələrin tətbiqi. Bakı, 1989.
5. Əliyev T. Xəlilov H. Aqrokimyanın tədqiqat üsulları. Gəncə, 1989.
6. Əzimova A. Aqrar sferanın iqtisadi inkişafında aqrokimyanın əhəmiyyəti. Zaqatala, 2021.
7. Hüseynov Ə. Aqrokimya praktikumunun təşkili və keçirilməsi. Bakı, 1988.
8. Əzimov A. Ətraf mühitin iqtisadiyyatı. Zaqatala, 2020.
9. Süleymanov Z., Bayramov B. Üzümlüklərin gübrələnməsi. Gəncə, 1986.

**A.Azimov**

## The effect of potassium application on the productivity of plants grown in different soil types

**Abstract**

Scientific-theoretical and experimental bases of plant nutrition show that plants constantly interact with the external environment. Plants must have complex life factors for normal development and high quality production. The most important of them is plant nutrition. Studying plant nutrition is one of the most important tasks of agrochemistry. The article analyzes the means and economic indicators of increasing productivity and improving the quality of plants by studying the metabolism of plants and feeding them normally.

**А.Азимов**

## Влияние применения калия на продуктивность растений, выращиваемых на разных типах почв

**Аннотация**

Научно-теоретические эмпирические основы питания растений в работе показывают, что растения постоянно взаимодействуют с внешней средой. Для нормального развития и получения качественной продукции растения должны иметь сложные факторы жизнедеятельности. Важнейшим из них является питание растений. Изучение питания растений – одна из важнейших задач агрохимии. Путем изучения обмена веществ у растений широко интерпретируются способы повышения продуктивности и улучшения качества растений за счет нормального их питания и получается экономический показатель.

# БЕЗОПАСНОСТЬ ЖИЗНИ И ДЕЯТЕЛЬНОСТИ



**Светлана Магеррамова,**
*Преподаватель кафедры «Гуманитарных дисциплин»*
*Азербайджанского Государственного Экономического Университета*
*ел.почта: maqerramzade93@mail.ru*

**УДК:** 33

**Аннотация.** *В связи с растущей потребностью в пище, а также ее хранении, пищевая промышленность использует большое количество пищевых добавок. Очень часто такие добавки, а именно синтетические, приводят к различным не излечимым или трудно излечимым заболеваниям. Поэтому необходимо внимательней и разборчивее относится к выбору пищи, ее приготовлению и хранению.*

*Что пить воду или соки? Какой объем воды является нормой? Сегодня состав питьевой воды не всегда отвечает стандартам, имеет большое количество тяжелых металлов и их солей. Необходимо пользоваться фильтрами и очистительными устройствами.*

***Ключевые слова:*** *опасность, жизнедеятельность, химические вещества, пищевые добавки, полезная вода.*
***Açar sözlər:*** *təhlükə, həyat fəaliyyəti, kimyəvi maddələr, qida əlavələri, faydalı su.*
***Key words:*** *hazard, life activity, chemicals, food additives, healthy water.*

«Мы то, что мы едим» сказал однажды Гиппократ. Каждый раз, сталкиваясь с этим выражением, я убеждаюсь в правильности этого высказывания. Почему? Да потому что всё то, что мы едим и пьем отражается на работе всего организма, и на нашей жизнедеятельности.

Как и все живые организмы человек должен питаться, питание является жизненной необходимостью для нас, по тому что, пища дает энергию, силу, а при правильном и разборчивом ее употреблении – здоровье. Конечно же, здоровье нашего организма на 70-80% зависит от питания и приема воды, а это очень часто может быть источником болезни или может избавить от множества недугов.

Всякая ли пища полезна? Конечно, нет. Не все что вкусно – полезно. Современный человек создал соблазнительно пеструю, разнообразную палитру готовых и полуфабрикатных продуктов питания, синтезировал различные пищевые добавки, усилители вкуса, красители и т.д., и вместе с тем породил великие проблемы для цивилизации. Кто из нас не встречался или не слышал о повышенном содержании холестерина в крови, кариесе, о болезни Хашимото, ожирении, диабете, гипертонии, язве желудка, подагре, ожирение печени и т.д. это конечно не полный перечень «современных заболеваний» вызванных неправильным питанием.

Правильное и здоровое питание влияет на рост, иммунитет и физическое развитие, на психику и нервную систему, особенно в детском и подростковом возрасте. Зрение, кроветворение, половое созревание, состояние

кожи, гормональное развитие полностью зависит от состава и качества пищи. «Здоровое питание» в современном мире понятие относительное, и оно зависит от многих факторов. В последнее время на прилавках широко распространены различные товары быстрого приготовления, чипсы, гамбургеры, газированные напитки, которые совсем не относятся к продуктам, пищевая ценность которых высокая. У детей, которые часто питаются такой пищей, развивается авитаминоз, ухудшается память и зрение, внимание. Ученые полагают (*http://dobavkam.net)*, что нехватка витаминов в пищевом рационе школьников и студентов может стать причиной нарушений дисциплины и низкой успеваемости. В картофеле фри, картофельных чипсах, сухариках содержится большое количество жиров, в первую очередь насыщенных, углеводов, много специй и соли, которые приводят к желудочно-кишечным заболеваниям и ожирению.

Конечно, питание оказывает большое влияние на нашу деятельность, ведь не напрасно труд условно был разделен на два типа: умственный и физический. Каждый вид труда затрачивает определенное количество энергии и эту энергию мы получаем из пищи. Правильно подобранный рацион увеличит трудоспособность, внимание и улучшит память. Поэтому, очень важным фактором является безопасность пищевых продуктов, определяемая наличием и уровнем содержания в них вредных веществ и различных пищевых добавок (токсичных металлов, пестицидов, нитратов, нитритов, и т.д.).

Рассмотрим одно из самых распространенных кулинарных терминов – пищевая добавка, есть ли необходимость их добавлять в пищу и какие из них не вредные. Пищевые добавки – это одно из древнейших изобретений человечества. Ежедневно во всем мире каждый человек, использует какие либо пищевые добавки, такие как: сахар, соль, перец, куркума и не может представить дальнейшую жизнь без них. Надо понять, что без пищевых добавок сегодня уже не обойтись, ну это понятно, эти пряности испокон веков известны людям и широко применяются во всех традиционных кухнях. Но не это главное, главное, то что, наряду с пряностями широко используют синтетические пищевые добавки. Только в 19-20 веках стали уделять внимание этим синтетическим добавкам, так как пищевая промышленность столкнулась с проблемой хранения и транспортировки скоропортящихся продуктов. С этих пор история применения пищевых добавок приобрела другой оборот.

Ароматизаторы, красители, яркие привлекательные упаковки, консерваторы, вот что мы видим и ощущаем смотря на пищевые продукты сегодня в 21 веке. Необходимость в них в последнее время сильно возросла в связи с увеличением спроса на более удобные с точки зрения приготовления пищевых продуктов. Нельзя забывать что, некоторые виды пищевых добавок противопоказаны определенным группам людей, например страдающим аллергическими заболеваниями или желудочно-кишечными, для них такие добавки очень опасны и даже смертельны. По данным исследователей, распространенность и количество таких заболеваний во всем мире в последние 60 лет очень сильно увеличилось, особенно у детей. Это связано во первых:

*– с изменением традиционного питания людей на пищу быстрого приготовления, в которой широко используется достижения современной химии, биохимии и нано-технологии;*

И во вторых:

*– современный темп жизни, беспорядочное питание, действие вибрации и электромагнитных лучей, повышенный радиационный уровень в окружающем нас мире, психологическое состояние, стресс и т.д.*

И так, чтобы хоть как то приостановить распространение вышеуказанных заболеваний нужно широкое информирование населения о потенциально опасных веществах и пищевых добавках.

Пищевые добавки (*http://dobavkam.net*) – это природные и синтетические химические соединения, которые не представляют собой источник энергии, как пища, не используются в чистом виде, а только добавляются в продукты для облегчения технологического процесса, продления срока хранения или придания определенной консистенции конечному

продукту.

По данным работы Федосеевой М.В. пищевые добавки отмечаются на продуктах кодированными буквами и цифрами (к сожалению очень мелким шрифтом, так что и не прочтешь). Например:

Классификация в соответствии с назначением согласно предложенной системе цифровой кодификации пищевых добавок (по основным группам) выглядит следующим образом:

*– Е100 – Е182 – красители (усилители или восстановители цвета);*

*– Е200 – Е299 – консерванты (повышают срок хранения, стерилизуют и защищают от бактерий);*

*– Е300 – Е399 – антиокислители (сдерживают процессы окисления);*

*– Е400 – Е499 – стабилизаторы (сохраняют консистенцию продукта);*

*– Е500 – Е599 – эмульгаторы;*

*– Е600 – Е699 – усилители вкуса и аромата;*

*– Е900 – Е999 – антифламинги (противопенные вещества);*

*– Е1000 и выше – глазирующие вещества, подсластители соков и кондитерских изделий.*

Эффективность пищевых добавок, по определению выше указанного автора, определяется технологической целесообразностью введения конкретного вещества в продукт питания (улучшение вкуса, цвета, запаха, увеличение срока хранения и т.д.). Безопасность устанавливают по схеме, аналогичной для лекарственных веществ. Вначале проводят испытания на животных, затем полученные данные переносят на группу волонтеров, что позволяет установить величину допустимого суточного потребления (ДСП) данной пищевой добавки. К сожалению некоторые используют избыточное количество этих добавок, что бы увеличить вкусовые ощущения и привлечь покупателей. Пищевые добавки, красители, консерванты добавляют также и в напитки.

В последнее время появилась еще одна опасность – химическое загрязнение продуктов питания, что и привело к появлению понятия – экологически чистые продукты. Современное сельское хозяйство просто не может развиваться без удобрений, пестицидов и гербицидов. Особенно резко проявляется отрицательное действие этих веществ при выращивании овощей в теплицах, т.е.в закрытом грунте. Одна из причин это то, что вредные вещества не могут беспрепятственно испаряться и уноситься потоками воздуха. Испаряясь ядохимикаты оседают на поверхности растений, и накапливаются в них. Другая причина это то, что используется слишком большое количество химикатов. Еще бы, всего за несколько часов созревают огурцы и помидоры, это просто «чудо» химической промышленности. Я думаю, по возможности нужно приобретать овощи соответствующие сезону (летом – клубнику, груши, помидоры и огурцы, осенью – соответствующие овощи и т.д.). Ведь для хранения овощей и фруктов в холодильных установках их предварительно обрабатывают специальными химикатами. Многие из нас это знают, но не обращают на это внимание.

Следующее на что я хотела бы обратить внимание – это вода, то есть, то что мы пьем.

Вода, как известно занимает ¾ поверхности Земли, оно одно из самых распространенных веществ на планете, она хороший растворитель, является средой обитания для многих организмов и даже вредных и болезнетворных. Человеческий организм в зависимости от возраста состоит из определенного количества воды, т.е. эта величина не постоянна. Чем младше, тем больше жидкости в клетках. Научно доказано, что количество воды в организме также зависит от наличия хронических заболеваний, сезонности, климатических условий, питания и т.д.

Рассмотрим приблизительное процентное содержание воды по возрастным котегориям:

*– новорожденные: 90-97%;*

*– дети до года: 86-87%;*

*– 5-14 лет: 70-75%;*

*– 20-35 лет: 65-67%;*

*– 40-50 лет: 50-55%;*

*– 60-80 лет: менее 50%.*

Конечно, вода является главной составной частью здоровья человека, и недостаток ее может привести к различным заболеваниям, а также к обезвоживанию. Не правильный контроль объема воды в организме очень час-

то сопровождается утомляемостью, снижением иммунитета, нарушению обмена веществ. Неспроста, потому что, вода в первую очередь является растворителем и необходима для протекания некоторых реакций в системе организма. Значит, качество воды играет очень важную роль. Какую воду можно пить, сколько и когда возникают всегда вопросы. По-моему надо пить, как только возникло чувство жажды.

Не утихают споры, многие ученые стараются ответить на вопрос, сколько оптимально должен выпивать человек за день. Нужно ли считать чай, кофе, соки этим необходимым объемом воды или считается просто чистая вода? Ответ очень прост, нужно пить чистую воду, так как чай, лимонады, соки и все прочие напитки организм воспринимает как пища. Принимая напитки чувства жажды может пройти но, организм не получит необходимое количество воды нужное для обмена веществ и т.д. Хочу отметить, что пить ее в больших количествах нельзя и желательно лучше принимать «чистую» воду комнатной температуры. Пить нужно ровно столько, сколько этого требует организм. Ни в коем случае не стоит заставлять себя пить сверх нормы, если нет специальных медицинских показаний. Человеческий организм очень сложная система, которая работает во многом автономно от нашего поведения. Поэтому, если возникло чувство жажды, его необходимо удалить. Здесь играет немало важную роль возраст человека, его состояние здоровья, вес и конечно качество воды. Очень часто мы пьем канализированную или бутилированную воду, какая из них полезна?

Как химик хочу отметить, что молекула воды имеет строение, что вода обладает временной и постоянной жесткостью, она растворяет полезные и вредные вещества по мере протекания по трубам и земле. Протекая по трубам, вода теряет свою правильную структуру, становится «не правильной» теряет свои целебные свойства. Питьевая вода с одной стороны должна быть физиологически полноценной, т.е. содержать оптимальное количество макро - и микроэлементов, и оказывать на организм благоприятное воздействие, с другой стороны она не должна содержать посторонние примеси и включения. Только такая вода обеспечивает нужный водно-солевой баланс и кислотно-щелочное равновесие в организме. По данным Всемирной Организации Здравоохранения питьевая вода должна соответствовать 120 параметрам.

В таком случае я предлагаю пить талую воду (мы можем сами приготовить, заморозив в морозильнике, а затем, растопив её) она становится структурированной после замораживания. При размораживании вы увидите на дне посуды твердый осадок, который состоит в основном из тех неблагоприятных примесей и тяжелых металлов.

Сегодня наука и техника дает возможность определить состав воды, предоставляет возможность приобрести различные средства для очищения и смягчения воды. Знать о примесях, которые содержатся в воде, могут либо работники водоканала, либо мы сами после химического анализа воды. Однако по некоторым признакам можно самостоятельно предположить, чем загрязнена вода. Например, если вода имеет выраженный запах болота (сероводорода), в ней, скорее всего, превышена концентрация органических примесей. Каждый человек, который хотя бы раз чувствовал этот запах, никогда его не спутает ни с каким другим. Также о содержании сероводорода в воде можно догадаться, если на посуде и сантехнике появляются чёрные пятна. Слишком щелочная вода (высокий pH), будет сильно пениться, особенно при контакте с алюминиевой посудой. Характерный металлический привкус указывает о наличии в воде большого содержания железа. К тому же, нагревательные элементы бытовых приборов покроются ржавчиной, когда в составе воды имеется хлор, сульфаты и другие окислители. Избавиться от вредных примесей воды можно установив фильтр для очистки воды от примесей и наслаждаться чистой и полезной водой (в них как адсорбент часто используют – активированный древесный уголь).

Если вы не удовлетворены качеством вашей воды или сомневаетесь в её составе, вы

можете сдать воду в специальную аккредитованную лабораторию, а после выбрать оборудование для очистки воды как водопроводной, так и из природных источников. Не забывайте, что вода это источник Жизни и ее нужно беречь.

Хотелось бы добавить, что мы, не только то что мы едим, но и то что пьем.

**Заключение.** Выяснено, что без пищевых добавок сегодня не обойтись, поэтому не надо панически бояться буквы «Е» на этикетке. Для этого необходимо обратить внимание на следующее:

*– Нужно обращать внимание на маркировку и срок годности продукта.*

*– Пусть вас не смущают «натуральные» или «идентичные натуральным» красители и ароматизаторы, но длинный список Е-добавок должен вас насторожить.*

*– Если вы склонны к аллергическим реакциям, исключите из своего рациона продукты, содержащие добавки, вызывающие аллергию.*

*– Продукты быстрого приготовления используйте только в экстренных случаях.*

*– Старайтесь меньше употреблять продуктов с длительным сроком хранения (копченые, консервированные).*

*– Используйте только натуральные продукты для кормления грудных и маленьких детей.*

*– Старайтесь как можно реже употреблять сладкую газированную воду, чипсы и сухарики.*

*– По возможности обращайте внимание на время работы за компьютером.*

*– Постарайтесь меньше находиться в местах с высоким уровнем электромагнитного излучения и вибрации.*

*– Вода и то, что мы пьем – не всегда полезно. Необходимо пить воду в определенном количестве и по возможности соответствующую стандартам.*

## Список использованной литературы

1. Бутейкис Н.Г. Технология приготовления мучных кондитерских изделий. Москва, Академия, 2014.

2. Крупина Т.С. Пищевые добавки. Москва, Сиринъпрема, 2008.

3. Матюхина З.П., Королькова Э.П. Товароведение пищевых продуктов. Москва, Академия, 2009.

4. http://ru.wikipedia.org

5. Федосеева М. Пищевые добавки и их влияние на организм человека. Владимировна Мичуринск, 2016.

6. http://prodobavki.com

7. http://dobavkam.net

S.Məhərrəmova

## Həyatın və fəaliyyətin təhlükəsizliyi

### Xülasə

Qidaya artan tələbat, eləcə də onun saxlanılması ilə əlaqədar qida sənayesi çoxlu miqdarda qida əlavələrindən istifadə edir. Çox vaxt bu cür əlavələr, yəni sintetik olanlar müxtəlif sağalmaz və ya müalicəsi çətin olan xəstəliklərə səbəb olur. Ona görə də qida seçimində, onun hazırlanmasında və saxlanılmasında daha diqqətli və seçici olmaq lazımdır.

Nə içməli, su ya şirə? Hansı su miqdarı normaldır? Bu gün içməli suyun tərkibi həmişə standartlara cavab vermir, onun tərkibində çoxlu miqdarda ağır metallar və onların duzları var. Filtrlərdən və təmizləyici qurğulardan istifadə etmək lazımdır.

S.Maharramova

## Safety of life and activity

### Abstract

Due to the growing demand for food, as well as its storage, the food industry uses a large number of food additives. Very often, such additives, namely synthetic ones, lead to various incurable or difficult to treat diseases. Therefore, it is necessary to be more careful and selective about the choice of food, its preparation and storage.

Should I drink water or juices? What volume of water is normal? Today, the composition of drinking water does not always meet standards; it contains a large amount of heavy metals and their salts. It is necessary to use filters and cleaning devices.

# KÜRƏVİ QRAFİTLİ ÇUQUN İSTEHSALINDA FOSFORSUZLAŞMA VƏ KÜKÜRDSÜZLƏŞDİRMƏ PROSESİNİN NƏZƏRİ ƏSASLANDIRILMASI



**Ramiz Həsənli,**
*Azərbaycan Texniki Universitetinin Metallurgiya və materiallar texnologiyası kafedrasının dosenti, texnika üzrə fəlsəfə doktoru*
*e-mail: hasanli_dr77@mail.ru*

**UOT:** 621.78

**Xülasə**. *Tədqiqatda ərimiş metal və posanın elektrokimyası eyni vaxtda kükürdsüzləşmə və fosforsuzlaşmaya tətbiq edilməklə posa-metal qarşılıqlı əlaqəsi öyrənilmişdir. Tədqiq etdiyimiz sistemdə kinetik asılılıqların interpretasiyası üçün posa-metal fazalararası sərhəddə kompromis potensial konsepsiyası daxil edilmişdir. Aydın olmuşdur ki, çuqunun eyni vaxtda kükürdsüzləşməsi və fosforsuzlaşması kükürdsüzləşmə və anod fosforsuzlaşdırılması, dəmir və manqanın ionlarının bərpası kimi katod reaksiyalarının vəhdəti yolu ilə mümkündür. Oksidləşdiricilərin, metalın tərkibinin və kükürdün davranışının təsirinə baxılmış və müəyyən olunmuşdur ki, CaO-in konsentrasiyasının böyüməsi ilə yaranan posanın özlülüyünün artması $Al_2O_3$ və $SiO_2$-nin aşqarları hesabına kompensasiya oluna bilər. CaO-$CaCl_2$ sistemi posalarının fosfat və sulfid həcmi qiymətləndirilmiş və müəyyən olunmuşdur ki, bu adi posalarla müqayisədə xeyli yüksəkdir. CaO-$CaCl_2$ sistemi posaları kükürdsüzləşmə və fosforsuzlaşma proseslərinə tətbiqdə fərqləndirici xarakteristikalara malikdirlər.*

***Açar sözlər:*** *metal, ərinti, posa, kürəvi qrafitli çuqun, sobadankənar emal, fosforsuzlaşma, kükürdsüzləşmə, pəstah, keyfiyyət.*
***Key words:*** *metal, alloy, slag, nodular cast iron, out-of-furnace processing, dephosphorization, desulfurization, billet, quality.*
***Ключевые слова:*** *металл, сплав, шлак, чугун с шаровидным графитом, внепечная обработка, дефосфорация, десульфурация, заготовка, качество.*

Ərintilərin, o cümlədən kürəvi qrafitli möhkəm çuqunun (KQÇ) keyfiyyəti tərkibində olan qarışıqların, əsasən zərərli qarışıqlar hesab edilən fosfor (P) və kükürdün (S) miqdarından çox asılıdır. Ona görə də fosforsuzlaşma və kükürdsüzləşmə proseslərinin dərindən öyrənilməsi və nəzəri əsaslandırılması, P və S-ün metaldan kənarlaşdırılma mexanizminin araşdırılması olduqca vacib, həm də lazımlıdır.

Ümumi halda posa-metal qarşılıqlı təsiri öz təbiətinə görə elektrokimyəvi prosesdir. ***Şəkil 1*** və ***2***-də uyğun olaraq, fosfor və kükürdün metaldan kənarlaşdırılma mexanizmi təqdim olunmuşdur.




***Şəkil 1. Fosforun metaldan kənarlaşdırılması mexanizmi***




***Şəkil 2. Kükürdün metaldan kənarlaşdırılması mexanizmi***

Sistemin oksidləşdirici-reduksiyaedici potensialına uyğun olaraq reagentlərin sabit vəziyyəti dəyişə bilər. Ona görə də prinsipcə həm fosfor, həm də kükürd metaldan posaya istənilən ion tipinə oxşar olaraq kənarlaşdırıla bilər. Güclü reduksiyaedici şəraitdə məsələn, Ca – $CaF_2$ sistemi posa altında olduğu kimi, həm kükürd, həm də fosfor eyni vaxtda anionlardan kənarlaşır.

Adi şəraitdə metaldan kükürdün posaya keçidi aşağıdakı elektrokimyəvi tənliklə ifadə olunur:

$$[S] + 2e \rightarrow (S^{2-}) \qquad \textbf{(1)}$$

Bu reaksiyaya əsasən, metal-posa fazalararası səthdə kükürd atomları elektron alır, anion yaradır və ion ərintiyə keçir. Belə reaksiya katod reaksiyası adlanır. Reduksiyaedici atmosferdə katod reaksiyası, kükürdsüzləşməyə oxşardır və gedişi asanlaşır.

Adi çuqun və poladəritmə prosesləri şəraitlərində fosforsuzlaşma reaksiyasi və CO-in ayrılması aşağıdakı tənliklərə uyğun olaraq, anod reaksiyalarına müvafiq qaydada baş verir:

$$[P] + 4(O^{2-}) \rightarrow (PO_4^{3-}) + 5e, \qquad \textbf{(2)}$$

$$[C] + (O^{2-}) \rightarrow [CO] + 2e \qquad \textbf{(3)}$$

Anod reaksiyalarına oksidləşdirici potensialın artması kömək edir. Bundan başqa oksidləşdirici potensialın azalması və yüksək reduksiyaedici şəraitin saxlanılması əks reaksiyanın, yəni katod reaksiyasının getməsinə kömək edir:

$$[P] + 4(O^{2-}) \leftarrow (PO_4^{3-}) + 5e \qquad \textbf{(4)}$$

Aydındır ki, (2) tənliyi üzrə fosforun iştirakı ilə anod reaksiyasına və (1) tənliyi üzrə kükürdün iştirakı ilə katod reaksiyasına kömək edən amillər bir-birinə əksdir. Ona görə də eyni vaxtda kükürdsüzləşmə və fosforsuzlaşmanın reallaşdırılması mümkünsüz olur. Bununla yanaşı, əgər nəzərə alsaq ki, posa-metal fazalararası səthdə baş verən bütün elektrokimyəvi reaksiyalar bir-biri ilə elektroneytrallıq prinsipi ilə vəhdətdədir, onda belə prosesin baş verməsi mümkündür [1-3]. Beləliklə, çox yüksək sulfid həcmli oksidləşdirici şəraitdə və çox yüksək fosfat həcmli reduksiyaedici şəraitdə posanın istifadəsi ilə metalın kükürdsüzləşmə və fosforsuzlaşmasını eyni vaxtda aparmaq mümkündür. Bu zaman kinetik nöqteyi-nəzərdən belə posa kütlədaşmanın yüksək sürətini təmin etmək üçün kifayət qədər aşağı özlülüyə malik olmalıdır.

Aparılmış təhlil əsasında oksidləşdiricilər kimi FeO və ya MnO ilə CaO və $CaCl_2$-dən ibarət posa seçilmişdir. ***Şəkil 3***-də və ***4***-də tərkibində $CaCl_2$ olan sistemin diaqramları təqdim olunmuşdur. Şəkillərdən də göründüyü kimi, $CaCl_2$-in aşağı ərimə temperaturu sayəsində bu sistemlərdə maye faza sistemi çox aşağı temperaturlarda mövcud olur.




***Şəkil 3. CaO – $CaCl_2$ sisteminin hal diaqramı***




***Şəkil 4. $Ca_3(PO_4)_2$ – $CaCl_2$ sisteminin hal diaqramı***

***Şəkil 3***-ə əsasən, $CaCl_2$ – CaO sistemində CaO-in həllolma qabiliyyəti maye çuqun üçün adi temperaturlarda 25% (mol) qiymətləndirilə bilər.

Cədvəl 1-dən görünür ki, $CaCl_2$-in buxar təzyiqi, digər xloridlərlə müqayisədə xeyli aşağıdır, ancaq o $CaF_2$-in təzyiqinə nisbətən üç qayda yuxarıdır. Əgər nəzərə alsaq ki, $CaCl_2$ üçün işçi temperatur 1300°C, $CaF_2$ üçün isə 1500°C-dir, onda buxar təzyiqlərindəki fərqi bir qaydaya və ya aşağı qaydaya gətirmək olar.

karbonla doydurulmuş çuqun nümunəsini gücü 150 kV.A olan induksiya sobasında daxili diametri 45 mm olan qrafit putada əritdik. Maye ərinti verilən temperatura çatdıqda, 42,5÷50 q miqdarında posanı yuxarı putada yerləşdirdik. Təqribən bir dəqiqə ərzində saxladıqdan sonra yuxarı qrafit putadan bağlayıcını çıxartdıq. Bu halda ərimiş posa aşağı putaya axdığından reaksiya baş verdi. Oksidləşdiricini posaya, onun metalla təmasından əvvəl və ya təmasdan sonra daxil etdik.

Nümunələrin götürülməsini müəyyən vaxt intervalı vasitəsilə kvars borulara təqribən 10 q cirələrin sorulması ilə yerinə yetirdik. Fosfor, kükürd, silisium və manqanın konsentrasiyasını kimyəvi metodla təyin etdik. Eksperimentlərin gedişində temperaturu əsasən 1350±10°C səviyyəsində saxladıq. Lakin bəzi hallarda temperatur 1250±10°C və 1450±10°C təşkil etmişdir. Müqayisə üçün bəzi təcrübələr, həm də gil-torpaq putalarda aparılmışdır.

Metal-posa fazalararası sərhəddə baş verən bütün reaksiyalar bir-biri ilə qarşılıqlı əlaqəlidir.

***Cədvəl 1.***
***Müxtəlif xlorid və floridlərin parsial təzyiqi***

| Temperatur, °C | NaCl | KCl | $MgCl_2$ | $CaCl_2$ | LiF | NaF | $MgF_2$ | $CaF_2$ |
|---|---|---|---|---|---|---|---|---|
| 1200 | 12 | 18,7 | 24 | 0,13 | 1,33 | 1,32 | 0,004 | 0,0001 |
| 1300 | 37 | 44 | 60 | 0,53 | 4,7 | 4,0 | 0,026 | 0,013 |
| 1400 | 65 | 93 | 132 | 1,72 | 12,5 | 13,2 | 0,08 | 0,06 |
| 1500 | 130 | 175 | 258 | 4,9 | 30,5 | 34 | 0,26 | 0,04 |
| 1600 | 240 | 315 | 464 | 12,6 | 68 | 81 | 0,80 | 0,17 |

CaO – $CaCl_2$ maye ərintisi üzərində xlorun parsial təzyiqi yüksək oksidləşdirici potensiallarda çox əhəmiyyətli ola bilər. Ancaq maye çuqunun sobadankənar emalında yer alan reduksiyaedici mühitdə yox olan qədər az olur.

Sənaye ferrofosforla və ferrokükürdlə elektrolitik dəmiri qrafit putada – induksiya sobasında əritməklə, tərkibində 0,2-0,3% fosfor və 0,05% kükürd olan karbonla doydurulmuş çuqun alınır. Həmin qrafit putada 1350°C-də CaO ovuntusunu və xüsusi təmiz $CaCl_2$-i əridərək CaO – $CaCl_2$ posası hazırladıq. CaO ovuntusunu kimyəvi təmiz $CaCO_3$ ovuntusunu parçalamaqla əldə etdik.

Tədqiqat zamanı kütləsi 170-200 q-lıq olan

Kükürd və fosforun daşınmasının qarşılıqlı əlaqəsini göstərmək üçün apardığımız eksperimentin nəticələri ***şəkil 5***-də göstərilmişdir.




***Şəkil 5. Fosfor və kükürdün birlikdə daşınması***

*(33,3 CaO – 66,7 $CaCl_2$; 1250°C; posa-metal 0,1; metal 200 q):*

*I – bərk posanın oturdulması; II – qarışdırma*

Bu halda karbonla doydurulmuş çuqundan fosforun kənarlaşdırılmasının anod reaksiyası kükürdün kənarlaşdırılmasının katod reaksiyası ilə paralel gedir və beləliklə, eyni vaxtda mayenin həm kükürdsüzləşməsi, həm də fosforsuzlaşması baş verir. Real saflaşdırma proseslərində iştirak edən kükürdün konsentrasiyası baxdığımız eksperimentlə müqayisədə bir qayda aşağıdır. Ona görə də səmərəli fosforsuzlaşmanın həyata keçirilməsi üçün əlavə oksidləşdiricilər tələb olunur.

Araşdırmalarla $MnO_2$ oksidləşdiricisinin posada sabit başlanğıc miqdarında fosforsuzlaşdırmaya və kükürdsüzləşdirməyə CaO-in konsentrasiyasının təsiri öyrənilmişdir. Posada CaO-in müxtəlif miqdarına baxmayaraq, metalda kükürdün konsentrasiyası çox tez azalaraq 0,008%-dən az olur. Metalda fosforun da konsentrasiyası kəskin azalır. Lakin posada CaO-in miqdarını azaltdıqda Fosforun (P) minimal konsentrasiyasının səviyyəsi artır və fosforlaşma başlayır. Fosforlaşmanın səmərəli söndürülməsi üçün posada CaO:$CaCl_2$ molyar nisbəti 1:2-dən çox olmalıdır. Posaya daxil edilən oksid aşqarlarının təsiri ***şəkil 6***-da verilmişdir. Aşağıdakı ardıcıllıqda fosforsuzlaşma sürəti artır, fosforun son konsentrasiyası isə azalır: MgO ilə posa, aşqarlarsız, $SiO_2$ aşqarı ilə, $Al_2O_3$ aşqarı ilə. Posanın özlülüyü, adətən, CaO-in konsentrasiyası artdıqca, xüsusən >30%-də böyüyür ki, bu halda da mayenin ifrat doyması baş verir.




***Şəkil 6. 1350°C-də fosforsuzlaşmaya posanın tərkibinin təsiri:***

1 – 28,3%CaO - 66,7%$CaCl_2$ - 5%$Al_2O_3$;
2 – 28,3%CaO - 66,7%$CaCl_2$ - 5%MgO;
3 – 28,3%CaO - 66,7%$CaCl_2$ - 5%$SiO_2$;
4, 5 – 33,3%CaO - 66,7%$CaCl_2$;
6 – 33,3%$Na_2CO_2$ - 66,7%$CaCl_2$;
7 – 33,3%$Na_2CO_3$ - 66,7%$MgF_2$.

Müəyyən olunmuşdur ki, posaya $SiO_2$ və ya $Al_2O_3$ daxil etdikdə onun özlülüyünü əhəmiyyətli dərəcədə azaldır, onda asılı hissəciklərin sonrakı həllolmasına kömək edir. Posanın özlülüyünün dəyişməsi ilə əlaqədar, fosforsuzlaşmanın mövcud uyğun sürəti dəyişir. Məhz bu səbəbdən də, hesab etməyə əsas vardır ki, fosforun (müəyyən ölçüdə, həm də manqanın) kütlə daşınması reaksiyanın kinetikasına güclü təsir göstərə bilər.

Tədqiqat işində metalın fosforsuzlaşma dərəcəsinə posanın miqdarının və maye metalın qarışdırılmasının təsiri də tədqiq olunmuşdur. Alınmış nəticələr digər tədqiqatçıların [4; 5] aldığı məlumatlarla müqayisə edilmiş, araşdırmaların doğruluğu təsdiqlənmişdir. Həm də nəticələr ona dəlalət edir ki, 1,6% posanın oturdulması ən yüksək tam kükürdsüzləşməni və bir qədər fosforsuzlaşmanı təmin edir. Habelə, qarışdırma da kükürdsüzləşməni sürətləndirir və metalın dərin kükürdsüzləşməsini tez təmin etməyə imkan verir. Bununla yanaşı, CaO ovuntusuna yalnız 10% $CaCl_2$ əlavə edilməsinin posanın istifadə əmsalını xeyli artırması faktı da diqqəti cəlb edir. Fosforsuzlaşdırmanın başlanğıc sürəti təxminən metalda fosforun konsentrasiyasına mütənasibdir. Fosforsuzlaşdırmanın cəm reaksiyasının sürət əmsalı $K_p$ aşağıdakı tənliklə təyin olunur:

$$n_p = K(A/V)[\%P](W/M_p), \quad \textbf{(5)}$$

Burada, A – posa-metal fazalararası səthin sahəsi, $sm^2$; V – metalın həcmi, $sm^3$; $K_p$-nin qiyməti, sm/s; np – başlanğıc sürətin qiyməti, mol/s.

***Cədvəl 2.***

***Kükürdsüzləşdirmə sürətinin eksperimental və müxtəlif oksidləşdiricilər üçün qiymətləri***

| Göstəricilər | FeO | $CaCO_3$ | $MnO_2$ | $CaSO_4$ | $Fe_2(SO_4)_3$ |
|---|---|---|---|---|---|
| **$K_p$, sm/s** | 0,009 | - | 0,016 | 0,020 | 0,035 |
| **$C_i$, mol** | 0,070 | 0,050 | 0,058 | 0,037 | 0,013 |
| **$\xi_i$** | 0,14 | 0,10 | 0,23 | 0,29 | 0,38 |
| **$E_i$ (V)** | 0,33 | 0,56 | 0,66 | 0,62 | 0,80 |

***Cədvəl 2***-də kükürdsüzləşdirmə sürətinin eksperimental qiymətləri verilmişdir. Kükürdsüzləşmənin sürəti, oksidləşdiricilərin sürəti ($\xi$i) kimi

həmin sırada yerləşir. Onlar gözlənildiyi kimi, oksidləşdiriciyə xas olan oksidləşdiricilik qabiliyyətini səviyyələndirən, onun standart elektrod potensialının $E_i$ dəyişmələrini göstərir. 1550-1600°C temperatur intervalında $CaO - SiO_2 - FeO$ sistemli posalarda xarici ölkə tədqiqatçılarının [2; 3] aldıqları fosforsuzlaşma sürətinin əmsalları da analoji şəkildə hesablanmışdır.

$CaO/SiO_2$=0,6 (18%CaO, 35%$Fe_{üm}$)

ilə posa üçün fosforsuzlaşma sürətinin əmsalı $3{,}10^{-3}$ sm/s, $CaO/SiO_2$=1,7 (35% CaO, 33% $Fe_{üm}$) ilə, posa üçün isə fosforsuzlaşma sürətinin əmsalı $42{,}10^{-3}$ sm/s təşkil etmişdir.

Analoji göstəricilər barədə [5; 6] işlərinin müəllifləri məlumat vermişlər ki, reaksiya sürətinin əmsalları temperaturun, CaO konsentrasiyasının və oksidləşdiricinin böyüməsi ilə artır. Bizim tədqiqatlarda aldığımız fosforsuzlaşma sürətinin əmsalları bəzi işlərdə [6; 7] alınmış məlumatlarla müqayisədə 5 dəfə kiçikdir. Fərz etmək olar ki, onların tədqiq etdiyi ərinti – posa sistemində daha böyük oksigen potensialının ($K_p$) daha yüksək qiymətlərinin onlar tərəfindən alınmasının əsas səbəbi olmuşdur.

Vaxtdan asılı olaraq kükürdün konsentrasiyasının dəyişməsi də öyrənilmişdir. Reaksiya sürətinin əmsalı Ks kükürd və əhəngin başlanğıc konsentrasiyalarının və posanın miqdarının artması, habelə metal-posa fazalararası səthdə $PO_2$-nin azalması ilə yüksəlir. 33,3CaO-66,7$CaCl_2$ tərkibli posada Ks əmsalının qiyməti $9.10^{-3}$ sm/s təşkil edir. Bu, qarışdırma olmadıqda CO-in ayrılması hesabına baş vermişdir. Lakin qarışdırma olduqda Ks əmsalı $43{,}10^{-3}$ sm/s təşkil edir. Əsası metallurji posa ilə karbonla doydurulmuş çuqunun kükürdsüzləşdirilməsi üzrə eksperimentlərdə 1550-1600°C temperaturlarda Ks-in aşağıdakı qiymətləri alınmışdır: qarışdırma olmadıqda $0{,}2.10\rightarrow16^{-3}$ [5], məcburi qarışdırma şəraitində $75{,}10^{-3}$ [6]; çuqun damcısının posa qabı vasitəsilə keçməsində $40{,}10^{-3}$ [4]; metala silisium verdikdə $50{,}10^{-3}$ [1-4]. Buradan belə nəticə çıxartmaq olar ki, CaO və $CaCl_2$-dən ibarət olan posa ilə kükürdsüzləşmə sürəti, əsasi metallurji posa ilə təmin olunan sürəti xeyli üstələyir.

Fosforsuzlaşmadan fərqli olaraq kükürdsüzləşdirmədə oksidləşdiricinin əlavə edilməsi prosesin sürətinin dəyişmələrinə gətirməmişdir. MgO-in əlavə edilməsində özlülüyün artmasına və $Al_2O_3$-in əlavə edilməsində onun azalmasına baxmayaraq, kükürdsüzləşdirmə sürəti praktiki olaraq sabit qalmışdır ($23\text{-}26.10^{-3}$ sm/s). Metal kütləsinin, məsələn, ¼-nə bərabər posanın kifayət qədər böyük miqdarında, hətta sulfatın oturdulması kükürdsüzləşdirmə sürətinə əhəmiyyətli təsir göstərməmişdir.

Mayelərin kükürdsüzləşdiricilik qabiliyyətini işarələmək üçün alimlər [1-3] sulfid həcmi deyilən anlayış daxil etmişlər. Fərz edilir ki, reaksiya aşağıdakı tənliyə uyğundur.

$$1/2[S_2] + (O^{2-}) = 1/2[O_2] + (S^{2-}), \qquad \textbf{(6)}$$

Burada, sulfid həcmi

$$C_S = (Po_2/Ps_2)(\%S^{2-}). \qquad \textbf{(7)}$$

Çuqunun və ya poladın kükürdsüzləşdirmə proseslərinə baxılan zaman, (7) tənliyinə $1/2[O_2] = [O]$ və $1/2[S_2] = [S]$ nisbətlərini daxil edərək alırıq:

$$C_S = (Rs/Ro)(1/f_S)L_S^{a0}, \qquad \textbf{(8)}$$

$$L_S = (\%S)/[\%S] = (Po_2/Ps_2)(C_S f_S/a0, \qquad \textbf{(9)}$$

Burada, Ro və Rs uyğun olaraq $1/2[O_2]=[O]$ və $1/2[S_2]=[S]$ reaksiyalarının tarazlıq konstantlarını ifadə edir.

Posa-metal fazalararası səthdə oksigen potensialının artmasında kükürdün paylanma əmsalı Ls, CaO-in sabit konsentrasiyasında azalır, bu, kükürdsüzləşdirməni çətinləşdirir.

Araşdırma zamanı kükürdün paylanma əmsalı və CaO-in və ya $Na_2CO_3$-in konsentrasiyası arasında qarşılıqlı əlaqə də öyrənilmişdir. Məlum olur ki, Ls-in qiymətləri CaO-in konsentrasiyasının artması ilə böyüyür. Bu halda böyümə sürəti (baxmayaraq ki, məlumatların səpələnməsi çox əhəmiyyətlidir) 25% CaO-də kəskin artır, 33,3% CaO və 66,7% $CaCl_2$-dən ibarət olan posa üçün paylanma əmsalı 100-300 hədlərindədir. (3.4.4) tənliyinə uyğun olaraq kükürdün paylanma əmsalı həm sulfid həcmindən $C_S$, həm də oksigen potensialından $Po_2$ asılıdır. Məsələn, posaya hər hansı bir oksidləşdiricini daxil etmədən eksperimentlərdən alınmış Ls-in qiyməti xüsusən böyük olmuşdur və 2000 rəqəmini üstələmişdir.

Posa-metal fazalararası səthdə oksidləşdirici potensial 10 eksperimentin gedişində manqanın metal fazada və posada konsentrasiyasına görə

ölçmələrlə təxmini təyin olunmuşdur. Bu halda $MnO_2$-in miqdarını rentgenspektral analizin köməyi ilə müəyyən etdik. Posa-metal səthində $Po_2$-nin qiyməti isə $(MnO_2)=[\%Mn]+[O_2]$ tarazlığına görə hesabladıq.

1350°C-də CaO və $CaCl_2$-dən ibarət olan posaların alınmış sulfid həcmi tədqiq olunmuşdur. Belə ki, sulfid həcmi 10 dəqiqə saxlamadan sonra qərarlaşan, yəni əməli olaraq stasionar hala cavab verən şəraitdə metalda kükürdün konsentrasiyasına görə hesablanmışdır.

Alınmış nəticələr göstərir ki, CaO – $CaF_2$ və CaO – $CaCl_2$ sistemləri, hətta CaO-in aşağı konsentrasiyasında belə həddindən yüksək sulfid həcmə malik olur.

$1/2[P_2]+5/4[O_2]+3/2(O^{-2})=PO_4^{-3}$ reaksiyası üçün fosfat həcmi aşağıdakı tənliyin köməyi ilə təyin edilmişdir:

$$C_{PO4}^{3-} = (\%PO4^{3-})P_{P2}^{-1/2}P_{O2}^{-5/4} \quad \textbf{(10)}$$

CaO-in konsentrasiyasından asılı olaraq fosfat həcmi müəyyənləşdirilmişdir. Bu məlumatlar CaO-$SiO_2$-FeO sistemi posalarının köməyi ilə metalın fosforsuzlaşması və refosforlaşması proseslərinin tədqiqi nəticəsində alınmışdır. O $10^{16}$-$10^{18}$ hədlərində ölçülür. Eksperimental məlumatlar çox böyük səpələnməyə malik olsalar da, temperaturun azalmasında və $N_{CaO}$ artmasında fosfat həcminin böyüməsində aydın ənənə izlənilir. 20% CaO və 80% $CaCl_2$-dən ibarət olan posaların istifadəsində xeyli refosforlaşma yer almışdır. Ona görə də fərz etmək mümkündür ki, tərkibində >25% CaO olan posa daha yüksək fosfat həcmə malik olacaq və refosforlaşmanı söndürəcəkdir.

**Nəticə.** Son olaraq qeyd edək ki, metal və posanın maye halında baş verən elektrokimyəvi proseslər əsasında eyni vaxtda çuqunun fosforsuzlaşma və kükürdsüzləşdirmə və imkanı tərəfimizdən öyrənilmiş və müəyyən olunmuşdur ki, CaO və $CaCl_2$-dən ibarət olan posa çox yüksək sulfid və fosfat həcmə malikdir. Bundan başqa, onun özlülüyü olduqca azdır və suyun özlülüyünə yaxındır ki, bu da reaksiyaların sürətlə getməsini təmin edir. Belə posanın sulfid və fosfat tutumu CaO-in konsentrasiyasının artması ilə yüksəlir. Səmərəli fosforsuzlaşdırma aparmaq üçün maye çuqunda silisiumun miqdarı çox aşağı olmalıdır. Tərkibində 30%-dən çox CaO olan maye posaya $SiO_2$-in oturdulması, onun özlülüyünü aşağı salır. Az miqdarda $Al_2O_3$-ün oturdulması da analoji təsir göstərir. CaO-in azaldılmış konsentrasiyasında posada oksidləşdiricinin konsentrasiyasını azaltdıqda, refosforsuzlaşma müşahidə olunur.

Son dövrlərdə şixtə materiallarında fosforun miqdarının artması ilə əlaqədar olaraq kükürdsüzləşdirmə proseslərinin əhəmiyyəti yüksəlir. Eyni zamanda KQÇ-nin keyfiyyətinə tələblərin günü-gündən sərtləşdirilməsi də çuqunda zərərli aşqarların, o cümlədən (P) fosfor və (S) kükürdün onun tərkibindən daha dərindən təmizlənməsini tələb edir. Təklif olunan CaO-$CaCl_2$ tipli yeni posa sistemi çuqunəritmə posasının miqdarını minimuma endirməyə imkan verir ki, nəticədə də həm ətraf mühitin mühafizəsində, həm də enerji məsrəflərinin azaldılmasında həlledici rol oynayır. Çuqunun induksiya sobasından buraxılması anında posanın maye metaldan tam ayrılmasını, fosforsuzlaşma və kükürdsüzləşdirmə proseslərinin intensivliyini təmin edən yeni CaO-$CaCl_2$ posa sistemi istehsalat səviyyəsində qəbul oluna bilər. Lakin soba posasının miqdarını azaltmaq üçün təkrar emal çuqununda silisium və fosforun konsentrasiyalarını bir qədər azaltmaq lazım gəlir.

## İstifadə edilmiş ədəbiyyat


1. Richardson F.D. Physical Chemistry of Melts in Metallurgy. vol.2, Academic Press, London, 2021, 293 p.
2. Djellab S., Diaf M., Labbaci K. and Guerbous L. Crystal growth and spectroscopic properties of materials. London, 2016, 273 p.
3. Waseda Y., Suzuki S., Saito M. High temperature materials and processes. H: Condensed matter physics, vol.16, Issue: Tokyo, 2021, 335 p.
4. The World Conference on Carbon. In-Depth Investigation of the Carbon. Berlin, 2022, 467 p.
5. Şükürov R.İ., Rəhimov M.M. Metallurgiya (dərslik). Bakı, 2014, 357 s.
6. Воскобойников В.Г. и др. Общая металлургия (учебник). Москва, 2015, 421 с.

R.Hasanli

## Theoretical justification of the dephosphorization and desulfurization process in the production of nodular graphite cast iron

**Abstract**

From the point of view of the electrochemistry of molten metal and slag, in relation to simultaneous desulfurization and dephosphorization, the interaction of slag with metal is of interest. To interpret the kinetic dependencies in the system we studied, the concept of a compromise potential at the slag-metal interface was introduced.

It became clear that simultaneous desulfurization and dephosphorization of cast iron is possible through a combination of catholic reactions, such as desulfurization and anodic dephos-phorization, as well as the reduction of iron and manganese ions. The influence of oxidizing agents, metal composition and behavior of sulfur is taken into account. For example, it has been found that an increase in slag viscosity caused by an increase in CaO concentration can be compensated by the addition of $Al_2O_3$ and $SiO_2$.

The phosphate and sulfide volume of sediments of the $CaO\text{-}CaCl_2$ system is estimated. It turned out that this is significantly higher than that of ordinary slags. Resins of the $CaO\text{-}CaCl_2$ system have distinctive characteristics when used in desulfurization and dephosphorization processes.

Р.Гасанлы

## Теоретическое обоснование процесса дефосфорации и сероосбессеривания при производстве чугуна с шаровидным графитом

**Аннотация**

С точки зрения электрохимии расплавленного металла и шлака, применительно к одновременному обессериванию и дефосфорации, представляет интерес взаимодействие шлака с металлом. Для интерпретации кинетических зависимостей в изучаемой нами системе было введено понятие компромиссного потенциала на межфазной границе шлак-металл.

Стало ясно, что одновременная десульфуризация и дефосфорация чугуна возможна за счет сочетания катодных реакций, таких как десульфурация и анодная дефосфорация, а также восстановление ионов железа и марганца. Учтено влияние окислителей, состава металлов и поведения серы. Например, установлено, что увеличение вязкости шлака, вызванное увеличением концентрации CaO, можно компенсировать добавкой $Al_2O_3$ и $SiO_2$.

Оценен фосфатный и сульфидный объем осадков системы $CaO\text{-}CaCl_2$. Выяснилось, что это значительно выше, чем у обычных шлаков. Смолы системы $CaO\text{-}CaCl_2$ имеют отличительные характеристики при применении в процессах десульфурации и дефосфорации.

Peşə təhsili və insan kapitalı. Cild 7, №1, 2024, s.78-82

# NƏQLİYYAT DAŞINMALARINDA FUNKSİONALLIĞA TƏSİR GÖSTƏRƏN RİSKLƏRİN DÜZGÜN İDARƏ EDİLMƏSİ



**Naridə Zülfüqarova,**
*Azərbaycan Texniki Universitetinin baş müəllimi, Qabaqcıl təhsil işçisi*
*e-mail: naridezulfuqarova@gmail.com*



**Aysel İsayeva,**
*"Smart Digital Solutions" Məhdud Məsuliyyətli Cəmiyyətinin köməkçi proqramçısı, layihə üzrə mütəxəssis*
*e-mail: isayeva.aysel@gmail.com*

**UOT:** 656.1; 621.64

**Xülasə**. *Məqalədə logistikanın əhəmiyyətli rolundan, logistika sənayesində təhlükəsizlik qaydalarından, yükdaşımalarda risklərin azalmasından, addım və strategiyalarından, malın necə qablaşdırılmasından danışılır. Həmçinin nəqliyyat risklərinin hadisə ilə üzləşməməsi üçün hansı təhlükəsizlik tədbirindən istifadə edilməsindən, logistika xətalarında qeyri-adekvat marşrut planlamasından, nəqliyyat vasitələrinin nasazlığı, anbar və ya kadr çatışmazlığı kimi amillərdən, hüquqi və təşkilati problemlər, gömrük rəsmiləşdirilməsindən, gecikmələrin nəticələrindən, qeyri-adekvat avadanlıqdan, işçi heyəti ilə bağlı problemlərdən bəhs edilir və risklərin vəziyyətinə nəzarətin gücləndirilməsi haqqında qeydlər də öz əksini tapıb.*

***Açar sözlər:*** *nəqliyyat, logistika, təhlükəsizlik, mallar, mühit, risklər, gecikmələr.*
***Key words:*** *transport, logistics, safety, goods, environment, risks, delays.*
***Ключевые слова:*** *транспорт, логистика, безопасность, товары, окружающая среда, риски, задержки.*

Müasir dövrdə insan həyatı üçün vacib olan bir çox sahələrdə olduğu kimi, bütün nəqliyyat sistemində nəqliyyat vasitələrinin, onlara aid olan infrastrukturların qabaqcıl texnologiyaların faydalarından əlavə, insan həyatına və ətraf mühitə ciddi mənfi təsir göstərən təhlükəli xüsusiyyətləri də vardır. Nəqliyyatda nəqliyyat vasitələrinin növündən asılı olaraq, təhlükəsizliyi idarə etmək üçün onlara uyğun hansı risklərin gözlənildiyini müəyyən etmək, yüklərin daşınma prosesindəki risklərini idarə etmək və bu risklərin minimuma endirilməsini təmin etmək lazımdır.

**Nəqliyyat riski** məhsulun satıcıdan alıcıya daşınması və çatdırılması zamanı yarana biləcək potensial problemdir. Bu risklər göndərmə prosesində məhsulun zədələnməsi, gecikmələr və ya digər gözlənilməz hallarla bağlı ola bilər. Nəqliyyat risklərinə aşağıdakı məsələlər daxildir:

**1. Zədələnmiş və ya məhv edilmiş məhsullar.** Nəqliyyatda malların daşınması və saxlanılması zamanı müxtəlif amillərdən daşıma prosesində malların keyfiyyətinə, dəyərinə, funksionallığına təsir göstərə bilər. Zərərin və proses zamanı zədələnmiş məhv olan məhsulların əsas səbəblərinə aşağıdakılar aiddir:

***Fiziki zərərlər.*** Məhsulların daşınma zamanı təsirlərə, zərbələrə və ya vibrasiyaya məruz qalması nəticəsində baş verə bilər. Bu zədələr məh-

sulların qırılmasına, cızılmasına və ya deformasiyasına səbəb olur.

***İqlim və ətraf mühitin təsirləri.*** Hava şəraiti, temperatur, rütubət, yağış və qar kimi ətraf mühit amilləri məhsulların xarab olmasına və ya təsirinə səbəb ola bilər. Məsələn, bəzi məhsullar müəyyən temperatur və rütubət şəraitində saxlanılmalıdır.

***Saxlama şərtləri.*** Məhsulların daşınmadan əvvəl və ya sonra saxlanılması zamanı qeyri-adekvat şərtlər məhsulların xarab olmasına və ya zədələnməsinə səbəb olur.

***Nəqliyyat metodu və avadanlıq.*** İstifadə olunan nəqliyyat üsulları və avadanlığın uyğunluğu, eləcə də texniki xidməti də məhsulların vəziyyətinə təsir göstərə bilər. Məsələn, həssas bitkilər üçün müvafiq daşınma üsulu seçilməlidir.

***Qeyri-adekvat idarəetmə və yükləmə prosesi.*** Məhsulların qeyri-adekvat yüklənməsi, yığılması və ya daşınması məhsulların zədələnməsinə və sıradan çıxmasına səbəb ola bilər.

Göndərmə və daşıma sektorunda bu cür riskləri azaltmaq və məhsulları təhlükəsiz daşımaq üçün müvafiq qablaşdırma, düzgün saxlama şəraiti, uyğun daşıma üsulları və avadanlıqdan istifadə kimi ehtiyat tədbirləri görülməlidir. Bundan əlavə, bütün təchizat zəncirində təhlükəsizliyi təmin etmək üçün müvafiq nəzarət və monitorinq mexanizmləri çox vacibdir.



**2. Gecikmələr və tərəddüdlər.** Göndərmə sənayesində gecikmə və tərəddüdlər daşınmanın planlaşdırılan vaxt çərçivəsində çatmaması və ya həmin çərçivəni aşması riskini ifadə edir. Bu risklər müəssisələr, təchizat zənciri və müştərilər üçün xoşagəlməz nəticələrə səbəb olur və müxtəlif amillərdən qaynaqlanır. Belə risklərin əsas səbəbləri:

***Hava və trafik.*** Hava şəraiti və nəqliyyatın sıxlığı daşıma prosesində gecikmələrə səbəb ola bilər. Xüsusilə pis hava şəraiti və ya nəqliyyatın sıxlığı planlaşdırılan çatdırılma müddətini aşaraq daşınma prosesinə təsir göstərir.

***Logistika problemləri.*** Logistika xətaları qeyri-adekvat marşrut planlaması, nəqliyyat vasitələrinin nasazlığı, anbar çatışmazlığı və ya kadr çatışmazlığı kimi amillərlə əlaqələndirilir və çatdırılma gecikmələrinə səbəb olur.

***Təchizatçı problemləri.*** Təchizatçının gecikmələri və ya logistika təminatçılarının gözləntiləri yerinə yetirməməsi göndərmə gecikmələrinə səbəb olur. Xüsusilə təchizat zəncirindəki digər tərəflərin planlaşdırmasının pozulması daşıma prosesinə təsir göstərir.

***Hüquqi və təşkilati məsələlər.*** Hüquqi və təşkilati problemlər gömrük rəsmiləşdirilməsi, icazələr, lisenziyalar və ya sərhəd keçidləri daşınma gecikmələri ilə nəticələnir.

***Birbaşa yığım.*** Göndərmələr qrafikə uyğun gəlmədikdə baş verən bu cür gecikmələr birbaşa daşıma əməliyyatları ilə bağlı olur. Qeyri-adekvat avadanlıq, işçi heyəti ilə bağlı problemlər və ya yük tutumunda çatışmazlıqlar bu cür gecikmələrə səbəb olur. Nəticədə aşağıdakı problemlər yaranır:

***Müştəri narazılığı.*** Bu zaman göndərmədə gecikmələr müştərinin narazılığına səbəb olur və müştəri nəinki yükün vaxtında çatmasını gözləməyəcək, həm də şirkət və onun brendi haqqında mənfi rəylər yaradacaqdır.

***Rəsmi problemlər:*** Göndərmə gecikmələri şirkət daxilində rəsmi problemlərə də səbəb olur. Gücləndirilmiş müşahidə, planlaşdırma dəyişiklikləri və müşahidə prosedurlarının yenidən müəyyən edilməsi əlavə fəsadlar verir.

***Əlavə fəsadlar.*** Göndərmə gecikmələri şirkət üçün əlavə xərclərə səbəb olduğundan gecikmələr təcili tədbirlər və mükafat göndərmə xidmətləri tələb edir.

**3. Zənciri problemlər.** Avadanlıq zənciri məhsulun təhlili ilə başlayır və təchizatçı, istehsal, daşınma və emal proseslərini əhatə edir. Məhsulların müəyyən bir tarixdə və müəyyən keyfiyyətdə müştəri tərəfindən əldə edilməsini təmin etmək üçün bu zənciri səmərəli və effektiv idarə etmək vacibdir. Göndərmə gecikmələri avadanlıq zəncirinin pozulmasına səbəb olub, müxtəlif əməliyyatlara təsir göstərir. Gecikmələr təchizatçı və istehsalçıların planlarına və son

tarixlərinə təsir göstərdiyindən istehsalçı və təchizatçılar malları müştərilərə vaxtında çatdırmağa çalışsalar da, çatdırılma gecikmələri tədarük zəncirində çaşqınlıq yaradır.

***Anbarın saxlanılması və yerinə yetirilməsində dəyişikliklər:*** Bu dəyişiklik zamanı göndərmə gecikmələri istehsalçılar və anbar əməliyyatları üçün ehtiyat toplama və iş proseslərini çətinləşdirir, göndərilən məhsulların qeyri-müəyyən vaxta çatması anbar ehtiyatlarına zərər verir.

***Sifariş və satış sifarişi.*** Göndərmə gecikmələri satış sifarişini və müştərilərə sifarişlərin yerinə yetirilməsini planlaşdırmaqda problem yaradır. Bu, müştərilərin gözləntilərini yaxşılaşdırmaq və xidmət keyfiyyətini artırmaq üçün effektiv sifariş və satış sifarişinə təsir göstərməlidir.

***Ümumi əməliyyatların idarə edilməsi.*** Göndərmə gecikmələri çatdırılma zənciri əməliyyatlarının idarə edilməsində çətinliklər yaratdığından tədarükçü və istehsaldan daşınma və icraya qədər bütün proseslər avadanlıq zəncirinə təsir göstərir.

Bu problemləri idarə etmək üçün:

***Təhlil və tənzimləmə.*** Avadanlıq zəncirindəki problemləri təhlil etmək və tənzimləmək üçün effektiv təhlil və idarəetmə üsullarını tətbiq etmək vacibdir.

***Əməliyyat prosedurları.*** Təhlillər əsasında təsirli tədbirlər aparılmalı və müvafiq tədbirlərin görülməsi üçün tövsiyələr müəyyən edilməlidir.

***Təşkilatın təkmilləşdirilməsi.*** Avadanlıq zəncirindəki problemləri aradan qaldırmaq və onların effektivliyini artırmaq üçün təşkilatda təkmilləşdirmələr həyata keçirilməlidir.

***Texnologiyadan faydalanmaq.*** Təchizat zənciri proseslərini təhlil etmək və səmərəliliyi artırmaq üçün ədədi və avtomatlaşdırma texnologiyalarından faydalanmaq lazımdır.

Qlobal təchizat zəncirində daha səmərəli və effektiv proseslər yaratmaq üçün avadanlıq zəncirinin problemlərinin idarə edilməsi effektiv təhlil və tənzimləmə prosesi ilə birləşdirilir. Aşağıdakıları nəzərə almaq vacibdir:

***Tələb qarışıqlığı.*** Tələb qarışıqlığı məhsulların tələb olunan vaxtdan əvvəl və ya sonra tələb olunma riskinə aiddir. Bu çaşqınlıq səhv təhlil edilmiş sorğular, proqnozların səhv hesablanması, müştəri sorğularının dəyişdirilməsi və saxtalaşdırılmış iddialarla bağlı olur.

***Əsas səbəblər:***

***Yanlış suallar və proqnozlar.*** Müvafiq faktlar və məlumatlarla dəqiq sorğu proqnozunun yaradılması yanlış sorğu və proqnozlar riskini azaltmağa kömək edir. Yanlış təhlil edilmiş və ya proqnozlaşdırılan sorğular təchizatçılar və satıcılar üçün çaşqınlıq yarada bilər.

***Müştəri sorğularının dəyişdirilməsi.*** Müştəri sorğularının dəyişdirilməsi tələb çaşqınlığına səbəb olur. Əgər müştərilər sifariş və tələblərini dəyişərsə, bu tələb olunan məhsulların sayını və vaxtını dəyişdirərək təchizatçılar üçün çətinliklər yaradar.

***Satışın idarə edilməsi və marketinq tədbirləri.*** Satışın düzgün idarə edilməməsi, strategiyaların və marketinq tədbirlərinin olmaması tələbin çaşqınlığına səbəb olur. Yanlış marketinq tədbirləri və tənzimləmələri müştərilər tərəfindən məhsulların qiymətlərinin düzgün müəyyən edilməməsinə səbəb olur.

***Etirazlar və nəticələr:***

***Təchizat qarışıqlığı.*** Tələb qarışıqlığı təchizatlarda və təchizatçıların anbarlarında çaşqınlığa səbəb olur. Məhsulların düzgün sayının müəyyən edilməməsi əməliyyatların təhlilində tələblər çaşqınlığı və fəsadlar yaradır.

***Əməliyyatların və rəhbərliyin təhlili:*** Tələb çaşqınlığı əməliyyatların təhlilini çətinləşdirə və effektiv rəhbərliyi təmin edə bilər. Məhsulun təhlili və planlaşdırması təchizatçılar üçün problemlər yaradır və tələb çaşqınlığı əlavə edir.

Tələb qarışıqlığını idarə etmək üçün effektiv sifariş və proqnoz prosesləri, müştərilərlə yaxşı ünsiyyət və sifarişlərin düzgün qeydi tələb olunur. Həm təchizatçıların, həm sənaye əməliyyatlarının, həm də satıcıların birgə əməliyyatlarının düzgün tənzimlənməsi tələbin çaşqınlığını azaltmağa kömək edir.

**4. Hava və hava şəraitinin təsiri.** Daşınma zamanı hava və hava şəraitinin riski çox mühüm və effektivdir. Hava şəraitinin dəyişməsi və pis hava şəraiti daşınma sahəsində bütün növ nəqliyyat vasitələri üçün risklər yaradır. Bu risklər daşınmanın keyfiyyətinə, təhlilinə təsir edər, hətta analiz və keyfiyyətin pozulmasına da səbəb ola bilər. Göndərməyə təsir edən hava və hava şəraitinin riskinə dair nümunələrə aiddir:

***Güclü küləklər.*** Güclü küləklər hava nəqliyyatının qeyri-sabit olmasına səbəb olduğundan külək yüksəkprofilli nəqliyyat vasitələri üçün böyük bir hava riskidir.

Qar və buz qarlı, buzlu yollarda təhlükəsizliyin azalmasına və sürücülərin nəqliyyat vasitələrini idarə etməsində çətinliklərə səbəb olduğundan qəza və yaralanma riskini artırır.

***Güclü yağışlar və daşqınlar.*** Güclü yağışlar nəqliyyat vasitələrinə nəzarəti çətinləşdirir və nəqliyyatı məhv edir. Daşqınlar yolları yuyub aparır, yolsuzluq yaradır və böyük risklərə səbəb olur.

*Güclü dumanlı hava.* Görmə qabiliyyətini azaldır və sürücülər üçün naviqasiya və nəqliyyatın koordinasiyasını çətinləşdirir.

*Şiddətli fırtınalar.* Daşqınlar, qasırğalar və qum fırtınaları nəqliyyatın dayanıqlığına təsir edir, hətta yolların bağlanmasına səbəb olur.

*İldırım.* Elektrik kəsilməsi zamanı ildırımlar elektron, eləcə də nəqliyyat sistemlərinə ziyan vurur.

Hava şəraitinin bu cür risklərini idarə etmək üçün aşağıdakı tədbirlər görülməlidir.

*– hava proqnozlarını, xəbərləri və hesabatları diqqətlə izləmək və qeyd etmək;*

*– nəqliyyat vasitələrinin sürücülərinə marşrutun planlaşdırılmasında və qərarların qəbulunda kömək etmək üçün mövcud cari relslərdən və yol şəraitindən istifadə etmək;*

*– nəqliyyat şirkətləri və sürücülər arasında effektiv ünsiyyət və məlumat mübadiləsini təmin etmək;*

*– hava proqnozlarına əsaslanaraq mümkün qədər səmərəli şəkildə daşımaların təhlili və planlaşdırılmasını həyata keçirtmək;*

*– sürücülərə müvafiq təlim və təcrübənin verilməsi ilə onları hava və yol şəraitindən qorumağa kömək etmək və s.*

Bu tədbirlər hava və hava şəraitinin daşımalara təsirini minimuma endirməyə və daşıma təhlükəsizliyini artırmağa kömək edə bilər.

**5. Nəqliyyat və kommersiya riski.** Nəqliyyat və kommersiya riski biznesdə rast gəlinən müxtəlif risk növlərinə aiddir və təşkilatların əməliyyatlarına və biznes nəticələrinə təsir göstərir. Bu riskləri təhlil edərək və effektiv şəkildə idarə etməklə müəssisələr davamlılığı artıra və uğurlarını təmin edirlər. Hər iki risk növünün özünəməxsus xüsusiyyətləri vardır.

***Nəqliyyat riski.*** Bu risklərə əmlakın itirilməsi, zədələnmələr, gecikmələr, oğurluqlar, qeyri-adekvat qablaşdırma, nəqliyyat vasitələrinin nasazlığı və s. aiddir. Nəqliyyat riski tədarük zəncirinin mühüm hissəsidir və effektiv idarə olunmasa, əməliyyatlara, xərclərə və müştəri məmnuniyyətinə zərər verir.

***Kommersiya riski.*** Kommersiya riski kommersiya fəaliyyəti ilə bağlı müəssisələrin üzləşdiyi risklərə aiddir. Bu risklər, ümumiyyətlə, bazar, rəqabət, maliyyə bazarları və iqtisadi şərait kimi amillərdən yaranır. Təşkilatlar tələbin dəyişməsi, qiymət dəyişkənliyi, yeni bazar oyunçularının meydana çıxması, təchizatçı əlaqələrinin pozulması və texnoloji inkişaflar kimi kommersiya risklərinə diqqət yetirməlidirlər.

Ümumi kommersiya risklərinə aşağıdakılar daxildir:

*– tələbin qəfil artması və ya azalması müəssisələr üçün qeyri-müəyyənlik yaradır və strateji planlaşdırmaya təsir edir.*

*– malların və xidmətlərin qiymətlərindəki dalğalanmalar xərclərə təsir edir və mənfəət marjasını dəyişir.*

*– bazar dəyişiklikləri və artan rəqabət müəssisələrin rəqabət üstünlüklərini itirməsinə və ya bazar paylarını azaltmasına səbəb olur.*

*– iqtisadi tərəddüdlər, faiz dərəcələri, valyuta məzənnəsinin dəyişməsi və kapital bazarındakı dəyişikliklər maliyyə vəziyyətinə təsir göstərir.*

*– təchizatçı münasibətlərinin və təchizat zəncirinin pozulması və ya təchizatçı ilə bağlı problemlər biznes əməliyyatlarına ciddi şəkildə müdaxilə edir.*

Risklərlə məşğul olmaq, onları effektiv idarə etmək üçün təşkilatlar risk qiymətləndirmələri aparmalı, riskləri müəyyən edib, uyğun strategiya, tədbirlər hazırlamalı və nəzarət etməlidirlər.

**6. Risklərin effektiv idarə edilməsi.** Daşıma zamanı riskləri effektiv idarə etmək üçün icra dəstəyini inkişaf etdirmək vacibdir. Buna təhlil, əməliyyatların planlaşdırılmasında müvafiq tədbirlərin tətbiqi ilə nail olmaq olar.

Daşımalarda risklərinin effektiv dəstəyin hazırlanması üçün bəzi əsas addım və strategiyalar:

***Risk təhlili.*** Daşınma prosesi zamanı yarana biləcək risklərin müəyyən edilməsi və təhlili potensial risklərin sıralanmasını və onların

effektiv müdaxilələr üçün əhəmiyyətini tələb edir. İlk addım məlumatı tərtib etmək və tam məlumat bazasını yaratmaqdır. Bu məlumatlara daşınma təhlükələri, performans göstəriciləri, risk faktorları, şərtlər və digər müvafiq dəyişənlər daxil olur. Sonra son reqressiya modeli qurulur. Bu model müstəqil dəyişənlər (risk faktoru) və asılı dəyişənlər (həyat performansı və s.) arasındakı xətti əlaqəni təsvir edir. $\mathbf{Y=a+bX+\varepsilon}$

Burada **Y** – asılı dəyişən (nəqliyyat təhlükələri); **X** – müstəqil dəyişən (risk faktoru), **a** və **b** modelin parametrləri, **ε** – varepsilon, təsadüfi fərqdir. Sonda modelin parametrləri qurulur, dəyişənlər arasında xətti əlaqə təsvir edilir.

İdarəetmə tədbirləri və təhlilə əsaslanan tədbirlər:

***Planlaşdırma və monitorinq.*** Daşıma prosesini planlaşdırmaq və nəzarət etmək üçün aşağıdakı təsirli tədbirlər görülməlidir:

– *təhlillərə əsaslanan tədbirlər;*

– *tədbirlərin icrasına və uyğunluğuna müşahidə;*

– *tədbirlərin effektiv həyata keçirilməsi;*

– *nəzarət və audit;*

– *əməkdaşlıq və ünsiyyət;*

– *həmkarlar və tərəfdaşlarla ünsiyyət;*

– *təcrübənin paylaşılması;*

– *təşkilatçılıq qabiliyyətinin inkişafı;*

– *təşkilati tədqiqatlar və inkişaf proqramları.*

***Risklərin qiymətləndirilməsi.*** Hər bir riskin effektivliyinin və təsirinin qiymətləndirilməsi riskləri düzgün müəyyən etməyə və müvafiq tədbirlər görməyə kömək edir.

**Nəticə.** Araşdırmadan belə nəticəyə gəlmək olar ki, nəqliyyat vasitələri ilə yüklərin daşınması prosesində bir çox səbəblərdən yaranan risklərin düzgün idarə edilməsi təhlükəsiz hərəkətin təmin edilməsinə və yüklərin sağlam təyinat yerinə çatdırılmasına, risklərin müəyyən edilməsi nəticəsində minimuma endirilməsinə nail olmaq və qaydalara düzgün riayət etməklə qəzaları aradan qaldırmaq mümkündür. Ölkənin nəqliyyat xidmətləri səviyyəsinin artması ilə düzgün kadrların hazırlanması hərəkətin təşkilinin təkmilləşdirilməsi, daşınmada yaranmış risklərin addım və strategiyalarını proqnozlaşdırmaqla daşımalarda risklərin azaldılması üçün müvafiq tədbirlər görülməli və nəzarət gücləndirilməlidir.

## İstifadə edilmiş ədəbiyyat


1. Beynəlxalq avtomobil yük daşımalarını həyata keçirən sürücülərin xüsusi hazırlığı (dərs vəsaiti). ABADA, AzTU, "SABAH" nəşriyyatı, Bakı, 2011, 138 s.
2. Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Bakı, 2010.
3. Məmmədov Y.Ə., Tağızadə Ə.H. Avtomobilin istismar keyfiyyətləri (dərs vəsaiti). Bakı, AzTU, 2019, 238 s.


**N.Zulfugarova, A.Isayeva**

### Proper management of risks affecting functionality in transportation

**Abstract**

The article talks about the important role of logistics, safety rules in the logistics industry, reducing risks in transportation, steps and strategies, and how to pack goods. Also, what safety measures should be used to avoid transportation risks, logistics errors, inadequate route planning, factors such as vehicle breakdowns, lack of storage or staffing, legal and organizational problems, customs clearance, consequences of delays, inadequate equipment, notes on the strengthening of control over the situation of risks and problems related to the staff were reflected.

**Н.Зульфугарова, А.Исаева**

### Надлежащее управление рисками, влияющими на функциональность при транспортных перевозках

**Аннотация**

В статье рассматривается важная роль логистики, правила безопасности в логистической отрасли, снижение транспортных рисков, шаги и стратегии, а также способы упаковки товаров. Также, какие меры безопасности следует использовать, чтобы избежать таких факторов, как транспортные риски, ошибки логистики, неправильное планирование маршрута, поломки транспортных средств, нехватка складских помещений или персонала, юридические и организационные проблемы, таможенное оформление, последствия задержек, недостаточное оборудование, учетные записи сделанный. Отразилось усиление контроля над ситуацией, рисками и проблемами, связанными с персоналом.

# İXTİSAS SEÇİMİNDƏ KARYERA MƏSLƏHƏTİ XİDMƏTİNİN ƏHƏMİYYƏTİ



**Cəmaləddin Quliyev,**
*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədr müavini*
*e-mail: jamaladdin.guliyev@sosial.gov.az*

**UOT:** 33

**Xülasə**. *Sürətlə inkişaf edən əmək bazarının tələbləri çərçivəsində geniş karyera seçiminin təklif edildiyi bir zamanda düzgün karyera seçimi etmək hər bir şəxsin arzusudur. Bu baxımdan karyera seçimi zamanı əmək bazarının dinamikasının öyrənilməsi, şəxsin daxili potensialının qiymətləndirilməsi, bu seçimə valideynlərin təsirinin, onun maraq və bacarıqlarının düzgün dəyərləndirilməsi müstəsna rola malikdir. Şəxsin karyera yolunda özünü müəyyən etməsində ona dəstək olan, istiqamət verən, karyera seçimində vacib keyfiyyətlərinin aşkarlanmasında peşəkar xidmət hesab edilən karyera məsləhəti xidmətinin göstərilməsinə ehtiyac vardır. Məqalədə geniş karyera seçiminin mövcud olduğu əmək bazarında karyera məsləhəti xidmətinin aparılmasının əhəmiyyətindən, şəxslərin düzgün peşəyə yiyələnmələri üçün onlara bələdçilik edəcək mütəxəssislərin olmasının vacibliyindən danışılır.*

***Açar sözlər:*** *ixtisas seçimi, karyera məsləhəti, əmək bazarı, abituriyent, məktəbdənkənar fəaliyyət, beynəlxalq təcrübə.*
***Key words:*** *choice of specialty, career advice, labor market, applicant, extracurricular activities, international experience.*
***Ключевые слова:*** *выбор специальности, профориентация, рынок труда, абитуриент, внеучебная деятельность, международный опыт.*

Mövcud əmək bazarının dinamikası gənclərə gələcək karyeralarını müəyyən etmək üçün kifayət qədər geniş seçim imkanı verməsi ilə səciyyələnir. Belə ki, hazırda tibb, hüquq, mühəndislik və s. kimi ənənəvi ixtisaslar karyera seçimi zamanı öz prioritetliyini itirməkdədir. Həmçinin yeni peşələrin yaranması karyera istiqamətini müəyyən etməkdə əlverişli fürsətlər yaratmaqla bərabər, çoxşaxəli karyera yolları arasında qərar vermək prosesini çətinləşdirməkdədir.

XXI əsrdə dünyanın daha da sürətlə qloballaşması əmək bazarının da eyni tempdə beynəlxalq müstəviyə keçməsinə və distant peşələrin aktuallaşmasına səbəb olmuşdur. Əmək bazarında olan dəyişikliklərdən əlavə, karyera seçimində həssas yanaşılmalı məqamlardan biri valideynlərin övladlarının gələcək həyatlarına, xüsusən də karyera seçimlərinə birbaşa təsir göstərmələridir. Valideynlər övladlarının həyat yolunda ilk bələdçilər olmalarına baxmayaraq, bəzən onların arzularından və potensiallarından xəbərsiz olurlar. Bəzi hallarda isə valideynlər karyera arzularını övladlarının vasitəsilə həyata keçirtmək üçün onların ixtisas seçiminə təsir göstərməkdən belə çəkinmirlər.

Yuxarıda qeyd olunan məqamlar – karyera seçimində valideynlərin təsiri, həmçinin əmək bazarının dinamik inkişafı və sürətli dəyişimi səbəbi ilə ixtisas və peşə seçimi ilə əlaqədar araşdırma apara bilən, təhlil və karyera yolunun inkişafında strateji plan tərtib edə bilən mütəxəssislərin hazırlanmasını zəruri hala gətirmişdir. Bu mütəxəssislər ***"karyera məsləhətçisi"*** və ya ***"karyera bələdçisi"*** adlanır.

***Karyera məsləhəti*** şəxsin dəyərlərini, bacarıqlarını, maraqlarını, bir sözlə, potensialını aşkarlamağı təmin edən, eləcə də karyera planının inkişafına kömək edən peşəkar xidmət hesab edilir. Bu xidməti göstərən ***karyera məsləhətçiləri*** isə yeniyetmələrin bir şəxsiyyət kimi formalaşmalarına dəstək ola biləcək dəyərlər, maraqlar, güclü və zəif cəhətlər, bacarıq və istedadlarının aşkar edilməsində, eyni zamanda ali təhsil və düzgün peşəyə yiyələnmələri üçün onlara bələdçilik edən mütəxəssislərdir. Abituriyentlər universitetə hazırlıq mərhələsində və ixtisas seçimi mövzusunda hiss, düşüncə, fikir və narahatlıqlarını çox rahat şəkildə karyera məsləhətçiləri ilə bölüşə və peşəkar dəstək ala bilərlər.

**İxtisas seçimi prosesi və bu prosesin insan həyatındakı əhəmiyyəti**

Abituriyentlərin ixtisas seçimi mərhələsi onların karyera səyahətinin əsas bir addımı kimi qiymətləndirilir. Bu proses bir çox əlaqəli məqamları əhatə edir və şəxsin gələcək karyerasına əhəmiyyətli təsir göstərir, onun daxili potensialının qiymətləndirilməsi nəzərdə tutulan məqamların ən mühümü hesab olunur. Çünki daxili potensialın, xüsusilə maraq və bacarıqların doğru dəyərləndirilməsi uyğun ixtisasın seçilməsində müstəsna rola malikdir. Bu təhlil şəxsin özünü tanıması və karyera yolunda öz istiqamətini müəyyən etməsi baxımından önəmlidir. Digər mühüm məqam isə uyğun ola biləcək ixtisasları ətraflı şəkildə araşdırmaq və müxtəlif təhsil müəssisələrinin proqramlarını müqayisə etməkdir ki, bunlar da gələcəkdəki təhsil və karyera üçün əhəmiyyətli bir addımdır.

İxtisas seçimində qərarvermə prosesi şəxsin maraqları, karyera istəkləri və bacarıqlarının inkişafı kimi amillər nəzərə alınmaqla və müxtəlif perspektivləri araşdırıldıqdan, həmçinin ediləcək seçimin şəxsin karyera inkişafına uzunmüddətli faydaları hesablandıqdan sonra həyata keçirilməlidir. Onu da qeyd edək ki, şəxsin təyin etdiyi karyera hədəfləri ilə seçilmiş ixtisas arasında uyğunluq uzunmüddətli uğur qazanılması baxımından çox vacibdir. Bu uyğunluq şəxsi məmnuniyyəti artırır və uğuru təşviq edir. İxtisas seçimi gənclərin gələcək həyatlarını formalaşdıran üstün dərəcədə önəm daşıyan bir prosesdir.

**İxtisas seçimi zamanı üzləşilən çətinliklər**

Qlobal miqyasda düzgün ixtisas seçmək abituriyentlərin qarşılaşdığı ən böyük problemlərdən biridir. Karyera inkişafında düzgün bünövrənin qoyulmasına əhəmiyyətli dərəcədə təsir edən bu seçimin əsas komponentlərini yerli və beynəlxalq təcrübə əsasında tədqiq etmək mövcud və ehtimal olunan problemlərin həllinə fərqli prizmalardan baxmaq imkanı verir. İxtisas seçimində mövcud çətinliklərdən bəziləri aşağıdakılardan ibarətdir:

***Mentor dəstəyinin olmaması:*** İxtisas seçiminin doğruluğu seçilən ixtisasın şəxsin daxili potensialı ilə uyğunluq nisbətində dəyərləndirilməli, onun istəkləri, qorxuları, maraqları, güclü və zəif cəhətləri kimi xarakterik xüsusiyyətləri nəzərə alınaraq müəyyən edilməlidir. Süni intellektin sürətli inkişafı ilə birlikdə gələcəyin əmək bazarında yeni peşələrin və müxtəlif çalışma prinsiplərinin yaranması müşahidə olunur. İntellektual və emosional zəka, həmçinin yumşaq bacarıqlar əsasında formalaşan gələcək əmək bazarı özünəməxsus xarakterik xüsusiyyəti ilə səciyyəvi hal alır. Bu mənada ixtisas seçimi zamanı lokal və qlobal riskləri təhlil edə bilən, fərdin əmək qabiliyyətlərini effektiv tətbiq edə bilməsi üçün əlverişli mühitləri aşkarlaya bilən və karyera planlamasında strateji hədəfləri təyin edə bilən mütəxəssislərin mövcudluğuna ehtiyac vardır.

***Maddi vəziyyət:*** Maddi vəziyyətin qənaətbəxş olmaması ixtisas seçimi zamanı abituriyentin qərarına mənfi təsir göstərən amillərdən biridir. Təhsil haqqının yüksək olması, yeni həyat şəraitinin yükləmiş olacağı iqtisadi öhdəliklər, təqaüd imkanlarının olmaması kimi amillər ixtisas seçimində qərarvermə prosesinə önəmli dərəcədə təsir edir.

***Vitrin məqsədlər:*** İxtisas seçimi zamanı da kütlə psixologiyasının təsir gücünü bariz şəkildə görmək mümkündür. Bir çox hallarda, xüsusən də nə istədiyini müəyyən edə bilməyən gənclər toplum arasında daha çox tanınan və bir çox həmyaşıdlarının meyil göstərdiyi ixtisasları belə demək mümkündürsə, kortəbii şəkildə seçirlər. İxtisas seçiminin gələcəkdə hansı tipdə işlə məşğul olmağı ilə əlaqəliliyinin vacibliyini dərk etməkdən daha çox başqaları ilə eyni yolu qət etmək, oxşar maraqlara uyğun seçimlər etmək yeniyetmə dövrünün səciyyəvi xarakteridir.

***Uğursuzluq qorxusu:*** Yeni bir həyata qədəm qoymaq, özü ilə birlikdə "bacara bilməmək" düşüncəsini yarada bilər. Lakin bu düşüncəyə təslim olaraq qərar vermək karyera inkişafının yolunun başlanğıcında yanlış addım atmağa gətirib çıxara bilər. Uğursuzluq düşüncəsinə səbəb olan qor-

xular aşağıdakılar ola bilər:

*– öz maraq və arzularına görə ixtisas seçdikdə həmin ixtisasa uyğun əmək bazarında iş tapa bilməmək;*

*– öz potensialını yetərincə qiymətləndirə bilmədiyi üçün yeni yaranmış, yaxud çətin görünən ixtisaslar üzrə təhsil ala bilməyəcəyini hesab etmək, nəticə etibarilə tələbatı getdikcə azalan ixtisaslara yönəlmək;*

*– komfort zonadan çıxa bilməmək, yeniliyə açıq ola bilməmək.*

**İxtisas seçimi zamanı qarşıya çıxan çətinlikləri həll etmək üçün beynəlxalq təcrübə**

İxtisas seçimi zamanı üzləşilən çətinliklərin həlli istiqamətində dünya ölkələri bu və ya digər formada bir-birinin təcrübəsindən müəyyən mənada faydalanır. Azərbaycanda da beynəlxalq təcrübənin öyrənilərək milli təhsil modelinə adaptasiya olunması təhsil inkişafı strategiyasına tam uyğun gələ bilər. Bu mənada bir neçə ölkənin ixtisas seçimində yaranan problemlərin həlli istiqamətində həyata keçirdiyi təhsil islahatı nümunələrini araşdırmaq məqsədəuyğun hesab edilir. Beynəlxalq təcrübənin ixtisas seçimi zamanı qarşılaşılan çətinliklərin həllinə kömək edə bilə-cəyi bir sıra təcrübə və yanaşmalar mövcuddur:

***1. Karyera məsləhəti xidmətləri.*** Bir çox ölkələr məktəblər daxilində və ya kənar təşkilatlar vasitəsilə karyera məsləhəti xidmətləri təklif edirlər. Bu xidmətlər məktəblilərə müxtəlif karyera yolları, o cümlədən tələb olunan təhsil, iş perspektivləri və potensial əməkhaqqı aralıqları haqqında məlumat verir. Karyera məsləhətçiləri məktəblilərə gələcək ixtisasları ilə bağlı daha məlumatlı qərarlar qəbul etmək üçün onların maraqlarını, bacarıqlarını və dəyərlərini müəyyən etməyə kömək edir.

***2. Təcrübə proqramı və iş təcrübəsi imkanları.*** Təcrübə proqramı və iş təcrübəsi imkanları şagirdlərə müxtəlif sahələrdə praktiki təcrübə qazanmağa imkan verir. Təcrübələrdə və ya iş yerlərində iştirak etməklə məktəblilər müxtəlif karyera seçimlərini araşdıra, yeni bacarıqlar inkişaf etdirə və maraq dairələri üzrə peşəkarlarla əlaqə qura bilərlər. Bu proqramlar müxtəlif sahələr haqqında vacib fikirlər verir və məktəblilərə ixtisasları ilə bağlı daha məlumatlı qərarlar qəbul etməyə kömək edir.

***3. Karyera kəşfetmə seminarları və tədbirləri.*** Məktəblər və təşkilatlar tez-tez karyera kəşfetmə seminarları, yarmarkalar və məktəblilərin müxtəlif karyera seçimləri haqqında birbaşa peşəkarlardan öyrənə biləcəkləri tədbirlər təşkil edirlər. Bu tədbirlərə məktəblilərin maraqlarını və bacarıqlarını kəşf etməyə kömək etmək üçün qonaq spikerlərin çıxışları, panel müzakirələri və interaktiv fəaliyyətlər daxil ola bilər.

***4. Onlayn karyera testləri və resursları.*** Məktəblilərə müxtəlif karyera yollarını kəşf etməyə, eləcə də onların güclü tərəflərini, maraqlarını müəyyən etməyə kömək etmək üçün müxtəlif onlayn platformalar və resurslar mövcuddur. Bu platformalar məktəblilərə ixtisasları ilə bağlı əsaslandırılmış qərarlar qəbul etməyə kömək etmək üçün karyera qiymətləndirmə testləri, şəxsiyyət testləri, məlumat resursları təklif edir.

***5. Mentorluq proqramları.*** Mentorluq proqramları məktəbliləri öz maraqlı olduqları sahələrdə müxtəlif karyera variantlarını araşdırarkən rəhbərlik, məsləhət və dəstək verə biləcək peşəkarlarla qarşılaşdırır. Mentorlar öz təcrübələrini bölüşə, müxtəlif sahələrə dair fikirlər təklif edə və məktəblilərə ixtisas seçimində çətinlikləri həll etməyə kömək edə bilərlər.

***6. Həmyaşıdlara dəstək qrupları.*** Məktəblər daxilində həmyaşıdlara dəstək qrupları və ya klublar məktəblilərə karyera maraqlarını müzakirə etmək, resursları bölüşmək və bir-birindən öyrənmək imkanları yarada bilər. Bu qruplar məktəblilərin müxtəlif ixtisas seçimlərini araşdıra bildiyi və həmyaşıdlarından təşviq ala biləcəyi dəstəkləyici mühit yaradır.

***7. Dərsdənkənar fəaliyyətlər.*** Klublar, idman komandaları və könüllü təşkilatlar kimi məktəbdənkənar fəaliyyətlərdə iştirak etmək məktəblilərə yeni bacarıqlar inkişaf etdirməyə, maraqlarını və potensial karyera yollarını kəşf etməyə kömək edə bilər. Bu fəaliyyətlər praktiki təcrübə qazanmaq və hərtərəfli bacarıq dəstəyini inkişaf etdirmək üçün dəyərli imkanlar yaradır. Bu beynəlxalq təcrübə və yanaşmaları tətbiq etməklə məktəblilərə ixtisas seçimi prosesində kömək etmək və gələcək karyera yolları ilə bağlı əsaslandırılmış qərarlar qəbul etmələrinə dəstək göstərmək mümkündür.

**Dövlət Məşğulluq Agentliyinin Mərkəzi Karyera filialının ixtisas seçimi prosesi üçün həyata keçirdiyi xidmətlər**

Mərkəzi Karyera filialının ixtisas seçimi mərhələsində və daha öncəsində məktəbli və abituriyentlərin maarifləndirilməsi istiqamətində həyata keçirdiyi layihələrə – *"İxtisas bələdçisi", "Səy-*

*yar məsləhət", "Kəndimə gəl!", "İxtisas saatı", "Gələcəyə birlikdə", "İxtisas bələdçisi forumu", "Abituriyent dəstək xətti", "Alo Karyera"* dəstək xidməti və başqaları aiddir. Bu layihələrin həyata keçirilməsində əsas məqsəd məktəbliləri ixtisas seçimində öz potensiallarını kəşfetmə, karyera məqsədi təyinetmə, fəaliyyət planı hazırlama kimi təməl biliklərlə tanış etmək və peşələrin gələcək perspektivləri haqqında məlumatlandırmaqdan ibarətdir.

**Gələcəyə baxış və gözlənilən nəticə**

Gələcəyin dinamik əmək bazarının dəyişkən tələblərinə cavab verə biləcək, ilk olaraq adaptasiya bacarığı olmaqla yanaşı, bərabər sərt və yumşaq bacarıqlara malik olan kadrların hazırlanması və nəticə etibarilə məşğulluq səviyyəsinin artırılması üçün kompleks tədbirlərin həyata keçirilməsi zəruri xarakter daşıyır. Sözügedən Karyera filialının üzərinə götürdüyü karyera inkişafı missiyası, məhz bu məqsədə xidmət edir.

**Nəticə.** Karyera planlaması çərçivəsində ixtisas seçimi və bu seçimin karyera yolunun inkişafına mümkün faydalarını nəzərə almaqla fəaliyyət istiqamətini məktəblərə yönəltmək, məktəblilərin təhsil və karyera xəyallarının sərhədlərini genişləndirmək, potensiallarını zənginləşdirmək üçün təxirəsalınmaz inkişaf proqramları təşkil olunmalıdır. Bununla yanaşı, övladlarının inkişaf prosesində önəmli rolu olan valideynlər üçün ixtisas seçimi və karyera planlaması mövzusunda maarifləndirici təlim və tədbirlər həyata keçirilməlidir. Əmək bazarında peşələrin daim dəyişimi və yenilənməsi, universitetlərin çoxçeşidli ixtisaslar təklif etməsi, həyat fəaliyyətimizə təsir edə biləcək daxili və xarici amillərin mövcud olması, eyni zamanda bütün bunların nəticəsində qərarvermə prosesinin mürəkkəbləşməsi gənclər üçün karyera məsləhəti dəstəyinin göstərilməsini şərtləndirir.

## İstifadə edilmiş ədəbiyyat

1.https://perfectessaywriting.com/blog/biggest-challenges-of-picking-a-college-major

2.https://www.ukcareersfair.com/news/major-problems-college-students-face-in-choosing-a-career

3.https://www.nber.org/reporter/2021number2/new-approaches-understanding-choice-major

4.https://www.polygence.org/blog/career-exploration-activities-for-students

5.https://www.bls.gov/careeroutlook/2015/article/career-planning-for-high-schoolers.htm

6.https://www.naceweb.org/internships

7.https://ojjdp.ojp.gov/nmrc-mentoring-enhancing-career-interests.pdf

**J.Guliyev**

## The importance of career consultation service while choosing specialization

**Abstract**

It is every individual's dream to make the right career choice at a time when a wide range of career options are offered within the demands of the rapidly evolving labor market. In this regard, studying the dynamics of the labor market during career choice, assessing the internal potential of a person, the influence of parents on this choice, and the correct evaluation of his interests and skills have an exceptional role. There is a need to provide a career counseling service, which is considered a professional service that supports and guides a person in his self-determination in his career path, and identifies his important qualities in career choice. The article talks about the importance of career counseling services in the labor market, where there is a wide choice of careers, and the importance of having specialists who will guide people to acquire the right profession.

**Дж.Гулиев**

## Важность услуги профориентации в выборе специализации

**Аннотация**

Сделать правильный выбор карьеры – мечта каждого человека в то время, когда предлагается широкий выбор карьерных возможностей в соответствии с требованиями быстро развивающегося рынка труда. В связи с этим исключительная роль принадлежит изучению динамики рынка труда при выборе профессии, оценке внутреннего потенциала человека, влияния родителей на этот выбор, правильной оценке его интересов и способностей. Возникает необходимость предоставления услуги профориентации, которая считается профессиональной услугой, поддерживающей и направляющей человека в его самоопределении на карьерном пути, выявляющей его важные качества при выборе профессии. В статье говорится о важности услуг профориентации на рынке труда, где существует широкий выбор профессий, а также о важности наличия специалистов, которые помогут людям приобрести нужную профессию.

*Peşə təhsili və insan kapitalı. Cild 7, №1, 2024, s.87-90*

# ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ PEŞƏ TƏMAYÜLLÜ SİNİFLƏRİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ



**Rəsul Əsgərov,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi-pedaqoji Tədqiqatlar Mərkəzinin böyük elmi məsləhətçisi, Əməkdar müəllim*
*e-mail: resul1940@mail.ru*



**Xanım Şabanova,**
*“Peşə təmayüllü siniflərin təşkili” layihəsinin rəhbəri*
*e-mail: x.shabanova@arti.edu.az*

Dünyada gedən sürətli dəyişiklik və modernləşmə prosesləri təhsil sisteminin mühüm sahələrindən biri olan peşə təhsilindən də yan keçmir və bu sahədə də yeni trendlər özünü büruzə verir. İnsanların düşüncə tərzinin dəyişməsinə və əmək bazarının müasir tələblərinə uyğun olaraq yeni yanaşmalar ortaya çıxır. “Ömürboyu təhsil” anlayışı daha geniş şəkildə yayılır. Texnika və texnologiyanın sürətli inkişafı canlı işçi qüvvəsinə olan tələbi azaltdıqca, mütəxəssislər arasında rəqabət güclənir. İş yerini saxlamaq üçün daha çox öyrənmək, həm də ixtisas seçimində səhvə yol verməmək xüsusi tələbə çevrilir. Məhz bu səbəblərdən insanlar ixtisas seçərkən ən azı üç amili – *seçdiyi ixisasa olan marağı, bu ixtisasa potensial uyğunluğunu və əmək bazarında bu ixtisasın dayanıqlığını* əsas götürməlidirlər.

Göründüyü kimi, peşə seçimində insan özünü yaxşı tanımalı və daxilindəki potensialı bilməlidir. Biz maraqlarımızı bilsək, ona uyğun qərar versək daha düzgün seçim etmiş olarıq. İkinci şərt isə insanın potensial bacarıqlarıdır, yəni səndə nəyi isə icad etmək, yoxsa insanlarla ünsiyyətdə olmaq və ya dizayn etmək, rəqəmlərlə işləmək yaxşı alınır, yoxsa elektrik qurğuları ilə işləmək? Bununla yanaşı, biz ixtisas seçimi edərkən əmək bazarının gələcək gözləntiləri və tələblərini də bilməliyik.

İxtisas seçimində önəmli olan məqamlardan danışaraq onu da qeyd etməliyik ki, bir çox hallarda valideynlər övladları üçün peşə seçimini ya tamamilə onların öhdələrinə buraxır, ya da mövcud əmək bazarına əsasən özləri qərar verirlər. Halbuki, 5-10 ildən sonranı görməyə çalışaraq qərar vermək lazımdır. Lakin 5-10 il sonra nə olacağını da əvvəlcədən dəqiq bilmək çətindir. Çünki hər şey çox sürətlə inkişaf edərək dəyişir. Önəmli olan odur ki, gələcəkdə peşəsindən asılı olmayaraq böyük rəqəmlərlə işləmək, gözəl ünsiyyət qurmaq, layihə idarəçiliyi üzrə işləmək bacarıqlarına malik olan mütəxəssislərə tələbin artacağı nəzərə alınsın. Odur ki, şagirdlərdə tənqidi təfəkkür, rəqəmsal proqramlaşdırma və sosial media ilə bağlı bacarıqlar da inkişaf etdirilməlidir. Gələcəkdə peşədən çox, bacarıqlar vacib olacaqdır. Belə ki, peşəyə olan tələbat, məhz zamanla dəyişə bilər. Əlavə peşə bacarıqlarına da yiyələnmək mümkündür. İstənilən peşədə qeyd edilən bacarıqlar onlara lazım olacaqdır. Hər şey seçilmiş peşəyə olan sevgidən başlayır. Peşə sahibi seçdiyi peşəsini sevmirsə, işində heç vaxt uğur qazana bilməyəcək.

İxisas seçimi ilə bağlı bütün bu məsələlərin həllində hüquqi baza kimi əsas götürüləcək sənədlərdən biri olan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 may 2020-ci il tarixli, 167 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası”dır (bundan sonra Qayda).

Qayda təhsilalanların peşə seçiminə və əmək fəaliyyətinə hazırlanması məqsədi ilə ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili və həyata keçirilməsini müəyyən edir. Ümumi təhsil müəssisələrində peşəyönümü xidməti təhsilalanların peşə seçiminə və əmək fəaliyyətinə hazırlanması məqsədi ilə onların maraqlarını, bacarıqlarını, qabiliyyətlərini və şəxsi keyfiyyətlərini gələcək peşə bacarıqlarının öyrənilməsinə, düzgün ixtisas seçiminin edilməsinə, əmək fəaliyyətinə dair tələb olunan biliklərin formalaşmasına, karyera planlaşdırılmasına və ömürboyu təhsil imkanlarının araşdırılmasına yönəldilmiş tədbirlərdir. Qaydaya görə peşəyönümü xidməti ümumi təhsil müəssisələrinin aşağıda göstərilən təhsil səviyyələrində təhsilalanlar üçün təşkil edilir:

– *ibtidai təhsil səviyyəsində;*
– *ümumi orta təhsil səviyyəsində;*
– *tam orta təhsil səviyyəsində.*

"Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası"nda ümumi təhsilin hər üç səviyyəsində peşəyönümü xidmətinin xüsusi aspektləri göstərilir. Məsələn, ***ibtidai təhsil səviyyəsində peşəyönümü xidməti*** tədbirləri təhsilalanlarda əmək və peşələr haqqında ilkin təsəvvürlər, müxtəlif peşə sahələrinin əsas xüsusiyyətləri, o cümlədən ünsiyyət, əməkdaşlıq, yaradıcılıq, tənqidi təfəkkür və məsələ həlli kimi vacib səriştələrin formalaşması məqsədi ilə fənlərin və dərsdənkənar məşğələlərin məzmununda nəzərdə tutulur. Bu səviyyədə təhsilalanlar üçün əsasən peşə marağının və qabiliyyətlərin öyrənilməsi, maarifləndirmə tədbirləri təşkil olunur. Bu fəaliyyət "Əmək nədir?", "Valideynlərimin peşəsi" və s. bu kimi mövzularda təqdimatların və sərgilərin keçirilməsi, müxtəlif peşə sahələrinə aid videofilmlərin nümayiş etdirilməsi, yaxın ərazidə yerləşən müəssisələrə ekskursiya, peşələrə dair oyunların keçirilməsi və digər tədbirlərlə müşayiət olunur.

***Ümumi orta təhsil səviyyəsində peşəyönümü xidməti*** tədbirləri təhsilalanlarda ibtidai təhsil səviyyəsində formalaşmış ilkin bacarıqların dərinləşməsi, onların müxtəlif peşə sahələri ilə yaxından tanış olması və bu sahələrin iqtisadiyyatda oynadığı rolu anlaması, müxtəlif peşə sahələri üzrə əsas işəgötürənlərlə tanışlıq, təhsilalanların peşə seçimi zamanı meyil və maraqları nəzərə alınmaqla, müxtəlif peşələrə istiqamətləndirilməsi, psixoloji hazırlığının təmin edilməsi məqsədi ilə fənlərin və dərsdənkənar məşğələlərin məzmununda nəzərdə tutulur. Bu fəaliyyət peşə maraqları və qabiliyyətinin qiymətləndirilməsi üçün diaqnostik testlərin və sorğuların, peşələrə dair oyunların və yarışların keçirilməsi, peşə təhsili müəssisələrinə və yaxın ərazidə yerləşən müəssisələrə ekskursiya, peşə həftəsinin təşkili, müxtəlif peşə sahələrinə aid videofilmlərin nümayiş etdirilməsi, peşə sahələrinin əsas xüsusiyyətləri, o cümlədən ünsiyyət, əməkdaşlıq, yaradıcılıq, tənqidi təfəkkür və məsələ həlli kimi vacib səriştələrin formalaşması məqsədi ilə fənlərin və dərsdənkənar məşğələlərin məzmununda nəzərdə tutulur. Bu səviyyədə təhsilalanlar üçün əsasən peşə marağının və qabiliyyətlərin öyrənilməsi, maarifləndirmə tədbirləri təşkil olunur.

***Tam orta təhsil səviyyəsində peşəyönümü xidməti*** tədbirləri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Qərarı ilə maddi-texniki tədris imkanları, ərazi (yerləşmə) prinsipləri (rayon, şəhər) mərkəzinə yaxınlığı, nəqliyyat qovşaqlarına münasibətdə yerləşməsi, təhsilalanların və pedaqoji heyətin sayı və digər infrastruktur göstəriciləri nəzərə alınaraq müəyyən edilmiş "Ümumi təhsil müəssisələrində peşə təmayüllü siniflərin təşkili" layihəsinin məqsədlərinə uyğun həyata keçirilir.

**Peşəyönümü xidmətinin məqsədləri:**

– *təhsilalanların peşə və ixtisaslar üzrə tələb olunan bilik, bacarıq və səriştələr barədə məlumatlandırılması;*

– *təhsilalanlarda ixtisas və peşə seçimi prosesində bilik, bacarıq və səriştələrdən istifadəetmə qabiliyyətinin formalaşdırılması, maraq, bacarıq, qabiliyyət və şəxsi keyfiyyətlərinə uyğun olaraq təhsilalanların müvafiq ixtisas və peşə seçiminə yönəldilməsi, onlara peşə məsləhətlərinin verilməsi;*

– *insan kapitalının inkişaf etdirilməsi üçün təhsillə əmək bazarı arasında əlaqənin təmin edilməsinə və təhsildən əmək bazarına keçidin təmin olunmasına dair məlumatlandırmanın həyata keçirilməsi;*

– *əmək fəaliyyətinin başlanılması üçün tələb olunan minimal bacarıqların formalaşdırılmasına köməkliyin göstərilməsi;*

– *təhsilalanların karyera planlaşdırılması və ömürboyu təhsil imkanları barədə məlumatlandırılması;*

*– təhsilalanlara ilkin sahibkarlıq bacarıqlarının aşılanması və onların gələcəkdə öz iş yerlərini yaratmalarına həvəsləndirilməsi;*

*– karyera planlaşdırılmasında sərbəst seçim imkanı verilməklə, təhsilalanlarda peşə təhsili ilə bağlı ilkin bilik və bacarıqların ümumi təhsil pilləsində formalaşdırılması və s.*

Sənəddə sadalanan müxtəlifyönümlü məzmun və metodlar əsasında peşəyönümü işinin aparılması ümumi təhsil müəssisələrinin pedaqoji işçiləri, qeyri-hökumət təşkilatları və özəl müəssisələr tərəfindən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla aşağıdakı tədbirlər vasitəsilə həyata keçirilməsi qeyd edilir:

*– maarifləndirmə tədbirləri;*
*– peşə marağının və qabiliyyətlərin öyrənilməsi;*
*– diaqnostik tədbirlər;*
*– məsləhət tədbirləri;*
*– təlim tədbirləri.*

Bu Qaydanın xüsusi əhəmiyyəti ondan ibarətdir ki, tədbirlər konkret olaraq sadalanır, təhsilverənlərə isə yalnız onların icrası qalır. Məsələn, maarifləndirmə tədbirlərinə – layihəəsaslı təlim, müxtəlif fənlərin məzmununda ayrı-ayrı peşələri təsvir edən məzmun; müxtəlif müəssisələrə ekskursiyalar; məktəbdənkənar fəaliyyətlər; şagirdlər arasında müsabiqələrin keçirilməsi; sərgilərin təşkili; ayrı-ayrı peşə sahələri üzrə mütəxəssislərin iştirakı ilə görüşlərin təşkili və s. aid etmək olar. Yaxud məsləhət tədbirlərinə təhsilalanların diaqnostika zamanı müəyyən edilmiş xüsusiyyətləri, o cümlədən meyil və maraqları nəzərə alınmaqla ali, orta ixtisas və peşə təhsili müəssisələri tərəfindən təklif edilən proqramların və peşələrin seçimində düzgün, şüurlu qərar qəbul edilməsində peşə özünütəyinində köməyin göstərilməsi, karyeranın planlaşdırılması üzrə məsləhətlər, inkişaf yolunun seçilməsi və əmək bazarında perspektivlərin müəyyən edilməsinə dair dəstək tədbirləri daxildir.

Peşə təmayüllü siniflərin təşkili “Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası”nın 4-cü hissəsi ilə tənzimlənir. Peşəyönümü xidmətinin təşkili ilə bağlı metodik dəstək tədbirləri (məzmun, müxtəlif metodiki vəsaitlər, ixtisasartırma təlimləri) nazirlik tərəfindən həyata keçirilir. Peşə təmayüllü siniflərin komplektləşdirilməsi aşağıdakı kimi aparılır:

• ***Peşə təmayüllü siniflərə həmin ümumi təhsil müəssisəsinin və (və ya) inzibati ərazidəki (qəsəbə, rayon, şəhər) digər ümumi təhsil müəssisələrinin IX sinfini bitirmiş şəxslər qəbul edilirlər.***

• ***Qəbul könüllülük prinsipi əsasında həyata keçirilir.***

• ***Peşə təmayüllü siniflərdə təhsil almaq istəyənlər həmin siniflərin təşkil olunduğu müəssisənin rəhbərliyinə ərizə ilə müraciət edirlər.***

• ***Peşə təmayüllü siniflər 15 nəfərdən az, 20 nəfərdən artıq şagird olmamaqla təşkil olunur.***

• ***Qəbul zamanı eynitəmayüllü sinfə müraciət edənlərin sayı 20 nəfərədək olduqda, müraciət edənlər təmayüllü sinfə müsabiqəsiz qəbul edilirlər, 20 nəfərdən çox olduqda isə müəssisənin rəhbərliyi tərəfindən müsabiqə təşkil olunur.***

• ***Müsabiqə təhsilalanların IX sinif buraxılış imtahan nəticələrinə əsasən həyata keçirilir və həmin nəticələrə görə göstəriciləri daha yüksək olanlar qəbul edilirlər.***

Peşə təmayüllü siniflər üçün tədris planı və tədris resursları nazirlik tərəfindən təsdiq edilir. Peşə təhsilinin dövlət standartlarında göstərilmiş Ana dilində ünsiyyət səriştəsi Azərbaycan dili fənni, Xarici dildə ünsiyyət səriştəsi xarici dil fənni, İnformasiya texnologiyaları və elektron resurslardan istifadə səriştələri informatika fənni, hesablama əməliyyatlarını yerinə yetirmə səriştəsi riyaziyyat fənni kurikulumuna (proqramına) inteqrasiya olunmuş şəkildə tədris edilir.

Seçilmiş peşə təmayülü istiqamətinə uyğun olaraq kənd təsərrüfatı profilli layihələrdə kimya fənnində “Gübrələr və gübrələmə” və “Torpaq” modulları; biologiya fənnində “Bitkilərin inkişaf mərhələləri” və “Bitki xəstəlikləri, zərərvericiləri və mühafizə tədbirləri” modulları; digər layihələrdə isə kimya fənnində “Materialların kimyəvi tərkibi”; fizika fənnində “Elektrotexnika və elektronika”; coğrafiya fənnində isə “Turizm coğrafiyası” modulları inteqrasiya olunmuş formada tədris edilir. “Müştərilərə xidmət”, “Sahibkarlıq və layihə planlaşması”, “Şəxsi inkişaf və karyera planlaşdırılması”, “Estetika və mədəni özünüifadə” modulları “Əsas səriştələr”də tədris olunur.

Peşə təmayüllü siniflərin tədris planları əsasında fənlərə (modullara) verilmiş ümumi saatlar saxlanılmaqla, ümumi təhsil müəssisələrində seçilmiş layihə profilinə uyğun peşə təmayüllü siniflərin (X-XI) işçi tədris planları hazırlanır, Elm və Təhsil Nazirliyi ilə razılaşdırıldıqdan

sonra məktəbin direktoru tərəfindən təsdiq edilir. Peşə sahələrinə aid modullar və ya ümumi peşə səriştələrinin tədrisinə ayrılan saatların miqdarı (o cümlədən təcrübə məşğələləri nəzərə alınmaqla) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli, 103 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nda nəzərdə tutulan tam orta təhsil səviyyəsi üzrə həftəlik dərs saatlarının maksimum miqdarının ən azı 1/3-ni təşkil edir.

Peşə təmayüllü siniflərin məzunlarının malik olduğu üstünlüklər aşağıdakılardır:

*– Seçdiyi iki peşə ixtisasını real iş şəraitində peşəkar ustalardan öyrənmək və lazımi bacarıqlar əldə etmək imkanı;*

*– sosiallaşma;*

*– təhsil müddətində istehsal müəssisələrinə müxtəlif təcrübə səfərlərinə çıxmaqla, seçdikəri peşənin sirləri barədə geniş məlumatlar əldə etmələri və peşəyə daha tez adaptasiya olunmaları;*

*– əsasən nəzəri biliklər öyrədilən ənənəvi tədris metodlarından fərqli olaraq, onlara innovativ metodlardan istifadə etməklə praktiki dərslərə üstünlüyün verilməsi;*

*– peşə təmayüllü siniflərdə təşkilati işlərə birbaşa cavabdeh olan, ştat üzrə təyin olunmuş və xüsusi təlim keçmiş qrup rəhbərlərinin olması;*

*– şagirdlərin məktəbi bitirdikdən sonra məşğulluq imkanlarının daha çox olması;*

*– peşə təmayüllü sinif məzunlarının qazandıqları ixtisaslar üzrə qısa müddətdə karyera yüksəliş imkanlarına malik olmaları və s.*

Peşə təmayüllü siniflər üzrə ümumi təhsil məktəblərinin mövcud yerləşməsi coğrafiyası:

- *Bakı iqtisadi rayonu (Bakı şəhəri) – 36 məktəb*
- *Abşeron-Xızı iqtisadi rayonu – 8 məktəb*
- *Dağlıq Şirvan iqtisadi rayonu – 5 məktəb*
- *Gəncə-Daşkəsən iqtisadi rayonu – 14 məktəb*
- *Qazax-Tovuz iqtisadi rayonu – 13 məktəb*
- *Quba-Xaçmaz iqtisadi rayonu – 9 məktəb*
- *Lənkəran-Astara iqtisadi rayonu – 22 məktəb*
- *Mərkəzi Aran iqtisadi rayonu – 15 məktəb*
- *Mil-Muğan iqtisadi rayonu – 14 məktəb*
- Şəki-Zaqatala iqtisadi rayonu – 8 məktəb
- *Qarabağ iqtisadi rayonu – 16 məktəb*
- *Şərqi Zəngəzur iqtisadi rayonu – 16 məktəb*
- *Şirvan-Salyan iqtisadi rayonu – 20 məktəb*

Peşə təmayüllü siniflərdə təhsil alan şagirdlərə 4 profil üzrə 18 peşə ixtisası tədris edilir:

**1. Təmir-tikinti profili üzrə 4 ixtisas** – *"dülgər köməkçisi", "çilingər köməkçisi", "kombi-kondisioner üzrə usta köməkçisi", "mebelquraşdırma üzrə usta köməkçisi";*

**2. İnformasiya texnologiyaları profili üzrə 3 ixtisas** – *"İKT Helpdesk", "İKT qrafik dizayner", "Kompüter operatoru";*

**3. Xidmət profili üzrə 4 ixtisas** – *"aşpaz köməkçisi", "dərzi köməkçisi", "qənnadıçı", "bərbər";*

**4. Kənd təsərrüfatı profili üzrə 7 ixtisas** – *"çiyələk əkini", "kartof əkini", "şəkər çuğunduru əkini", "tərəvəz əkini", "örtülü şəraitdə tərəvəz əkini", "meyvə əkini" və "arıçılıq".*

Tədris illəri üzrə peşə təmayüllü siniflər təşkil edilmiş ümumi təhsil məktəbləri və peşə təmayüllü siniflərdə təhsil alan şagirdlərin sayı (nəfər) aşağıdakı cədvəldə verilmişdir:

| Tədris illəri | Ümumi təhsil məktəblərinin sayı | Peşə təmayüllü siniflərin sayı | Şagirdlərin sayı (nəfər) |
|---|---|---|---|
| **2019 – 2020** | 20 | 20 | 417 |
| **2020 – 2021** | 35 | 55 | 1187 |
| **2021 – 2022** | 80 | 124 | 2387 |
| **2022 – 2023** | 80 | 124 | 2164 |
| **2023 – 2024** | 196 | 232 | 4296 |

Peşə təmayüllü siniflərin təşkilində ixtisas modullarını tədris edən müəllimlərin seçilməsi vacib məsələlərdən biridir. Şagirdlərin seçdikləri peşəni tədris edən müəllim bu peşənin həqiqi vurğunu olmalıdır ki, həmin peşəni seçən şagirdlər seçdikləri peşəyə görə gələcəkdə peşman olmasınlar, əksinə düzgün yolda olduqlarına inansınlar. Ona görə də ilk gündən bu məsələ diqqət mərkəzində saxlanılmalıdır.

İxtisas müəllimlərinin seçimi müsahibə əsasında aparılır. Bu zaman nəzərə alınan başlıca meyarlar onların pedaqoji, metodoloji və praktiki fəaliyyətləridir. Ona görə də bu istiqamətlər üzrə ixtisasları tədris edəcək təhsilverənlər üçün ixtisasartırma təlimləri təşkil olunur.

**Nəticə.** Düşünürük ki, peşə təmayüllü siniflərin təşkili üzrə görülmüş işlərdə olan xırda nöqsanları aradan qaldırmaq, məzmunu təkmilləşdirmək və zamanla ayaqlaşan mükəmməl üsullardan istifadə etməklə, bu sahədə daha böyük uğurlar əldə edəcəyik.

# SƏHNƏDƏ İŞIQ OPERATORUNUN ROLU



**Səlimə Quliyeva,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*Peşə və ömürboyu təhsil şöbəsinin aparıcı mütəxəssisi*
*e-mail: s.quliyeva@arti.edu.az*

**UOT:** 377; 77

**Xülasə.** *Bəşər tarixinin başlanğıcından bəri insan həyatında ən mühüm elementlərdən olan işığın mühüm xüsusiyyətlərindən biri də ətrafımızdakı bütün canlı və cansız varlıqları, yaşadığımız dünyanı, kainatın ulduz və planetlərini görməyə imkan verir. İşıq görməmizi təmin etməklə yanaşı, bioloji saatımıza, hormon balansımıza, psixoloji və mənəvi sağlamlığımıza da təsir edir.*

*Həyatın əsas qaynaqlarından olan işıq səhnə, film, televiziya və s. çəkilişlərində də böyük əhəmiyyət kəsb edir. İşığın idarə oluna bilmədiyi dövrdə səhnə sənətləri günəşdən faydalanmaq üçün açıq havada ifa edilirdi. Odun kəşfi ilə süni işıqlandırmaya doğru ilk addım atıldı və beləliklə də, süni işıqlandırma inkişaf etməyə başladı. Közərmə lampasının ixtirası və işıq mənbələrinin idarəetmə imkanlarının inkişafı ilə fərqli bir istiqamət qazanan səhnə işıqlandırması təkcə ətraf mühiti işıqlandırmaq üçün deyil, həm də bölgəni, insanı və duyğuları üzə çıxartmaq məqsədi ilə istifadə olunmağa başladı.*

*Məqalənin yazılmasında məqsəd səhnə sənətində, film və televiziyada mühüm yeri olan işıq, işıqlandırma texnikaları və işıq operatorluğu haqqında məlumat verməklə yanaşı, "İşıq operatoru" kurikulumunun hazırlanması metodikasından da bəhs edilmişdir.*

***Açar sözlər:*** *işıq, rəng, kölgə, kinoda işıq, televiziyada işıq.*
***Key words:*** *light, color, shadow, light in cinema, light in TV.*
***Ключевые слова:*** *свет, цвет, тень, свет в кино, свет на телевидении.*

Ətrafımızda görə bildiyimiz hər şeyi aydınlatan işıq görmə orqanımıza təsir edən elektromaqnit titrəyişlər olaraq təyin olunur. O həmçinin işıq və qaranlıq nisbətlərinin dəyişməsi ilə insanların və digər canlıların bioloji saatlarını tənzimləyir. Əsrlər boyu işıq fenomeni həm təbiətin, həm də fövqəltəbii qüvvələrin yer üzündə və insanlarda əks olunması kimi qəbul edilmişdir. O obrazların və duyğuların formalaşmasında da mühüm yer tutur. Operatorun istədiyi kadrı çəkməsi üçün işıq haqqında nəzəri məlumatları bilməsi vacibdir. İşıq günəşin doğuşundan gün batmasına qədər təsvirdə fərqlər yaradır. İşıqsız bir mühitdə gördüklərimizi qara kimi qəbul edirik. Bir obyekti və ya obyektləri görməyimiz üçün işıq obyektə dəyməli, gözümüzdə və ya istifadə etdiyimiz kameranın obyektivində əks olunmalıdır. İşıqlandırma əhvali-ruhiyyənin qurulmasında, atmosferin yaradılmasında və tamaşaçının diqqətinin yönəldilməsində həlledici rol oynayır. İşığı manipulyasiya etməyin əsas yollarından biri onun keyfiyyətidir. Məsələn, yumşaq işıq yayılmış və yumşaqdır, sərt işıq isə birbaşa və sərtdir. Yumşaq və sərt işıqlandırma arasında seçim səhnənin əhvali-ruhiyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərə bilir. Yumşaq işıq tez-tez romantik və ya emosional səhnələr üçün istifadə olunur, sərt işıq isə gərginlik və ya dram yaratmaq üçün istifadə edilir. Kölgələr səhnəyə dərinlik və ölçü əlavə

edir, vurğulanan məqamlar isə xüsusi sahələrə diqqəti cəlb edə bilir. Kontrastlıq daha geniş işıq və qaranlıq sahələrlə daha dinamik təsvir yaratmaq üçün istifadə edilə bilir. Səhnə, film və televiziyada işığın rəng temperaturu da əsas rol oynayır. İşıq isti və ya soyuq olmaqla iki yerə ayrılır. Rəng istiliyinin seçimi səhnənin əhvali-ruhiyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. İsti işıq rahatlıq və xoşbəxtlik, soyuq işıq isə gərginlik və ya narahatlıq hissi yarada bilir. İşıq diffuz və ya birbaşa ola bilir. Diffuz işıq səpələnmiş və yumşaqdır, birbaşa işıq isə fokuslanmış və sərtdir. Dağılmış işıq tez-tez daha yumşaq, daha təbii görünüş yaratmaq üçün istifadə olunur, birbaşa işıqdan isə güclü kölgələr və kontrast yaratmaq üçün istifadə edilir. İşıq operatoru işığın keyfiyyətini, rəng temperaturunu və istiqamətini, həmçinin kölgələri, işıqlandırmaları və kontrastı manipulyasiya etməklə vizual olaraq heyrətamiz və emosional cəhətdən güclü bir görüntü yarada bilər. Hər bir işığın intensivliyini tənzimləməklə yanaşı, onların yerləşdirilməsi və bucağı da görüntüyə böyük təsir göstərə bilir. Məsələn, əsas işığı obyektin yan tərəfinə yerləşdirmək daha dramatik bir görünüş yarada bilir, onu birbaşa obyektin qarşısına qoymaq isə daha düz, daha bərabər görünüş yaradır. Eynilə müxtəlif effektlər yaratmaq üçün doldurma işığının yerləşdirilməsi və bucağı tənzimlənə bilər. Onu aşağı bucaq altında yerləşdirmək daha təbii görünüş, daha yüksək bucaqda yerləşdirmək isə daha stilizə edilmiş görünüş yarada bilər.

Səhnədə arxa işıq, adətən mövzu ilə fon arasında ayrılıq yaratmaq üçün obyektin arxasına yerləşdirilir. Bu, dərinlik yaratmağa və təsvirə ölçü əlavə etməyə kömək edir. Arxa işığın intensivliyini tənzimləmək, daha dramatik siluet və ya mövzu ilə fon arasında daha incə ayrılıq kimi müxtəlif effektlər yaratmaq üçün də istifadə edilə bilər. Bu üç əsas işıqlandırma növündən əlavə, obyektin kənarlarında parıltı yaradan kənar işıqlandırma və ya real həyatdan istifadə edən praktik işıqlandırma kimi xüsusi effektlər yaratmaq üçün istifadə edilə bilən digər işıqlandırma üsulları da var. Məsələn, daha təbii görünüş yaratmaq üçün lampalar və ya şamlar kimi işıq mənbələrindən istifadə edilə bilər.

Yuxarıda da qeyd etdiyimiz kimi, səhnə, film və televiziyada rəng temperaturu işıqlandırmanın mühüm aspektidir və səhnənin ümumi görünüşünə və hissiyyatına əhəmiyyətli dərəcədə təsir göstərir. Rəng temperaturu Kelvin (K) ilə ölçülür, aşağı rəqəmlər daha isti tonları (yəni daha çox sarı, narıncı) və daha yüksək rəqəmlər daha soyuq tonları (yəni daha çox mavi) göstərir. Məsələn, şam işığının rəng temperaturu, adətən təxminən 1800 K, günorta günəş işığı isə təxminən 5500 K rəng istiliyinə malik ola bilər. İşıq operatoru rəng temperaturunu manipulyasiya etməklə, səhnədə xüsusi əhvali-ruhiyyə və tonlar yaradır. Məsələn, isti tonlar rahat və intim atmosfer yarada bilər, bu da onları romantik və ya nostalji səhnələr üçün ideal edir. Bunun əksinə olaraq, soyuq tonlar daha steril və klinik hislər yarada bilər ki, bu da onları ayrılıq və ya yadlaşma hissi tələb edən səhnələr üçün uyğun edir. Bundan əlavə, işıq operatoru səhnədəki müxtəlif elementlər arasında kontrast yaratmaq üçün də rəng temperaturundan istifadə edə bilər. Məsələn, isti düymə işığından və sərin doldurma işığından istifadə edərək təbii görünüşlü bir səhnə yaratmaqla yanaşı, mövzuya diqqəti cəlb edən vizual olaraq maraqlı kontrast yarada bilər.

Səhnə, film və televiziyada çox istifadə olunan bəzi xüsusi işıqlandırma texnikalarına nəzər salaq.

***Üçnöqtəli işıqlandırma.*** Üçnöqtəli işıqlandırma obyekti işıqlandırmaq üçün xüsusi mövqelərdə yerləşdirilmiş üç işıq mənbəyini əhatə edən əsas işıqlandırma qurğusudur. Üç işıq əsas işıq, doldurma işığı və arxa işıqdır. Üçnöqtəli işıqlandırma təbiidən dramatikə qədər müxtəlif görünüşlər yaratmaq üçün tənzimlənə bilər. Məsələn, əsas işığın parlaqlığını artırmaq və doldurma işığının parlaqlığını azaltmaq daha sərt kölgələrlə daha dramatik bir görünüş, eləcə də alternativ olaraq doldurma işığının parlaqlığını artırmaq və əsas işığın parlaqlığını azaltmaqla daha yumşaq, daha təbii görünən işıqlandırma yaradıla bilər.

***Əsas işıq*** əsas işıq mənbəyidir və adətən ən parlaq işıqdır. Təbii görünüşlü kölgə yaratmaq üçün obyektin bir tərəfində və bir qədər yuxarıda yerləşdirilir. Əsas işıq səhnənin ümumi işıqlandırılmasını təmin edir və onun istiqaməti müxtəlif əhvali-ruhiyyə və effektlər yaratmaq üçün tənzimlənə bilər. ***Doldurma işığı*** əsas işığın əks tərəfində yerləşdirilir və əsas işığın yaratdığı kölgələri doldurmaq üçün istifadə olunur. O adətən əsas işıqdan daha az parlaqdır və daha aşağı bucaq altında yerləşdirilir. Doldurma işığı kölgələri yumşaltmağa və daha təbii görünən işıqlandırmanı təmin etməyə kömək edir. Halqa işığı kimi də tanınan

***arxa işıq***, obyekt ətrafında işıq çərçivəsi yaratmaq üçün obyektin arxasında və yuxarıda yerləşdirilir. Bu, mövzunu fondan ayırmağa və səhnəyə dərinlik əlavə etməyə kömək edir. Arxa işıq üç işıqdan ən az parlaq olanıdır.

İşıqlandırma texnikalarından olan Chiaroscura işıqlandırmasının **üç** növü vardır: *Rembrandt işıqlandırma, Cameo işıqlandırma və Siluet işıqlandırma.*

*Rembrandt işıqlandırma* klassik, zamansız görünüş yaratmaq üçün istifadə olunan məşhur texnikadır. Bu texnika dramatik və ya əhvali-ruhiyyəli səhnələr üçün xüsusilə təsirlidir, çünki kadra dərinlik və faktura hissi əlavə edə bilər. Rembrandt işıqlandırmasına nail olmaq üçün əsas işıq tipik olaraq obyektə 45 dərəcə bucaq altında yerləşdirilir və üzün bir tərəfində üçbucaqlı işıq parçası, digər tərəfində isə müvafiq üçbucaqlı kölgə yaradır. Bu, çəkilişdə kontrast və dramatizm hissi yaradır, çünki işıq və kölgə dərinlik, ölçülülük hissi yaratmaq üçün bir-birini əvəz edir. Rembrandt işıqlandırmasının təsirini artırmaq üçün işıq operatoru kölgələri yumşaltmaq və kadra incə parıltı əlavə etmək üçün doldurucu işıqlardan və ya reflektorlardan istifadə edə bilər. Bu, üçbucaq formalı kölgənin dramatik təsirini qoruyarkən daha təbii, üzvi görünüş yaratmağa kömək edə bilər.

*Cameo işıqlandırma* linzalı işıq mənbələri ilə yaradılmış, idarə edilməsi çətin, çox yüksək kontrasta malik və estetik baxımdan dramatik olan işıqlandırma üsuludur. Cameo işıqlandırmasında dekorasiya vacib deyil. Bir neçə dəst materialı bəzək kimi də istifadə edilə bilər.

*Siluet işıqlandırmasında* arxa fon parlaqdır, mövzu qaranlıq qalır və siluet kimi görünür. Siluet işıqlandırması ilə sirr və maraq yaradıla bilər. Məsələn, bir insanın kim olduğunu göstərmək istəmədiyiniz zaman tamaşaçılarda maraq oyatmaq üçün onu siluet kimi göstərmək olar.

***Yüksək əsas işıqlandırma.*** Bu texnika yüngül, havadar bir görünüş yaratmaq üçün parlaq, bərabər işıqlandırmadan istifadə etməyi nəzərdə tutur. Tez-tez komediyalarda şən, optimist bir ton yaratmaq üçün istifadə olunur. Yüksək əsas işıqlandırmadan təhlükəsizlik və rahatlıq hissi yaratmaq üçün də istifadə edilə bilər. İşıq operatoru mümkün olduqca yüksək əsas işıqlandırmadan az istifadə etməlidir, çünki kölgələr və kontrastlar düzgün balanslaşdırılmadıqda həddindən artıq parlaq və ya düz ola bilər.

***Aşağı əsas işıqlandırma.*** Bu texnika əhvali-ruhiyyəli, dramatik bir görünüş yaratmaq üçün tünd kölgələrdən və məhdud işıqlandırmadan istifadə edir.

***Arxa işıqlandırma.*** Bu texnika işıq mənbəyini obyektin arxasına yerləşdirməyi, obyektin ətrafında işıq kənarı yaratmağı əhatə edir. Həmçinin bu texnika kadra dərinlik hissi verərək mövzunu arxa plandan ayırmağa kömək edir. Arxa işıqlandırma, xüsusən də digər işıqlandırma üsulları ilə birlikdə istifadə edildikdə sirr və ya dram hissi yaratmaq üçün də istifadə edilə bilər. Unutmayın ki, arxa işıqlandırmanın bəzi potensial çatışmazlıqları da var. Əgər arxa işıq çox güclüdürsə, o obyekti üstələyə və onları çox qaranlıq və ya siluet göstərə bilər, həmçinin linzaların parıldamasına və ya arzuolunmaz əks olunmasına səbəb ola bilər ki, bu da izləyicinin diqqətini yayındıra bilər. Bu problemlərin qarşısını almaq üçün düzgün balanslaşdırma aparılması vacibdir.

***Gobo işıqlandırma.*** İşıq və kölgə nümunələrini yaratmaq üçün istifadə edilən bir texnikadır. Bu texnika naxışları səhnəyə proyeksiya etmək üçün "gobo" adlı trafaretə bənzər bir cihazdan istifadə edir. Bu texnika unikal və maraqlı fonlar, eləcə də təsvirdə dərinlik və faktura hissi yaratmaq üçün istifadə edilə bilər.

Səhnə, film və televiziyada işıq mənbəyini idarə etmək üçün işığın müxtəlif səthlərlə necə qarşılıqlı əlaqədə olduğuna dair əsas anlayışa sahib olmaq vacibdir. İşıq qarşılaşdığı səthdən asılı olaraq əks oluna, udula və ya ötürülə bilər. İşıq fiziki və psixoloji xüsusiyyətlərə malikdir. *İşığın fiziki xüsusiyyətləri* cisimlərin forma və ölçülərini qavramağa imkan verir. *İşığın psixoloji xüsusiyyətləri* isə duyğu və düşüncələri ifadə etmək üçün istifadə olunur. İşıqlandırmada istifadə olunan işıq yumşaq və ya sərt olaraq iki yerə ayrılır. İşıq operatorları həm estetik, həm də situasiya baxımından yumşaq işıqlandırmadan istifadə edirlər. Sərt kölgələri azaltmaq və ya aradan qaldırmaq, dram yaratmaq və kənardan gələn incə işıqlandırmanı artırmaq üçün istifadə olunur. Sərt işıq günəş işığı və ya güclü işıq mənbəyi ola bilər. Mövzunun konturunu vurğulamaq və güclü siluet yaratmaq üçün sərt işıqlandırmadan istifadə olunur. Yaxşı işıqlandırmanın köməyi ilə təsvirdə fərqlilik yaratmaq olar. Düzənsiz düz xətləri olan üz ahəngdar, tükənmiş üz canlı, gənc və ya yaşlı

göstərilə bilər. Eyni şey qapalı və ya açıq havada da tətbiq olunur. İşıqlandırmadan asılı olaraq otaq isti, rahat, soyuq, böyük, kiçik, təmiz və ya çirkli ola bilər.

İşıqlandırmada istifadə olunan işıq mənbələri *təbii* və *süni işıq mənbələridir.* Təbii işıqlandırma mənbəyi olan günəş işığı, heç şübhəsiz, işıq operatorunun ən böyük köməkçisidir. Təbii işıqlandırmanın kifayət etmədiyi hallarda süni işıq mənbələrindən istifadə etmək lazımdır. Xüsusi effekt yaratmaq üçün bu mənbələrə müraciət etmək lazım gələ bilər. İşıq mənbələri yaylalarda, studiyalarda və daxili məkanlarda əvəzsiz alətlərdir. İşıq müxtəlif istiqamətlərdən obyektlərə nüfuz edə bilir. İşıqlandırma, əsasən işığın intensivliyi ilə bağlıdır. Kiçik və sıx işıq mənbəyindən gələn sərt işıq fərqli kölgələrlə canlı, aydın təsvirlər yaradır. Effektləri yumşaltmaq və yaymaq üçün işıqlar filtrlərlə yumşaldılır.

Hazırda təhsil proqramı *səriştəəsaslı modul təlimi metodikasına* uyğun hazırlanmış və təhsilalanın gələcək peşəkarlıq fəaliyyətinin sistemli təhlilinə əsaslanır. Bu təhsil proqramı müstəqil səriştə modullarından ibarətdir. Səriştə müvafiq əmək fəaliyyətini həyata keçirə bilmək üçün lazımi səviyyədə bilik, bacarıq, yanaşma və davranışa malik olmaqdır. Səriştə modulu uyğun səriştələrin məcmusudur. İş kontekstində istifadə olunan "səriştə" anlayışı iş yerində tətbiq olunan bacarıqları əks etdirir. Səriştə – şəxs nəyi bilir (bilik), nəyi bacarır (bacarıq), nəyi etmək istəyir (işə yanaşma) və bunu necə edir (davranış) məfhumlarının birləşməsinin nəticəsidir.

***"İşıq operatoru"*** ixtisası üzrə səriştəəsaslı kurikulum "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli, 85 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsilinin dövlət standartları", nümunə kimi Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən təqdim olunmuş Azərbaycan Respublikası Təhsil Nazirliyinin 14 sentyabr 2020-ci il tarixli, F-427 nömrəli Əmri ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrinin 2021-2022-ci tədris ilinə aid tədris planları "kino-video nümayişi" ixtisasının qrupuna daxil olan "işıq operatoru" ixtisası üzrə Təhsil Proqramı (Kurikulum – 2022), AzVET, Tvinninq, Niras və bu kimi digər layihələr çərçivəsində hazırlanmış kvalifikasiya standartı və kurikulumların hazırlanması, eləcə də qiymətləndirilməsi barədə təlimatların, layihələrin və digər müvafiq normativ sənədlər əsasında tərtib edilmişdir. Azərbaycan Respublikası Təhsil İnstitutunun Peşə və ömürboyu təhsil şöbəsində maraqlı tərəflərin nümayəndələrindən təşkil edilmiş işçi qrupu tərəfindən bu məsələ ilə bağlı araşdırmalar aparılmış, nəzərdə tutulmuş nümunəvi kurikulumların hazırlanmasında istifadə olunacaq əsas məqamlar (ixtisasın peşə standartı, əmək bazarının tələbləri, yerli və beynəlxalq təcrübə və s.) təhlil edilmişdir. "İşıq operatoru" ixtisası üzrə Təhsil Proqramının (Kurikulumun) məqsədi bu ixtisası seçmiş tələbələrə müstəqil həyatda lazım olan əməli biliklərin öyrədilməsindən və onların məntiqi təfəkkürünü inkişaf etdirməkdən ibarətdir. "İşıq operatoru" ixtisası üzrə Təhsil Proqramı (Kurikulum) ilk peşə təhsili alanlar üçün (səviyyə 4) nəzərdə tutulmuşdur.

İşıq operatoru bütün işıq mənbələrini və aksesuarları keyfiyyət sistemləri çərçivəsində müəyyən edən, televiziya studiyalarında və çəkiliş mühitlərində işıqlandırma texnologiyalarından istifadə edərək səhnə və ya film çəkilişlərində işıqların yerləşdirilməsini və idarə olunmasını təmin edən şəxsdir. İşıq operatoru işıqların gücünü, rənglərini və oriyentasiyasını tənzimləməklə səhnə və ya film çəkilişlərinin vizual keyfiyyətini yaxşılaşdırır. İşıq operatorları gördükləri işlər üçün təlimatlara malik olmalı və innovativ yollar tapmalı, həmçinin biliklərini müxtəlif vəziyyətlərdə tətbiq etməyi bacarmalıdırlar. İşıq operatoru özəl və ya ictimai yayım təşkilatlarında işləyə bilər. O, ofis mühitində və ya ofisdən kənarda, istənilən hava şəraitində öz vəzifələrini yerinə yetirir. Təşkilat daxilində proqram direktoru, montaj rejissoru, texniki direktor, dekorator, prodüser, qrim mütəxəssisi ilə daimi ünsiyyətdə olur. İş günləri və saatları çəkilişdən asılı olaraq dəyişir. Növbəli və ya həftə sonları, bayram və gecə kimi günlərdə işləmək, işləməyəndə də növbəyə hazır olması labüddür. Ümumi iş üsulu komanda işi formasındadır. İş şəraitində sıx stresslə bağlı narahatlıq, elektrik cərəyanı, əl alətlərinin yaratdığı xəsarətlər kimi risklər var. Peşənin icrası zamanı onun işlədiyi yer və intensiv elektromaqnit cihazlarından istifadə ilə əlaqədar istehsalatda sağlamlıq və təhlükəsizlik tədbirlərinin görülməsini tələb edən bədbəxt hadisələr, xəsarət və peşə xəstəliyi riskləri vardır. Bu peşə üzrə işə qə-

bul edilərkən aşağıdakı tələblər nəzərə alınmalıdır:

1. Əmək münasibətləri Azərbaycan Respublikasının Konstitusiyası, Əmək Məcəlləsi və digər normativ-hüquqi aktlarla tənzimlənir.

2. İşə qəbul olunarkən sağlamlıq haqqında tibbi arayış, eləcə də sonradan vaxtaşırı icbari tibbi müayinədən keçmək haqqında tibbi arayış (Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müvafiq əmrləri ilə nəzərdə tutulduğu hallarda) təqdim olunur.

İşəgötürən bu peşə üzrə işə götürmək istədiyi şəxsdə görmək istədiyi səriştələri – *işi planlaşdırma və təşkiletmə, nəzarət altında işləmək, kiçik səlahiyyətlərə malik olmaq, təcrübə tələb edən fəaliyyətlərin yerinə yetirilməsi və əlaqələndirilməsi üçün məsuliyyət daşımaq, öz fəaliyyətlərini planlaşdırmaq və nəticələri barədə hesabat vermək, digər şəxslərlə əməkdaşlıq etmək və komandada işləmək bacarığı, alətlərdən və avadanlıqlardan istifadəyə diqqət yetirmək, iş mühitində ətraf mühitin mühafizəsi qaydalarının, eləcə də Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühit (SƏTƏM) qaydalarının qəbulu və tətbiqi, işə təhlükə yarada biləcək davranışlardan çəkinmək, yeniliyə açıq olmaq və dəyişən şərtlərə uyğunlaşmaq, işıqlandırma zamanı detallara diqqət yetirmək həmçinin tez və praktik hərəkət etmək, işıq texnologiyasındakı inkişafa uyğun olaraq öz bacarıqlarını inkişaf etdirmək, iş zamanı keyfiyyətə diqqət yetirmək, texniki problemləri tez həll etmək, materiallardan səmərəli istifadə etmək, uzaqgörən olmaq və risklərə qarşı həssaslıq, stressli vəziyyətlərdə sakit və soyuqqanlı olmaq, xəbərdarlığa və tənqidə açıq olmaq və s. texniki tələblər şəklində qoyur.*

İşıq operatorunun vəzifə öhdəliklərinə daxildir:

*– Ətraf mühitin mühafizəsi və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi;*

*– çəkilişdən və yayımdan əvvəl mühitin təşkil edilməsi;*

*– işıqlandırma avadanlıqlarının və lampaların məkana uyğun seçilərək quraşdırılması;*

*– işıqlandırma avadanlıqlarına qulluq edilməsi;*

*– müxtəlif işıq mənbələri ilə işıqlandırmanın aparılması;*

*– işığın idarə edilməsi;*

*– çəkilişlərdən sonra avadanlığın sökülməsi.*

***İşıq operatorundan tələb olunan biliklərə** – elektrotexnika haqqında biliklər, riyazi biliklər, dizayn bilikləri, işıq mənbələri və növləri haqqında biliklər, əməyin mühafizəsi və təhlükəsizliyi haqqında biliklər, peşəkar terminoloji biliklər, rənglər haqqında biliklər, Əmək Qanunvericiliyi haqqında biliklər, kino və televiziya obyektlərinin işıqlandırılması üsulları və metodları haqqında biliklər, işıqlandırma aparatları və köməkçi avadanlıqlar haqqında biliklər və s. aiddir.*

***İşıq operatorundan aşağıdakı bacarıqlar** – sürətli düşünmə, təhlükəsizlik tədbirlərinə riayət etməklə texniki problemləri həll etmək bacarığı; uyğunlaşma, müxtəlif istehsal üslubları və tələbləri ilə işləmək bacarığı; ünsiyyət bacarıqları; orta səviyyədə fiziki hazırlıq, ağır texnikanı təhlükəsiz hərəkət etdirmək bacarığı; komanda şəklində işləmək bacarığı; başqalarından təlimat almaq bacarığı (məsələn, işıqlandırma dizayneri və direktoru); mükəmməl alətlər olmadıqda improvizə etmək bacarığı; hərtərəfli olmaq və detallara diqqət yetirmək bacarığı; analitik düşünmə bacarığı; liderlik bacarığı; səbr tələb olunan və stresli vəziyyətlərdə sakit qalmaq bacarığı; dizayn bacarığı; kompüterdə və ya əl cihazında əsas vəzifələri yerinə yetirə bilmək bacarığı; işıqlandırma dizaynerinin planını şərh etmək bacarığı; sağlamlıq və təhlükəsizlik məqsədləri üçün risk qiymətləndirmələrinin aparılması bacarığı; kabellərin hara çəkiləcəyini və film yerlərində işıqların yerləşdirilməsini planlaşdırmaq bacarığı; avadanlıqların quraşdırılmasına və yoxlanılmasına kömək etmək bacarığı; teatrdakı səhnə menecerindən və ya televiziyadakı mərtəbə menecerindən göstərişlər almaq bacarığı; çəkilişlərdən sonra avadanlığın sökülməsi bacarığı tələb olunur.*

"İşıq operatoru" peşəsi üzrə təhsil proqramının modullarında spesifik səriştə modulunu reallaşdırmaq üçün – *işıq və rəng, işıqlandırma texnologiyası, işıqlandırmada istifadə olunan avadanlıqlar, işığın idarə edilməsi, işıqlandırma və dekorasiya, eləcə də istehsalat təlimi haqqında məlumatlar verilir.* "İşıq operatoru" ixtisası aşağıdakı modul və təlim nəticələrindən ibarətdir.

***1. "İşıq və rəng"** modulunun məqsədi təhsilalanlara işıq və rəng haqqında əsas anlayışları, işıq və rəngin əmələ gəlməsini, onların qarşılıqlı təsirini düzgün təhlil edə bilməsi üçün bilik və bacarıqlar verməkdir.

1.1. İşıq haqqında əsas anlayışları, işığın funk-

siyalarını və əsas xüsusiyyətlərini bilir.

1.2. İşığın qanunlarını, dalğa uzunluqlarını və dalğa uzunluqlarına görə rəngin necə əmələ gəlməsini bilir.

1.3. Rənglərin xüsusiyyətlərini bilərək düzgün sintez etməyi və işığın balanslaşdırılmasını bacarır.

***2. "İşıqlandırma texnologiyası"*** modulunun məqsədi təhsilalanlara işıqlandırma zamanı işıqlandırma texnologiyalarından istifadə edə bilmək üçün bilik və bacarıqlar verməkdir.

2.1. İşıqlandırma texnologiyalarından istifadə edərək çəkiliş zamanı müxtəlif növ işıqlandırma apara bilir.

2.2. İşıqlandırmanın terminlərindən istifadə edərək işıqlandırma üçün lazım olan işıqların növünü və sayını təyin edə bilir, çəkiliş sahələrindən asılı olaraq işıqlandırma apara bilir.

2.3. Çəkilişə uyğun süzgəcləri və reflektorları seçərək qapalı və açıq məkanları işıqlandıra bilir.

***3. "İşıqlandırmada istifadə olunan avadanlıqlar"*** modulunun məqsədi təhsilalanlara işıqlandırma apara bilmək üçün istifadə olunan əsas və köməkçi avadanlıqların iş prinsipi haqqında bilik və bacarıqlar verməkdir.

3.1. Proyektorların hissələrindən və funksiyalarından istifadə etməyi bilir.

3.2. Müxtəlif proyektorlardan və proyektor lampalarından istifadə edə bilir.

3.3. İşıq nəzarət masalarından və dimmerlərdən istifadə edə bilir.

***4. "İşığın idarə edilməsi"*** modulunun məqsədi təhsilalanlara studiya daxilində və xaricində işığın idarə edilməsi ilə bağlı bilik və bacarıqlar verməkdir.

4.1. Çəkiliş sahəsinə uyğun işıq mənbəyi seçib işıqlandırma apara bilir.

4.2. Çəkiliş sahəsindən asılı olaraq işığı idarə edə bilir.

4.3. İşıqölçmə cihazlarından istifadə edə bilir.

***5. "İşıqlandırma və dekorasiya"*** modulunun məqsədi təhsilalanlara çəkiliş sahəsinin standartlarına uyğun olaraq dekorasiya, işıqlandırma, səs və kamera quraşdırılması kimi texniki hazırlıqlarla bağlı bilik və bacarıqlar verməkdir.

5.1. Çəkiliş sahəsinə uyğun olaraq sadə dekor dizayn edə bilir.

5.2. Əməyin təhlükəsizliyi və əmək fəaliyyəti ilə bağlı ümumi faktorları nəzərə alaraq işıqlandırılacaq məkanı təyin edərək işıq sistemlərini qura bilir.

5.3. Əməyin təhlükəsizliyi və əmək fəaliyyəti ilə bağlı ümumi faktorları nəzərə alaraq səs və kamera sistemlərini qura bilir.

***6. "İstehsalat təlimi"*** modulunun məqsədi təhsilalanlara müxtəlif çəkiliş sahələrində işıqlandırma ilə bağlı səriştələr qazandırmaqdır.

6.1. Çəkilişdən əvvəl mühiti təşkil edə bilir.

6.2. Müxtəlif işıq mənbələri ilə işıqlandırmağı bacarır.

6.3. İşıqlandırma avadanlıqlarından istifadə edərək işıqlandırma apara bilir.

6.4. İşığı idarə edə bilir.

**Nəticə:** Məqalədə də qeyd olunduğu kimi, "İşıq operatoru" kurikulumu üzrə verilən modul və təlim nəticələrinə əsasən təhsilin sonunda təhsilalanlar üç qrup səriştəyə sahib olacaqdır: Dəyişikliklərə uyğunlaşmağa və işi keyfiyyətli şəkildə görməyə imkan verən ömürboyu təhsil üzrə əsas səriştələr; əmək bazarında mobilliyi təmin edən, ümumi iş yeri mədəniyyətinin inkişafını dəstəkləyən və sektorda yeni peşələrin meydana gəlməsinə şərait yaradan ümumi səriştələr; eləcə də təhsilalan peşəsi üzrə vəzifə və fəaliyyətləri icra edə, iş yerində sürətli dəyişikliyə uyğunlaşa biləcək xüsusi peşə səriştələri əldə edəcəkdir.

Təhsilini uğurla başa vuran məzun iş yerində aşağıdakı vəzifə və fəaliyyətləri icra edə biləcəkdir:

F.1. Ətraf mühitin mühafizəsini və təhlükəsizlik tədbirlərini həyata keçirtmək;

F.1.1. İş yerində əməyin mühafizəsi və təhlükəsizliyi haqqında qanunvericilik qaydalarına riayət etmək;

F.1.2. Fərdi qoruyucu vasitələrdən istifadə etmək;

F.1.3. Risklərin aşkar edilməsinə yardımçı olmaq;

F.1.4. Yanğın və digər fövqəladə hal zamanı təcili və təxirəsalınmaz tədbirləri həyata keçirtmək;

F.1.5. Ətraf mühitin mühafizəsi standartlarını və üsullarını tətbiq etmək.

F.2. İşə hazırlığı həyata keçirtmək;

F.2.1. Çəkiliş yerini – studiyanı nəzərdən keçirtmək;

F.2.2. İşıq mənbələrini müəyyən etmək;

F.2.3. İşıq avadanlıqlarının toplanmasını təmin etmək;

F.2.4. İşıq avadanlıqlarının vəziyyətini yoxlamaq;

F.2.5. İşığın davamlılığını təmin etmək;

F.2.6. Fəaliyyəti ilə bağlı əldə etdiyi bilikləri

işində tətbiq etmək;

F.2.7. İşıq avadanlıqlarının daşınmasını və çatdırılmasını həyata keçirtmək.

### İstifadə edilmiş ədəbiyyat


1. Ankaralıgil N. Sinemada görüntü düzenleme. İstanbul Literatürk Academia yayınları, 2016.
2. Kafalı N. Televizyon yapımlarında teknik ve kuramsal temeller. Ankara, Ümit Yayıncılık, 1993.
3. Sözen M., Dayi H. Sinemada ışık kullanımı ve örnek bir çözümleme. Erciyes İletişim Dergisi Akademia, 3(1), s.32-49, 2013.
4. Köroğlu A. Led armatür ile aydınlatma tasarımının insanlar üzerindeki fizyolojik ve psikolojik etkilerinin incelenmesi. Samsun, 2021.
5. Harry C. Box set Lighting Technician's Handbook. Fifth Edition, 2020.
6. Исмагилов Д.Г., Древалёва Е.П. Театральное освещение. Москва, ЗАО «ДОКА Медиа».
7. Dunham R. Stage Lighting (The Fundamentals). Second Edition, Taylor & Francis, 2019.
8. Aysel Durgun Uzun, İlhan Özkal Kadriye, Eren Özkal Özge, Akcan Serdar Uzun. Kamera, ses ve ışık uygulamaları, 2020.


**S.Guliyeva**

### The role of the lighting operator on stage

**Abstract**

One of the most important features of light, which has been one of the most important elements in human life since the beginning of human history, is that it allows us to see all living and non-living beings around us, the world we live in, the stars and planets of the universe we live in. In addition to providing our vision, light also affects our biological clock, hormone balance, and psychological and spiritual health. Light, which is one of the main sources of life, is also of great importance in stage, film, television, etc. filming. Performing arts were performed outdoors to take advantage of the sun when the light could not be controlled. With the discovery of wood, the first step towards artificial lighting was taken, and artificial lighting began to develop. With the invention of the incandescent lamp and the development of control possibilities of light sources, stage lighting gained a different direction and began to be used not only to illuminate the environment, but also to reveal the region, people and emotions.

The purpose of writing the article is to provide information about light, lighting techniques and light operator, which have an important place in stage art, film and television, and the article also mentions the methodology of "Light operator" curriculum development.

**С.Гулиева**

### Роль светового оператора на сцене

**Аннотация**

Одна из важнейших особенностей света, который был одним из важнейших элементов в жизни человека с самого начала человеческой истории, заключается в том, что он позволяет нам видеть все живые и неживые существа вокруг нас, мир, в котором мы живем, звезды и планеты Вселенной. Помимо обеспечения нашего зрения, свет также влияет на наши биологические часы, гормональный баланс, а также психологическое и духовное здоровье. Свет, являющийся одним из основных источников жизни, также имеет большое значение в сценических, кино, телевизионных и т.д. съемках. Исполнительские виды искусства проводились на открытом воздухе, чтобы использовать солнце, когда свет нельзя было контролировать. С открытием древесины был сделан первый шаг к искусственному освещению, и стало развиваться искусственное освещение. С изобретением лампы накаливания и развитием возможностей управления источниками света сценическое освещение приобрело иное направление и стало использоваться не только для освещения окружающей среды, но и для раскрытия региона, людей и эмоций.

Цель написания статьи – предоставить информацию о свете, технике освещения и операторе света, которые занимают важное место в сценическом искусстве, кино и телевидении, а также упоминается методика разработки учебной программы «световой оператор».

*Peşə təhsili və insan kapitalı. Cild 7, №1, 2024, s.98-103*

# HƏRBİ DİSKURSLARIN TİPOLOJİ TƏSNİFATI



**Lütviyyə Nəsibova,**
*Heydər Əliyev adına Hərbi İnstitutun ingilis dili müəllimi,*
*Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutunun*
*Adyunkturasının adyunktu*
*e-mail: lutviyyenesibova@yahoo.com*

**UOT:** 80/81

**Xülasə**. *Hərbi diskurs hərbi ünsiyyət sahəsinə xidmət etməyə yönəldilmiş şifahi və yazılı mətnlər toplusunu, "presedent" ifadələri və mətnlərin tezaurusunu, bu ünsiyyət növünə xas olan nitq hərəkətləri və janrlar toplusunu əhatə edir. Peşəkar mövzu və idrak fəaliyyəti prosesində hərbi mütəxəssis üçün xarici dil mətnləri arasında ən produktiv və potensial olan peşəkar əhəmiyyətli məlumatları özündə birləşdirən hərbi-texniki, hərbi-informasiya və hərbi-elmi mətnlərdir. Hərbi diskurslar tipoloji təsnifat baxımından digər diskurslarla oxşar və fərqli xüsusiyyətlərə malikdir. Müasir nəzəriyyəyə əsasən, diskursların təsnifatı müxtəlif əsaslara görə təsnif edilə bilər. Məqalədə bir çox tədqiqatçıların diskurs təsnifatları yer almışdır. Hərbi diskurs mürəkkəb linqvistik hadisə olduğundan kifayət qədər müstəqilliyə malikdir və struktur-sintaktik xüsusiyyətləri baxımından maraqlıdır. Əldə olunan təsnifatlarda hərbi diskurslarla əlaqələndirilmiş nəticələr diqqət mərkəzinə gətirilmişdir.*

***Açar sözlər:*** *diskurs təsnifatı, institusional diskurs, sosiolinqvistik prinsip, diskursiv formullar, linqvistik və ekstralinqvistik xüsusiyyətlər.*
***Key words:*** *discourse classification, institutional discourse, sociolinguistic principle, discursive formulas, linguistic and extra linguistic features.*
***Ключевые слова:*** *классификация дискурса, институциональный дискурс, социолингвистический принцип, дискурсивные формулы, лингвистические и экстралингвистические признаки.*

Bu gün dilçiliyi çox maraqlandıran məsələlərdən biri də "diskurs" anlayışıdır. XIX əsrin sonlarından öyrənilməyə başlayan diskurs problemi günümüzdə də aktuallığını saxlamaqdadır. Diskursun müxtəlif növləri – siyasi, iqtisadi, ədəbi, hərbi və s. kifayət qədər ətraflı tədqiq edilmişdir. Praqmalinqvistika, psixolinqvistika, linqvokultrologiya, struktur dilçilik, linqvostilistika, sosiolinqvistika sahələrinin diskursun təsnifində özünəməxsus yanaşması vardır. Dilçilikdə diskurs probleminin tədqiqinə çoxlu əsərlər həsr olunub ki, onların müəllifləri bu fenomeni o qədər müxtəlif elmi sistemlərdə başa düşürlər ki, nəticədə "diskurs" anlayışının özü "diskurs" anlayışından daha geniş olduğu ortaya çıxdı. Tədqiqatçılar hərbi diskursun dövrlərarası aktual xarakterli xüsusiyyətlərini qeyd edirlər. Onun digər əlaqəli nitq növləri ilə sıx əlaqəsini (hərbi-siyasi, hərbi-vətənpərvərlik, hərbi diskursun linqvistik səviyyədə bağlı olduğu diskurs növləri ilə, metaforik modellər, metaforasiyalar, idman dis-

kursu və s.) aktual məsələlərdən biri kimi hesab edirlər. Hərbi diskursun mühüm xüsusiyyəti onun mahiyyətinə görə dramatik olmasındadır: teatrallıq əvvəlcə müharibə fenomeninin və onun bütün linqvo-semiotik məkanının əsas elementi kimi mövcuddur. "Hərbi əməliyyatlar teatrı" metaforası təsadüfi və aşkar deyil, çünki hər bir müharibənin öz ssenari müəllifləri və rejissorları (qərargahı), aparıcı aktyorları (generallar, zabitlər), əlavələr (səhra ordusu, əsgərlər, matroslar), rekvizitlər (forma, silahlar), tamaşaları təmin edən xidmətlər (müharibə edən tərəflərin silah, uniforma, rəmzləri və artefaktları – pankartlar, fərqlənmə nişanları istehsalçıları), musiqi müşayiəti (hərbi orkestr), reklam xidməti (hərbi təbliğat), teatr tənqidçiləri (hərbi analitiklər və müharibə müxbirləri), hətta müştərilər və sponsorları var. Başqa sözlə, hərbi konflikt kütləvi informasiya vasitələrinin təkrar və təfərrüatlı transformasiya yolu ilə kütlələrin şüurunda sabitləşən mədəni forma alır.

Hərbi diskurs digər diskursların tipoloji xüsusiyyətlərinə malikdir, lakin onun fərqli xüsusiyyətlərinə diqqət yetirmək lazımdır [22, s.40].

*1. Zamanlararası aktuallıq hərbi diskursun inkişafı boyu hərbi sahənin aktuallığı ilə üst-üstə düşmür.*

*2. Hərbi diskursun militarist xarakteri kəskin şəkildə dinc vətəndaş cəmiyyətinə qarşı çıxır və hərbi qulluqçuların dil şəxsiyyətinin dünyasına xüsusi militarist nominasiyalar şəklində yayılır. Hərbi nitqin hərbi xarakteri nitq mədəniyyətinin digər linqvistik təbəqələrinə keçir.*

*3. Hərbi ənənələr və hərbi sistemlə bağlı xüsusi təşkilat və həddindən artıq tənzimləmə və nomenklatura.*

Müasir nəzəriyyədə diskursların təsnifatı icmalı göstərir ki, "diskurs" (mətn) müxtəlif əsaslara görə təsnif edilə bilər:

*– informasiyanın ötürülmə kanalına görə: şifahi və yazılı [16, s.12], mental [11, s.21], internet diskursu [18, s.70];*

*– informasiya daşıyıcısının növünə görə: radio yayımı, çap olunmuş diskurs, telefon danışığı, peycerdən istifadə etməklə ünsiyyət, e-poçt yazışmaları, danışıq (və ya çat) rejimində ünsiyyət [21];*

*– janr xüsusiyyətlərinə görə [7, s.279];*

*– semantik məzmuna görə: təsviri, nəqli, qarışdırılmış, mühakimə [5, s.11];*

*– ünsiyyət sferası və mühitinə görə: məişət, elmi, siyasi, işgüzar, konfessional [3, s.6]; kitab, danışıq, kütləvi-kommunikativ [13, s.45];*

*– ifadə üsuluna görə: paralinqvistik vasitələrdən istifadə edilmədən şifahi şəkildə ifadə edilir; o cümlədən dilçiliklə yanaşı, paralinqvistik vasitələr, həmçinin kreollaşdırılmış mətnlər (semiotik cəhətdən simvolik komponentlə zəngin, mürəkkəb) [2, s.8];*

*– sosiolinqvistik yanaşmaya görə (danışan): siyasi diskurs, işgüzar diskurs, kütləvi informasiya diskursu, reklam, dini, məhkəmə, elmi, pedaqoji (didaktik, maarifləndirici), diplomatik, tibbi, kompüter (elektron, virtual) [7, s.279];*

*– praqmatik yanaşmaya görə: komik (yumoristik), ritual, ezoterik [7, s.277]; nifrət diskursu [12, s.251]; "azaltma" diskursu [4, s.35];*

*– tematik meyar üzrə: iqtisadi, mənəvi, ekoloji, fantastik, proqnozlaşdırıcı, avtobioqrafik, terrorçu, irqçi, ksenofobik [7, s.277];*

*– mövzunun üslubuna (nitq portretinə) görə: idarəçi, siyasi lider [24; 14, s.102];*

*– milli-linqvo-mədəni parametrə görə: rus, ingilis, ispan milli diskursu və s. [18, s.77];*

*– dünyanı görmə və reallığı nizama salma tərzinə görə: subyekt diskursu (məsələn, Q.Yavlinskinin diskursu) və obyektin diskursu (məsələn, siyasi diskurs) [17, s.21];*

*– yaranma xarakterinə görə: ilkin – "tədqiqat prosesi ilə əlaqədar; mənaları fərdi və qapalı, obrazların əlaqələri assosiativ, üslub isə şəxsidir", İsa Məsihin aforizmləri, rus xalq mahnıları, səyahət reportajları; ikinci dərəcəli – "təqdimat və nəşr ilə müəyyən edilir; onların mənaları ümumən əhəmiyyətli, başa düşülməyə açıq, məntiqi əlaqə və ümumi üslub kimi qəbul edilir" [10, s.338];*

*– nitq aktının quruluşuna, nitqin növünə görə: dialoq, monoloq [16, s.12];*

*– ifadə edilmiş nöqteyi-nəzər: məlumatlandırıcı (dialoq-müsahibə, aydınlaşdırma), şərhedici (özünü təqdimetmə diskursu), instrumental (direktiv, mübahisəli, inandırıcı), affiliativ (ünsiyyət edənlərin qarşılıqlı əlaqəsinin emosional-affektiv xarakteri) və s.; tamamlayıcı (ünsiyyətçilərdən birində məlumat çatışmazlığı ilə* xarak*terizə olunur), səriştəli (rabitə tərəfdaşlarının rəyləri, bilikləri, istəkləri rəqabəti ilə əlaqəli),*

*koordinasiyalı (təxribat effektinə nail olmaq üçün rabitəçilərin hərəkətlərinin əlaqələndirilməsi ilə əlaqəli) [6, s.14];*

*– sosiolinqvistik prinsipə görə: şəxsiyyətyönümlü ("ünsiyyət iştirakçıları bir-birlərinə daxili aləmlərinin bütün zənginliyini aşkar etdikdə və bir-birini fərd kimi qəbul etdikdə"); gündəlik və ekzistensial (bədii və fəlsəfi diskurs), ünsiyyət və statusyönümlü ("bir-birini cəmiyyətin müəyyən qrupunun nümayəndələri kimi qəbul edən insanlar arasında bir keyfiyyətdə baş verir"); institusional diskurs (siyasi, pedaqoji, dini və s.) [7, s.277];*

*– kommunikativ çalar baxımından: ciddi və yumoristik, təntənəli ritual və adi, məlumatlandırıcı və valehedici, informativ və fatik [7, s.279]; ictimai əhəmiyyət səviyyəsinə görə: "gündən-günə "danışılan" və mübadilə edilən diskurslar, ifadə olunduğu aktla yoxa çıxan nitqlər" və "müəyyən sayda yeni nitq aktlarının əsasında duran diskurslar, onları götürmək, onları dəyişdirmək və ya onlar haqqında danışmaq", dini, hüquqi, ədəbi, elmi [25, s.60];*

*– şifahi ünsiyyətin aspektləri üzrə: sakral, utilitar, bədii, səsli-kütləvi ünsiyyətdə olan mətnlər [23, s.185];*

*– funksiyasına görə: normativ, kontakt, qrup, poetik, özünüifadə dominantı, motivasiya dominantı və xüsusi məlumat dominantı ilə [23, s.195-197];*

*– psixoloji meyarlara görə: parlaq, aktiv, sadə (qəddar), şən, gözəl, yorğun, kədərli, mürəkkəb, qarışıq [23, s.201-205].*

Əlbəttə ki, müxtəlif səviyyəli təsnifləşdirmə cəhdləri mövcuddur. Məsələn, institusional diskurs daxilində janr xüsusiyyətlərinə əsaslanan tipologiya [7, s.277-279]; janr və üslublara görə tipologiya [23, s.183-185]; 20 parametrə görə tipologiya, bunlardan başlıcaları: mətnin maddi təzahürü, nitqin yaranma üsulu, ünsiyyət aktının strukturu [23, s.185-189]. Nəzərdən keçirilən təsnifatların ziddiyyətli olduğunu görmək heç də çətin deyil. Bir çox əsaslar kəsişir, çox vaxt eynitipli nitqlərə müxtəlif formullar təyin edilir, mahiyyətcə eyni olan tiplər müxtəlif əsaslar baxımından nəzərdən keçirilir. Lakin vahid təsnifatdan danışsaq, onun əsas prinsipinə, nitqin əsas (tematik mənalı) növlərinin hər birinə, onun spesifik xüsusiyyətlərinə nəzər salıb uyğun olaraq əlavə etmək, inkişaf etdirmək mümkündür. Beləliklə, diskurs təsnifatını daha yığcam şəkildə təqdim edə bilərik:

*1. Mövzuya görə (özəl mövzular).*

*2. Janr meyarına görə: a) tərifli xüsusiyyətlərə görə: informativ, etiket, imperativ, qiymətləndirici janrlar; b) informasiyanın ötürülməsi formasına görə: yazılı, şifahi janrlar; c) zahiri formasına görə: monoloq, dialoq janrları; d) saha strukturunda yerinə görə: prototip, marjinal janrlar; e) ifadə üsuluna görə: şifahi, paralinqvistik mürəkkəb janrlar.*

*3. Mövzunun xarakterinə görə: institusional diskurs və fərdi (şəxsi diskurs).*

*4. Müvəqqəti plana əsasən.*

*5. Milli-mədəni parametrə görə: ingilis, rus, amerikan diskursu və s.*

Bizə elə gəlir ki, hərbi diskursu iki əsas hissəyə – formal və qeyri-formal hərbi diskursa bölmək olar. Bundan əlavə, hərbi diskursun iki hissəsi arasında aralıq mövqe tutan və şübhəsiz ki, interdiskursiv statusa malik hərbi ədəbiyyatı, hərbi jurnalistikanı və hərbi-siyasi materialları özündə birləşdirən daha bir qrupu xüsusi qeyd etmək lazımdır. Onlar yalnız öz mövzularına görə hərbi xarakter daşıyır və əsasən bütün ictimai-siyasi, publisistik və bədii mətnlərə xas olan xüsusiyyətlərə malikdir. Geniş mənada hərbi materiallara hərbi bədii materiallar, hərbi-publisistik və hərbi-siyasi materiallar, hərbi-texniki, eləcə də hərbi-elmi materiallar, hərbi idarəetmə aktları (müxtəlif hərbi sənədlər) daxildir. Silahlı qüvvələrin qoşunlarının və hərbi müəssisələrinin həyatı və fəaliyyəti ilə bağlı bütün elmi-texniki materialları və idarəetmə aktlarını müvafiq hərbi materiallar kimi daxil etmək adətdir. Bu, hərbi diskursun formal hissəsidir. Qeyri-rəsmi hərbi diskurs öz növbəsində, hərbi mühitdə birbaşa qeyri-rəsmi ünsiyyəti, ordu jarqonunu, eləcə də qeyri-rəsmi ünsiyyət sistemində xüsusi yer tutan hərbi lətifəni əhatə edir.

Hərbi diskurs ifadə baxımından emosionallıq və ifadəlilik yaratmaq məqsədi ilə qəzet və jurnallarda, radio, televiziya və internetdə istifadə imkanlarına malikdir. Həmçinin hərbi diskurs kommunikasiya aktları arasında sosial-siyasi təsirə əsaslanır. Buraya sosial dəyərlər, eləcə də ölkədə baş verən siyasi münasibətlər, "müharibə" konsepti və s. məsələlər aiddir. Bu

da öz növbəsində, mətni qəbul edənin mənəvi aləminə təsir edir və nəticə etibarilə mətni qəbul edənin güclü reaksiyasına səbəb olur. Hərbi diskurs struktur baxımından makro və mikro mətnlərə bölünə bilər [1, s.64]. Həmçinin diskurs mətnləri şifahi və yazılı formada təzahür edilir. Diskursun hər iki formasında xüsusi tələb olunan struktur xüsusiyyətləri də mövcuddur ki, buraya linqvistik və ekstralinqvistik xüsusiyyətlər daxildir. Bu baxımdan diskurs struktur cəhətdən linqvistik xüsusiyyətlərlə bağlıdır.

Hərbi diskurs vahidləri də digər növ diskurs vahidləri ilə geniş əlaqələrə malikdirlər. Hərbi diskurs mürəkkəb linqvistik hadisədir, kifayət qədər müstəqilliyə malikdir və struktur-sintaktik xüsusiyyətləri baxımından maraqlıdır. Hərbi diskurs statusyönümlü və ya institusional nitq növünə aiddir [8, s.12]. Xüsusi bir növ kimi hərbi-siyasi və hərbi diskurs üçün xarakterik olan struktur komponentlər mövcuddur. Buraya daxildir: iştirakçılar, məqsədlər, dəyərlər, mövzu, cins növləri, diskursiv formullar [9, s.6-7].

Siyasi diskursun əsas iştirakçıları siyasi institutların həlledici qüvvələri; hərbi diskursda hərbi idarələrin işçiləri; hərbi-siyasi diskursda isə dövlətin yüksəkvəzifəli şəxsləri, ən yüksək səviyyəli hərbi idarələrin nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri, habelə dövlət KİV-ləridir. Siyasi diskurs iştirakçılarının əsas məqsədi hakimiyyət, onun saxlanılması və yenidən bölüşdürülməsi üçün mübarizədir; hərbi diskurs iştirakçılarının məqsədi düşməni məğlub etmək üçün hərbi əməliyyatların həyata keçirilməsidir; hərbi-siyasi diskursda isə əsas məqsəd hərbi əməliyyatlara başlamaq, onların zəruriliyi, müharibənin gedişi barədə əhalini məlumatlandırmaq, ictimai rəy formalaşdırmaq və onu əsaslandırmaqdır.

Hərbi diskurs xüsusiyyətləri, mənası, formaları, struktur elementləri ilə mədəni dəyərlərin yayılmasına kömək edir və hərbi fəaliyyətin səmərəli təşkilində əsas vasitələrdən biridir. Hərbi diskurs bir çox proses və hadisələrə təsir edir və yaxud onların təsiri altında olur. Hərb sənətinin yarandığı ilk vaxtlardan rəqabət qabiliyyətini ən yüksək səviyyədə əldə etmək üçün daim əlaqələr qurmaq və saxlamaq zərurəti yaranmışdır. XXI əsrin hərbi münaqişələri kontekstində hərbi diskurs və hərbi əlaqələrin inkişafı mühüm əhəmiyyət kəsb edir. Hərbi diskurs təkcə əmr, strategiya və doktrinaların ötürülməsi üçün deyil, həm də ideologiyanın cəmiyyətə ötürülməsi üçün əsas alətə çevrilib, nitqin özünü əhatə edir. Bu kontekstdə hərbi ünsiyyət və diskursun özü xüsusi element və hadisələrə əsaslanan mədəni nümunələri çatdırmalıdır. Diskurs dəyərlər sistemini, işarə sistemini, şifahi komponentləri, fiziki elementləri əhatə etməlidir [15, s.164]. Hərbi diskursun xüsusiyyətlərini təhlil edərkən hərbi diskursun mövcud olduğu və inkişaf etdiyi hərbi mühiti nəzərə almamaq olmaz. Hərbi mühitin hərbi nitq üzərində proqnozlaşdırılan xarakterik xüsusiyyətləri ciddi iyerarxiya, təşkilati strukturun piramidal növü, tabeçilik, davranış qaydalarının mövcudluğu, müraciətlərin xüsusi növləri və ümumi normativ sənədlərdə ünsiyyətin ümumi tənzimlənməsidir [19, s.178].

Hərbi diskursun növbəti xüsusiyyəti ünsiyyət forması və ya strukturudur. Hərbi diskursda ünsiyyətin dörd forması var: rəsmi, şaquli, yazılı və şifahi ünsiyyət. Hərbi diskurs ünsiyyətinin yuxarıda göstərilən formaları ayrılmazdır və eyni vaxtda fəaliyyət göstərir, linqvistik ünsiyyət növlərindən biri olan hərbi rabitənin səmərəliliyini və məhsuldarlığını təmin edir. Ona görə də formal ünsiyyətin şaquli və üfüqi alt növləri mövcuddur. Bu alt növlər həm yazılı, həm də şifahi şəkildə həyata keçirilə bilər və bir neçə funksiyaya malik ola bilər: məlumat, motivasiya, tənzimləyici və s. Dil – ideyaların, dəyərlərin, münasibətlərin, ideologiyaların, dünyagörüşlərinin dilçilikdə diskurs adlandırılan formada formalaşması üçün incə ifadəli aparatdır. Əgər diskurs anlayışını araşdırsaq, onu mövcud olduğu sosial-mədəni kontekstdə təqdim edə bilərsiniz ki, bu da diskursun aid olduğu cəmiyyətin xüsusi ideyalarını, dəyərlərini yayımlamağa imkan verir [20, s.39]. Söhbətin sosial strukturu və mənası onun sosial-mədəni və siyasi kontekstdə konkret cəmiyyətə münasibətini müəyyən edir.

Hərbi diskursun özünün hərbi konseptual sferası var. Onun əsas anlayışları çox vaxt ziddiyyətə əsaslanır. Məsələn, "hərbi-mülki", "sülh-müharibə", "hərbçilər-mülkilər", "hərbi məmurlar-mülki məmurlar" və s. Hərbi diskursun əsas xarakterik xüsusiyyəti onun tarixi dəyişkənliyidir. Hərbi sahə minilliklər boyu zamanla

ayaqlaşaraq inkişaf etmişdir. Nitq hərbçilər arasında əsas ünsiyyət vasitəsi idi və hər bir dövrdə nitq özünün xüsusi çalarları ilə zənginləşmişdir. Zaman keçdikcə ordu sisteminin strukturunda dəyişikliklər baş vermiş – yeni silah sistemləri hazırlanmış, inkişaf etdirilmiş, hərbi mövqelər və rütbələr meydana çıxmış və ya silinmişdir; kommunikativ aktın iştirakçıları arasında münasibətlər ciddi şəkildə tənzimlənmişdir. "Subordinasiya" anlayışı ünsiyyətçilərin rol münasibətlərini əks etdirir və orduda əsas anlayışlardan biridir. Silahlı qüvvələrin gündəlik həyatının bütün elementlərinə xas olan aydınlıq və strukturluq əmrlərin mətnində, mətnin ünsiyyət və qurulması prosesində əks olunur; əlaqəli nitq növləri ilə sıx əlaqədədir; hərbi nitq və digər nitq növlərinin nitq elementlərini özündə əks etdirir [26, s.34].

**Nəticə.** Yazılanlardan belə qənaətə gəlmək olar ki, diskurs anlayışı bir çox elmlərlə əlaqəli olduğundan geniş tipoloji təsnifata malikdir. Diskursların müxtəlif əsaslara görə təsnifatı zamanı hərbi mətnlər mətnin növləri arasında xüsusi diqqət tələb edir. Belə mətnlər, adətən, hərbi diskurs mühitində istifadə olunur və hərbi mətnlərin istifadəsi hərbi janrları da formalaşdırır. Hərbi mətnlər mətnin xüsusi növü olmaqla yanaşı, nisbətən sərt janr konvensiyalarına sahib olur və ancaq xüsusi bir auditoriya, yaxud peşəkar diskurs cəmiyyəti üçün münasib hesab edilir. Hərbi diskursda istifadə olunacaq mətnlərin xüsusiyyətləri özündə: müəlliflik – mətnin və ya fikrin kimə məxsus olması; ünvanlama – mətnin və ya fikrin kimə ünvanlanması; əlverişlilik – mətnin və ya fikrin hər kəs və ya müəyyən bir insanlar üçün əlçatan olması; məlumatlılıq – mətnə və ya fikrə yeni məlumat əlavə edilməsi və ya artıq hər kəsə məlum olanın təsdiq edilməsi; qiymətləndirmə – mətndə və ya bildirilmiş faktlara dair bəyanatda hər hansı qiymətin verilib verilməməsi; institusionallıq – mətn və ya bəyanatda şəxsi və status komponentlərinin uyğunlaşdırılması; məlumatın tamlığı – ünvana tam və ya qısa şəkildə çatdırılmasını ehtiva edir.

Hərbi sənədlər, mətnlər və hərbi təhsil müəyyən hərbi diskursun yaranmasına səbəb olur. Hərbi mətnlər müəyyən edilmiş əvvəlcədən nəzərdə tutulmuş ünsiyyətə xidmət edir.

## İstifadə edilmiş ədəbiyyat


1. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2010, 96 s.
2. Анисимова Е.Е. Лингвистика текста и межкультурная коммуникация (на материале креолизованных текстов). Москва, Академия, 2003, 128 с.
3. Валгина Н.С. Теория текста. Москва, Логос, 2003, 173 с.
4. Ви Л. От национального государства к глобальному городу: «понижение» как стратегический дискурс. Политическая лингвистика, 2007, Вып. 1(21), с.32-39.
5. Григорьева В.С. Проблемы теории и интерпретации текста. Тамбов: ТГПИ, 1987, 120 с.
6. Гурочкина А.Г. Понятие дискурса в современном языкознании. Номинация и дискурс, Рязань: РГПУ, 1999.
7. Карасик В.И. Языковые ключи. Москва, Гнозис, 2009, 406 с.
8. Карасик В.И. Языковой круг: личность, концепты, дискурс. Волгоград, Перемена, 2002, 447 с.
9. Карасик В.И. О типах дискурса // Языковая личность: институциональный и персональный дискурс: сб. науч. тр. Волгоград: Перемена, 2000.
10. Касавин И.Т. Миграция. Креативность. Текст. Проблемы неклассической теории познания. СПб.: РХТИ, 1998, 408 с.
11. Кибрик А.А. Анализ дискурса в когнитивной перспективе (дис. д-ра филол. наук). Москва, 2003, 90 с.
12. Колосов С.А. Манипулятивные стратегии дискурса ненависти. Критика и семиотика. Вып.7, Новосибирск, 2004.
13. Костомаров В.Г. Наш язык в действии: Очерки современной русской стилистики. Москва, Гардерики, 2005, 287 с.
14. Крысин Л.П. Современный русский интеллигент: попытка речевого портрета. Русский язык в научном освещении, 2001, №1.
15. Макаров М.Л. Основы теории дискурса. Москва, Гнозис, 2003.
16. Матвеева Т.В. Функциональные стили в аспекте текстовых категорий: Синхронно-сопоставительный очерк. Свердловск, Уральский Ун-т, 1990.

17. Михалёва О.Л. Дискурс объекта vs дискурс субъекта: системообразующие признаки. Системное и асистемное в языке и речи, Иркутск: Иркутский Гос. Ун-т, 2007.

18. Ревзина О.Г. Дискурс и дискурсивные формации. Критика семиотики. Вып. 8. Новосибирск, 2005.

19. Соссюр Ф.де. Курс общей лингвистики. пер. с фр.; под. ред. и с при-меч. Р.И. Шор. 4-е изд. Москва, ЛИБРОКОМ, 2009, 256 с.

20. Степанов Ю.С. Альтернативный мир, Дискурс, Факт и принцип Причинности. Язык и наука конца XX века: сб. статей. Москва, РГГУ, 1995.

21. Тюрина С.Ю. Дискурс как объект лингвистического исследования. URL: http://vfnglu.wladimir.ru/Rus/NetMag/v3_v3ar-11.htm.

22. Уланов А.В. Русский военный дискурс XIX – начала XX века: структура, специфика, эволюция (дис. д-ра филолог. наук). Омск, 2014.

23. Филиппов К.А. Лингвистика текста. СПб.: СПб Ун-т, 2003, 336, с.185-189.

24. Фэрклоу Н. Диалектика дискурса. Современный дискурс-анализ. Методология: концептуальные обоснования, 2009, Вып. 1, Т. 1.URL: http://discourseanalysis.org/ada1_1.pdf

25. Фуко М. Воля к истине: по ту сторону знания, власти и сексуальности. Москва, Касталь, 1996, 448 с.

26. Юсупова Т.С. Функционально-стилистические и прагматические характеристики англоязычного военного дискурса (дис. ... к-та филол. Наук). Самара, 2010.

**L.Nasibova**

## Typological classification of military discourses

**Abstract**

Military discourse includes a set of oral and written texts aimed at serving the field of military communication, a thesaurus of precedent statements and texts, a set of speech acts and genres specific to this type of communication. Among the texts in a foreign language ts for a military specialist in the process of professional subject and cognitive activity, the most productive and potentially professionally important information are military-technical, military-informational and military-scientific texts. Military discourses have similar and different characteristics from other discourses in terms of typological classification. According to the modern theory, the classification of discourses can be classified according to different bases. Discourse classifications of many researchers were included in the article. As a complex linguistic phenomenon, military discourse has sufficient independence and is interesting in terms of its structural and syntactic features. The obtained classifications were linked with military discourses and the results were brought to the center of attention.

**Л.Насибова**

## Типологическая классификация военных дискурсов

**Аннотация**

Военный дискурс включает в себя совокупность устных и письменных текстов, направленных на обслуживание сферы военного общения, тезаурус прецедентных высказываний и текстов, совокупность речевых актов и жанров, специфичных для данного вида общения. Среди текстов на иностранном языке для военного специалиста в процессе профессиональной предметной и познавательной деятельности наиболее продуктивной и потенциально профессионально важной информацией являются военно-технические, военно-информационные и военно-научные тексты. Военные дискурсы имеют схожие и отличительные особенности от других дискурсов с точки зрения типологической классификации. Согласно современной теории, классификацию дискурсов можно классифицировать по разным основаниям. В статью включены дискурсивные классификации многих исследователей. Как сложное языковое явление военный дискурс обладает достаточной самостоятельностью и интересен по своим структурным и синтаксическим особенностям. Полученные классификации дискурсов были связаны с военными дискурсами, а результаты были поставлены в центр внимания.

# TARİXİN TƏDRİSİNDƏ MOTİVASİYA MÜHİTİNİN YARADILMASI



**Günel Bababəyli-Rizayeva,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının müəllimi*
*e-mail: nzbababeyli@mail.ru*

**UOT:** 37; 94 (479.24)

**Xülasə**. *Elm və təhsil hər bir xalqın və dövlətin inkişafını, intellektual potensialının formalaşmasını şərtləndirən ən başlıca amillərdən biridir. Bu gün təhsilin keyfiyyətindən danışarkən tədris etdiyimiz fənnin maraq doğurmağından əlavə, onun cəmiyyətdə təhsil sahəsində yaranmış problemlərin praktiki həllinə yönəlməsini də əsas tuturuq. Təhsilin keyfiyyəti yeni sosial-iqtisadi şəraitə və cəmiyyətin tələblərinə uyğun olaraq məzmunun bütövlüyü baxımından subyektin bir fərd kimi özünü müəyyən etməsinə, tədris texnologiyalarına, metodlarına və nəticələrin qiymətləndirilməsinə nəzarətə yönəldilmişdir. Məqalədə qeyd olunan məsələlər nəzərdən keçirilərək onların təhsil prosesinə müasir tələblərə uyğun müasir yanaşmanın və tədris prosesində motivasiyanın lazımi səviyyədə və uyğun formada yaradılmasının zəruriliyi təhlil edilmişdir.*

***Açar sözlər:*** *Azərbaycan tarixi, təhsilin inkişafı, motivasiya, keyfiyyət, müasir təlim, şagird, yeni texnologiyalar, təlim nəticələri.*
***Key words:*** *history of Azerbaijan, development of education, motivation, quality, modern training, student, new technologies, training results.*
***Ключевые слова:*** *история Азербайджана, развитие образования, мотивация, качество, современное обучение, студент, новые технологии, результаты обучения.*

Azərbaycanda aparıcı sahələrdən biri olan təhsil sisteminin inkişaf etdirilməsi, onun dünya standartlarının tələblərinə uyğun inkişaf etdirilərək onların səviyyəsinə çatdırılması qarşıda duran əsas vəzifələrdəndir. Aparılan araşdırmalar göstərir ki, respublikamızda istər təhsilverənin, istərsə də məktəbin fəaliyyətinin inkişaf etdirilməsi istiqamətində görülən işlərə əsasən cəmiyyətin tələblərinə uyğun şəxsiyyətin formalaşdırılması, inkişafı, nailiyyətlərin qiymətləndirilməsi, bununla yanaşı, təhsilin idarə olunması sahəsində qabaqcıl təcrübə əldə edilərək öz bəhrəsini verməkdədir.

Hazırda ölkəmizdə aparılan islahatlar, təhsil sahəsində görülən tədbirlər bilavasitə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilmişdir. Təhsilin keyfiyyəti deyərkən diqqətin hər hansı bir mövzunun maraqlı olmasına deyil, cəmiyyətdə yaranan və təhsil sahəsində olan problemlərin praktik həllinə yönəldilməsi nəzərdə tutulur. Təhsilin keyfiyyəti yeni sosial-iqtisadi şəraitdə və cəmiyyətin tələblərinə uyğun olaraq, məzmunun bütövlüyü baxımından subyektin şəxsiyyət kimi özünütəyininə, tədris texnologiyalarına nəzarət, metodlarına və nəticələrin qiymətləndirilməsinə yönəldilir.

Təhsilin keyfiyyəti təlim nəticələrinə uyğun məqsədlərinin müəyyənləşdirilməsinə, eləcə də təhsil prosesinin iştirakçılarının tədris prosesinin

təminatından gözləntilərinə əsaslanır. Təkcə bununla kifayətlənməyərək formalaşmaqda olan şəxsiyyətin bilik səviyyəsinin, bacarıqlarının, kompentensiyalarının, əqli, fiziki və mənəvi inkişaf səviyyəsinin təyin olunması, həmçinin bu sistem modellərin və prosedurların tədrisini alanların, yəni öyrənənlərin ictimai inkişafının qarantıdır.

Təhsil prosesinin effektiv və keyfiyyətli idarəetmə sistemi ən azı **üç vəzifəni** ehtiva etməlidir:

*– keyfiyyət standartlarının formalaşdırılması (standartlaşdırma);*

*– nail olunmuş təlim standartı səviyyəsinin müqayisəsi və bunun əsasında keyfiyyətin qiymətləndirilməsi;*

*– aşkarlanmış kənarlaşmaların minimuma endirilməsi və nəzarət tədbirlərinin inkişaf etdirilməsi.*

Bunlar təhsil sistemi də daxil olmaqla istənilən monitorinq və keyfiyyətli nəzarət mərhələlərində klassik addımlardır. Təhsildə keyfiyyətə zəmanət vermənin konseptual aspektləri lap əvvəldən öyrənmə mühitinin yaradılması ilə əlaqələndirilir:

*– əsas məqsəd kimi təhsildə keyfiyyət siyasətinin inkişafı;*

*– təhsil məhsullarının keyfiyyət standartları, qaydaları və aydın şəkildə hazırlanmış meyarları;*

*– müəllim və şagirdlərin keyfiyyət səviyyəsi, təhsil proqramlarının didaktik materiallarının keyfiyyəti, təhsil müəssisələrinin sosial və informativ infrastrukturu;*

*– təhsil prosesində spesifik təşkilati texnologiyalar daxil olmaqla təhsil prosesi subyektlərinə effektiv təsir, təhsilin keyfiyyət qiymətləndirilməsinin metodları;*

*– təhsil keyfiyyətinə obyektiv nəzarət üçün müasir alət və texnologiyaların müəyyən olunması;*

*– təhsilin informasiyalaşdırılması (elektron dərsliklər və kitabxanalar, siniflərdə telekommunikasiya imkanları, müstəqil akademik iş) və s.*

Təlim nəticələrinin göstəricilərinə cavab verən, şagirdlərin inkişafına səbəb olan mühüm vasitələrdən biri də **motivasiyadır.** Psixoloji cəhətdən təhlil edilərsə, motivasiyanın əsasən **iki** növü vardır: ***daxili motivasiya*** və ***xarici motivasiya.*** Motivasiya şagirdlərin fəallaşmasına şərait yaradan nəzərdə tutduğumuz hədəflə əlaqəli olub, bu hədəflərdən irəli gələrək şagirdləri motivasiyaya cəlb etməklə onların fərziyyələrinə imkan verən bir mərhələdir. “Motivasiya” sözünün kökü latınca hərəkətləndirmə, hərəkətə keçirmə anlamını verən “movere” sözündən götürülmüşdür. Motivasiya bəlli bir davranışı başladan, davamını təmin edən və məqsədə çatdıqdan sonra davranışı durduran bir müddətdir.

Tarix fənninin tədrisində müasir tələblərə uyğun fəal dərsin birinci, giriş hissəsi hesab edilən problemli situasiyanın yaradılması mərhələsinin həyata keçirilməsi, öyrəniləcək dərsin müzakirə edilərək müxtəlif mənbələrə əsasən öyrənilib üzə çıxarılması müasir dövrdə qarşıda duran əsas məsələlərdən biridir. Aparılan tədqiqat mövzusu üzrə araşdırmanın əsas mənbələrindən biri tarix üzrə kurikulum sənədi təhlil edilmiş, motivasiyanın yaradılması imkanları və həyata keçirilməsi üçün təqdim edilmiş tövsiyələr sistemli və ardıcıl şəkildə müəyyənləşdirilmişdir. Azərbaycan tarixi fənn kurikulumu araşdırılarkən məlum olmuşdur ki, konseptual sənəd olan bu sənədin strategiya bölməsində planlaşma ilə bağlı verilən hissədə gündəlik dərsin planlaşması, fəal dərsin quruluşu ilə əlaqəli verilmiş hissədə motivasiya mərhələsi öz əksini tapmış, motivasiyanın nə kimi funksiya daşıması haqqında məlumat verilmiş, dərs nümunələrinin təqdim edilməsi ilə motivasiya mərhələsi göstərilmişdir. Kurikulum sənədinin bu hissəsində də müəllimlərə, eləcə də maraqlı tərəflərə lazımi tövsiyələr verilməklə yanaşı, nümunələr dərsin bütün mərhələləri ilə bərabər göstərilmişdir.

Azərbaycan tarixi fənn kurikulumu təhlil edilərkən bir çox nüanslar diqqət mərkəzində saxlanılmış, bu sənədin tarix fənninin tədrisi üçün nəzərdə tutduğu məsələlər araşdırılmışdır. Sənəddə qeyd edilir ki, “Azərbaycan tarixi fənn kurikulumu şagirdlərdə müxtəlif bacarıqları formalaşdırmaq, əməkdaşlığa əsasən, ünsiyyət yaratmaq kimi yüksək səviyyəli mənəvi keyfiyyətlərin, qoyulmuş problemə müxtəlif aspektdən yanaşmaq, öz fikrini əsaslandırmaq, hüquqlarını müdafiə etmək, digərlərinin hörmətini saxlamaq, ölkə, Vətən qarşısında vəzifə və borcun mahiyyətini anlamaqla daha məsuliyyətli olmağı formalaşdırır”.

Göstərilən məsələləri əsas tutaraq müasir tələblərə uyğun təlim prosesinə müasir şəkildə yanaşma və dərs prosesində motivasiyanın yaradılmasından lazımi səviyyədə, məqsədəuyğun şəkildə həyata keçirilməsinin zəruriyyətini müəyyən

etmək olar. Konseptual sənəd olan Milli Kurikulum sənədində də qeyd edilir ki, ənənəvi təlimdə dərs köhnə dərsin soruşulması ilə başlanardı. Əvvəlcədən müəyyən edilmiş mövzu ev tapşırığı şəklində şagirdlərə evdə öyrənilməyə tapşırılırdı. Əgər mövzuda hər hansı qayda, tərif və bu kimi materiallar var idisə, mütləq onları əzbərləmək, yadda saxlamaq, bir sözlə, hafizə əsasında dərsi danışmaq tələb olunurdu. Şagirdin bacarığı, yəni fəaliyyəti yalnız ondan ibarət idi ki, evdə dərslikdə olan və müəllim tərəfindən tapşırılan mövzunun öyrənilməsi, başqa sözlə, əzbərlənilməsi həyata keçirilməli idi. Sinfə gələn şagird dərsi təkrarlamaqla lövhəyə çıxıb dərslikdə verilmiş materialı ardıcıl, çaşmadan danışardısa, o, həmin günün “5” alan şagirdinə çevrilirdi. Müxtəlif qiymətləndirmə aparmaqla dərsin bu mərhələsini bitirmiş müəllim, növbəti dəqiqələri yeni dərsin elanına həsr edir, bəzi məlumatları verməklə məşğul olurdu. Dərsin sonunda şagirdlər yenə təkrar “evdə öyrənin” ifadəsini eşitməklə dərsi başa vururdular. Hər gün eyni proseslə üzləşən şagird əzbərçilik meyillərini gücləndirməklə irəliyə çıxmış olurdu. Verilmiş dərsi onun həyatla bağlılığından asılı olmayaraq mənimsəməyə başlayırdı. Nəticədə təlim prosesində şagirdlər onlara lazım olub-olmayan məsələləri əlavə informasiya şəklində biliklər kimi əldə edirdilər. Ona görə də şagirdlər cəmiyyətdə üzləşdiyi proseslərdən bəzən baş çıxartmır, həyata hazır olmurdular. Tarix fənn kurikulumu isə şagirdin fikirlərini, özünü obyekt kimi götürmür, onları subyekt olaraq qəbul edir.

Adətən *“şagirdlərin motivasiya olunması”* və ya *“dərsin motivasiya mərhələsi”* ifadəsindən müasir metodikada geniş istifadə edilir. Təbii ki, şagirdlərin tədris prosesində iştirakı onların istəyi ilə bağlıdır. Bu istəyi yaradan isə müəllimdir. Dərsin maraqsız olması, sönük keçən dərs prosesi şagirdlərin tədqiqatın gedişində iştirak etməməsinə səbəb olması ilə yanaşı, onların dərsə biganəliyinə şərait yaradan səbəb yollarından biri olur. Şagirdlərin dərsə cəlb edilməsi, verilən tapşırıqların icrası üçün motivasiyadan istifadə edilə bilər, baxmayaraq ki, onların motivlərinin mənbələri fərqlənə bilər. Əslində şagird bu və ya digər formada dərs prosesində fəaliyyət göstərir. Lakin dərsin ona verdiyi psixoloji zövq, eləcə də pedaqoji təlim-tərbiyə eyni deyildir. Maraqlı dərs onda pedaqoji və psixoloji olaraq fərqli düşüncə formalaşdırır ki, bu da təlim-tərbiyə mühitinə şərait yaradır.

Öyrənmək prosesində “motivasiya” termini bir qədər fərqli məna daşıyır. Burada məzmunluluq, dəyər və şagirdə təlimdən irəli gələn vəzifələrin üstünlükləri, dərsin digər mərhələlərinə sövq olunması və s. nəzərdə tutulur. Karol Ames tərəfindən qeyd edilir ki, “motivasiya – təhsil prosesində keyfiyyətli və uzunmüddətli tədrisə cəlbolunma prosesi ilə səciyyələnir”.

Motivasiya davranışı birbaşa istiqamətləndirən potensial bir güc olaraq düşünülə bilər. Tanıma görə, şagirdlərin motivasiyaları idrakda, duyğuda və davranışda ortaya çıxa bilər. Belə ki, aparılan işlərdə motivasiya “duyğuya nəzarət edən, sistemi yaradan, davranışı istiqamətləndirmək üçün idrak, duyğu və davranış olaraq təzahür edə bilən bir potensial” olaraq tanınmışdır. Motivasiya psixoloji təsir gücünə malik olduğu üçün insan davranışlarına təsir edə bilən prosesdir. Müəyyən bir hədəfə, müəyyən bir fəallıq göstərməyə və ya hədəfə çatmaq üçün səy və enerji yüksəltməyə doğru davranışı yönəldən səbəbləri ifadə edir. Bu amillər fərdin motivasiya növlərinin tərkibinin əhatə olunmasına və ehtiyaclarının sıxlığına, eləcə də psixoloji prosesə təsir göstərir.

Motivasiya mərhələsinin şagirdlərin inkişafına təsir edən hansı amilləri vardır? Jere Brophyanın sözlərinə görə, “motivasiya öyrənmək üçün ümumi təcrübə hesabına alınmış, amma modelləşdirilmə vasitəsi ilə şagirdlər tərəfindən birbaşa başa düşülməsə də, təfəkkürü inkişaf etdirən təlimat və ya ictimailəşdirmədir”. Müxtəlif resurslar vasitəsilə onları əslində mövzu ilə tanış etmək, onları maraqlandıran suallarla üz-üzə qoymaq, şagirdlərdə dərsə maraq oyatmaq motivasiya mərhələsi üçün əsas amillərdəndir. Şagird psixoloji olaraq qarşısına qoyulan problemlə üz-üzə qalır, onun həlli istiqaməti üçün düşünür, fərziyyələrini irəli sürür. Bu zaman beyin daha da çevik düşünmə mexanizminə keçir, şagirdin bilik və bacarıqlarının depolanmış hissəsində oyanış baş verir. Psixoloji olaraq çevik və daha məntiqli düşüncə ilə motivasiyadan irəli gələn məsələlərə reaksiya verən şagird dərsin tədqiqat mərhələsinə köklənir. Pedaqoji cəhətdən motivasiya mərhələsi təlimverici, tərbiyəedici funksiyanı öz üzərinə

götürmüş olur.

Hər bir şagird şəxsi ləyaqət, səriştəlilik, muxtariyyət və fərdi səmərəlilik hissi bəsləyən bir şəxsiyyət kimi formalaşır. Təlim prosesində onlar daha çox öyrənməyə xas olan riskləri qəbul etməyə meyilli olurlar. Müasir dərs, müasir təlim mühiti şagirdlərdə şəxsi keyfiyyətləri formalaşdırmaqla onu inkişafa sövq edir. Dərsin hər bir mərhələsi kimi motivasiya mərhələsi də şagirdlərin inkişafına təkan verərək onların nəticəyə gəlib çatmasına şərait yaradır.

Müasir dərsi motivasiyasız təsəvvür etmək olmur. Şagirdlər əldə etdikləri bilikləri bacarıqlar şəklində ortaya çıxartmaqla yanaşı, öyrəndiklərini üzə çıxartmaq, təqdim etmək üçün araşdırmağa meyilli olurlar. Digər fənlərdə olduğu kimi, Azərbaycan tarixi və ümumi tarix fənlərinin tədrisində də motivasiyanın tətbiqi ənənəvi təlim mühitində də var idi. Bu mərhələ məcburi olmasa da, onun tətbiqi müəllimin səriştəsinə əsasən həyata keçir. İşini sevən pedaqoq motivasiya mərhələsini təqdim etməyə çalışır, təhsilalanlara nitqinin imkanlarından istifadə etməklə müxtəlif faktları söyləməyə cəhd edir. Bu cür motivasiya özündə bilikyönümlü fəaliyyəti əks etdirir. Müəllim əvvəlcədən evdə öyrənilmiş mövzunu təhsilalanlardan alarkən və ya özü şagirdlərə keçdiyi mövzunun əsas hissələrini danışarkən, digər fənlərin biliklərindən istifadə etməklə daha maraqlı, canlı dərs keçməyə səy göstərir. Məsələn, tarixdən hər hansı coğrafi məkanı söyləyərkən coğrafi biliklərdən istifadə etməklə həmin ərazinin yerləşdiyi hissəni xəritədə göstərməklə yanaşı, onun iqlimi, təbii şəraiti, mühiti, hansı çayın ətrafında və ya dağların əhatəsində olmasını da qeyd edir. Bəzən də hər hansı bir hadisəni, məsələn, "Atabəylər dövlətinin yaranması" haqqındakı mövzunu tədris edərkən müəllim Məhəmməd Səid Ordubadinin "Qılınc və Qələm" əsərindən sitatlar gətirməklə orada baş verən hadisələri daha obrazlı şəkildə təqdim etməyə çalışır. Bu zaman sualı qoyan və cavab verən şəxs müəllimin özü olduğu üçün onun yaratmaq istədiyi inteqrasiya olunmuş motivasiya uğurlu motivasiya olmur. Tətbiq edilən yeni fənn kurikulumları şagirdlərin bu istiqamətdə fəallaşmasına şərait yaratmaqla yanaşı, dərsin əvvəlindən sonunadək aktiv olmasına şərait yaradır.

Fəal dərsin mərhələlərindən birincisi olan motivasiyanın reallaşdırılması şagirdlərdə idrak fəallığı yaratmaq məqsədi güdür. Bu mərhələ şagirdləri araşdırılacaq problemə sövq etmək, mexanizmi işə salmaq məqsədi daşıyır. Araşdırılacaq problemdən asılı olaraq təlim prosesində motivasiyanın yaradılması, eyni zamanda problemin qoyulması şagirdlərin inkişafı məqsədinə xidmət göstərir. Dərsin əvvəlindən şagirdlərin idrakında aktivliyi yüksəltmək və təfəkkürün növlərini inkişaf etdirmək üçün problemli situasiyanın yaradılması zəruriyyətini formalaşdırır. Bu da "motivasiyanın qoyulması və üstəgəl problemli situasiyanın qoyulması bərabərdir şagirdlərin idrakının aktivləşməsi" fikrini irəli sürməklə yekunlaşır.

Qeyd etdiyimiz kimi, fəal dərsin tədrisi zamanı motivasiya mərhələsi dərsin vacib hissəsi hesab olunur və onun həyata keçirilməsi müəllimin səriştəsindən irəli gələrək müxtəlif yollarla aparılır. Təfəkkürün inkişafına şərait yaradan, mexanizmi işə salan və şagirdlərin idrak fəallığına təkan verən bu mərhələ onların yaş xüsusiyyətinin nəzərə alınması ilə həyata keçirilərsə, daha səmərəli olar. Bu mərhələnin reallaşdırılması zamanı şagirdlər sərbəst şəkildə düşünərək, öz yanaşmasını *"mənim fikrimcə"*, *"mənə belə gəlir ki,"* sözlərindən istifadə etməklə fərziyyələrini irəli sürürlər.

Motivasiya mərhələsini həyata keçirtmək üçün problemli situasiya yaratmaq, suallardan istifadə etməklə şagirdlərin təfəkkürünü fəaliyyətə cəlb etmək mümkündür. Yaxud da şəkillər, xəritə və illüstrasiyalar, filmlərdən epizodlar, açar sözlərdən istifadə etməklə yaradılan motivasiyalar şagirdlərin fərziyyələrinin alınması məqsədi ilə həyata keçirilməklə yanaşı, araşdırılacaq problemə maraqların oyanması üçün zəmin yaradır. Tədqiqata cəlb edilən şagird uğurlu motivasiya mərhələsindən sonra psixoloji olaraq tədqiqata hazırlanır, araşdırmaq üçün maraqlı tərəfə çevrilir. Motivasiya dərs zamanı fəaliyyəti işə salan mühərrik rolundadır. Müasir dərsin gedişi zamanı şagirdləri aktivləşdirən, onların maraqlarını oyadan, təfəkkürünü inkişaf etdirən əsas mərhələdir. Motivasiyanın uğurlu olması müəllimin səriştəsindən asılıdır. Səriştəli müəllim motivasiyanı məqsədəmüvafiq qurmalı, şagirdlərin maraq və diqqətini araşdırılacaq problemə sövq etdirməlidir. Motivasiyanın uğurlu alınması

dərsin sonrakı mərhələlərinə təsir edir və ona görə də motivasiya daha uğurlu şəkildə müəllim tərəfindən göstərilməlidir. Yeni bilikləri əldə edib bacarıqlara çevirmək üçün motivasiyanın reallaşdırılması dərsin zəruri mərhələlərindən birini təşkil edir. Motivasiyanın yaradılmasının bir çox yolları vardır. Bu yollardan istifadə edərkən yönəldici suallar yardımçı qismində iştirak edir, şagirdlərin diqqətini problem situasiyaya cəlb etmək və fərziyyələrini irəli sürmək üçün imkanlar açır. Diqqəti mövzuya cəlb edən bu mərhələ əsas məqsəddən yayınmadan diqqəti bu istiqamətə yönləndirir. Bu mərhələdə həddindən artıq yönləndirici sualdan istifadə etmək lazım deyil, çünki zaman itkisi sərf etmədən bu mərhələni yekunlaşdırmaq, şagirdləri tədqiqata istiqamətləndirmək lazımdır.

Dərsin giriş mərhələsi olan motivasiya **2** yolla – *problemlilik və məqsəd əsasında* qurulur. Motivasiyanın hazırlanması zamanı bu iki məqam nəzərdə saxlanılmalıdır.

Motivasiyanın əsas prinsiplərindən biri olan ***problemlilik*** dərsin giriş hissəsində şagirdlərin qarşısına problem qoymaqla həyata keçirilir. Bu zaman ziddiyyəti həll etmək üçün fikir və ya sual qoymaq lazımdır. Problemin qoyuluşu zamanı müəllim öncə standartları seçməli, mövzu və standarta uyğun məqsədləri müəyyənləşdirməlidir. Məqsədə müvafiq olaraq motivasiya qoyulmalıdır ki, şagirdləri tədqiqata cəlb edərkən onların bu işə marağı olsun. ***Məqsədyönlülük,*** məhz dərsin məqsədindən irəli gələrək mexanizmi işə salmaq üçün istiqamətlərdən biridir. Dərsi keçən müəllim bilməlidir ki, onun yaratdığı motivasiya məqsədə əsasən qurulmalıdır. Motivasiyanın baş tutmasından sonra verilən ***tədqiqat sualı*** məqsədəuyğun tədqiqat sualı olur, təbii ki, əgər motivasiya məqsəddən uzaq olarsa, şagird motivasiya və tədqiqat sualı arasındakı əlaqəni itirmiş olacaq. Ona görə də motivasiya zamanı istifadə edilən yönləndirici suallar təqdiqat sualına gedən yolda şagirdlərə istiqamət verməlidir. Müəllim düşünməlidir ki, təlim zamanı şagirdləri dərsə necə cəlb etməli, onu hansı yollarla dərslə maraqlandırmalı, onlarda idrak fəallığını hansı yollarla yaratmalıdır.

Araşdırma və tədqiqatlardan, eləcə də bir çox mütəxəssislərin fikirlərindən belə məlum olur ki, motivasiya yaradarkən əsas məqsəd nəyi isə əzbərlətmək, şeir kimi öyrətmək deyil, şagirdlərin dərketməsini, özlərinin qənaətə gəlməsini, onlara təqdim olunan materiallardan, suallardan və açar sözlərdən nəticə çıxarıb öz qənaətlərini əldə etməsi üçün təkan verməkdir. Müəllim motivasiyanı həyata keçirərkən dolayı yollara əl atmamalı, fikirləri çox dolaşığa salmağa şərait yaratmamalı, əksinə diqqəti məqsədə doğru istiqamətləndirməlidir. Şagirdlər bu zaman öz fikirlərini, gəldikləri qənaəti söyləməyə çətinlik çəkməz, özünütəsdiq üçün arqumentlər gətirməyə çalışarlar. Keçirilən dərsin effektiv və yaddaqalan olmasına şərait yaradılması üçün müəllimlər dialektik və psixoloji, eləcə də pedaqoji prosesləri nəzərə almalı, şagirdlərin digər fənlərdən əldə etdiyi bilik və bacarıqları əlaqələndirici şəkildə üzə çıxartmalı, şagirdlərin qarşısında aydın fikri məqsədlər qoymaqla, onların qavrayışlarını istiqamətləndirməlidirlər.

Təlim prosesində müəllim öyrədən, tərbiyə edən və inkişaf etdirən bir şəxs qismində iştirak edir, şəxsiyyətin formalaşması, onun cəmiyyətə hazırlanmasında əsaslı rol oynayır. Müəllim peşəsi digər peşələrdən özünəməxsusluğu ilə seçilir. Bu peşənin nümayəndələri gələcəkdə özünə müxtəlif peşələr seçəcək nəslin formalaşmasına təsir edir, onu cəmiyyətə şəxsiyyət kimi hazırlayır. Şəxsiyyətin formalaşmasına, onun cəmiyyətdə mövqe tutmasına imkan açanlardan biri də **tarix müəllimləridir**. Tarix müəllimi fənnin tədrisi metodikasında tarix materialı üzərində müstəqil işləmək bacarığını və vərdişlərini şagirdlərdə formalaşdırmaqla onları cəmiyyətə hazırlayır. Tarixin tədrisi zamanı şagirdlərin inkişafı, onların biliklərinin bacarıq şəklində üzə çıxarılıb nailiyyət şəklində önə çəkilməsi üçün müasir təlimə və onun həyata keçirilməsinə münasibət özünəməxsus şəkildə həyat keçirilir ki, bu zaman milli dəyərlər unudulmur, bəşəri dəyərlər isə özünəməxsus şəkildə öyrədilir və şagirdlərin bir şəxsiyyət kimi yetişməsinə təkan vermiş olur.

Tarixin bir fənn kimi tədrisi şəxsiyyətin formalaşmasına şərait yaratmalı, onu inkişaf etdirməlidir. Motivasiyanın həyata keçirilməsi, fərziyyələrin irəli sürülməsi didaktikada önəmli yer daşıyır. Hər bir fənnin, eləcə də tarix fənninin də şagirdlərə tədrisi zamanı dərsi maraqlı etməyin müxtəlif yolları vardır. Didaktik olaraq müxtəlif üsullardan, metodlardan istifadə etməklə dərs

mühitini canlandırmaq, şagirdləri onun iştirakçısına çevirmək olar. Tarix dərsində xəritənin köməyi ilə dünya ölkələrinə səyahət təşkil etmək, onun vasitəsi ilə dövlətlərin yerlərini, döyüş istiqamətlərini və s. şagirdlərə çatdırmaq olar. Şəkillər hər zaman olduğu kimi, tarix dərsində də əyani vasitə kimi öz vacibliyi ilə dərs prosesində əsas istifadə vasitəsi olan motivasiyanın təşkilində rol oynaya bilər. Bədii və sənədli filmlərdən təqdim edilmiş fraqmentlər vasitəsilə vizual olaraq "şagirdlərin dərsə maraq dairəsini daha da gücləndirmək və sonda nəyə çatmaq lazım olmalarına istiqamət vermələri üçün bir imkandır", desək, yanılmarıq. Müasir dövrdə slaydların təqdim edilməsi və ya musiqidən istifadə etməklə problemli situasiyaya diqqəti cəlb etmək də didaktik vasitələrdən biri kimi dəyərləndirilir. Şagirdlərə nəyi necə öyrətməyin və hansı istiqamətlərdən istifadə etməklə buna çatmağın yollarını araşdırarkən tapmaca və atalar sözlərinin də bu işdə yardımçı vasitə olduğunu müəyyən etmiş olarıq.

Ölkəmiz sürətlə, hərtərəfli inkişaf edərək dünya sivilizasiyasına inteqrasiya etməkdədir. Müxtəlif sahələrdə aparılan islahatlar özünəməxsus inkişaf xətti ilə diqqəti çəkir və cəmiyyətin inkişafına təkan verməkdədir. Baş vermiş yeniliklər, aparılan islahatlar təhsil sahəsində də özünü göstərdi. Kurikulumların tətbiqi ilə əlaqədar olaraq təhsildə və təlimdə baş vermiş yeniliklər çərçivəsində ənənəvi təlim metodlarının yerini müasir təlim metodları əvəzləməyə başladı. Fəal-interaktiv təlim mühitinin formalaşdırılması, müasir dərsin tədrisi yolları, planlaşdırılması və dərsin mərhələlərinin ənənəvi təlimdən fərqlənməsi təlim prosesinə yeni psixoloji yanaşma gətirdi. Tədris olunan bir çox fənlər kimi, Azərbaycan tarixinin tədrisində də fənn kurikulumunun tələblərinə uyğun olaraq dərslərin tədrisi mərhələli şəkildə tədqiqata, şagirdlərin bilik və bacarıqlarının isə təfəkkürə əsasən formalaşdırılmasına şərait yaratdı.

Azərbaycan tarixi fənn kurikulumunda göstərilir ki, "təhsil müəssisələrində Azərbaycan tarixi fənninin tədrisinin əsas məqsədi şagirdlərdə vətənpərvərlik hissini aşılamaqla yanaşı, başqa xalqlara və millətlərə tolerant yanaşmaqla hörmət göstərmək, milli-mənəvi dəyərlərə əsaslanan əqidə, dövlətçilik ənənələrinə sadiqlik hissi aşılamaq üçün onlarda müxtəlif dövrlərdə baş vermiş hadisələri müstəqil təhlil etmək, faktlar arasında əlaqə qurmaqla ümumiləşdirmə aparmaq, əldə edilən biliklər əsasında dövrün proseslərini qiymətləndirmək, tarixi mənbə, müxtəlif faktları və dəlilləri araşdıraraq təhlil etmək, başqalarına hörmətlə yanaşaraq sərbəst şəkildə nəticələr çıxarmaq, eləcə də, kollektiv şəkildə işləmək bacarıq və vərdişlərini formalaşdırmaqla kommunikativ və hüquqi mədəniyyət mənimsətməkdən ibarətdir.

**Nəticə.** Son olaraq qeyd etmək lazımdır ki, müəllimin şəxsiyyəti müəyyən bir akademik fənn üzrə motivasiyada mühüm rol oynayır. Müasir müəllim enerjili, məqsədyönlü və uşaqların fənnə marağını "alovlandıra" bilməlidir. Bundan əlavə, bu gün dinamik inkişaf edən cəmiyyətdə tarix dərslərində öyrənilən məlumatların həcmi ildən-ilə artır. Tarixin bir elm kimi inkişafı və yeni kəşflərə aparan yeni texnologiyalarla mənbə bazası genişlənir. Deyilənləri nəzərə alıb tədris zamanı motivasiyanın və mövzuya marağın inkişafını təmin etmək üçün şagirdlər aktiv idrak fəaliyyətinə cəlb edilməlidir. Dərs elə təşkil edilməlidir ki, şagird təlim prosesinin özü ilə maraqlansın, həm müəllim, həm də sinif yoldaşları ilə ünsiyyətdən həzz alsın. Sinifdə əməkdaşlıq, etimad və qarşılıqlı hörmət mühiti yaradılmalıdır ki, maraq və məmnunluq hissi təhsil prosesi zamanı şagirdin əsas hisslərinə çevrilməsin.

## İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. "Kurikulum" jurnalı, 2008, №1, s.6-14.

2. Ağayev S. Tarixin tədrisində interaktiv təlim metodunun tətbiqi təcrübəsindən. Bakı, 2009.

3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.

4. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli kurikulumu). "Azərbaycan məktəbi" jurnalı, 2007, №2.

5. Cəbrayılov İ. Azərbaycan tarixi fənni üzrə təhsil standartlarının hazırlanması məsələləri. Təhsilin aktual problemləri, Bakı, 2007.

6. Mərdanov M., Ağamalıyev R., Mehrabov A. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı, 2003.

7. Vagin A.A. Orta məktəblərdə tarixin tədrisi

metodikası. Bakı, 1973, 458 s.

8. Demirel M. Tarih öğretim yöntemleri. İstanbul, 2009.

9. Tahiroğlu M., Aktepe V. 4 ve 5 sinif sosyal bilgiler dersi motivasyon ölçeği formunun geçerlilik ve güvenilirlik çalışması. Ankara, 2015.

10. Величко В.В., Карпиевич Д.В., Карпиевич Е.Ф., Кирилюк Л.Г. Инновационные методы обучения в гражданском образовании. Минск, 2001.

11. На пути к пониманию прошлого: поиски, версии, идеи. Книга для учителя истории. Рига, 2000 г.

12. Смоленский Н.И. Историческое образование и историческая теория. Журнал «Новая и новейшая история», №5, 2000.

13. Levistik L.S., Barton K.C. Doinq history. New York, 2011.

14. Malouff M.J., Rooke S.E., Schutte N.S., Foster R.M., Bhullar N. Methods of Motivational Teaching. University of New England, Australia, 2008.

15. Glasser W. The quality school teacher. Chicago, 1993.

G.Bababeyli-Rizayeva

## Creating a motivational environment in teaching history

### Abstract

Science and education are the main factors determining the development of every nation and state, the formation of its intellectual potential. Today, when we talk about the quality of education, we do not mean that any subject should be interesting, but it should be aimed at practical solutions to problems that have arisen in society and in the field of education. The quality of education is focused on the self-determination of the subject as an individual in terms of the integrity of the content in accordance with new socio-economic conditions and the requirements of society, control of teaching technologies, methods and evaluation of results. Not only is determining the level of knowledge, skills, competencies, mental, physical and spiritual development of a developing personality also a guarantee of the social development of those who are being taught, i.e. students of this system, models and procedures. The issues mentioned in the article were reviewed and the need for a modern approach to their educational process in accordance with modern requirements and the need to create motivation in the educational process at the appropriate level and in an appropriate form was analyzed.

Г.Бабабейли Ризаева

## Создание мотивационной среды в преподавании истории

### Аннотация

Наука и образование являются основным фактором, определяющим развитие каждой нации и государства, формирование ее интеллектуального потенциала. Сегодня, когда мы говорим о качестве образования, имеется в виду не то, что какой-либо предмет должен быть интересным, а он должен быть направлен на практическое решение проблем, возникших в обществе и в сфере образования. Качество образования ориентировано на самоопределение субъекта как личности в условиях целостности содержания в соответствии с новыми социально-экономическими условиями и требованиями общества, контроль технологий обучения, методов и оценки результаты. Качество образования базируется на определении целей по образовательным результатам, а также ожиданий участников образовательного процесса от обеспечения образовательного процесса. Мало того, что определение уровня знаний, умений, компетенций, умственного, физического и духовного развития развивающейся личности является еще и гарантией социального развития тех, кого обучают, т.е. обучающихся данной системы, моделей и процедур. Были рассмотрены вопросы, затронутые в статье, и проанализирована необходимость современного подхода к их образовательному процессу в соответствии с современными требованиями, а также необходимость создания мотивации в образовательном процессе на должном уровне и в соответствующей форме.

# MƏKTƏBYAŞLI UŞAQLARIN VƏTƏNDAŞLIQ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI PROBLEMİNİN ELMİ, PEDAQOJİ, METODİKİ ƏDƏBİYYATDA QOYULUŞU

**UOT:** 372.8.502

**Xülasə**. *Məqalədə məktəbyaşlı uşaqların vətəndaşlıq mədəniyyətinin formalaşdırılması probleminin elmi, pedaqoji və metodiki ədəbiyyatda qoyuluşundan, həmçinin həmin ədəbiyyatlar üzrə mövzunun təhlilindən bəhs olunur. Vətəndaşlıq mədəniyyətinin təhsilalanlar arasında formalaşdırılması elmi, pedaqoji və metodiki ədəbiyyatda geniş tədqiq edilən bir məsələdir. Bu mövzuda yazılmış kitablar, tədqiqatlar və məqalələr, bu sahədə çalışan təcrübəli tərbiyəçilər tərəfindən təklif olunmuş fəaliyyət planları və fərqli metodiki yanaşmalar mövcuddur. Məhz bu kimi məsələlər məqalədə geniş şəkildə öz əksini tapmışdır.*

***Açar sözlər:*** *məktəbyaşlı uşaqlar, vətənpərvərlik, vətəndaşlıq, mədəniyyət, elmi-pedaqoji və metodiki ədəbiyyat.*
***Key words:*** *pupils of younger school age, patriotism, citizenship, culture, scientific-pedagogical and methodological literature.*
***Ключевые слова:*** *ученики младшего школьного возраста, патриотизма, гражданственности, культуры, научно-педагогической и методической литературы.*

Təhsilalanlarda vətəndaşlıq mədəniyyətinin formalaşdırılması onların həm öz çevrələrində, həm də dünyada olan bütün insanlarla birgə cəmiyyətə faydalı, hörmət və tolerantlıq daxilində yaşamağa nail olmağını təmin edir, eləcə də onlara vətəndaş olaraq hansı vəzifə və hüquqlara sahib olduğunu və cəmiyyətdəki rolunu aşılayır. Vətəndaşlıq mədəniyyətinin öyrənilməsi və tətbiqi mövcud baxımdan zəngin bir cəmiyyətin formalaşmasına kömək edir. Ümumiyyətlə, "vətənpərvərlik", "vətəndaşlıq" məfhumu və anlayışları haqqında bir çox tanınmış pedaqoqlar, dəyərli şəxsiyyətlər, alim və filosoflar müxtəlif fikirlər söyləmişlər. Elmi-pedaqoji ədəbiyyatlara nəzər saldıqda görürük ki, vətəndaşlıq tərbiyəsi problemi XX əsrin 70-ci illərindən əsas mövzuya çevrilmiş və həmin dövrdən etibarən öz həllini tapmağa başlamışdır. Qeyd edək ki, bu problem müəyyən istiqamətlər üzrə – psixoloji, pedaqoji, hüquqi, siyasi, fəlsəfi, sosioloji istiqamətlərdə əsas tədqiqat obyekti olaraq təyin edilmişdir. Göstərilən istiqamətlərin hər biri mütəxəssislərin tədqiqatlarında geniş şəkildə öz yerini almışdır. İlkin olaraq pedaqoji və fəlsəfi yöndə tədqiqat aparan mütəxəssislər "vətəndaş" anlayışının, "vətəndaşlıq" ifadəsinin daha çox mənəvi tərəfdən araşdırılmasına üstünlük vermişlər. Məhz bu səbəbdən onlar qeyd etmişlər ki, şəxsiyyətin əsas mənəviyyat göstəricisi vətəndaşlıqdır, eyni zamanda vətəndaşlıq şəxsin Vətən, dövlət, torpaq qarşısında öz borclarını düzgün şəkildə yerinə yetirməsi və cəmiyyətdə vəzifələrinin, ictimai tələblərinin, hüquqlarının ödənilməsi kimi nəzərdə saxlanılmalıdır. "Vətəndaşlıq" anlayışının tədqiq edildiyi pedaqoji, hüquqi, fəlsəfi çalarları bir-birini daha da dolğunlaşdırır, formalaşdırır. Vətəndaş hesab olunan hər bir şəxs öz hüquq və vəzifələrindən istifadə edərək, həmçinin vətəndaşlıq borcunu başa düşməklə öhdəsinə düşənləri yerinə yetirməlidir [6, s.320].

Vətəndaşlıq funksiyası, vətəndaşlıq borcu, bu borcun tərbiyə edilməsi, vətəndaşlıq mədəniyyətinin aşılanması haqqında daha antik dövrdən bu günədək gəlib çatan bir çox ümumfəlsəfi fikirlər və ideyalar vardır. Müxtəlif mənbələrə əsasən belə qeyd edilir ki, vətəndaşlıq tərbiyəsi fikri ilk dəfə qədim yunan alimi və filosofu Platonun əsərlərində əks olunmuşdur. Onun fikirlərinə görə, vətəndaşlıq tərbiyəsi insanların cəmiy-

yətdə ədalət və düzgünlük prinsiplərinə əsaslanan formalara uyğun olaraq təmin edilməlidir. Digər yunan filosofu Sofokl məşhur əsərlərindən olan "Antiqona" əsərində insanın cəmiyyətdə mövqeyinin yüksəlməsinə onun dövlətin qanunlarına tabe olmasının və vətəndaşlıq mədəniyyətinin düzgün formalaşmasının təsir etdiyini qeyd edir. Bununla yanaşı, Evripid "Finikiyalılar" adlı əsərində qeyd edir ki, insan üçün ən qiymətli dəyər – Vətəndir. Aristotel isə öz əsərlərində vətəndaşlıq ləyaqətinin dövlətlə və dövlətin quruluşu ilə şərtləndiyini göstərmişdir. Onun fikirlərinə görə, vətəndaşlıq mədəniyyəti insanların cəmiyyətdə birgə yaşamaq və ictimai yaşayışa təsir etmək üçün zəruri olan bir vəziyyətidir. Aristotel özünün "Politika" adlı əsərində vətəndaşlığın hüquq və ictimai məsuliyyətlə əlaqəli olduğunu vurğulamış və təhlil etmişdir [11, s.217].

İntibah dövründə yaşamış bir çox pedaqoqların tədqiqatlarında da "vətəndaşlıq" anlayışı ön planda olmuşdur. Qeyd etmək lazımdır ki, Avropa ədəbiyyatında vətəndaşlıq mədəniyyəti ilə bağlı bir çox  ideyalar irəli sürülmüş, eyni zamanda onların pedaqoji mahiyyəti geniş şərh edilmişdir. Xüsusən də intibaha təkan verən E.Rotterdamski, T.Qobbs, T.Komponelli kimi humanistlər Şərqdəki mənəvi dəyər və keyfiyyətlərin Avropada vətəndaş keyfiyyəti kimi götürülməsi ideyasını irəli sürüb əsaslandıraraq "vətəndaşlıq" anlayışını məzmun etbarilə daha da zənginləşdirmişlər. Görkəmli pedaqoqlar olan B.Verulemskinin, C.Lokkun, Y.A.Komenskinin, K.D.Uşinskinin və digərlərinin humanizm vətənpərvərlik ideyaları da dövrün elmi ədəbiyyatlarında geniş şəkildə öz əksini tapmışdır. Məhz bu ədəbiyyatlarda onların vətəndaşlıq, vətəndaşlıq tərbiyəsi, vətəndaşlıq mədəniyyətinə dair mövqeləri qeyd olunmuşdur.

Y.A.Komenski XVII əsrin əvvəllərində yaşamış böyük bir pedaqoq, müəllim və filosof idi. Onun fikirləri və tədris metodları ən çox "Didaktika Magna" ("Böyük Tədris") adlı əsərində yer almışdır. Y.A.Komenski vətəndaşlıq, vətəndaşlıq tərbiyəsi, vətəndaşlıq mədəniyyəti ilə bağlı bəzi fikirlər irəli sürmüşdür. O, insanların vətəndaş olaraq müstəqil düşüncələrini və fikirlərini ifadə etmələrinin əhəmiyyətini vurğulamış və həmin vətəndaşların demokratik proseslərdə, dövlət işlərinin idarə edilməsində və hüquqlarının qorunmasında rollarını şərh etmişdir. Komenski dövlətin və mədəniyyətin vətəndaşların təhsilini təşkil etməkdə böyük rola malik olduğunu vurğulayaraq, təhsil və vətəndaşlıq mədəniyyəti məsələləri ilə bağlı yeni ideyalar verməklə ömrünü təlimin inkişafına və cəmiyyətə faydalı vətəndaşlar hazırlamağa sərf edirdi. Onun fikirləri təlim-tərbiyə prosesində vətəndaşlıq mədəniyyətinin formalaşmasına kömək edən əhəmiyyətli mənbələrdən olmuşdur. İngilis filosofu Con Lokk da öz növbəsində vətəndaşlıq, hüquq və cəmiyyət ilə bağlı əhəmiyyətli ideyalar təqdim etmişdir. O qeyd edirdi ki, dövlət vətəndaşların hüquqlarını və mənafelərini qorumalı, onların gələcək rifahı naminə atılan addımlarının məsuliyyətini daşımalıdır.

Yeni və müasir dövrlərdə də vətəndaşlıq ideyası bir çox əsərlərin əsas məğzi olmuşdur. Buna nümunə olaraq XX əsrin məşhur filosofu və pedaqoqu sayılan Georq Kerşenşteynerin 1901-ci ildə Münhendə çap olunmuş "Gəncliyin vətəndaşlıq tərbiyəsi" əsərini xüsusən qeyd etmək lazımdır. Kerşenştayner bu əsərində vətəndaş təhsilinin əsas məqsədi gəncləri demokratik cəmiyyətdə fəal iştiraka hazırlamaq olduğu fikrini müdafiə edib. Kerşenştaynerin apardığı tədqiqatlar və yazdığı əsərlər Almaniyada və digər ölkələrdə vətəndaşlıq tərbiyəsinin, vətəndaşlıq mədəniyyətinin inkişafında çox təsirli olmuşdur. O hesab edirdi ki, vətəndaşlıq tərbiyəsi zamanı gənclərdə aşağıdakı keyfiyyətlərin inkişafına diqqət yetirilməlidir:

– *vətəndaşlıq borcu və məsuliyyət hissi;*
– *tənqidi düşüncə və əsaslandırılmış qərarlar qəbul etmək bacarığı;*
– *effektiv ünsiyyət qurmaq bacarığı;*
– *başqaları ilə əməkdaşlıq etmək bacarığı;*
– *münaqişələri sülh yolu ilə həll etmək bacarığı.*

Sovetlər dövrünün mövcud ədəbiyyatlarını təhlil etdikdə görürük ki, bu dövrdə "sovet vətəndaşı" anlayışı əsas mövzulardan olmuşdur. Məhz sovet dövründə vətəndaşlıq tərbiyəsinə, vətəndaşlıq mədəniyyəti probleminə dair bir çox pedaqoji əsərlər nəşr edilmişdir. Bu istiqamətdə V.A.Suxomlinskinin "Vətəndaşın doğulması"

əsərini xüsusən qeyd etmək lazımdır. Kitab Suxomlinskinin vətəndaş şüurunun inkişafına yönəldilmiş uşaqların təhsili ilə bağlı yazdığı esselərinin toplusudur. Suxomlinski iddia edirdi ki, vətəndaşın təhsili ailədə başlayan və məktəbdən yetkinliyə qədər davam edən ömürlük bir prosesdir. O hesab edirdi ki, təhsilin məqsədi cəmiyyətin fəal, məsuliyyətli və mərhəmətli üzvlərini hazırlamaq olmalıdır. Ümumiyyətlə, Sovet İttifaqı dövründə vətəndaşlıq tərbiyəsi və vətəndaşlıq mədəniyyəti probleminə həsr edilmiş bir çox pedaqoji əsərlərin adını qeyd etmək olar. Bu əsərlər sovet təhsil sisteminin məqsədlərini və prinsiplərini əks etdirir və ölkənin yeni nəslini vətəndaşlıq haqqında doğru fikirlər və dövlət ideologiyası ilə təmin etməyə çalışır. O dövrdə vətəndaşlıq məfhumunu əsas götürərək yazılan əsərlərə Anton Makarenkonun "Yaxşı məktəb" ("Педагогическая поэма") və Sergey Şatalovun "Pedaqogika müraciətləri"ni ("Педагогические очерки") nümunə göstərmək olar. A.Makarenko sovetlər dövrünün ən tanınmış pedaqoqlarından biridir. Onun "Yaxşı məktəb" adlı əsəri pedaqoji əsərlər tarixində önəmli bir yer tutur. Bu kitab Makarenkonun öz təcrübələrini və "Gorki Məktəbi" adlı uğurlu tərbiyə kompleksinin yaradılması və idarə edilməsi prosesini əks etdirir. Kitabda vətəndaşlıq tərbiyəsi, kollektivizm və ictimai inkişaf məsələlərinə dair dəyərli fikirlər öz əksini tapmışdır. "Pedaqogika müraciətləri" kitabı təcrübəli pedaqoq Sergey Şatalovun pedaqoji müraciətlərini toplayan yığma əsər hesab olunur. Onun kitabında vətəndaşlıq tərbiyəsi, vətəndaşlıq mədəniyyəti və məktəb tərbiyəsi ilə bağlı müxtəlif məsələlərin müzakirəsinə əsas yer verilmişdir. Qeyd olunan kitablar Sovet İttifaqı dövrünün tərbiyəçi və pedaqoqlarının vətəndaşlıq tərbiyəsi və vətəndaşlıq mədəniyyəti problemləri ilə bağlı fikirlərini və təcrübələrini təqdim edir. Bu əsərlər o dövrün təhsil sisteminin inkişafını və ideologiyasını anlamağa kömək edir və həmin məsələlərin təhlili baxımından əhəmiyyətli mənbələr sırasında dayanır [10, s.122].

Azərbaycanda vətəndaşlıq tərbiyəsi problemi üzrə ilk tədqiqatlar Əjdər Ağayevə məxsusdur. O, XX əsrin 70-ci illərindən etibarən ardıcıl olaraq tədqiqatlar aparmış, kitablar və məqalələr nəşr etdirmişdir. Həmçinin onun elmi rəhbərliyi ilə bir çox dissertasiya işləri hazırlanmışdır. Bu istiqamətdə A.Əliyev vətəndaşlıq ləyaqəti, R.Hüseynov vətəndaşlıq mədəniyyəti, N.Yusifova ailədə uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsinin düzgün aşılanması, S.Səfərova isə vətəndaş təhsilinin nəzəri və təcrübi məsələlərini dərindən araşdırmış və öz tədqiqatlarını dissertasiya işi kimi müdafiə etmişlər. N.Kazımov "Ali məktəb pedaqogikası" adlı kitabında qeyd edir: "Müstəqil Azərbaycan Respublikası üçün əsl vətəndaş hazırlamaq istəyən müəllim (tərbiyəçi) iş apardığı şəxsləri hərtərəfli öyrənməlidir, yəni onların yaşını səciyyələndirən, birini o birindən fərqləndirən fərdi xüsusiyyətləri, hətta cinsi xüsusiyyətləri aydın təsəvvür etməlidir".

N.Tusi öyrədirdi: "İlk növbədə uşağın təbiətinə, nəyə qabil olduğuna nəzər yetirmək, ağıl, fərasətinə fikir vermək, müşahidə nəticəsində hansı sənətə və elmə çox meyli olduğunu müəyyənləşdirmək, sonra isə həmin işlə də məşğul etdirmək lazımdır".

Ü.Hacıbəylinin vətəndaşlıq tərbiyəsi ilə bağlı kifayət qədər əsərləri var. Əsərlərinin birində belə deyir: "Övladı xeyir yolda tərbiyə etmək üçün tərbiyənin yolunu da bilmək lazımdır. Tərbiyənin yolunu ancaq elm sayəsində bilmək mümkündür".

Mövcud elmi-pedaqoji və metodiki ədəbiyyatlara nəzər saldıqda məlum olur ki, təhsilalanlarda vətəndaşlıq mədəniyyətinin formalaşdırılması istiqamətində bilavasitə olaraq, tədqiqatlar aparılmış və problemin həlli ilə əlaqədar mühüm yeniliklər əldə edilmişdir [4, s.280].

Qeyd olunan mövzuda ən önəmli əsərlərdən hesab olunan A.N.Abbasovun nəşr etdirmiş olduğu "Milli əxlaq və ailə etikası" dərsliyidir. Dərslikdə əsas mövzu ailə etikasına və milli əxlaq dəyərlərinə yönəlmiş olsa da, burada vətənpərvərlik, Vətən sevgisi, milli iftixar və qürur hissi mövzularına da yer verilmişdir. A.N.Abbasov dərslikdə xüsusilə vurğulayır ki, "Vətənpərvərlik hissi hər bir şəxsə xas olan amildir. Milli-mənəvi dəyərlərimizdən biri də Vətən sevgisidir ki, onun da bünövrəsini vətənpərvərlik amili təşkil edir". Məhz buradan belə nəticə çıxır ki, vətəndaşlıq mədəniyyətinin formalaşdırılması prosesi vətənpərvərlik amilindən irəli gəlir [1, s.11].

Aparılan tədqiqatın mövzusu ilə əlaqədar

olaraq S.D.Doğanın "Ədalətli dövlət başçılarının keyfiyyətləri nümunəsində təhsilalanlarda milli iftixar vətəndaşlıq hissinin formalaşdırılması" mövzusunda yazdığı pedaqogika üzrə fəlsəfə doktorluğu dissertasiyasını pedaqoji ədəbiyyatlar sırasında qeyd etmək olar. Dissertasiyada Azərbaycan və türk yazıçılarının yaradıcılıq işlərinə müraciət olunmuş və dövlət başçısı obrazları müqayisəli şəkildə nəzərdən keçirilmiş, vətəndaşlıq, milli iftixar, milli qürur hissi məsələlərinə toxunulmuşdur [7, s.163]. S.Doğanın yuxarıda bəhs olunan dissertasiya işi tədqiqatçı G.R.Məmmədovanın "Şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması və vətəndaşlıq mədəniyyətinin formalaşdırılması" adlı monoqrafiyasında xüsusən təhlilə cəlb edilmişdir.

Mövzu üzrə təhlili aparılan əsərlərdən biri də H.V.İlyasovun "Ailədə kiçik məktəbyaşlı uşaqlarla vətəndaşlıq tərbiyəsi üzrə aparılan işin imkanları və yolları" adlı dissertasiya işidir. Burada H.V.İlyasov kiçik məktəbyaşlı şagirdlərin vətəndaşlıq mədəniyyətinin düzgün formalaşdırılması məsələlərindən bəhs etmiş, onun səmərəli təşkili qaydalarını qeyd etmişdir. Bundan əlavə, tədqiqat işində qeyd olunmuşdur ki, "Kiçik məktəbyaşlı şagirdlərdə vətəndaşlıq mədəniyyətinin formalaşdırılmasının imkan və yolları o vaxt səmərəli olur ki, ailədə Vətən adı, dövlət adı hər zaman üstün hesab edilsin. Həmçinin müxtəlif tədbirlərdə şagirdlərə vətənpərvərlik və milli iftixar hissi mövzusunda rollar verilsin" [3, s.7].

Təhlilə cəlb olunan digər bir əsər "Tarixi şəxsiyyətlərə dair materialların öyrənilməsi şagirdlərdə vətəndaşlıq tərbiyəsinin vasitəsi kimi" adlı A.Q.Qasımovanın pedaqogika üzrə fəlsəfə doktorluğu dissertasiyasıdır. Müəllif tədqiqat işində öncə problemin əsas nəzəri və praktiki məsələlərini diqqət mərkəzinə gətirmiş, psixologiya, pedaqogika, fəlsəfə üzrə dərsliklərə, nəşrlərə, eyni zamanda elm sahələrinə əsaslanan lüğətlərə müraciət etmiş, "şəxsiyyət" anlayışının mahiyyətində fərdin heysiyyatının, milli mənsubiyyətinin, milli vətənpərvərliliyinin, milli qürurunun, milli mənliyinin dayandığını vurğulamışdır. Bununla yanaşı, A.Q.Qasımova tədqiqat işinə uyğun olaraq proqram və dərslikləri, eləcə də ümumtəhsil məktəblərindəki mövcud vəziyyəti öyrənmiş, təhlil edərək ümumiləşdirmişdir. Tədqiqatın əsas məqsədinə uyğun olaraq A.Q.Qasımova tarixi şəxsiyyətlərin keçdiyi yolları, onların tarixi xidmətlərini dərin təhlilə cəlb etmişdir. Müəllif dissertasiya işində qeyd edir: "Tarixdə elə şəxsiyyətlər olmuşdur ki, cəmiyyət onların pis əməllərini, öz vəzifələrini düzgün yerinə yetirməmələrini lənətlə yad etmiş və etməkdədir. Belə şəxsiyyətlər nəinki digər ölkələrə və xalqlara, həmçinin öz dövlətinə, xalqına, millətinə də bəlalar gətirmişdir. Məhz ona görə də biz belə şəxsiyyətləri nəzərdə tuturuq. Hər zaman müsbət əməlləri, xidmətləri, ideyaları ilə nümunə ola biləcək, xalqın üstün tutduğu şəxsiyyətləri əsas götürür və onların yol verdikləri müəyyən qüsurları xatırlatmaqla, şagirdlərimizə bunlardan nəticə çıxarmağı söyləyirik" [9, s.42].

Ümumiyyətlə, milli-əxlaqi mədəniyyət hissinin aşılanması, eyni zamanda vətəndaşlıq mədəniyyətinin formalaşdırılması məsələlərinə dair dəyərli fikirlərə P.B.Əliyevin, H.H.Əhmədovun "Gənclərin milli dəyərlər əsasında tərbiyəsi", Ə.Ə.Ağayevin "Vətəndaş olmağa borclusan", "Məktəblilərin vətəndaşlıq borcu tərbiyəsi" əsərlərində də rast gəlmək mümkündür. Eyni zamanda mövzuya dair M.İ.İlyasov və M.N.Nəzərov "Məktəb şagirdlərinin vətəndaşlıq tərbiyəsi" adlı kitabça nəşr etdirmiş, S.B.Bağırova isə "Azərbaycan Respublikasının dövlət atributları vasitəsilə şagirdlərin vətəndaşlıq mədəniyyətinin formalaşdırılması" mövzusunda tədqiqat işi yazmışdır.

Son dövrlər təhsilalanlarda vətəndaşlıq mədəniyyətinin formalaşdırılması və hərbi vətənpərvərliyin tərbiyə olunmasına dair bir çox tədqiqatlar aparılmış, elmi əsərlər yazılmışdır. Məhz həmin əsərlərin tədqiq etdiyimiz problemlə birbaşa bağlılığı vardır. Bu elmi əsərlərə nümunə olaraq F.B.Sadıqov və O.Q.Həsənlinin "Tərbiyəşünaslıq", Y.Ş.Kərimovun "Pedaqoji tədqiqat metodları", A.R.Əliyevin "Şagirdlərin vətəndaşlıq ləyaqəti və tərbiyəsi üzrə təşkili yolları" mövzularında namizədlik dissertasiyalarını, H.İ.İlyasovun "Ailədə kiçik məktəbyaşlı uşaqlarla vətəndaşlıq tərbiyəsi üzrə aparılan işin imkan və yolları" adlı dissertasiyasını, S.N.Qasımovanın "Kiçikyaşlı məktəblilərin vətənpər-

vərlik tərbiyəsində tarixi abidələrdən istifadə" adlı elmi işini və digər mövzularda yazılmış monoqrafiyaları, pedaqogika üzrə fəlsəfə və elmlər doktorluğu dissertasiyalarını qeyd etmək olar. Adları çəkilən tədqiqat işlərində birbaşa və dolayı yolla milli dövlətçiliyə, sədaqətlilik məsələlərinə, milli qürur, milli iftixar hissi fonunda şagirdlərdə vətəndaşlıq mədəniyyətinin formalaşdırılmasının əhəmiyyətinə və vacibliyinə xüsusi olaraq diqqət yetirilmişdir [5, s.19].

Məlumdur ki, uşaq ədəbiyyatı yarandığı və təşəkkül tapdığı gündən etibarən müxtəlif məzmunlu fikirləri, nəsihətləri, kəlamları özündə birləşdirərək hər zaman tərbiyəvi rolda olmuşdur. Tədqiqat işi mövzusunun uşaq ədəbiyyatında hansı səviyyədə əks olunmasına nəzər saldıqda görürük ki, burada mətanətlilik, səxavətlilik, qürurluluq, ana torpağı, yaşadığı ölkəni, onun əhalisini sevmək, vətəndaşlıq borcunu yerinə yetirmək, vətənin inkişafı, çiçəklənməsi üçün əlindən gələni etmək və s. kimi insani hislər ifadə olunur [2, s.110].

Təhsilalanlarda vətəndaşlıq mədəniyyətinin formalaşdırılmasında, tərbiyə edilməsində ibtidai sinif dərslikləri də mühüm rol oynayır. İbtidai sinif dərsliklərinə əsasən, yazılmış "İbtidai sinif dərsliklərindəki bədii nümunələrlə tərbiyə məsələləri" adlı əsərdə bunu açıq-aşkar görmək mümkündür. Belə ki, əsərdə tərbiyə məsələləri, vətənpərvərlik tərbiyəsi, ata-anaya hörmət əsas mövzunu təşkil edir [8, s.13]. Lakin qeyd etmək lazımdır ki, əsərdə milli qürur və vətəndaşlıq mədəniyyətindən bəhs olunsa da, bu məsələlərin mahiyyətinə və məzmununa dərin şəkildə müraciət edilməmişdir.

Məktəbyaşlı uşaqların vətəndaşlıq mədəniyyətinin formalaşdırılması məsələlərinin qoyuluşu elmi, metodiki və pedaqoji ədəbiyyatlarda müxtəlif məzmuna əsaslanmışdır. Belə ki, mövzuda yazılmış kitablarda, tədqiqat işləri və məqalələrdə bu sahədə çalışan təcrübəli tərbiyəçilər tərəfindən təklif olunmuş fəaliyyət planları və fərqli metodiki yanaşmalar mövcuddur:

• *Elmi ədəbiyyatlarda vətəndaşlıq mədəniyyəti formalaşdırılması probleminin qoyuluşu kiçik yaş dövründəki şagirdlərin sosial münasibətlərini, dövlət və cəmiyyətə dair əsas məlumatları və dəyərləri öyrənmək üçün mühüm bir məsələdir. Bu ədəbiyyatlar müxtəlif yaş dövründəki şagirdlər üçün uyğun metodikalar və təlimatlar təklif edir.*

• *Pedaqoji ədəbiyyatlarda vətəndaşlıq mədəniyyəti formalaşdırılmasının şagirdlərdə təhsil prosesinin bir hissəsi kimi təşkil edilməsi üçün təlimatlar yer alır. Bu ədəbiyyatlar müəllimlər və tərbiyəçilər üçün pedaqoji prinsiplər və təcrübələr təklif edir.*

• *Metodiki ədəbiyyatlarda vətəndaşlıq mədəniyyətinin formalaşdırılması üçün müxtəlif nümunələr, təlimatlar və mövzular yer alır. Bu ədəbiyyatlar təhsil müəssisələrində müəllimlərin və tərbiyəçilərin təhsil prosesində daha effektiv bir şəkildə vətəndaşlıq mədəniyyətinin tətbiqini təmin etmək üçün praktik bilik və təcrübələr təklif edir [4, s.252].*

**Nəticə.** Beləliklə, mövcud pedaqoji ədəbiyyatlar üzərində aparılan təhlillərdən aydın olur ki, ibtidai sinif şagirdlərində vətəndaşlıq mədəniyyətinin formalaşdırılması üzrə işin sistemini yaratmaq və nizamlamaq xüsusi tədqiqatın obyekti olmasa da, problemin müxtəlif istiqamətli məsələləri zaman etibarilə bu və ya digər tədqiqatçıların diqqət mərkəzində dayanmışdır. Amma mövzu ətrafında bizi maraqlandıran məsələlər məhdud çərçivədədir, geniş şəkildə təhlilə cəlb olunmadığı üçün onları daha ətraflı araşdırmağı əsas məqsəd olaraq müəyyənləşdirdik. Ümumilikdə isə elmi-pedaqoji və metodiki ədəbiyyatların təhlilindən aşağıdakı nəticələrə gəlmək olar:

1. Problem üzrə təhlilə cəlb olunan yeni dövrün elmi-pedaqoji ədəbiyyatının bir qismi sovet rejimi şəraitində yazıldığından onların əsas mövzusunu kommunist-sovet ideologiyasına xidmət və bu ruhda tərbiyələndirməyin nəzəriyyə və təcrübəsini ümumiləşdirmək təşkil edirdi. Belə yanaşma tərzi XX əsrin əvvəllərində nəşr olunmuş pedaqoji ədəbiyyatlarda da müəyyən qədər öz təsirini saxlamışdır.

2. Yetişməkdə olan nəslin milli ruhlu mənəvi tərbiyəsi, o cümlədən vətəndaşlıq tərbiyəsi pedaqoji problem kimi XX əsrin ikinci yarısından sonra daha geniş tədqiq olunmağa başlamışdır.

3. Problem məktəb dövrü çərçivəsində geniş

tədqiq olunmasa da, hələ ki, konkret şəkildə araşdırılıb yekun olaraq ümumiləşdirilməmişdir.

4. Problem araşdırılıb öyrənilərkən əsas obyekt olaraq orta məktəbin I-IV sinifləri götürülmüş, yəni ümumtəhsilin ibtidai pilləsi konkret olaraq tədqiqat obyekti seçilmişdir.

5. Bütün qeyd olunanlar ibtidai sinif şagirdlərində vətəndaşlıq mədəniyyətinin formalaşdırılması prosesi zamanı məktəbin fəaliyyətinin nəzəriyyə və təcrübəsini öyrənib ümumiləşdirməyin zəruriliyini dövrün çox vacib elmi-tədqiqat vəzifələri sırasına yüksəltmişdir.

## İstifadə edilmiş ədəbiyyat


1. Abbasov A.N. Milli əxlaq və ailə etikası (dərslik). Bakı, "Mütərcim" nəşriyyatı, 2016, 324 s.
2. Həsənov A.M. Azərbaycan uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə. Bakı, "İşıq" nəşriyyatı, 1997.
3. İlyasov H.V. Ailədə kiçik məktəbyaşlı uşaqlarla vətəndaşlıq tərbiyəsi üzrə aparılan işin imkan və yolları (ped.ü.fəl.dok. avtoref). Bakı, 2016.
4. Kərimov Y.Ş. Pedaqoji tədqiqat metodları. Bakı, "Azərnəşr" nəşriyyatı, 2009, 280 s.
5. Qasımova S.N. Kiçikyaşlı məktəblilərin vətənpərvərlik tərbiyəsində tarix və mədəniyyət abidələrindən istifadə (ped.elm.nam.avtoref). Bakı, 1999.
6. Sadıqov F.B., Həsənli O.Q. Tərbiyəşünaslıq. Bakı, "Elm və təhsil" nəriyyatı, 2015, 360 s.
7. Doğan S. Ədalətli dövlət başçılarının keyfiyyətləri nümunəsində şagirdlərdə milli iftixar hissinin formalaşdırılması (ədəbiyyat və tarix materialları əsasında), (ped.elm.nam.dis). Bakı, 1998.
8. Əliyeva R.M. İbtidai sinif dərsliklərindəki bədii nümunələrdə tərbiyə məsələləri. Bakı, "Adiloğlu" nəşriyyatı, 2003.
9. Qasımova A.Q. Tarixi şəxsiyyətlərə dair materialların öyrənilməsi şagirdlərdə vətəndaşlıq tərbiyəsinin vasitəsi kimi. Bakı, 2002.
10. Алябушева Г.В. Развитие познавательных интересов младших школьников в проектной деятельности (автореферат) Москва, 2011.
11. Садыкова Н.У. Формирование познавательных интересов учащихся в условиях совместной деятельности. Воронеж, 2004, 217 с.


**R.Piriyeva**

## Setting the problem of forming the citizenship culture of school-age children in scientific, pedagogical, methodical literature


**Abstract**

The article deals with the problem of forming the citizenship culture of school-aged children in the scientific, pedagogical and methodical literature, as well as the analysis of the topic in those literatures. The formation of citizenship culture among students is a widely studied issue in scientific, pedagogical and methodical literature. At the same time, the study and application of the culture of citizenship contributes to the formation of a society rich in existing terms. Looking at the existing scientific-pedagogical and methodological literature, it turns out that research has been carried out directly in the direction of forming a culture of citizenship in younger schoolchildren and significant innovations have been gained in connection with the solution of the problem.


**Р.Пириева**

## Постановка проблемы формирования гражданской культуры детей школьного возраста в научной, педагогической, методической литературе


**Аннотация**

В статье рассматривается проблема формирования гражданской культуры детей школьного возраста в научной, педагогической и методической литературе, а также анализ данной темы в этой литературе. Формирование гражданской культуры у студентов является широко изучаемой проблемой в научной, педагогической и методической литературе. В то же время изучение и применение культуры гражданственности способствует формированию общества, богатого современными взгляями. При рассмотрении имеющейся научно-педагогической и методической литературы становится ясно, что непосредственно в направлении формирования культуры гражданственности у младших школьников проведены исследования и получены важные новшества, связанные с решением проблемы.



**Rumiyyə Piriyeva,**
*Naxçıvan Dövlət Universitetinin dissertantı*
*e-mail: rumiyyepiriyeva@gmail.com*

# MƏQALƏLƏRİN TƏRTİBATI QAYDALARI

Məqalə redaksiyaya elektron formada təqdim olunmalı və bundan əvvəl başqa nəşrlərdə yayımlanmamalıdır.

Məqalə hazırlanarkən aşağıdakı tələblər nəzərə alınmalıdır:

1. Məqalə Azərbaycan, rus və ingilis dillərindən birində hazırlanmalıdır.

2. Məqalə Microsoft Word mətn redaktorunda A4 formatında (soldan, yuxarıda, aşağıdan və sağdan – 2 sm.), Times New Roman şrifti ilə 12 pt. ölçüdə, vahid sətirarası intervalla və mətndaxili yazıda abzas 1 sm. göstərməklə hazırlanmalı və həcmi minimum 5, maksimum 10 səhifə təşkil etməlidir.

3. Məqalənin mətninin aşağıdakı bölmələrdən ibarət olması tövsiyə olunur:

- giriş (məsələnin aktuallığı, problemin hazırkı vəziyyəti);
- tədqiqatın məqsədi, məsələnin qoyuluşu;
- tədqiqat hissəsi;
- dəlillər sistemi və elmi əsaslandırma;
- məsələnin həll üsulları aprobasiyası;
- alınan nəticələrin tətbiqi;
- nəticə;
- istifadə edilmiş ədəbiyyat.

4. Məqalə aşağıdakı ardıcıllıqla hazırlanmalıdır:

– UOT;
– məqalənin adı;
– müəllif haqqında qısa məlumat (elmi dərəcə, vəzifə, iş yeri, elektron poçt ünvanı);
– məqalənin xülasəsi və açar sözlər.

5. Məqalənin sonunda istifadə olunmuş ədəbiyyat siyahısında hər bir istinad olunan mənbənin adı tərcümə olunmadan, məqalədə istifadə olunma ardıcıllığına uyğun olaraq nömrələnir. Mənbənin biblioqrafiq təsviri Ali Attestasiya Komissiyasının dissertasiya işlərində mənbənin biblioqrafik təsvirinə aid irəli sürdüyü tələblərə uyğun olaraq göstərilməlidir.

6. Məqalədə aşağıdakı məlumatlar Azərbaycan, ingilis və rus dilində verilməlidir: məqalənin adı; müəllifin adı, soyadı; məqalənin xülasəsi və açar sözlər.

7. Müəssisədə yerinə yetirilən tədqiqatın nəticələrini açıqlayan məqalənin çap edilməsi üçün müvafiq yazılı razılıq olmalıdır.

8. Məqalədə göstərilən məlumat və faktlara görə müəllif məsuliyyət daşıyır.

9. Məqalələr redaksiyaya rəy alınaraq daxil olur və müsbət rəy almış məqalələr çapa tövsiyə olunur.

10. Redaksiya məqalənin əsas məzmununa xələl gətirməyən redaktə dəyişiklikləri və ixtisarları etmək hüququnu özündə saxlayır.

11. Məqalə çapa verilmədikdə redaksiya heyətinin qərarı barədə müəllifə məlumat verilir və əlyazma müəllifə qaytarılmır. Redaksiyanın məqaləni yenidən işləmək haqqında müraciəti, onun çapa veriləcəyini ehtiva etmir. Belə ki, ona əvvəl rəyçilər, sonra isə redaksiya heyəti yenidən baxır. Çap üçün məqbul sayılmayan məqalə müəllifinin məqalənin çapına yenidən baxılması xahişi ilə redaksiya heyətinə müraciət etmək hüququ var.

12. Məqalənin korrekturası müəllifə göndərilmir.

13. Məqalə sadalanan tələblərə cavab verməzsə, baxılmaq üçün qəbul edilmir və müəllifə qaytarılır. Əlyazmanın daxil olduğu vaxt redaksiyanın mətnin son variantının redaksiyaya daxil olduğu gündən sayılır.

## PREPARATION RULES OF ARTICLES

The paper shall be submitted to the editorial office in electronic form and shall not be published in other editions.

When preparing a paper, please meet the following requirements:

1. The paper shall be drawn up in Azerbaijani, Russian, or English.

2. The paper shall be drawn up in the Microsoft Word text editor in A4 format (with 2 cm left, top, bottom, and right indents), using Times New Roman 12 pt font, single line spacing, and 1 cm paragraph indents within the text, and consist of minimum 5 and maximum 10 pages.

3. The paper text is recommended to comprise the following sections:

• introduction (relevance and current state of the issue);
• the research objective, statement of the problem;
• research;
• proof system and scientific justification;
• approbation of methods to solve the problem;
• application of the obtained results;
• conclusion;
• references.

4. The paper shall be drawn up in the following order:

– UDC;
– the paper title;
– brief information on the author (academic degree, position, place of work, e-mail address);
– the paper abstract and keywords.

5. Each cited source in the references at the end of the paper shall be numbered in the order of its use in the paper and provided without translation. The bibliographic description of the source shall comply with the Higher Attestation Commission's requirements for the bibliographic description of sources in theses.

6. The paper shall provide the following information in Azerbaijani, English, and Russian: the paper title; the author's given name and surname; the paper abstract and keywords.

7. An appropriate written permission shall be obtained for the publication of a paper describing the results of research performed at an institution.

8. The author shall be responsible for the data and facts provided in the paper.

9. Papers shall be sent to the editorial office after receiving reviews, and those with positive reviews shall be recommended for publication.

10. The editors reserve the right to make editorial changes and abbreviations that do not violate the paper's main content.

11. If the paper is rejected, the author shall be informed of the editorial board's decision, and the paper shall not be returned to the author. The editors' request for revision shall not mean that the paper will be published. Thus, it will first be considered by reviewers and then the editors. The rejected paper's author shall be entitled to apply to the editorial board with a request to revise the paper publication issue.

12. The paper's proofreading shall not be sent to the author.

13. If the paper does not meet the aforementioned requirements, it shall not be accepted for consideration and shall be returned to the author. The paper receipt time shall be the date of receipt of the final text version by the editors.

## ПРАВИЛА СОСТАВЛЕНИЯ СТАТЕЙ

Статья должна быть представлена в редакцию в электронном виде и не должна быть опубликована в других изданиях.

При подготовке статьи необходимо учитывать следующие требования:

1. Статья должна быть составлена на азербайджанском, русском или английском языке.

2. Статья должна быть составлена в текстовом редакторе Microsoft Word в формате A4 (отступы слева, сверху, снизу и справа - по 2 см), с использованием шрифта Times New Roman 12 pt, с одинарным межстрочным интервалом и 1 см отступами абзаца в тексте, в объеме не менее 5 и не более 10 страниц.

3. Рекомендуется представить текст статьи в составе следующих разделов:

• введение (актуальность и текущее состояние проблемы);
• цель исследования, постановка задачи;
• исследовательская часть;
• система доказательств и научное обоснование;
• апробация методов решения задач;
• применение полученных результатов;
• заключение;
• использованная литература.

4. Статья должна быть составлена в следующем порядке:

– УДК;
– заголовок статьи;
– краткие сведения об авторе (ученая степень, должность, место работы, адрес электронной почты);
– аннотация статьи и ключевые слова.

5. Каждый цитируемый источник в библиографическом списке в конце статьи нумеруется в порядке его использования в статье и приводится без перевода. Библиографическое описание источника должно соответствовать требованиям ВАК к библиографическому описанию источников в диссертациях.

6. В статье должна быть приведена следующая информация на азербайджанском, английском и русском языках: заголовок статьи; имя и фамилия автора; аннотация статьи и ключевые слова.

7. На публикацию статьи, описывающей результаты исследования, выполненного в учреждении, должно быть получено соответствующее письменное разрешение.

8. Автор несет ответственность за приведенные в статье данные и факты.

9. Статьи направляются в редакцию после получения рецензий, и статьи, получившие положительные рецензии, рекомендуются к публикации.

10. Редакция оставляет за собой право вносить редакционные изменения и сокращения, не нарушающие основного содержания статьи.

11. В случае отказа в публикации автору сообщается о решении редколлегии, и статья автору не возвращается. Запрос редакции на доработку статьи не означает, что она будет опубликована. Так, ее сначала рассматривают рецензенты, а затем редакция. Автор статьи, не принятой к публикации, вправе обратиться в редакцию с просьбой о пересмотре вопроса о публикации статьи.

12. Корректура статьи автору не высылается.

13. Если статья не соответствует вышеперечисленным требованиям, она не принимается к рассмотрению и возвращается автору. Временем поступления статьи считается дата получения редакцией окончательного варианта текста.

## Yaradıcı heyət

**Baş redaktor müavini**
Əfsanə Zülfüqarova
**məsul katib**
Afaq Xanpaşayeva
**baş mühasib**
Kəmalə Bayramova

**şöbə redaktorları**
Fikrət Əhədov
Vüqar Səlimova
Sevinc Məmmədova
Günel Ələsgərova
Pərvanə İbrahimova

**müxbir-redaktor**
Rəna Rüstəmova
**korrektor**
Lalə Niyazqızı

---

Jurnal Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 23.11.2017-ci il tarixli, 416 nömrəli əmri ilə təsis edilmiş və dövlət qeydiyyatına alınmışdır. Qeydiyyat №2000314101

* * *

Jurnalın yaradıcı kollektivi Azərbaycan Jurnalistlər Birliyinin Həsən bəy Zərdabi adına Diplomuna layiq görülmüş və jurnal Azərbaycan Mətbuat Şurasının üz vüdür.

* * *

"Peşə təhsili və insan kapitalı" jurnalı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının TEXNİKA, İQTİSAD və PEDAQOGİKA elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında yer almışdır.

---

**Redaksiyanın ünvanı:** AZ 1033, Bakı şəhəri, Əlicabbar Orucəliyev 61;
Tel./Fax: 566-09-67; 566-09-87;
www.jurnal.vet.edu.az
e-mail: peshetehsili.jurnali@vet.edu.gov.az

### Rekvizitlər

| | | | |
|---|---|---|---|
| Müştəri: | "Peşə təhsili və insan kapitalı" jurnalı | VÖEN: | 1401555071 |
| VÖEN: | 2000314101 | M/hesab: | AZ41NABZ01360100000000003944 |
| H/h: | AZ36CTRE00000000000002167908 | SWIFT: | CTREAZ22 |
| Bank: | Dövlət Xəzinədarlıq Agentliyi | D3. Büdcə təsnifatının kodu: | 142595 |
| Kodu: | 210005 | D4. Büdcə səviyyəsinin kodu: | 03 |

---

Çapa imzalanmışdır: 26.04.2024. Kağız formatı: 60x84[1]/8.
Çap vərəqi: 13. Sifariş: 167.
**"Peşə təhsili və insan kapitalı"** jurnalı redaksiyasında yığılıb və "Max Ofset" MMC-nin mətbəəsində çap olunub.